VAQİF NƏSİR

SEÇİLMİŞ ƏSƏRLƏR

İKİ CİLDDƏ

I cild

BAKI – 2026

Redaktoru və
ön sözün müəllifi: Mahmud Allahmanlı
filologiya elmləri doktoru, professor

Vaqif Nəsir. Seçilmiş əsərlər: 2 cilddə, I cild. Bakı,
"Ləman nəşriyyat poliqrafiya" MMC, 2026, 421 səh.

Çağdaş Azərbaycan poeziyanın istedadlı nümayəndələrindən olan Vaqif Nəsirin ayrı-ayrı zaman kəsiklərində yazdığı poetik örnəkləri kitabda əksini tapır. "Qürbət nəğmələri", "Dünya çətin düzələ", "Anamın duaları", "Məhəbbəti qoruyun", "Sonetlər", "Şairlər vaxtsız qocalır" başlıqları altında verilən şeirlər sənətkarın yaradıcılıq yolunu, dünyagörüşünü, ictimai-siyasi proseslərə münasibətini, istək və arzularını, mənəvi zənginliyinin məzmununu aydınlaşdırmaq baxımından əsaslı qaynaqdır.

$N\frac{470206000-23}{2016}$

© Vaqif Nəsir – 2026

ƏXLAQ VƏ MƏNƏVİYYAT TOPLUSU

Mənim anlatdıqlarım quru bir hekayə deyildir, təfəkkür eylə, bu mənim və sənin bugünkü halımızdır.
Cəlaləddin Rumi

Çağdaş Azərbaycan poeziyasının tanınmış nümayəndələrindən olan Vaqif Nəsirin yaradıcılığı haqqında müxtəlif vaxtlarda fikir və mülahizələrimi söyləməyə çalışmışam. Hər dəfə də eyni qənaətdə olmuşam və düşünmüşəm ki, bu nümunələr boyasız, qatqısız yaşanan tariximizin canlı ensiklopediyasıdır. Bütünlükdə Azərbaycanımız maddi və mənəvi zənginlikləri ilə oradan boy göstərir. Təzəcə nəşrə hazırlanan "Seçilmiş əsərlər" kitabında da belədir. Hər bir misra, poetik örnək vətənə sevgidən yaranmış və onun son dövrdə, daha doğrusu, keçən əsrin səksəninci illərindən baş verənlərini zərgər dəqiqliyi ilə ipə-sapa düzməyə köklənmişdir. Bir növ yaxın zamanımıza güzgü tutmuşdur.

Son dövrlər dedik, ancaq məsələ yaxın zamanda olanlarla da məhdudlaşmır, burada Azərbaycanımızın çox-çox qədimlərdən üzü bəri gələn tarixinin, mədəniyyətinin, etnoqrafik yaddaşının milli dəyər səviyyəsində konseptləşməsi var. Və Vaqif Nəsir də bunlardan çıxış etməklə, həyata, dünyaya baxır, gəlinən yolu (yaşananları) nümunə göstərməklə bir ziyalı kimi öz mövqeyini bildirir. "Azərbaycan", "Vətən", "Qürbətdən məktub", "Oğluma", "Azadlıq nəğməsi", "Vətənə qayıdış", "İnsan və dünya", "Yarımçıq nağıl", "Şair ömrü", "O günləri yaşayıram", "Layla", "Səslər", "Sonradan bilmişəm", "Azəri qızı", "Biri gəlir, biri gedir", "Şeirim mənim", "Eşq olsun", "Çahargah oxu", "Dünya çətin düzələ", "Ümidi itirməmişəm" və s. poetik örnəklər yaradıcı dünyasının zənginlik faktı olmaqla ehtiva etdiyi məzmun baxımından ciddi bir təsəvvür sərgiləyir.

Xalqın yaşam tarixini, mədəniyyətini, ideallarını, istək və arzularını, mücadiləsini bütün tərəflərilə əks etdirmək baxımından poeziya əlçatmazlıqla nəzər-diqqəti cəlb edir. Klassiklər məhz ona görə də şeiri xalqın smürəbbisi adlandırmış və canlı tarix olaraq təhlilə gətirmişlər. Azərbaycan ədəbiyyatının şifahi və yazılı qolu ən qədim dövrlərdən günümüzə qədərki mənzərəsilə eyni təsəvvürü sərgiləyir, daha doğrusu gəlinən yola yoldaşlıq edir. Vaqif Nəsir poeziyası da eyni düşüncəyə, amala köklənmə duyğusallığı ilə ədəbi-mədəni axarın geneologiyasını müəyyənləşdirir. Hər bir şeir ədibin qəlbinin səsi olaraq yaxın zamanın olacaqlarını, toplumun yaşadıqlarını və ona olan münasibəti ortaya qoymaq, həm də tarixləşdirmək baxımından tipik bir təsəvvürlə diqqət önünə gəlir. "Ümid", "Ürəyimdədir", "Anamın duaları", "İzzət əmi", "Müəllim", "Masallı", "Borcluyam", "Kəndim", "Atama", "Necə ovunduram mən səni, ana", "Mənə ümid verin", "Əlli yaşım", "Odsuz ocaq", "Kəndimizə gedən yol" və s. əhatələdiyi məzmun qatı ilə gen yaddaşından gələnlərin əks-sədası olaraq şeirə, nəğməyə çevrilir.

Kənddəyəm bu gecə, ata evində
Soyuq, divarları yalayır yaman;
Sobaya salmaqçün odun əlində,
Anamı axtarır gözlərim bu an.

Sobaya salıram bir qucaq odun,
Alışa-alışa fəryad qoparır.
Dərdlə seyr edirəm onun fəryadın,
Xəyal haralara məni aparır.

V.Nəsirin poeziyası lirik mənin hiss və duyğularını, yaşadıqlarını baş verənlər və onun təəssüratı baxımından ciddi bir özünəməxsusluqla faktlaşır. "Xəzanı yaşayan yarpaq kimiyəm" deyən sənətkar bu düşüncəyə təsadüfi gəlmir, keçmişi, xatirələrlə dolu uşaqlıq illərini, çal-çağırlı sevinc dolu anlarını diqqət

önünə gətirirək fikirlərini yazıya köçürür. Bəşər qəlbinin səsi olaraq şərh edilən poeziya həm də milli ruhun, əxlaqın daşıyıcısı olma xüsusiyyətilə spesifikləşir. Vaqif Nəsir poeziyası bu baxımdan bütün kontekstlərdə əxlaq, mənəviyyat toplusu olaraq diqqət önünə gəlir. Orada müqəddəs vətənə vurğunluğun, insan sevgisinin, nümunə olmanın mahiyyəti yaradıcı düşüncəsi timsalında bir mükəmməlliyi faktlaşdırır. "Yalqız ev" şeirindən verdiyimiz nümunə fərdi duyğusallıq aspektində olanlarla məhdudlaşmır, burada daha geniş anlamında etnosun dəyərlər anlamında təsəvvürü, yurda bağlılığı bir örnək olaraq əlçatmazlıq sərgiləyir. "Kəndim haqqında nəğmə" də bunun tipik nümunəsi olaraq yüksək sənət intelleksiyası ilə yaradıcının iç dünyasını əks etdirir:

Varlığın Tanrının öz hikmətidir,
Sərvətin aqilin söz hikmətidir…
Qismətin torpağın bərəkətidir –

deyən şair dünyaya göz açdığı kəndin canlı obrazını yaradır və onun müqəddəsliyini Tanrının hikməti olma ilə əlaqələndirir, eyni zamanda digər aspektdə sərvətinin aqilin söz hikməti, qismətin torpağın bərəkəti timsalında əsaslı bir təsəvvürü xalq düşüncəsində olanlar miqyasında şeirə gətirir. Son olaraq özü timsalında düşüncəsində daşınanları şeirə gətirərək deyir:

Sevirəm mən səni,
Xoş arzu-diləkli Mollabam,
Sevirəm mən səni,
Halal duz-çörəkli Mollabam.

İyirminci yüzillik ədəbiyyatı çeşidli kontektlərdə yaradıcı axtarışlarına, ictimai-siyasi mühitin ortaya qoyduğu təsəvvürdən milli əxlaq normativlərinə qədər bir zənginliyi öz içinə

almaqla irəliləməyə köklənir. Vaqif Nəsir poeziyası dərin məzmun qatı, həyat reallıqlarını əks etdirmə imkanları ilə ayrıca bir ucalığı sərgiləyir. Poeziyanın təsəvvüründə bütün zamanlarda həyatda olduğundan gözəl düşüncəsi var. Çünki bədii düşüncə zaman və məkan tanımadan öz emosiyası, qavram tərzi və baş verənlərə mövqe sərgiləməsi ilə yaddaşlara izini qoyur. Kifayət qədər maraqlı, həm də yadda qalacaq bir ömür yolunun təsəvvürlərinə köklənən bu şeirlərin hər birinin arxasında hansısa bir hadisənin, epizodun, əhvalatın öz izini qoyması halı var. Bu baxımdan ədibin poeziyası çağdaş ədəbiyyatımızın ağır-ağır irəliləyişində ayrıca bir hadisədir. "Şairlər vaxtsız qocalır", "Yaşamaq haqqı", "Dəhşət", "Bu yerdə", "Fəryad", "Hara qaçım", "Monoloq", "Qoruya bilmədim", "Bu necə həyatdır" və s. şeirlər ədibin olanlara münasibətini, yaradıcı düşüncəsində olanların nələrlə səciyyələndiyini aydınlaşdırmaq baxımından tipikdir.

Seyr etdikcə sağı, solu
Odlanıram, alışıram.
Aramaqçün doğru yolu,
Öz-özümlə danışıram.

Soruşuram mən özümdən:
"Köküm harda, izim harda"
Dərd tökülür hər sözümdən,
Yaralanır suallar da.

Canlandırma üsullarının mündəricə zənginliyi, söz yaddaşının əhatələdiyi təsəvvürlər yaradıcı şəxsiyyətinin formulasını aydınlaşdırmaq baxımından mühümdür. Çünki zaman və məkan tanımadan yaradıcı şəxsiyyəti arxaik qatda qəlibləşən təsəvvürlərə, baş verənlərə münasibət baxımından ayrıca bir kutsallığı, nümunə olmanı müəyyənləşdirir. V.Nəsir poeziyası ilk öncə bir ziyalı kimi onun kimliyinin, şəxsiyyət

konsepsiyasının sxemlərini özündə əks etdirməklə nümunəyə çevrilir. Bunlar ailə institutu səviyyəsində olanlardan ictimai-siyasi münasibətlərə qədər bir genişliyi özündə əks etdirməklə müəyyənləşir.

Keçən əsrin səksəninci illərindən başlayan hərəkətlilik, eləcə də Azərbaycanın müstəqilliyi dövrünün ilk onilliyində yaşananlar, son dövrün mürəkkəb situasiyaları qarşımızda yaradıcı mövqeyinin ortaya qoyulmasını zərurətə çevirirdi. Bunlar düzdü müxtəlif aspektlərdə mövqe nümayişi, olanlara obyektiv yanaşmaları ortaya qoyma xüsusiyyətilə şərtlənir və cəmiyyəti aşağından yuxarıya qədər əhatələməkhalı ilə özünü nümayiş etdirir. Vaqif Nəsirin poeziyasının mövzu zənginliyində bu ayrıca xətdir. "Fəryad", "Dəhşət", "Bu necə həyatdır", "Şair sözü", "Tərcümeyi-halım", "Tale qardaşım", "Yazıqlar sənə dünya" və s. nümunələrdə sənətkarın həyata baxışı və olanlara yaradıcı mövqeyi aydınlıqla özünü göstərir. Xalq şairi H.Arif "bir xalqa atadır, anadır şair" deyirdi. V.Nəsirin poeziyası da bu düşüncəni əvvəldən axıra qədər əks etdirməyə köklənir.

Bir namərd əməli dondurdu səni,
Bir bədbəxtin halı yandırdı səni,
Bir nadanın sözü sındırdı səni
Mən səni qoruya bilmədim, ürək!

İnsanı insan tək sevdin, istədin,
Ülvi məhəbbətə, eşqə səslədin,
Özündə özgənin dərdin gizlədin,
Mən səni qoruya bilmədim, ürək!

Dünyanın dərd, qəmi sənə dərd oldu,
Həm zili, həm bəmi sənə dərd oldu,

Bir bütövün kəmi sənə dərd oldu
Mən səni qoruya bilmədim, ürək!

XIX əsrin görkəmli tənqidçisi V.Q.Belinski vurğulayırdı ki, "həyat haradadırsa poeziya üçün məzmun da oradadır. Yalnız məzmun hər bir şairin – həm dahi, həm də istedadlı şairin həqiqi meyarı ola bilər". V.Nəsirin poeziyası bütün aspektlərdə məzmun xətləri, əhatələdiyi təsəvvürlə milli kimliyin nümayişi olaraq təsəvvürdə nümunəyə çevrilir və baş verənlərin, yaşananların nəticəsi, həm də ona münasibət kimi əsaslı mövqe sərgiləyir. Həyatın, eləcə də ictimai-siyasi proseslərin dünya düzənində gedən mürəkkəbliklərinə şahidlik edən sənətkar məsələlərə sırf reallıq baxımından yanaşaraq "mən səni qoruya bilmədim" deyir.

V.Nəsir poeziyası əxlaq, mənəviyyat toplusudur. Müxtəlif illərdə yazılmış bu nümunələr müəllifin həyat hekayəsi olaraq uşaqlığının acılı-şirinli xatirələrini, doğma kəndi Mollaobanın qaynar yaşam tərzini, insanların səmimiyyət və xeyirxahlığını, ailə nizamının unikallığını, sosial münasibətlər səviyyəsində görüb müşahidə etdiklərini bir tarix, yaşam örnəyi olaraq əks etdirmək istəyinə köklənir. Bütün bunlar onun yaradıcı ruhunun ümumi ahənginə, ailədən, el-obadan gələnlərin bir yaşam fəlsəfəsi olaraq nizamına bağlanır. "Seçilmiş əsərlər" adı ilə geniş ictimaiyyətə təqdim olunan şeirlərdə illər bir-birinə qovuşur. Ayrı-ayrı onilliklərin təsəvvürü səviyyəsində diqqət önünə gələn bu nümunələr ədibin yaradıcılıq dinamikasını, həyata baxışının müxtəlif yaş dövrlərindəki təsəvvürünü izləmək baxımından diqqətçəkicidi.

Bu tənha ağacın
yarpaqlarından süzülən
damcıları
şeh sanıb naşı olma,
naşı.
Bu damcılar,
tənha ağac altında
axşam yanıb tökülən

nakam məhəbbətin
Göz yaşıdır,
göz yaşı...

Bədii düşüncə bütün hallarda yaradıcı imkanlarını ifadəyə köklənməklə özündə canlandırmaları, orijinal yanaşmaları zəruriləşdirir. V.Nəsir bu baxımdan daha çox imkanlılıqla görünür. Fizika-riyaziyyat elməri doktoru, professor kimi çoxşaxəli yanaşmaları ona əlavə çalarlar qatmağa şərait yaradır. Tənha bir ağac ətrafındakı müşahidələri və onun yarpaqlarından süzülən damcılar aspektində təsəvvürləri yüksək sənət duyumu ilə spesifikləşir. Məsələnin digər tərəfində nakam məhəbbətin acıları kontekstində yaşananlar dayanır. Və yaxud da digər bir özünəməxsusluq örnəyinə diqqət yetirək:

Süfrə açıb otaqda,
Məxməri çay içəndə:
İncəbel qıza bənzər
Onun şəffaf buxarı.

Burada isə bir başqa orijinallığın, tipiklik sərgiləyən özünəməxsus deyimin şahidi oluruq. Vətəndən uzaqda Böyük səhrada bir qəriblik yaşayan sənətkar Azərbaycan çayına olan ehtiyacı timsalında maraqlı canlandırmalarla ədəbiyyatımıza öz töhfəsini verir. Çayın buxarı ilə incəbel qızın görkəmi, gözəlliyi baxımından apardığı müqayisələr yaradıcı axtarışlarının nəticəsidir. Xalq şairi S.Vurğun məhz bu cür ecazkarlıq timsalında vurğulayırdı ki, "yalnız şeirin dili belə danışır, onda Tanrının əbədi olacaq hikməti vardır".


Vaqif Nəsir poeziyası məhəbbətdən yoğrulub və onun cövhərini də yurda, torpağa, insana, təbiətə olan sonsuz sevgi təşkil edir. Ayrı-ayrı şeirlərində müşahidə olunan vurğunluq həm də bir əxlaq, mənəviyyat nümunəsi olaraq tərbiyəvi

mahiyyətilə gənc nəsli formalaşdırmağa köklənir. “Məhəbbət haqqında ballada”, “Vağzalı səsi”, “Əzizim”, “Eşqinlə yandırasan”, “Məhəbbəti qoruyun”, “Mən deyiləmmi”, “Ay işığında” ,”Gəlin”, “Sən varsansa”, “Xəyallarım” və s. nümunələr sevgi dolu bir qəlbin çırpıntıları, həyat nəğmələridir. Bu nəğmələr onun yol yoldaşı, ürəyinin gecə-gündüz bilmədən səslənən rübabıdır.

Həyat bağçasında ətirli bir gül,
Sevda dəryasında sonadı, qadın.

Düşüncə özünəməxsusluğu və deyim tərzinin aydınlığı, canlandırma üsullarının mükəmməlliyi ilə diqqət önünə gələn poetik örnəklər xalqdan gələn zənginlikləri əhatələməklə bir mədəniyyət intelleksiyasını nümayiş etdirir. Çeşidli nəzəriyyələrdən, yaradıcı intelleksiyasından, müxtəlif səpkili psixologizmlərdən danışsaq da yenə bir nəticəyə gəlirik və bunların hamısının xalq dilindən, onun mənəvi zənginliyindən qaynaqlandığını deyirik. Vaqif Nəsir poeziyasının ümumi ruhunda, qaynağında da həmin zənginlikdən gələnlər dayanır.

Mahmud Allahmanlı,
filologiya elmləri doktoru,
professor



QÜRBƏT NƏĞMƏLƏRİ
(ƏLCƏZAİR DƏFTƏRİNDƏN)

AZƏRBAYCAN

Bu dünyada çox elləri,
Ölkələri dolaşmışam.
Düzlər keçib, çaylar üzüb
Dağlar, təpələr aşmışam.
Gəzə-gəzə, görə-görə
Açılmayan sirr açmışam:
Sən diyarlar arasında
Bir incisən, Azərbaycan!
Gözəllikdə yoxdu tayın,
Birincisən, Azərbaycan!

Asimana dayaq olan
Əzəmətli dağların var.
Qarlı qışı bahar edən,
Bar-bəhərli bağların var.
Nurlu-nurlu sabahların,
Gözəl-gözəl çağların var;
Hər qarışı canlı tarix,
Canlı dastan, Azərbaycan!
Yer üzündə özü boyda
Bir gülüstan, Azərbaycan!

Gözəlliklər dünyasında
Təbriz, Bakım nurlu çıraq,
Qədim Gəncəm, Lənkəranım
Qeyrətimə daim dayaq;
Qarabağım, Naxçıvanım
Bir aləmdir, büsata bax!
Görən səni heyran olur,
Tamaşasan, Azərbaycan!

Əbədilik səadətlə
Sən qoşasan, Azərbaycan!

Babalarım sinən üstə
Dostlar üçün hörmət əkib,
Hər bir oğlu, qızı üçün
Namus əkib, qeyrət əkib;
Torpağına əl uzadan
Xəbislərə nifrət əkib.
Sən Babəkin, Koroğlunun
Anasısan, Azərbaycan!
Əsrlərlə işıq saçıb,
Yanasısan, Azərbaycan!

"Ayrılarmı könül candan?"
Vurğun necə gözəl demiş.
Mənim ruhum, mənim qəlbim,
Mənim canım səndə imiş.
Qoy bilsinlər, babalarım
Candan əziz balaların
Niyə sənə qurban demiş:
Sən namusum, ləyaqətim,
Qeyrətimsən, Azərbaycan!
Tarixlərə zinət olan
Şöhrətimsən, Azərbaycan!

1983

VƏTƏN

Mənzil uzaq, ayaq işdə, baş işdə,
Bax ,beləcə karıxmışam, ay Vətən!
Balalarım dörd yanımı tutsa da,
Mən sənincün darıxmışam, ay Vətən!

Kaş olaydım sahilində Xəzərin,
Ilhamıma qanad mavi gözəlin.
Sularına zillənəydi nəzərim,
Sellərinçün darıxmışam, ay Vətən!

Ruhuma çevrilib muğam havası,
Qədir zənguləsi, Zeynəb avazı,
Aşıq Ədalətin sədəfli sazı-
Tellərinçün darıxmışam, ay Vətən!

Dostlar olsa dörd yanımda gör mənim
Heç olarmı bir bu qədər dərd-qəmim?...
Aqillərin kaş olaydı həmdəmim,
Dillərinçün darıxmışam, ay Vətən!

Oldu yenə ayrılığın əsiri,
Gəl qınama oğlun Vaqif Nəsiri;
Qürbət günlər ömrümüzün kəsiri...
Illərinçün darıxmışam, ay Vətən!

1983

AZƏRBAYCAN ÇAYI

Hər dəfə rast düşəndə
Böyük Səhra yayına,
Ehtiyacım çox olub
Azərbaycan çayına.
Hər damlası bir dərman,
Rahat eyləyir canı;
Damarlarda oynadır
Dinclik bilməyən qanı.
Bir qurtumu çatdırar
Doğma Xəzərə səni;
Gəzdirər Mil-Muğanı,

Candan əziz Vətəni...
İmtahan eyləmişəm,
Çox yerdə söyləmişəm-
Od yurdundan keçəndə
Süfrə açıb otaqda,
Məxməri çay içəndə:
İncəbel qıza bənzər
Onun şəffaf buxarı,
Rəqs eyləyə-eyləyə
Stəkandan yuxarı,
Üz çevirir birbaşa
Azərbaycana sarı...

1986

MƏKTUB

Demirəm bu dünyada
Gözüm ac, ya tox olub;
Amma mənim həyatdan
Gözlədiyim çox olub.

Düşmüşəm qarlı qışa,
Min əzaba dözmüşəm.
Nə taledən küsmüşəm,
Nə həyatdan bezmişəm.

Gözləmişəm yetişəm
Ömrün yetkin çağına;
Salım mən də yolumu
Tələbə ocağına.

Gözləmişəm baharı
Yola salıb qışı mən.
Qəlbimin arzuları
Oynayıbdır yerindən.

Gözləmişəm onu mən
Gün altında, yağışda.
Gəzməmişəm mərhəmət
Heç vaxt üzdə, baxışda.

Xatirimdə gəncliyin
Əvəzsiz toy-düyünü;
Ah, necə gözləmişəm
Ata olduğum günü.

Gecəni kor etməyə,
Səhəri gözləmişəm.
Uzaq-uzaq ellərə
Səfəri gözləmişəm.

İndi qərib diyarda
Həsrətlə gözləyirəm
Dörd bükülü varağı;
Adi varaq deyil o:
Mənim əziz anamın
Mürəkkəbli dodağı.

1984

MƏHƏBBƏT HAQQINDA BALLADA

Dəyişibdir rəngi yenə səmanın,
Böyük Səhradan sərt Siroka* əsir.
İstilər məkanı Əlcəzairi
Yenidən görməyə yəqin tələsir.

Təxirə salınmır bu görüş heç vaxt,
Fərqi yox qış olsun, ya payız, ya yay;
Gələndə əliboş gəlməyir aşiq,
Bizə də gətirir hərarətdən pay.

Səhralar gözəli Əlcəzairsə,
Özgəyə veribdir könlünü artıq.
Bilmək istəyirsiz kimdir o xoşbəxt:
Özü göy dənizdir, adı Aralıq.

Xəzərə bənzəyən bu mavi dəniz
Həzin laylasıyla oxşayır onu;
Buraya gəldiyim elə ilk gündən
Duymuşam mən onun vurulduğunu.

Qısqanclıqdan yanır, od tutur səhra,
Gözəlin üzünə bir niqab çəkir.
Xəbərsiz deyildir dalğalı dəniz;
Külək qoşunuyla hücuma keçir.

Gözəllik görməkçün yaranıb axı,
Burda nə örpəyin, niqabın yeri?!
Döyüş davam edir, yırtılır niqab,
Səhralar kralı çəkilir geri.

* Siroka – Böyük Səhradan (Saxaradan) əsən küləkdir.

Burda qasırğayla döyüşmək çətin,
Nakam eşq fəryadı ürək dağlayır.
Siroka çəkilir öz yuvasına,
Onun halınasa, göylər ağlayır.

1985

QARDAYA

Qardaya şəhəri Əlcəzairin cənubunda yerləşir. Buranın əhalisi texniki tərəqqiyə yaxın durmur;elektrik işığından başqa, müasir texnikadan demək olar ki, istifadə etmir.

Oymaq evlər, dar küçələr,
İşığa həsrət gecələr...
Tarix qoynunda gecələr,
Gecələri möhtac Aya,
Səhra gözəli Qardaya.

Dam görmədim, olsun uca,
Sapsarı qum, həyət-baca,
Mışıl-mışıl yatır qoca;
Bənzərin var tamaşaya,
Səhra gözəli, Qardaya.

Tərəqqidən qaçan insan,
Nə sadəlövh, nə mehriban.
Dincin alır burda zaman,
Hər tərəfi qumdan taya –
Səhra gözəli Qardaya...

1987

LALƏ

Tənha gördüm göy çəməndə səni mən,
Ağlım çaşdı, lap karıxdım, a lalə!
Sən ay doğma çöllərimin gözəli
Bu diyara necə çıxdın, a lalə?!

Gözəl hüsnün gözəlliyin timsalı,
Məhəbbətin aşiqlərin misalı;
Doğma eldə gözləməyib vüsalı
Mənimçünmü bərk darıxdın, a lalə?

Sən ey çiçəklərin həyalı qızı,
Səndədir şairin ən şirin sözü.
Sevinc tapammadım üzündə, düzü
Nədən mənə qəmli baxdın,a lalə?

Gəlişinlə çaldı qəlbimin sazı,
Öz rəngində gördüm çiçəkli yazı;
Var ol! Çatdı mənə Vətən havası,
Ürəyimə qan tək axdın, a lalə!

1984

ZAMAN VƏ QƏRİB

Deyirsən ki, Bumerdesdə*
Əlli yaşın olur tamam.
Düzü, sənin sözlərinə
Dostum, mən lap mat qalmışam.

* Bumerdes Əlcəzairdə sənaye şəhəridir.

Susuz yerdə nə boy atar,
Nə göyərər, bil ki, çayır;
Vətənsiz həyat dayanır,
Zamansa, yerində sayır.

1984

QÜRBƏTDƏN MƏKTUB

Siz göndərən bağlamanın xəbərini,
əzizlərim,
Bu gün aldıq.
Bircə an da dayanmadıq,
Üç oğlumla evimizdən poçta kimi
Qanad çaldıq.
Bağlamanın içi konfet-
Neçə rəngli,
adlı idi.
Keçirdik biz imtahandan hamısını;
Qərarımız yekdil oldu:
Olsalar da bu konfetlər
ləzzət tacı,
Bizə olan diqqətiniz
hamısından dadlı idi.

1985

PAYIZ

Asılıbdır göydən topa buludlar,
Payız yola salır bu günlər yayı.
Şıdırğı yağışdan alır ilhamı
Amansız küləyin yersiz harayı.

Həzin simfoniya bəstələyərək,
Gəlir ildırımlı göylərin səsi;
Yağış döyəcləyən pəncərəmizdən
Səslənir küləyin yeni bəstəsi.

Itirir özünü körpə ağaclar
Yuxudan nagahan duranlar kimi;
Çətirli, çətirsiz islanır adam,
Şəlalə altında duranlar kimi.

Noyabr özünü yetirdi, demək-
Şikəst olanların bilinmir sayı;
Beləcə başlanır Əlcəzairdə
Küləklə yağışın "həmrəylik" ayı.

1985

ÖZGƏ ALQIŞLARI

Oxuyurdun həzin-həzin,
Mən səni yox,
Onu dinləyirdim.
Sənmi idin
bu oxuyan?
Sən deyildin.
Həm baxışın,
Həm duruşun
Onun idi
Avazın da onun idi
səsin də.
Dinlədiyim bu mahnının
Musiqisi,
sözü onun.
"Qazandığın" alqışlar da
düzü, onun.

1985

OĞLUMA

Hər çay ilə axma, oğul!
Namərdlərə baxma, oğul!
Oda düşsən, qorxma, oğul!
Alış, kişi deyim sənə!

Xeyirxahlıq əkənlərə,
Zülm evini sökənlərə,
El qeyrəti çəkənlərə
Qarış, kişi deyim sənə!

Arxa bil öz elini sən,
Qurut düşmən selini sən!
Qoru ana dilini sən,
Çalış, kişi deyim sənə!

Dərd eləmə nahaq sözü,
Saf-çürük et, əyri-düzü;
"Qızıldırsa susmaq" özü,
Danış, kişi deyim sənə!

Haraylasa Vətən, həyat-
Gündüzünü gecənə qat!
Bir nərə çək, kişnəsin at,
Vuruş, kişi deyim sənə!

1985

AĞRIMA, ÜRƏK

Bahar qonaq gəlir yenə də bizə,
Ceyranlar tələsir çəmənə, düzə.
Bülbüllə duraraq indi üz-üzə,
Qızılgül qızarır ləçəkbələçək
Ağrıma, ağrıma, ağrıma, ürək!

Ömür niyə tutur üzünü gışa,
Mən qoca deyiləm baxanda yaşa;
Həyat gündən-günə yeni tamaşa,
Sinəmdə dil açır min arzu-dilək,
Ağrıma, ağrıma, ağrıma, ürək!

Şahdağa mənimlə qalxmısanmı heç?
Göy-gölə zirvədən baxmısanmı heç?
Yurdumun seyrinə çıxmısanmı heç?
Nə qədər arzu var, səbr eylə görək,
Ağrıma, ağrıma, ağrıma, ürək!

İstərəm yolumu Muğana salım,
Ceyranlı çöllərdə xəyala dalım;
İnan sözlərimə budur amalım:
Vətən torpağını öpəm mən gərək,
Ağrıma, ağrıma, ağrıma, ürək!

1985

BİZLƏDİR

Xarici ölkədə ezamiyyəti
başa vurmuş bir dost ailəsinə.

Düşünməyin unutmuşuq sizləri,
Əzizlərim, fikrim-zikrim sizlədir.
Hər sözümdə ürəyimdən bir parça,
Mənim işim əyriylə yox, düzlədir.

Adam var ki, məhəbbəti bir damla,
Məcnun kimi danışır lap adamla,
Adam var ki, işgəncə ver, lap danla-
Sevdiyini özgələrdən gizlədir.

Dost olmaram pis adamla nə işim,
Ondan mənə çox deyibdir keçmişim.
Dəyişərmi namərd yava vərdişin?
Yaxın dostu o, dostuna izlədir.

Dost bağında tər çiçəklər bitibdir,
Sevənlərin çoxu kama yetibdir.
Ürəyimiz sizinlə bir gedibdir,
Sizinkisə, indi yenə bizlədir.

1986

AZADLIQ NƏĞMƏSİ

Bir nəğmə oxuyur burda
küçə,bağça,bağ,
Bir nəğmə oxuyur
həm su, həm torpaq.
Bir nəğmə oxuyur
qoca, gənc, uşaq.

Bir nəğmə oxuyur
hər oymaq, ocaq.
Neçə qəmli ürəkdən
keçib bu nəğmə,
İnqilab selindən su
içib bu nəğmə.
Qan olub damarlara
axıb bu nəğmə,
şimşək, ildırım olub,
çaxıb bu nəğmə.

Bu nəğmə qarışıb
nakamların ahına.
Bu nəğmədir calayan
şəhidlərin ruhunu
qalanların ruhuna.
Bu nəğmə sarayları
titrədəcək kökündən.
Bu nəğmə pərvazlanır,
azadlıq həsrətiylə
alovlanıb yanan gündən.
İndi yaradıb-qurmağa
çağırır bu nəğmə,
Sülhün, asayişin
keşiyində durmağa
çağırır bu nəğmə.
Qoy dünya eşitsin onun səsini-
Əlcəzairin "Azadlıq nəğməsi"ni.

1986

ƏLCƏZAİR GÖZƏLİ

Qaşı, gözü qapqaradır
Əlcəzair gözəlinin;
Üstü-başı zərxaradır
Əlcəzair gözəlinin.

Cəh-cəhi bülbül kimidir,
Ətir saçan gül kimidir.
Xasiyyəti tül kimidir
Əlcəzair gözəlinin.

Gözləri göl tək dərindir,
Cəsarətin varsa, dindir;
Sözü bal kimi şirindir
Əlcəzair gözəlinin.

Eşqi dillər misalıdır,
Çadrasız, ya çadralıdır;
Özü afətdir, bəladır
Əlcəzair gözəlinin.

1985

ŞİRİN MƏĞLUBİYYƏT

Hansı idman
növü olsun-
Fərqi yoxdur,
Baş açmışam
yaxşı-yaman.
Sevməmişəm uduzmağı
heç bir zaman.
Vaxt da olub uduzaraq,

ağlamışam,
Gizlədərək ətrafımdan,
qəlbimdə yas saxlamışam.
Məğlubiyyət mənim üçün
elə bil ki, ölüm olub .
Keçirdiyim iztirablar
dəhşətli bir zülüm olub.
Möcüzədir,
bircə kərə uduzmağım
şəkərdən də şirin olub;
Xatirimdə saldığı iz
dərindən də dərin olub...
Bu oyunda tamaşaçı
ailəmiz-
sağım,solum.
Rəqibimsə, mənim ilkim,
böyük oğlum...

1985

"VAĞZALI" SƏSİ

Bülbül cəh-cəh vurdu,
Qızılgül açdı,
Günəş də nurunu
Hər yana saçdı.

Ah, necə xoşbəxtdir
Sevən ürəklər!
Dünya təzələndi,
Güldü diləklər.

Ah, necə şirindir
Gənclik nəğməsi!
Qulağıma çatdı
“Vağzalı” səsi,
Ruhumu oynatdı
“Vağzalı” səsi.

1983

QIZ

Bu sürətlə hansı əsrə gedirsən?
Belə getmə, qocalarsan, dayan, qız!
“Hər aşiqin dövranı var” deyiblər,
Keçər dövran, mürgüləmə, oyan, qız.

Gözəlliyin ilham verir çoxuna,
İstəmirəm sözüm sənə toxuna.
Buraxmasan sevdiyini yaxına,
Kim olacaq sonra sənə həyan, qız?

Biganəlik sevən kəsə ölümdür,
Oda düşsəm, bil səbəbi dilimdir;
Sevmək özü bir qəribə zülümdür,
Bu zülümdən olmayıbdır doyan, qız!

Vaqif Nəsir sənə desin düzünü,
Gəl gizlətmə sevdiyindən üzünü;
İtirərsən bir gün sən də özünü,
Olmayacaq onda səni sayan, qız!

1984

QÜRBƏTDƏ MƏCLİSİMİZ

Ağa müəllimə

Uzaq eldə dostum, sizdə
bu gün bayram
süfrəsinə yığışmışıq.
Əldə qədəh,
ürəkdə söz.
Zillənibdir uzaqlara,
yol çəkir göz.
Xəyal necə gətirməsin bu məclisə
Qarabağı, Mil düzünü,
El oğlunu, el qızını.
Oğrun-oğrun hey süzürəm
Həsrətlərə dustaq olan
Neçə doğma nəzəri mən;
Eyvanından seyr edirəm
Ala gözlü Xəzəri mən.
Ay eloğlu,
çağır gəlsin
Zeynəb xanım bu məclisə!
Səsi çatsın səsimizə.
Qədir gəlsin
şirin "Sona bülbülü"ynən,
həm bəmiynən,
həm ziliynən.
Vətən ruhu, Vətən sözü,
Vətən səsi...
Ürəklərdə məhəbbəti,
Süfrədəsə hər neməti.
Əziz dostlar dövrəsində
Sənli, mənli;
Nə xoşbəxtik qardaşım,
Məclisimiz Vətənlidir,
Vətənli!

1986

SUAL

Biriniz ağ çadrada,
ağ yaşmaqda,
Biriniz cins şalvarda,
qərbvari başmaqda.
Birinizin görünür bir cüt gözü,
Birinizin-bədəninin hər üzü.
Biriniz-xəcalət yaxasında,
Biriniz-sükan arxasında.
Biriniz ərəbcə danışır,
ağzını yaşmaqla örtür;
Biriniz fransızca dil-dil ötür.
Adınız bir, ünvanınız bir,
İkiniz də bu torpaqda
doğuldunuz,
İkiniz də bir "xəmir"dən
yoğruldunuz.

Məəttəl qalmışam
mən burda düzü,
Sizin hansınızsız
ərəb qızı?!

1985

AXŞAMLAR

Bülbül cəh-cəhinin aşiqiyəm mən,
Necə ələ alım tarı, axşamlar?
Şirin xəyallara həmdəm könlümü
Dondurur həsrətin qarı, axşamlar.

Sanki qırılıbdı qolum, qanadım,
Ünvanın itirib öz doğma adım.
Mənə həmdəm olan yarım, övladım
Yetişin dadıma barı, axşamlar!

Danışa bilmirəm, elə bil lalam,
Gərək ayrılıqdan mən qisas alam.
Təbiət rəngini dəyişir tamam,
Gözümə görünür sarı, axşamlar.

Yapışdın dünyadan sən ikiəlli,
Özünə qurmusan tələ əməlli;
Umma Vaqif Nəsir daha təsəlli,
Yoxdur təsəllinin karı, axşamlar!

1984

ƏZİZİM

Mən eşqinlə dərdi,qəmi
Ürəyimdən atmışam.
Mən eşqinlə gecələri
Gündüzlərə qatmışam.
Mən eşqinlə əlçatmayan
Zirvələrə çatmışam.
Sən tanıtdın yaxşını da,
Yamanı da, əzizim.
Sənsən çalan qəlbimdəki
Kamanı da, əzızım.

Çətin imiş, əzablıymış
Bu həyatın yolları.
Lap əzəldən bağlı imiş
Səadətin qolları.
Sən də, mən də düzlük adlı
Bir amalın qulları.
Kəsən oldun qılınc kimi
Bəzən, incə əzizim.
Mən nə deyim, olsun sənin
Ürəyincə, əzizim?...

Heç vaxt bizim baharımız
Qarlı qışsız gəlməyib;
Xəzan ruhlu payızımız,
Gur yağışsız gəlməyib.
Göydən bizə pay gələndə,
O da daşsız gəlməyib.
Zaman ötdü, ömür keçdi
Dözə-dözə əzizim.
Ürək yandı, işıq saçdı
Döndü közə, əzizim.

Çətin yolda addımladıq
Ən mehriban dost kimi.
Mən qorudum vüqarını,
Sən qorudun eşqimi.
Məhəbbətin qanadlıdır
Səmadakı quş kimi...
İsti çörək ətri gəlir
Nəfəsindən, əzizim.
Bülbül alır cəh-cəhini
Xoş səsindən, əzizim...

1983

BAHAR GƏLİR

Bahar gəlir, əzizim,
Çiçəklərin bayrami!
Bahar gəlir, əzizim,
Təbiətin ilhamı.

Gülün hər ləçəyindən
Şirin nəğmə süzülür;
Qanadlanıb söz özü,
Misralara düzülür.

Gör necə ətirlənib
Təbiətin nəfəsi?!
Bahar nəğməsi deyir
Axan çayların səsi.

Şimşəyin gözəlliyi
Göydə çaxmasındadır.
Çayların yaşaması
Şır-şır axmasındadır.

Bu günlər külək nədən
Sözümü tez-tez kəsir?
Sevgi dolu ürəklər
Qovuşmağa tələsir.

Bahar bağrına basır
Dərələri, düzləri;
Göylərin də sevincdən
Hey yaşarır gözləri.

Bahar gəlir,əzizim,
Çiçəklərin bayramı!
Bahar gəlir, əzizim,
Təbiətin ilhamı.

1984

DOSTUM

Vətən torpağının kaş sənin ilə,
Bir daha seyrinə çıxaydım, dostum.
Gəncə çölündəki qızıl lalədən
Birini sinəmə taxaydım, dostum.

Salaydım yolumu Muğandan, Mildən,
Mənə də pay düşür hər şirin dildən;
İntiqam alaydım dörd qürbət ildən,
Həsrəti odlara yaxaydım, dostum.

Mənim Xəzər kimi ala gözlüm var,
De, necə Aralıq ruhumu oxşar?
Burda mənə qışdır çiçəkli bahar,
Araza qarışıb, axaydım, dostum.

Demə evimizdir bu Yer kürəsi!
İnsana əzizdir hər bir zərrəsi.
Dinlə ürəyimdən gələn bu səsi:
Vətəndən cahana baxaydım, dostum.

Hicran gözlərimi bulaq eyləyib,
Qəlbimdə həsrətdən bir dağ eyləyib;
Demə Vaqif Nəsir lap ağ eyləyib,
Əzəldən ürəyi yuxaydım, dostum.

1986

İTKİ

Çox gərəkli bir şey itirdim bu gün,
Nə yaman olurmuş itki, qardaşım!
Axtara-axtara hirsimdən coşdum,
Bulanıq bir suya döndü yaddaşım.

Hər yeri axtardım, sən demə əbəs!
Düzgün axarını itirdi sözüm.
Şübhələr içində indi özümə
Təsəlli verməyə başladım özüm.

Təsəlli vaxtında tutdu əlimdən,
Qara fikirləri yetirdi sona.
"Çıxan qan bədəndə qalmayır", bəlkə
Başqası möhtacmış məndən çox ona.

Sonra da bir istək qəlbimi oydu:
Azan ünvanına tezcə çataydı;
Çox vacib deyilmiş mənimçün, fəqət
Kiminsə əlindən barı tutaydı.

1986

HƏSRƏT ÇƏKƏRSƏN

Bir gün xatırlarsan barlı günləri,
Həzin musiqili, tarlı günləri,
Məhəbbət nübarlı, yarlı günləri
Nə yaxşı, yamana həsrət çəkərsən.

Düzləri görmədin dağ olanda sən,
Əhdi-peymanına ağ olan da sən;
Fikir dəryasında boğulanda sən
Quruca samana həsrət çəkərsən.

Sənin tək özündən deyən çox olub,
Eşqə nankor çıxan özü yox olub.
Bir ovçu əlində uçan ox olub,
Əyilmiş kamana həsrət çəkərsən.

Gedər Vaqif Nəsir, qalarsan naçar,
Həsrət gözlərindən cüt bulaq açar;
Minbaşlı fikirlər üstünə qaçar,
Ötüşən hər ana həsrət çəkərsən.

1984

GƏLİRƏM

Sizinlə görüşə, ay əzizlərim,
Şirin söhbət ilə, sözlə gəlirəm!
Qət eyləyib həsrət qucan yolları,
Səmadan açılan izlə gəlirəm!

Səyyahı olmaqçün uca dağların,
Seyrinə dalmağa barlı bağların,
Suyundan içməyə buz bulaqların
Alışam ürəklə, közlə gəlirəm!

Ayrılıq girsə də gündə min dona,
Bu günlər yetirrəm onu mən sona;
Yolumu gözləyən, ay əziz ana,
Bir az da səbr eylə, gözlə, gəlirəm!

Mənə oğul deyən böyük Vətənim,
Təbiətə qanad çölüm-çəmənim;
Sənlə görüşə, ay elim mənim,
Açıq alın ilə, üzlə gəlirəm!

1987

VƏTƏNƏ QAYIDIŞ

Mən bu günü nə həsrərlə
gözləmişəm**?!**
Bu istəyi, bu arzunu neçə illər
ürəyimdə qorumuşam, saxlamışam.
Bu istəyə, bu arzuya
Yüz ətirli çiçəklərdən
əlvan çələng bağlamışam.
Bu arzunu qorumuşam
gözüm kimi.
Bu arzum da dəyişmədi
vədim kimi, sözüm kimi.
Nə xoşbəxtəm
mən sizinlə
Xəzərimi seyr edirəm,
Bu dünyanın ən vəfalı
gözəlini seyr edirəm.
Bakı anam, Bakı mənin
əzizimdi.
Azərbaycan torpağına məhəbbətim,
mənim sevgi dənizimdi.
Bu torpağa məhəbbətim
yuva salıb öz canımda.
Bu torpağa göz tikəni
boğacağam öz qanında.
Necə gözəl söyləyibdir
babalarım,
Səsinə səs verib elim,
obalarım!
“Əzizim Vətən yaxşı
Geyməyə kətan yaxşı.
Gəzməyə qərib ellər,
Ölməyə Vətən yaxşı”

Yox, yox! Təkcə ölmək üçün deyil
Vətən!
Xəzinətək bölmək üçün deyil
Vətən!
Sevmək üçün, sevmək üçün
yaranıbdı ana Vətən!
Qucmaq üçün, öpmək üçün yaranıbdı
Ana Vətən!
Ömür boyu borcumuz var
bu millətə, bu torpağa,
Tale bizi aparsa da
həm yaxına, həm uzağa.
Nə xoşbəxtəm əzizlərim,
sizinləyəm Vətən adlı
bu torpaqda.
Həyat gördüm bu gün səhər,
xəzan görmüş bir yarpaqda.
Göz göynədən tüstü olsa,
əgər ata ocağında
Aman Allah, necə şirin olur yuxu,
İsti ana qucağında.

1987



DÜNYA ÇƏTİN DÜZƏLƏ

İNSAN VƏ DÜNYA

Bu dünyaya çox insanlar
gəlib, gedib
Kimisinin izi qalıb,
Kimisinin tozu qalıb,
Kimisinin açıq alnı,
üzü qalıb;
Kimisinin bəd əməllə
özü qalıb.
Kimisinin hikmət dolu
sözü qalıb,
Kimisinin sözlərinin
duzu qalıb,
Kimisinin ya əyrisi,
düzü qalıb...
Gedənlərinin hamısının
bu dünyada
gözü qalıb...

2008

DÜNYA

Çaylar tərsə axan olub,
Şimşək yerdə çaxan olub;
Mərdlər gendən baxan olub,
Fikrin nədir sənin, dünya?!

Uca dağlar qara möhtac,
Bağlar var ki, bara möhtac;
Yazıq aşiq yara möhtac,
Tükənməyir kəmin, dünya!

İlan uçmaq həvəsində,
Göyü qucmaq həvəsində.
Bülbül susur qəfəsində,
Zildə gəzir bəmin, dünya!

Düzlük- yalan, yalan-düzlük,
Xəcalətdə qalan düzlük,
Mərdi gözdən salan düzlük...
Başdan aşır qəmin, dünya!

Ox atılır kaman qalır,
Yaxşı gedir, yaman qalır;
Sənlə ancaq zaman qalır,
Kimdir sənə əmin, dünya?!

1990

.

YARIMÇIQ NAĞIL

Biri vardı, biri yoxdu,
Bu dünyanın sevinci az,
Kədəri çox, qəmi çoxdu.
Üç nəfərdən ikisi ac,
Biri toxdu...
Dünyada bir şeytan vardı,
İnsanların başına o,
Neçə fitnə, iş açardı.
Zaman atın çapa-çapa,
Şeytan şeytan tapa-tapa
Nağıllaşdı qoca dünya,
Ağırlaşdı qoca dünya.
Birisiylə vədəsində,
Başqasıyla vaxtından tez
"Sağollaşdı" qoca dünya...

1987

İNSAN

Öz sirli dünyası vardır insanın,
Sona kimi oxunmamış kitabdır;
Çiynindədir ağır yükü dünyanın,
O sevincdi, o kədərdi, əzabdır.

Sevgisi sığmayır Yer kürəsinə,
Qəlbi Günəş kimi alovlu, odlu.
Zəkası güc verir onun səsinə
Yaşamaq həvəsi hər şeydən dadlı.

Qayğılı, qayğısız bir ömür yolu,
Qarşıda sədləri, neçə yasağı?!
Taleyi, həyatı sirr ilə dolu
Doğma ocağının özü qonağı.

Həyat eşqi onun əsas amalı,
Bu eşqin nə sonu, nə də əzəli.
Bəzən əsir edir dünyanın malı,
Qəsdinə dayanır işi, əməli.

Dünyaya gələndə sevinc gətirir,
Gedəndə qəm, kədər qoyaraq gedir;
Qazandığı nədir, nəyi itirir,
Sevinclə kədəri dost-qardaş edir.

Haqqdan yaranmışdır, Haqqdan güc alır
Həyatdan yaşayıb uzaqlaşır o.
İnsan qüdrətinə zaman əl çalır,
Addım-addım Haqqa yaxınlaşır o.

AYRILIQ

Yaqub Zurufçuya

“Ayrılıq”mahnısı oxuyan, qardaş,
Həsrət gözlərimdə yaşa dönübdür;
Ayrılıq qəlbimdə elə kök salıb,
Dərdli ürəyimdə daşa dönübdür.

Sən o tayda qaldın, mənsə bu tayda,
Həsrətin sonunu görən göz hanı?
Sən də haraydasan, mən də harayda,
Dərdə dərman olan şirin söz hanı?

Oxu, nə odludur qardaş, nəfəsin,
Səsində qoy yetsin sona ayrılıq;
Oxu, məlhəm olsun yarama səsin,
Bəlkə nəfəsində yana ayrılıq?!

Ayrılıq-ömrümə çəkilən bir sədd,
Ayrılıq həsrətin qalası imiş;
Ayrılıq-dünyada ən ağır bir dərd,
Ayrılıq dünyanın bəlası imiş.

Səni dinlədikcə düşünürəm, kaş
Dillərdən silinə ayrılıq sözü;
Qaynar bulaq kimi təmiz səsində
Əriyib yox ola ayrılıq özü...

1987

BU HƏMİN HƏYƏTDİR

Məhəmməd bəyə və Ünsiyyə xanıma

Bu həmin həyətdir, həmin künc-bucaq,
Bağçanın gülləri ətrini saçmır.
Mənə doğma olan bu ev, bu ocaq
Sanki qollarını mənimçün açmır.

Yay fəsli olsa da üşüyürəm mən,
İçimdə qəribə bir boşluq da var;
Ah nələr keçməyir indi qəlbimdən,
Haraya aparır acı duyğular?!

Elə sakitlikdir, lap ürək sıxan
Dəcəl nəvələr də atılıb, düşmür.
Bayaqdan od üstə rəqs edir qazan,
Fəqət, içindəki bişmir ki, bişmir.

Ülfətdir ölçüsü geniş, darlığın
Əvvəlki diqqətin çoxdur əvəzi.
Bu evdə, ocaqda sizin varlığın
Qəti qərarımdır, yoxdur əvəzi.

Valideyn yerində qızı, oğulu
Onlarla ünsiyyət həmişə xoşdur.
Bu ev övladlarla olsa da dolu
Sizsiz sanıram ki, o tamam boşdur...

Həsrət oturmasın tale daşında,
Sizi bu ocaqdan ayrı salmasın!
Yeriniz görünür hər qarışında,
Deyirəm bu ocaq sizsiz olmasın!
Bax belə duyğular, beləcə hisslər
Məni də qoynuna heç vaxt almasın!

2012

MƏZARLIQDA

Bu anam, bu bacım, bu da ki əmim,
Əbədi yatırlar bu məzarlıqda;
Burda doğmalarım, daha kimlərim
Vaxtı yola salır qara torpaqda.

Bunların bəzisi neçə il qabaq,
Az-az baş çəkərdi bu kəndə, yurda;
Ölümün gücünə, qüdrətinə bax
Hamını cəm edib, toplayıb burda.

Burda Günəş kimi öz ətrafına
Səxavət nurunu saçanlar da var;
Burda övladların öz ətrafına
Yığıb, dost-qohumdan qaçanlar da var.

Burda üz çevirən qohum, qardaşdan,
Burda yad əmələ qoşulan da var;
Burda çörəyini çıxaran daşdan,
Təknəsi həmişə boş olan da var.

İndi nə küsən var, nə inciyən var
Hərə məzarında sakit uyuyur.
Burda karə gəlməz nə dövlət, nə var
Burda nə qəm, nə də sevinc duyulur.

Ömrün qışı qovur güllü baharı,
Zaman öz işində, həyat daralır;
Məzarlıq boy atır kəndlərə sarı,
Burdakı "sakinlər" yaman çoxalır.

Bu elə məkandır, bu elə yerdir
Dirilərə çatan əməl səsidir;

Burda seçilən yox, hamısı birdir,
Ölümsə, sonluğun təntənəsidir.

Çalışıb toplaya bilməzdi düzü,
Heç qüvvə bir yerə bu insanları.
İlahi əmridir ölümün özü,
Bir məkana yığıb bu gün onları...

2012

DÜŞMƏNİ SEVİNDİRƏNLƏR

Hər gün mavi ekranda
Böyük şənlik, çal-çağır;
Eyni iştirakçılar
Rəqs eyləyir, əl çalır.
Həm kişili, qadınlı
Həm qocalı, cavanlı
Şənlik davam eyləyir
Efirdə bütöv, canlı.
Seyr etdikcə özgə hiss
Əsir edir insanı;
Bircə anda yox olur
Bütün olub, qalanı.
Düşünürsən dünyada,
Fəqət arsızlar çoxdur:
Görən bu insanların
Xocalı dəhşətindən
Heç bir xəbəri yoxdur?!
Qarabağda tökülən,
Qan, bizimki deyilmi?!
Əsirlikdə inləyən
Can, bizimki deyilml?!
Bəs kimindir yaralı

Azərbaycan torpağı?!
Ayaqlar altda qalan
Kişilərin papağı?!

Bunlar xəbərsizmidir
Qüssəli analardan,
Gəlinlik paltarında
Dul qalan sonalardan?!
Bizim Qarabağ boyda
Ağrımız, acımız var;
Bu dərdlə qol qadırıb,
Rəqs eləməkmi olar?
Öz xalqına, elinə
Nə fayda verər karsız?!
"Şuşanın dağları"na
Rəqs eləyən bir arsız?
Bu dərd özgə dərd ilə
Tərəziyə qoyulmaz;
Bu dərdi yaşamasaq
Torpaqlar azad olmaz!
Millət də millət olmaz!
Öz dərdini içindən
Keçirib, yaşamayan
Öz yükünü kişi tək
Çiynində daşımayan,
Bilməm necə adlanır;
Onu yəqin bilirəm:
Qonşudakı düşmənlər
Baxıb bu şoulara
Sevincdən qanadlanır...

2013

GÖRDÜM

Dost şərbəti içən yerdə,
Haqq, ədalət keçən yerdə,
Əyri-düzü seçən yerdə
Qızıl güllər bitən gördüm.

Tutarmı ana qarğışı?-
Ötüb keçən yaz yağışı
Dırnaqaltı dost-tanışı,
Bərk ayaqda itən gördüm.

Elmin yox heç bir əvəzi,
Zülmətdə nurdur nəfəsi.
Bəzən"ziyalı"bir kəsi
Cəhalətdə yatan gördüm.

Yad paltarı geyənləri,
Sinəsinə döyənləri,
Namusdan çox deyənləri
Namusunu satan gördüm.

1975

KİMDİ

Bilmək olmur bu dünyada
Alan kimdi, satan kimdi;
Görən filin qulağında
Şirin-şirin yatan kimdi?

Baxırsan qeylü-qalıma,
Acıyırsan bu halıma.
Söylə, mənim halalıma
Haramını qatan kimdi?!

Şər xeyiri hədələyir,
Yaman günlər vəd eləyir.
Göydən yerə od ələyir,
Yerdə tonqal çatan kimdi?

Fələyin xəncər əlində,
Meydan sular at belində;
Dünya boyda qəm gölündə
Üzən kimdi, batan kimdi?

Qeyrətini yala satan,
Namusunu mala satan,
Torpağını pula satan
Anan kimdi, atan kimdi?...

1992

HARAY SALIN

Belə getsə,
Yalan ayaq tutacaqdır,
Dost dostunu satacaqdır;
Bu dünyanın mömünləri
Çox günaha batacaqdır.

Belə getsə,
Böyük dönüb çağa olar,
Yadlar bizə "qağa"olar.
Aqillərin məclisində
Nadan gəlib ağa olar.
Belə getsə,
Hiylə, kələk ağ olacaq,
Dərdlərimiz dağ olacaq;

Tülkülərin kefləri kök,
Damağları çağ olacaq.

Belə getsə,
Xeyir şərlə barışacaq,
Pis əməllər yarışacaq;
Dözməyəcək ürək buna,
Öz-özünə alışacaq.

Belə getsə,
Əməlimiz küy olacaq,
Çoxları ütüy olacaq;
Kim nə istər çalır, çalsın
Eşidilən züy olacaq.

Belə getsə,
Əyri düzü əyəcəkdir,
Çaqqal şiri döyəcəkdir.
Bizdən sonra bu dünyaya
Gələn bizi söyəcəkdir.

Belə getsə,
İşlərimiz fənadır, bil!
Sağ da zibil, sol da zibil.
Nə qədər ki, gec deyildir
Haray salın, çalın təbil…

1991

METRODA

Metroda gedirəm,
vagonlar dolu,
Qət etmək istərəm
bir anda yolu.
Növbəti duracaq,
dayanır qatar,
Boşalıb, yenidən
dolur vaqonlar.
Körpəsiylə durub
bir cavan ana,
Oturanlar gərək
yer versin ona.

Gözlərini dikib
hamı aşağı,
Sanki görməyirlər
körpə uşağı.
Bir cavan oğlansa,
baxıb uşağa,
Gah sola çevrilir,
gah da ki, sağa.
Nədənsə keçirir
həyəcan, tələş
Üzündə baxışlar,
qalıbdır çaş-baş.
Mənsə düşünürəm:
ay cavan oğlan,
Qadının yerində
doğmaca anan
Körpəli olsaydı...
Pərişanam mən,
Necə də kasadsan

sən mərifətdən.
Məzəmmət edirəm
onu qəlbimdə,
Hirsimdən dinmirəm
(nöqsandır məndə).
Düşünürəm, bizim
ata-babalar
Bizlərə mərifət
dərsini keçib
Düşünürəm, görən
bəs bələləri
Kimin bulağından
axı su içib?
Bəs körpə yolunda,
ana yolunda
Oğullar canını
etməyib fəda?
Yoxsa unutmuşuq
özümüzü biz,
Bəs niyə onları
salmırıq yada?
Başını aşağı
salaraq oğlan
Çəkinə, çəkinə
ayağa durur.
Onun yerindəsə,
dediyim haman
Körpə uşağıyla
qadın oturur.
Demə hirslənməyim
əbəsmiş, əbəs,
İndi rahatlıqla
alıram nəfəs.
Son dayanacaqdır,

dayanır qatar,
Vaqonlardan düşür
bir-bir adamlar.
Gözlərim nə görür,
aman, ay aman!
Sanki ürəyimdən
vurdular, inan.
Niyə qınamışam
oğlanı axı?
Demə protezmiş,
onun ayağı...

1978

NARAZILAR

Var-dövlətin azlığından,
Canının nasazlığından,
Hətta başın dazlığından
Narazılar çox görmüşəm.

Peşəsindən, öz işindən,
Özgənin hər vərdişindən,
Bu dövranın gərdişindən
Narazılar çox görmüşəm.

Həm övladdan, həm arvaddan,
Həm şagirddən, həm ustaddan,
Həm dünyadan, həm həyatdan
Narazılar çox görmüşəm.

Narazılar addımbaşı
Aramızda yaman çoxdur;
Öz ağlının azlığından
Gileylənən, heyif, yoxdur...

1980

NƏYƏ GƏRƏK

Bağlar barsız,
Zirvə garsız,
Könul yarsız
Nəyə gərək?

Çaylar selsiz,
Durna telsiz,
İgid elsiz
Nəyə gərək?

İllər yazsız,
Məclis sazsız,
Gözəl nazsız
Nəyə gərək?

Meydan qoçsuz,
Ocaq odsuz,
İnsan dostsuz
Nəyə gərək?

1972

MƏN ELƏ BİLİRDİM

Mən elə bilirdim, gün dəyişəndə
Hər şey dəyişəcək yaxşıya doğru.
Nə qatil olacaq, nə çalıb-çapan
Nə talan olacaq, nə də ki oğru.

Mən elə bilirdim, gün dəyişəndə
Özgə duyulacaq güllərin ətri,
Ayrı bir aləmdən söhbət açacaq,
Şerimin misrası, yazımın sətri.

Mən elə bilirdim, gün dəyişəndə
Sona yetişəcək dava, dalaşlar,
Dünyanın işini yoluna qoyar
Ağıllı insanlar, ağıllı başlar.

Mən elə bilirdim, gün dəyişəndə
Bir daha ucalmaz ana naləsi;
Ürəklər dağlamaz, qəlbləri qırmaz
Körpə hıçqırtısı, top-tüfəng səsi.

Mən elə bilirdim, gün dəyişəndə
Zaman əməlindən çaş-baş qalacaq;
Bəşər övladları bir yumruq kimi
Bir-birinə arxa, kömək olacaq.

Bax neçə illərdir gələn sabahı,
Xəyalıma belə mən gətirmişəm.
Sabahdan umduğum bu gözləntilər-
Hələ də ümidi itirməmişəm...

2017

SUAL

Şəkər bədəndə gəzir,
Şəkər ürəyi əzir;
İnsan həyatdan bezir
Bu nə dərd, nə bəladır.

Ac yatıb, ac duranda,
Keyfiylə mırt vuranda
Halını soruşanda
Deyir: hər şey əladır.

Haqdan umuram kərəm,
Bircə şeyi bilmirəm;
Nədən bütün yan-yörəm
Yalana mübtəladır.

2016

O GECƏ

O gecə qoca, cavan
Öz qanına bələndi.
O gecə alovlardan
Ömrümə dərd ələndi.

O gecə ədalətə
İnamım güllələndi.
O gecə "dost-arxa"ma
Gümanım güllələndi.

Buludlandı dəhşətdən
O gecə göydə Ay da;
O gecə itkin düşdü
Haqq da, hesab da, say da.

O gecə tarix üçün
Cavabsız bir sualmış...
O gecəki şahidlər
Sanki əzəldən lalmış.

O gecənin söhbəti
Bütün aləmi gəzər.
Neçə-neçə şahidin
Biri də mavi Xəzər.

Ürəyində gizlədi
Sözünü şahid Xəzər.
Dözməyib xəyanətə,
Zəhərlədi nəhayət
Özünü şahid Xəzər.

1991

ŞƏHİDLƏR ŞƏRQİSİ

"Gedin deyin Xançobana"
Yurdum batıb nahaq qana;
Ağlar qalıb neçə ana.
Şəhidlərin yoxdu sanı,
"Apardı sellər Saran".

Şəhidlərin qanı aldı,
Hər damla qan, min sualdı.
Sanki bəşər kardı, laldı;
Dost-düşməni yaxşı tanı,
"Apardı sellər Saranı".

Şəhid oldu uşaq, qadın
Fitnəsiylə namərd yadın;
Sorağında soyun, adın
İtirdik neçə cavanı,
“Apardı sellər Saranı”,

Bu nə aydı, bu nə gündü?
Göydə ulduzlarım söndü;
Oğul toyu yasa döndü.
Yaman gəldi el talanı-
“Apardı sellər Saranı”.

Yanvar ayı qan içində,
İgidlər eydan içində.
Min, milyon insan içində
Yeridi düşmən yalanı…
“Apardı sellər Saranı”.

Analar qara bağladı,
Həcər Nigarla ağladı,
Babəkim də yas saxladı;
Səsləyin Qorqud babanı,
“Apardı sellər Saranı”.

1990

ŞAİR ÖMRÜ

Məstan Günərə

Daim fikirlisən, xəyallardasan,
Duydum, ixtiyarın özündə deyil.
Sən ayrı aləmin oğlusan, dostum,
Nə şöhrət, nə dövlət gözündə deyil.

Əridə-əridə ömrü şam kimi,

Daim mayak etdin saf həqiqəti.
Fikrin uzaqlara çəksə də səni,
Ürəyin hökmüdür sənincün qəti.

Səni anlamaqçün daha dərindən,
Sözləri qəlbimdə mən də bişirdim.
İtirdim dincliyi, rahatlığımı,
Şeir-sənət adlı aləmə girdim.

Gördüm bu aləmdə sözü özün yox,
Odlu ürəyinə dedizdirirsən.
Bir şeir yazmaqçün öz həyatını
Aylara, illərə, yedizdirirsən.

1979

SƏMA İLƏ SÖHBƏT

Sən, ən ey səma,
nədir qara yaylığını
çəkib başına,
Güc vermisən
gözlərinin yaşına?
Bu nədir,
gur-gur guruldayırsan?
Bu harayla
kimi axtarır,
kimi arayırsan?
Səndəmi nənim kimi
nisgilli, həsrətlısən?
Davada
üç oğlu şikəst olub,
dördü də itkin düşüb nənəmin.
Ağ günləri itən gündən
Övladları itkin

nənəm
başına sənin kimi
qara yayliq bağlayardı.
Gəlinlərdən, nəvələrdən
gizlin,
xəlvətə çəkilib,
itkinlərə həzin-həzin
lay-lay deyib
ağlayardı.
Son nəfəsinədək
qəriblikdən gələnləri,
gedənləri izlədi nənəm.
Son nəfəsinədək
Oğulların dönməsini
gözlədi nənəm.
Əlləri qoynunda
gözləri yollarda qaldı.
Gözləri yol çəkə-çəkə
beli büküldü,
özü qocaldı.
Kişi qeyrətli,
kişi cürətli nənəm
Nəvələr böyüdüb
boya-başa yetirdi.
Körpə baxışlara
nur çiləyərək
öz gözlərinin
nurunu itirdi.
Sən ey səma,
indi söylə,
nənəmin dərdindən
çoxmu böyükdü dərdin?
Yox, yox!
Sən Səriyyə nənəm kimi

dərdli olsaydın,
bəlkə də
dünyanı alt-üst edərdin.
Çəkmə o qara
yaylığını başına,
güc vermə gözlərinin
yaşına.
Hərənin öz dərdi,
öz qayğısı var.

Məlalın varsa,-
gizli çək,
bir az da gözlə
qürurunu.
Göz yaşlarını da
çox axıtma,
yoxsa, nənəm kimi
itirərsən
gözlərinin nurunu.

1973

EŞQİNLƏ YANDIRASAN

Bəxtiyar Vahabzadəyə

Həyatın düsturu-yanıb yaşamaq,
Günəş də yanmaqla yaşayır axı;
Göydən üstümüzə axıb tökülür
İstilik bulağı, işıq irmağı.

Alışan növ-növdür, yanan cürbəcür,
İnsan var səsində tökülür qanı.
Heç nəyə vermərəm bu eşqi, şair,
Canıma daşıyan bircə misranı.

Günəş alışsa da bizdən uzaqda,
Torpaqda hər şəfəq zərrəsi közdü.
Qanı qor eylədi bədənimizdə,
Gülləri yandırıb çəmənə düzdü.

Öyrəndim mən sənin nəğmələrindən:
Düşüb bir kənarda közərmək asan.
Gərək sən yananda yanmayanı da
Eşqinlə, odunla alışdırasan…

1978

O GÜNLƏRİ YAŞAYIRAM

Məzun dostlar üçün

Salam, mənim
od-alovlu
gözəl çağım!
Salam, mənim
sevda dolu
bir növrağım!
Salam, mənim
tər çiçəkli
ömür bağım!
Bir azca da
şıltaqlığım,
uşaqlığım.
Xoş görürəm
səni, dostum.
İyirmi il axı nədir?
Əlli il də ötsə belə
olarmı heç
o günləri,

o anları mən unudum?
Xoş görürəm,
ey yuxusuz gecələrim!
Xoş görürəm
bəzən küylü,
bəzən küysüz
gecələrim!
Xoş görürəm,
məhəbbətlə
bağlı günlər,
Ayrılıqdan əzab çəkib,
köksü, bağrı dağlı
günlər.
Bu görüşdə yada düşür
ömrümüzün ən fərəhli,
adlı vaxtı.
Şorbanın da,
kartofun da
dadlı vaxtı.
Yadındamı? O zaman biz
sevinci də, kədəri də
bir bölərdik;
Sənin, mənim
bilməz idik,
nəyimiz var,
bir bilərdik.
Kim görüşə gedirdisə,
paltarların yaxşısını
o geyərdi.
Bir başqası öz bəxtindən,
taleyindən
səhərədək
xatirələr söyləyərdi.
Yadındamı,

quşlar xəbər
verən kimi
müjdəsini ilk baharın,
Nə həsrətlə,
nə arzuyla
gözləyərdik məktubunu,
sovqatını
ataların, anaların?
Əziz dostum!
Görüşlər də çiçəklər tək
rəngarəngdir.
Ana-övlad görüşü var,
sevənlərin görüşü var,
eh, kimlərin görüşü var...

Sənինləsə,
bax bu görüş
arzuların zirvələrə yürüşüdür.
İntizarlı könüllərin
görüşüdür.
O günlərin
duyğusunu
varlığımda daşıyıram.
Bax sənինlə görüşdüyüm
bu günlərdə,
O günləri yaşayıram,
O günləri yaşayıram!

1978

NİSBİLİK

Dahi Eynşteyn deyir:
hər şey nisbidir;
Zaman, məkan,
nə bilim filan,filan...
Düşündükcə bu haqda
mən,
Keçir bəzi şeylər
gözüm önundən:
Nisbi dostlar,
bəzi məclislərdə uzun-uzadı
deyilən nisbi tostlar.
Birinin nisbi
həyat yoldaşı,
O birinin hətta
nisbi qardaşı.
Nisbidir
hər şeyə bel bağlamaq,
Nisbidir
gülmək, həm aglamaq.
Doğrudan da uşaq
doğulan tək gülsəydi,
Hər şey tərsinə olardı;
Böyüyəndə gülmək əvəzinə
ağlayardı.
Qərəz, nisbidir
hər şeyə salmaq meyil,
Yalnız nisbilik özü
nisbi deyil.

1977

BİZİM HƏYƏT UŞAQLARI

Bu il ali məktəbləri bitirmiş uşaqlarımıza

Dünən totuq uşaqlardı,
Ömürlərdə ilk bahardı;
Bu gün Qoç Koroğlu, Nigar,
Çiçək açan xoş arzular.
Coşurlar Kür, Araz kimi,
Dinirlər telli saz kimi.
Böyük zəfər çalıb, onlar!
Ali təhsil alıb, onlar!
Qoçaq, mehriban, həlimdir,
Mühəndisdir, müəllimdir
Bizim həyət uşaqları.

Hər birisi yeni yolda,
Bilik başda, qüvvət qolda;
Yeni nəfəs gərək bu gün,
Xalqımıza kömək bu gün.
Addımları irəlidir,
Hikmət, Sevda, Mir Əlidir.
Hamı onlara əmindir,
Gülşən, Səbinə, Emindir
Bizim həyət uşaqları.

Bilik həyata açardır,
Yaradana Tanrı yardır.
Yaşayın, yaradın, qurun,
Haqqın keşiyində durun!
Halala haram qatmayın,
Xeyiri şərə satmayın!
Yalan gətirməyin dilə,
Zəhmətlə verin əl-ələ!...

Çoxalacaq saylarımız,
Gözləyir saraylarımız,
Qarşıdadır toylarımız,
Bizim həyət uşaqları,
Bizim həyət uşaqları...

1995

DƏNİZ KƏNARINDA

Xəzər sahilində,
çimərlikdə
bu gün səninləyik.
Tez suya baş vurmağa
atırsan can.
Deyirəm:-ay dostum,
bir dayan!
Gəl əvvəl dənizin
söhbətlərini dinləyək,
gözəlliyə edək tamaşa.
Düşürsənmi məni başa?
Sən isə,
inadla cumursan
dənizə sarı.
Gedirsən get,
məni dinc goysana, barı!
Dənizə baxıram;
Xəyalların içində
eh, bilirsənmi haralara axıram?...
Baxıram ala gözlü Xəzərə,
Özünü ana ağuşuna
atmağa çalışan
uşaqlara bənzər
ləpələrə.

Sən isə
elə hey çağırırsan:
-Nə durub, dayanmısan,
Bir suya tullan.
(Deyirəm təbiətin
gözəlliyini duymayandan
aman, aman!)
Dəniz möcüzələr aləmidir;
Çimmək, yayın qızmarında
bu aləmdən alınan
ləzzətin son həddi.
Sən çimirsən, çim
yolunu ki, kəsmirəm,
Mən isə
ləzzətin son həddinə
çatmağa
tələsmirəm.

1978

LAYLA

Layla deyib
hər körpəyə öz anası,
Layla ilə
əzəllərdən öyrədibdir
körpəsinə söz anası.
Layla ilə
mışıl-mışıl biz yatmışıq,
Layla ilə ayaq açıb,
böyümüşük,
boy atmışıq.
Oğlum gəlib

bu dünyaya,
O da gərək
axı yatsın bir
laylaya.
Mən istərəm
körpəlikdən
övladımın ürəyinə
Elimizin, yurdumuzun
məhəbbəti axıb dolsun;
laylasında
Üzeyirim "Cəngi" çalsın,
Qoy laylasi Vurğunumun
"Azərbaycan" şeri olsun!

1974

***

Marsda,Venerada-deyir alimlər,
Asta addımlayıb, ötüşür zaman.
Bəlkə də lap min il artıq yaşayar
Əgər ki, köç etsə, oraya insan.

Yaşamaq şirindir, bu bir həqiqət!
Fəqət Yer üzünün oğludur insan;
Bircə an da artıq deyil gərəyim,
Əgər gen keçərsə, Yerdə həyatdan.

1979

MƏNİM

Mən sizdə tapıram sözümü indi,
Mən sizdə görürəm gözümü indi,
Mən sizə vermişəm özümü indi
Üç balaca totuq oğlanım mənim-
Eminim, Ceyhunum, Tərlanım mənim!

Sizə qolmu deyim, ya qanad deyim?
Sizə şöhrət deyim, fəxri ad deyim?
Sizə vüsal deyim, ya murad deyim?
Həyatda ən şirin üç anım mənim,
Eminim, Ceyhunum, Tərlanım mənim!

Elə təmiz olun saf sular kimi,
Namuslu, qeyrətli atalar kimi.
Qışınız qoy keçsin xoş bahar kimi!
Üç qoçum, igidim, aslanım mənim,
Eminim, Ceyhunum, Tərlanım mənim!

1980

NƏSƏ DEMƏLİYDİM

O gün ki, söz demək eşqinə düşdüm,
Gözümdə dünyanın rəngi dəyişdi.
Çıxdı gül-çiçəklər adiliyindən,
Hər şey başqalaşıb möcüzələşdi.

Yüz il öz yerində qalan daşa da
Qanad düzəldirəm o gündən bəri.
Adicə gözümlə görürəm indi
Həssas cihazlarla görünməzləri.

Gəzmək istəyirəm səbrim azalıb,
Görmək istəyirəm, yoxdu qərarım;
Var ol, narahatlıq duyğusu, var ol,
Özümdə deyildir öz ixtiyarım.

Nəsə deməliydim, şimşək oxudu,
Göy boyu çağlayıb sözümü kəsdi:
Kürsüdə özünü öydüyün yetər,
Quş uçdu… çay axdı… atlı tələsdi…

1978

OLMAZ

"Oğullar" var dildən iti,
Qılınc vuran qolu olmaz.
"Ağsaqqal" var əməliylə
El içində yolu olmaz.

Əsir-yesir olar o gül,
Gər tikanlı kolu olmaz.
Yazıqlar olsun ol kəsə,
Sağı olmaz, solu olmaz.

Gözündən kor olan quyu
Su tökməklə dolu olmaz.
Yalan-palan tarix ilə
Millət heç vaxt ulu olmaz.

1988

SƏMİMİYYƏT

Qonaq çağırdın məni.
Dedin: kəsəcəyəm
yekə bir toğlu.
Məclisdə olacaq
xalauşağı,
bibinəvəsi, əmioğlu.
Bəzəyəcək süfrəmizi
cürbəcür yeməklər,
içkilər, meyvələr.
Daha nələr, nələr...
İndi çox istidir otaqda,
Məclisi quracağam bağda.
Quşlar vuracaq cəh-cəh,
Aləm olacaq, bəh-bəh!
Filan alim də olacaq
orda,
Belə məclis de,
görünüb harda?
Qərəz, yığışacaq
ən yaxın qohumlar,
dostlar;
Deyiləcək gözəl-gözəl tostlar...
Gəlmədim mən o məclisə,
Bu çox acıq gəlsə də sizə.
Bilirdim məclisində
hər şey olacaq,
fəqət,
Çatışmayacaq ən vaciblərin
vacibi:
Səmimiyyət.

1982

SƏSLƏR

Səslər müxtəlifdir:
infrasəs,
adi səs,
ultrasəs.
Qoy bilsinlər,
onlara bələd olmayan
kəslər;
Tezliyilə fərqlənir
bu səslər.
Eşitdiyimiz
adi səsdir.
Onsuz həyat
mənasızdır, əbəsdir.
Onunla insanlar tapır
ünsiyyət,
Onsuz nə günə qalardı
bəşəriyyət?
Ultrasəs-
çox dərdlərə
dərmandır o;
Dənizlərdə itkin düşmüş
gəmiləri,
topa-topa balıqları
tapandır o.
Daxili aləmini
açıb göstərir metalın,
Xasiyyətindən
xəbər verir metalın.
Tibdə də malikdir o,
böyük gücə;
Hər xəstəliyi aşkar edir,
neçəsini müalicə.

Bütün elm meydanlarına
salıb meyil,
Ultrasəs ziyansız da
deyil.
İnfrasəsin də
həm xeyri var.
həm ziyanı.
Lazım gəlsə,
məhv eyləyər
insanı.
Qabaqcadan xəbər verir
qasırğadan, fırtınadan,
vulkan, zəlzələlərdən,
Eh nə bilim, daha nələrdən,
nələrdən...
Ən pisi odur ki,
korlayır insanın əhvalını,
İntihara gətirib
dəyişdirir halını.
Bu səslərdə gücə bax,
hünərə bax!
Bizsə onların hamısını
adi səs
sayırıq ancaq.
Bu cür ki, güc var səslərdə,
Deyirəm, nə ola alimlər
başqa bir səs də,
kəşf edələr;
Elə səs ki,
əbədi "yuxuya" gedənləri
oyada bilsin.
Ölüm sözünü
həyatdan silsin.

1979

SONRADAN BİLMİŞƏM

Taleyin ağrısı doldu canıma,
Məni dilə tutub gətirdi qışa.
Bir dilsiz körpəykən atasızlığın
Ağır yoxluğuyla verdim baş-başa.

Nə çörək qıt oldu sufrədə bir gün,
Nə də ki, azaldı saçımda sığal.
Nəvaziş içində yaralanıbsan,
Oğulsan, kişisən, indi gəl sağal!

Boldu səxavət də, boldu çörək də,
Böyüdü çox erkən qışa düşən kəs;
Di gəl, bir insanın taleyi məni
Uşaq tək ağladır istər-istəməz.

Demə çörək verən, sığal bəxş edən
Özü gün altında, tarlada acmış;
Sonradan bilmişəm, o günlər anam
Dəhnədə şax-şüvəl, canlı ağacmış...

1979

SÜRÜCÜ DOSTUMA

"Gəl gedək dincələk"-
sən mənə dedin,
Təzə "Jiquli"ndə
düzəldik yola.
Elə sürürdün ki,
bir an içində
Çox ağır qəzaya
düşdük az qala.
Axı dincəlməyə

gedirik, dostum
Bircə xahişim var:
elə sür ki, sən
Arzumu qəlbimdən
qoparmayasan.
Əbədi "dincəlmək"
istəmirəm mən,
Bax məni oraya
aparmayasan.

1975

TƏZAD

Zaman keçir...
Yaş çoxalır,
Qocaları
Düşünürəm:
Nə ola kaş
Vaxt ötüşə
Yavaş-yavaş.
Zaman keçir...
Boya-başa
Yetir oğlum.
Pıçıldayır
Dodaqlarım:
Evlən, gəlin
Gətir, oğlum!
Özgə istək
Ürəyimdə
Qaldırır baş:
Vaxt ötəydi
Sürətlə kaş...

1979

ÜMİD

Ümid suda boğulana
adi saman çöpüdür,
Ümid yalqız bir səyyaha
ən uzun bir körpüdür.
Ümid işığa həsrətli
kor qözlərə bir nurdur,
Ümid bəxti daşa dəymiş
insan üçün qürurdur.
Ümid neçə qanadsıza
uçmaq üçün qanaddır,
Ümid körpəsiz ev üçün
bu gün, sabah, övladdır.
Ümid qatı qaranlıqda
ən güclü bir işıqdır;
Ümid insan həyatına,
ömrünə yaraşıqdır.
Ümid sevən ürəklərin
sabahkı vüsalıdır,
Ümid Ay üzlü gözəlin
çöhrəsinin xalıdır.
Ümid ən çətin anlarda
insana bir sirdaşdır,
Ümid bəşər övladına
ata, ana, qardaşdır...
Ümid ilə yaşa, qardaş,
ümiddən ümid doğur,
Bil, ümidsiz insanları
həyatın özü boğur.
Bu təzadlı dünyamızda
ümid yaşadır bizi,
Gəlin ümiddən heç vaxt
üzməyək ümidimizi...

1974, 1995

VAR

Çox da demə yalançıdır bu dünya,
Sözlərində yalan varsa, düz də var.
Dərələri, təpələri yan-yana
Əyri-üyrü yollarında düz də var.

Həzər etmə boranından, qarından,
Bəzən vaxtsız kökdən düşən tarından;
Ömür adlı nemətindən, varından
Kiminə əlli var, kimə yüz də var.

Ürək var ki, bahar kimi nəğməli,
Ürək də var məlum deyil əməli.
Ürəklər var daim qəmli-qüssəli,
Mayasında atəş də var, köz də var.

Gözlər var ki, Günəş kimi yandırar,
Gözlər də var lap adamı dondurar.
Gözlər var ki, qanmayanı qandırar,
Qaranlığa işıq saçan göz də var.

Sözlər var ki, daşı qoyar daş üstə,
Sözlər var ki, tarixləşər daş üstə.
Sözlər də var, əvəzində baş istə,
Yalançıya qalxan olan söz də var.

İzlər var ki, iz olduğu bilinməz,
İzlər də var ürəklərdən silinməz.
İzlər var ki, hey baxsan da görünməz,
Qayalara həkk olunmuş iz də var.

Gər vursan da bir-birinə aləmi,
Tükənməzdir bu dünyanın dərd-qəmi,
Əritməkçün dağlar boyda ələmi
Nə yaxşı ki, kaman da var, saz da var.

1976

...ÜZDƏDİR

Adam var ki, heç iş gəlməz əlindən,
Yamanlığı baxışdadır, gözdədir;
Hay-küy salar, zəhər tökər dilindən,
Gördüyü iş, "çeynədiyi" sözdədir.

Oğru var ki, doğruluqdan dərs deyər,
Doğru çaşıb, bildiyini tərs deyər;
Naşı, eli arxasınca səsləyər,
Bacaran kəs ac-yalavac, düzdədir.

Ocaq qalıb həsrətində od-közün,
Deyirlər ki, səbr eyləyin, hey dözün!
Beşlik üçün çəpik çalan acgözün
İndi gözü əllidə yox, yüzdədir.

Tarix qara niqab çəkib üzünə,
Məhəl qoyan hanı haqqın sözünə...
Abır-həya sığınıbdır özünə,
Abırsızlıq əvvəlki tək üzdədir...

1991

VAY O MİLLƏTİN HALINA

Düz əkdiyi əyri bitsə,
Şər içində xeyir itsə,
Namus, qeyrət əldən getsə,
Vay o millətin halına!

Sərkərdəsi yatan ola,
Yad ətəkdən tutan ola,
Sərvətini satan ola,
Vay o millətin halına!

Parçalansa öz içindən,
Alovlanar köz içindən;
Sözü çıxsa söz içindən
Vay o millətin halına!

Çoxusu ac, azı toxsa,
Haqq-hesabı çəkən yoxsa;
Öz-özündən özü qorxsa,
Vay o millətin halına!

Ocağının odu sönsə,
Öz yurdunda yada dönsə,
Bayraqları bir də ensə,
Vay o millətin halına!

1991

VƏTƏN

Qayanı yonarlar, dağı çaparlar
Dağ,qaya kiçilər, Vətən kiçilməz.
Məmməd İsmayıl

Oxuyub şerində duydum mənanı:
Deyirsən kicilməz Vətən hec zaman;
Səksən altı olub, qalanı hanı?
Soyuq tərmı basdı, üşüdüm yaman.

Tarixi dinlədim, məni sarsıtdı
Özgə zurnasına hay verən səslər.
Vəzifə naminə Vətəni satdi,
Vətən torpağından pay verən kəslər.

Deyirsən: kicilməz, kicilməz Vətən
Bəs dəyişən adlar Vətən deyilmi?
Qazax, Gədəbəydən "hədiyyə" gedən
O kəndlər, o yurdlar Vətən deyilmi?
Borçalı, Zəngəzur Vətən deyilmi?!

Sanma ki, duymuram, şair, fikrini,
Min məna tapıram hər bir sözündə;
Fələstin ərəbi, söylə dost kimi
Nə üçün vuruşur bəs yer üzündə?

Təkcə torpaq deyil Vətən, qardaşım
Ana ləyaqəti, ata qeyrəti
Vətəndir kəsəyim, hər qara daşım
Vətəndir xalqımın dilə hörməti.

Nankor övladların fərasətindən,
Bəzən şərab kimi içilib Vətən;
Bizlər yan ötəndə el adətindən,
Bilirsən nə qədər kiçilib Vətən?

Tikana çevrilər torpaqda bitən
Torpağa ana tək qiymət olmasa.
Nəinki kiçilər, yox olar Vətən
Əğər övladında qeyrət olmasa!

1985

CƏNUBLU QARDAŞA

Uyma bər-bəzəkli şirin sözlərə,
Başını bizlərə baglama, qardaş.
Hay-haray eyləyib, şivən qoparıb
Qardaş, qardaş deyib, ağlama,qardaş.

Uzaqdan çox gözəl gürünür hər şey,
Şirin vədlər ağlı aparan bir mey,
Sən bu ayrılıqdan eyləmə giley,
Ürəyində nisgil saxlama, qardaş.

Olmaginən dərdə-qəmə mübtəla,
Açma gəl başına bir yeni bəla…
Biz heç özümüzlə getmirik yola
Qardaş, qardaş deyib, ağlama,qardaş.

ÇAĞIRIŞ

Məkrlidir düşmənlərin,
Alçaqlara güzəşt olmaz ;
Nə durmusan,qalx ayağa
Haray çəkir Məmmıəd Araz.
Bu gün dolu Günəş kimi
Qarabağda doğmaq gərək!
Düşməni öz yuvasında
Ilan kimi boğaq gərək!
Həm Cavanşir, şah Xətai
Bu günün yox, keçmişindir.
Umma kömək yad ellərdən,
Azadlığın öz işindir.
Tarixin hər vərəqində
Yazılmış uca adın var,
Sənin igid İbrahimin,
Sənin ölməz Poladın var.
Bu döyüşdə uca millət,
Arxa duraq özümüzə.
İnan Qərbdən, ya da Şərqdən
Kömək gəlməz heç vaxt bizə.
Qalx ayağa, Vətən oğlu
Sona verək ağlamağı,

Azad edək Qarabağı!
Xankəndində sancmalıyıq
Əllərdəki al bayrağı!
Xankəndində dalğalansın
Yurdun üçrəngli bayrağı!

2000

MİLLƏTİM

Köklənib segah üstə
Hey ağlayan millətim.
Özgə qəmin dərd edib
Yas saxlayan millətim.
Uyub şirin dillərə,
Əhd bağlayan millətim.
Öz içində yanaraq
Qəlb dağlayan millətim.

2000

BU MİLLƏTİN ÇOXMU GÖRƏN GÜNAHI?

Düşüb ölkə-ölkə çörək dalınca
Başını söykəyir daşdan balınca,
Deyirlər ac vurar özün qılınca,
Bilmək olmur kimdir onun pənahı,
Bu millətin çoxdur deyən günahı.

Heç saya almayır aqil sözünü,
Kor günə qoyubdur görən gözünü,
Elə hey axtarır tapmır özünü,
Unudub dinini, göydə Allahı,
Bu millətin çoxdur deyən günahı.

Onun hesabıına yadlar kefdədir,
Ona hər şey pullu, yada müftədir,
Bəzən də hay verər imansızlara,
Varlısı heç baxmaz imkansızlara.
Züy tutar, dəm tutar amansızlara,
Yoxdur peyğəmbəri, yoxdur Allahı,
Bu millətin çoxmu görən günahı?

Yadlardan dost tutar canını verər,
Həyatda ən şirin anını verər.
Verər şöhrətini, şanını verər,
Di gəl özünkünün olmaz pənahı,
Bu millətin çoxmu görən günahı?..

2001

DƏNİZ XÜSUSİ TƏYİNATLILARININ MARŞI

Biz dəniz cəngavəri,
İntizam şüarımız.
Xalqımıza, Vətənə
Qurbandı bu canımız.

Şücaət, inam, zəfər
Tanrıdan qismətimiz;
Düşməni məhv etməmiş
Geriyə dönmərik biz.

Biz Vətən oğulları
Düşməndən bac alarıq,
Məhv edib, sırasını
Pərən-pərən salarıq.

Bizə meydan oxuyan
Öz adını unudar,
Bizdə Həzi, Mehdinin
Xətainin gücü var.

Biz bütün döyüşlərdən
Daim qalib çıxarıq;
Qarşımızda dağ olsa,
O dağı da yıxarıq.

Qeyrət laylası deyib
Vətən bizə beşikdə;
Haqq, ədalət, sülh üçün
Dayanmışıq keşikdə.

2018

KÖRPƏ UŞAQ KİMİYƏM

Dünya yaman dəyişib,
Qəfil qonaq kimiyəm.
Erkən ana itirən
Körpə uşaq kimiyəm.

İçimdə bir hüzn var,
Həmdəmim azar-bezar...
Qaçaq düşüb arzular
Bağlı otaq kimiyəm.

Canım ürəksiz qalmış,
Dərd onu məndən almış,
Payızda sap-saralmış
Quru yarpaq kimiyəm...

2018

ÜZÜMÜZƏ GƏLƏN İLLƏR

Qəribədir, son zamanlar
Gecə gündüzlə yarışır,
Günəş gözünü açmamış
Axşam düşür, şər qarışır.

Çox sürətlə gəlir zaman,
Öz havasın çalıb gedir.
O amansız olub yaman,
Neçə canlar alıb gedir.

Yoxdur ona əsla inam,
Demək olar bu gün qəti;
Indi necə biz anlayaq,
Məkanla onun vəhdətin?

Zaman uçur quşdan iti,
Möcüzədir sürət, axın;
Üzümüzə gələn illər
Ötən gündən daha yaxın…

2018

RENTGEN ŞÜALARI

Rentgen süaları
ağrısız, filansız
daxil olub insan canına,
Baxmayıb onun
adına, sanına,
Bütün dərdlərini
çıxarır üzə.

Ölümün uzaq,
ya da
yaxın olduğunu
xəbər verir bizə.
Bir işə bax!
Gözlə görünməyən
bu süalar,
Gözə görünməz,
yeri bilinməz
xəstəlikləri edir aşkar.
Ancaq bu şüaların
ziyanı da var.
Deyirəm vurduğu ziyanlar
qurban olsun
onun fərasətinə.
Əgər ürəklərdəki hissləri
saf-çürük edə bilsə,
əhsən deyərəm
onun cəsarətinə.

1979

DƏHŞƏT

Birisi mağazaya müdir oldu.
Bir ildə
bir böyük mülk,
həm də "Volqa" maşını aldı.
Dedin: maşallah, fərasətlidir,
halal olsun ona,
çox cürətlidir.
Başqa birisi də müdir oldu
bir mağazaya
ondan da böyük.
On il işlədi,

nə maşın ala bildi,
nə də ki, mülk.
Dedin: fərasətsizdir, qorxaqdır,
kül olsun başına.
Atası da elə idi,
ot kökü üstə bitər.
Belə fərsizlə
salamlaşmaq da yetər.
Dinlədikcə səni,
düşündürür
bir şey məni:
Dərə dağ yerinə
düşəndə, dəhşət!
Qara ağ yerinə
düşəndə, dəhşət!

1982

DÜNYA BU GÜN

Ağıl, sağlam düşüncə
Sıxılıbdır bir küncə.
İnsan tamam dəyişib,
Yaman günlərə düşüb ;
Ürək sıxır əməli,
Bir avara, bir dəli
Aqilə verir ağıl,
Dağıl ay dünya, dağıl.

Yadlaşıb qohum, qardaş
Pulun ver, yerindi baş;
Itib insaf, mərhəmət
Ərşə çəkilib qeyrət…
Arvad kişiyə dönür

Kişi pişiyə dönür…
Həyat qorxulu nağıl,
Dağıl ay dünya, dağıl.

2010

HƏYATIN MƏNASI, DADI DƏYİŞİB

Qəribə zamandır, inanın mənə
Həyatın mənası, dadı dəyişib.
Sanki Yer fırlanır indi tərsinə,
Tarixin ünvanı, adı dəyişib.

Çox qarışıq düşüb indi fəsillər,
Nə yazı bilinir, nə də ki qışı
Bir göz qərpımında ötüşür illər,
Bilinmir ayların axırı, başı.

Yaman pozulubdu mizan-tərəzi
Haqsızlar haqlını durmadan udur,
Nə əhd peyman qalıb, nə kişi sözü
Sədaqətin yerin xəyanət tutur.

Haqq üçün bükülən yumruq açılıb,
Artıq gülə-gülə əl çalır indi,
Göyləri fəth edən müqəddəs insan,
Göylərdən enərək alçalır indi.

2015

DUA ET

Dəhşətli ağrılar gəzir canımda,
Dua et Allaha, dua et, oğlum!
Sən paksan, təmizsən Allah yanında,
Dua et Allaha ,dua et, oğlum!

Dua et, pis günün ömrü az olsun,
Evimiz Günəşin nuruyla dolsun.
Nə bağ viran qalsın, nə çiçək solsun,
Dua et Allaha, dua et, oğlum!

Dua et dərdlərə dözə bilim mən,
Bu qəm dəryasını üzə bilim mən,
Sözləri misraya düzə bilim mən,
Dua et Allaha, dua et, oğlum!

Ağrının əlindən amanım yoxdur,
Sinəmə sancılan sanki bir oxdur...
Dua et, Allahın kərəmi çoxdur,
Dua et Allaha, dua et, oğlum!

1991

AĞLAMA QƏRƏNFİLİM

İtirdik biz onları-
Azadlıq qurbanları.
Yerdə qalmaz qanları,
Ağlama, qərənfilim!

Yurddaşını itirən,
Sirdaşını itirən,
Qardaşını itirən...
Ağlama, qərənfilim!

Bu torpaq gül bitirir,
Mərd oğullar yetirir.
Kədər, qəmi gətirir
Ağlama, qərənfilim!

Ürəklərin işığı,
Toyların yaraşığı,
Şən nəğmələr aşığı-
Ağlama, qərənfilim

Bütün güllər ağlayır,
Şən bülbüllər ağlayır;
Aylar, illər ağlayır,
Ağlama, qərənfilim!

İncə ruhun təzə-tər,
Göz yaşında qəm bitər;
Bəsdir ağladın, yetər,
Ağlama, qərənfilim!

Dünya şərsiz deyildir,
Meydan nərsiz deyildir;
Millət ərsiz deyildir
Ağlama, qərənfilim!

Bu elin Babəki var,
Qorqudu, Beyrəki var;
Poladdan ürəyi var,
Ağlama, qərənfilim!

Qış gedib yay olacaq,
Qonşuya "pay"olacaq;
Onda bir toy olacaq
Ağlama, qərənfilim!...

1992

BİLƏRMİ

Şair Adil Babayevin əziz xatirəsinə

Çıxmasa seyrinə çölün, çəmənin,
Şair təbiətdən yaza bilərmi?
Şeir dünyasına qəlbən bağlanan
Özgəsinə quyu qaza bilərmi?

Eşq ilə böyüyən, eşqlə ucalan,
Eşq ilə gəncləşən, eşqlə qocalan,
Əsli tək vurulan, Kərəm tək yanan
Əhdi-peymanını poza bilərmi?

Öz alın tərilə kaşana quran,
Həqiqət axtaran, gerçəklik soran;

Elinin sözüylə oturub duran
Həyatda yolunu aza bilərmi?

Vətənsiz-təsəlli deyildir kömək,
Vətənsiz dil açmaz heç arzu, dilək;
Vətənin eşqiylə döyünən ürək
Vətən həsrətinə dözə bilərmi?

Tutsa da ağır dərd, kəsilməz nəfəs,
Çünki yaratmağa var sonsuz həvəs;
İnsan qayğısından pay alan bir kəs
Dünyadan əlini üzə bilərmi?...

1978

BİZİM DOSTLAR

Bir fransız
sordu məndən:
Necə olur sizdə dostlar?
Sizlərdə də çox olurmu
üzdə dostlar, sözdə dostlar?
Dedim: -Cənab,
bizdə dostluq
ayrı sayaq.
Dost dostuna
həm köməkdir,
həm də dayaq.
Üzdə, sözdə
dediklərin
dost deyildir.
O hansı bir məqsədəsə
bir meyildir.

Bizdə dostlar
dostlar üçün
gündüzünü gecəsinə
inan, qatar.
Dost yolunda
lazım gəlsə,
Lap özünü oda atar.
Bizdə dostlar
məclislərin yaraşığı,
Bizdə dostlar
ünsiyyətin gur işığı!
Bizdə dostlar
uca dağın
özündən də mətin,
güclü;
Bizdə dostlar aqillərin

ən hikmətli
sözündən də
mətin, güclü!
Bizdə dostluq
qranitdən möhkəm olur,
incədən də zərif,
incə,
Bizdə dostluq necə olur,
bu aydındır sizə, məncə.
Dost haqqında danışanda
söz tapmıram,
sözün düzü.
Dost haqqında deməliyəm
əsil sözü:
Lazım gəlsə,
dost yolunda zəhər içər
bizdə dostlar;
Təkcə namusundan başqa
Hər şeyindən desən keçər
bizdə dostlar!

1978

BU GÜN QƏMLIYƏM

Bu gün qəmliyəm,
qəmli,
Gözlərim ixtiyarsız, nəmli.
Düşünürsən, xəstəyəm,
Gərək həkimdən
kömək istəyəm?
Yox, yox...
Qaydasındadır bədənim, başım,

Narahat olma, qardaşım!
Qəmliyəmsə, deməli,
xilas etməz nə ana,
nə dost, nə həkim köməyi.
Qəmliyəmsə, deməli,
hardasa qırılıb
bir insan ürəyi.

1976

HEÇ VAXT

Qəlbini xəbislik, paxıllıq didən,
Güdüb öz xeyrini, hər şeyə gedən;
Ömür baxçasında qanqal tək bitən
Həyatda alçalar, ucalmaz heç vaxt.

Yardan vəfasızlıq qəlbə dağ olar,
Könül intizarda, göz yolda qalar.
Mərddən yara alsan, gorxma, sağalar,
Namərdin yarası sağalmaz heç vaxt.

Adam var sifəti daim qaradır,
Dost, qardaş qəlbində dərin yaradır.
O şəxs ki, həmişə qurub-yaradır,
Günəş altında da qaralmaz heç vaxt.

Eldən bəhrələnən, eldən güc alan,
Halal zəhmətiylə artan, ucalan,
Sevib usanmadan yaşdan bac alan
Gün-gündən gəncləşər, qocalmaz heç vaxt.

1976

YUXU

Bu gün fikirliyəm;
düşünürəm, düşünürəm...
Elə bil fikirlər
amansız ovçu,
mənsə, bir ovam.
İstərəm onları
başımdan qovam.
Axtarıram yuxumu
orda, burda
bütün otaqlarda.
Hara əkilib yuxu?
Ərşə çəkilib yuxu…
Qəribədir,
əhvalın saz vaxtında,
kefin taraz vaxtında
Qapıdan qovursan,
evinə
bacadan yol açır
yuxu.
Elə ki, əsiri olursan
bir firkin, qayğının,
Etibarsız dostlar kimi
adamdan qaçır
yuxu.

1978

ARZUM

Mən sevirəm
saf niyyətli,
xoş söhbətli,
həm namuslu,
həm qeyrətli

insanları.
Mən sevirəm
bu günümü,
sabahımı
quranları.
Mən sevirəm
bu həyatın
acısını,
şirinini,
ləzzətini,
ağrısını
duyanları.
Mən sevirəm
ürəkləri
ürəklərlə
vuranları.
Mən sevirəm
özgəsinin
sevincinə
sevinərək,
kədərinə
yananları.
Mən sevirəm
bu qəbildən olanları.
Cicəklənsin qoy onlarin
büllur, təmiz arzuları,
diləkləri.
Son mənzilim
qara torpaq olsa belə,
Deyirəm ki,
son ünvanım olsun mənim
Qədir bilən insanların
ÜRƏKLƏRİ.

1978

BİR ALİMƏ

“Aliməm”, söyləyib döşünə döydün,
Dedin ki, qızıldır hər kəlməm, sözüm
Elmi rəhbərini o ki, var söydün,
Elmdə var, -dedin, mənim öz izim.

“Aliməm”, söyləyib döşünə döyən
Adətən elmdən olur xəbərsiz.
Dənizdə qayığın izinə bənzər
Onun elm yolunda salacağı iz.

1981

DUA

Allah, mənim günahım çox,
Bəlalara düşmüşəm.
Səndən qeyri köməyim yox,
Yaman dara düşmüşəm.

Bu nə dərddir, yurdumda gah
Düşmən cövlan eyləyir?
Gah zəlzələ, gah vulkanlar,
Gah sellər qan eyləyir.

Yay getməmiş qapımızı
Şaxtalı bir qış döyür;
Yaman gündən qaçanları
Daş kimi yağış döyür.

Ulu Tanrım, sağalarmı
Mənim dərdim, illətim?!-
Öz yurdunda, obasında
Qaçqın düşüb millətim!

Nə qüssə var, nə kədər var
Gur səsində Vətənin?!
Şəhid qəbri bir yaradır
Sinəsində Vətənin.

Sanki bizim başımıza
Çirkin bayquş qonubdur,
Vətənimiz əldən gedir,
Qeyrətlərsə donubdur.

Günahlarım çoxdur, Allah
İmkan yoxdur yalana.
Günahlarım gətiribdir
Məni sənin bəlana.

Kimdir görən közü basan
Qan açılmış yarama?
Öz şeytanım özü qatdı
Halalımı harama.

Bəzən pula, var-dövlətə
Hər şeyi biz satmışıq.
Keyf kökəlib, Sən deyəni
Bir kənara atmışıq.

Qarşımda gör neçə sədd var,
Heç birini keçən yox.
Qızıl kimi torpağımda
Əkiləni biçən yox.

Tanrım, bizim aramızda
Nə çox alıb, satan var?!
Ayılmayıb bu günədək
Yüz illərlə yatan var.

Bədə düşdük, yapışmadıq
Bir-birinin qolundan.
Biz nə qədər kənar çıxdıq
Allah, sənin yolundan.

Millətimin halı yaman
Günü yaman anbaan;
Xilaskarı sən olarsan
Onun bir tək Yaradan!

Sən bağışla, Sən deyəndən
Yaman düşmüşük uzaq.
Bir-birinə dost-qardaş yox,
Olmuşuq bir yalquzaq.

Mərhəmətdən başımıza
Tanrım, çək bir çətir Sən!
Öz yoluna, öz izinə
Özün bizi gətir Sən!

1991

İŞIQLI İNSAN

Professor Bəşir Bəşirovun əziz xatirəsinə

Həyatda hərənin bir qisməti var,
Kimisi toydadır, kimi yasdadır;
Kimi üçün zaman quş kimi uçar,
Kimiçün gərdişi asta-astadır.

Sən namərd dünyanın gərdişinə bax,
Vaxtlı-vaxtsız ondan gör kimlər gedir?!
Ölüm məhəl qoymur, qoca, ya uşaq
Amansız, güzəştsiz o təslim edir.

İndi aramızda görünür yerin,
Xeyirxah, mehriban, Bəşir müəllim!
Zəkası işıqlı, məntiqi dərin,
Ağsaqqal bir insan, Bəşir müllim!

Şerimi səslədim bu gün haraya,
Ölümün özünü öldürmək üçün.
Çevirdim sözləri həzin misraya,
Qəlbin yanğısını söndürmək üçün.

"Vətən", "Millət" idi ən şirin sözün,
Ürəyin məşəldi onun yoluna...
Bu yol çətin yoldu, həm də çox uzun,
Ürək dözərdimi onun zoruna?..

Xalqa bağışlardın bütün varını,
Həyatın elinə qurbanlıq oldu.
Nə qədər sevdinsə övladlarını,
Ölümlə görüşün bir anlıq oldu.

Getdin bu dünyadan, bilirəm niyə,
Yenidən doğulub yaşamaq üçün.
Bəşərin qəmini alıb çiyninə,
O biri dünyaya daşımaq üçün.

...Bir gün çevrilərsən yaşıl yarpağa,
Ətrinlə qəlblərə axıb dolarsan.
And olsun sevdiyin Ana torpağa,
Sən nə saralarsan, nə də solarsan!

Dünyalar yaradır, dünyalar qurur
İdrakın işıqlı, sözün işıqlı.
Gözlərim önündə həmişə durur
Xatirən işıqlı, özün işıqlı...

1995

ARAZ

Ayrılıq deyəndə, həsrət deyəndə
İnləyir qəlbimdə yanıqlı bir saz.
Qardaş həsrətindən söhbət düşəndə
Ancaq sən yadıma düşürsən, Araz!

Xəncər tək bölsən də məni ortadan,
Bir candır həm sağım, həm də ki, solum.
Qardaş həsrətinə son qoymaq üçün
İstərəm üstündə bir körpü olum.

Çox özünü öymə, qardaş toyuna
Getməyə üstündən keçərəm, Araz!
Gəl meydan oxuma, elə təşnəyəm-
Bir anda suyunu içərəm, Araz!

1980

ÇAĞIRIŞ

Ey insanlar, birlık olsun süarımız,
İstəyimiz sığışmasın göyə, yerə;
Qabaqdadır neçə-neçə baharımız,
Son qoyaq qar, qış gətirən əməllərə.

Atəş səsi bürüməsin Yer üzünü,
İşıq saçsın yolumuza sönməz mayak.
Şən, qayğısız körpələrin gül üzünü
Xoş soraqlı öpüşlərlə “bombalayaq”.

1975

HƏYAT EŞQİ

Əsil möcüzədir
adicə otun həyata gəlməsi;
Qəhrəmanliq nümunəsidir
onun yaşamaq həvəsi.
Bəlkə də, ikinci beləsi
məlum deyil
dünyaya, kainata.
Həyat deyə
Sal qayaların içindən
Bu zərif məxluq
yol açır
həyata?!

1978

DÜŞÜNCƏ

Əgər bütün köhnə
binaları söksək,
Yerində təzələrini
tiksək,
ya da ki, bağ salıb
gül-çiçək əksək,
Görən qoca tarix
sonrakı addımlarını
hara atar?
Gələcək nəsil
əcdadının həyatından
necə xəbər tutar?...

1978

DÜNYA NİYƏ EŞİTMİR

Yalan elə yalandır,
Geydirsən də zər-ziba.
Ürəyə dərd salandır –
Düşünəndə əcəba
Saçından tük düşəndə
Birinin dığasının,
Üç qoyunu itəndə
Özgənin ağasının;
Ayrı eldə birinin
Kölgəsi "əziləndə",
Bir saatlıq işığı,
Ya suyu kəsiləndə
Sanki dünya dağılır,
Haray salır, bağırır.
Bir yeri sel aparır,
Zəlzələ yer tərpədir.
Külək tufan qoparır,
Fəlakət tük ürpədir.
Hərə öz hayındadır,
Dünya harayındadır...
Sözüm yoxdur bəşərin
Köməyinə, hayına
Qatıram öz səsimi
Mən onun harayına.
Məni yandıran nədir,
Məni sındıran nədir?!
Çəmənində gülləri
Top səsindən solan mən,
Öz elində, yurdunda
Qaçqın, köçgün olan mən!
Sinəmi yaralayıb
Neçə şəhid yarası,

İtgin düşüb yurdunda
Neçə şəhid balası...
Səsimi qulağına
Nədən bəs dünya almır?!
“Kömək” deyə çığırıb
Nə üçün haray salmır?!
Niyə qaraya qara,
Niyə ağa ağ demir?!
Torpağıma əl atan
Alçağa alçaq demir?!
Mən də yer övladıyam,
Öz haqqım, öz səsim var!
Dünyanın nəfəsində
Mənim də nəfəsim var!
Axı bu haqq dünyadır,
Haqq onda heç vaxt itmir.
Yoxsa məni özünə
O, övlad hesab etmir?
Belə deyilsə, niyə
Dünya məni eşitmir,
Dünya məni eşitmir?!...

1995

AZƏRİ QIZI

Bir mələksən Ay üzün
Ruh verir hər insana;
Bir Günəşsən gözlərin
İşıq saçır hər yana.
Bir gözəlsən, bəzəksən
Bu dünyaya, cahana...
Yamsılamaq nə gərək

Almanı, fransızı
Özün elə gözəlsən,
İnan, Azəri qızı!

Dodaqların açan gül,
Dilin şirin, bal kimi
Göydə ulduz varmıdır,
Üzündəki xal kimi?!
Sənə etibar etdim,
Ürəyimi, eşqimi...
Sənsən məhəbbətimin
Güllü, çiçəkli yazı
Sən hamıdan gözəlsən,
Gözəl Azəri qızı!

Sənə tay olan yoxdu,
Nəzər saldım hər yana.
Bənzətmə gəl özünü
İngilisə, almana.
Axı bənzərsiz doğub,
Səni o gözəl ana;
Bu hüsnlə, kamalla
De nədən sən narazı?!
Qiymətini bil özün
Özün, Azəri qızı!

Sənlə başlar, qurtarar
Şirin nağıllarımız,
Sənsən bizim ləyaqət,
Namus, qeyrət varımız.
Səndən alar gücünü,
İgid oğullarımız;
Bir oğulun arxası,
Taleyi, bəxt ulduzu

Kişi kimi hünərli,
Cəsur Azəri qızı
Yamsılamaq nə gərək
Almanı, fransızı
Gözəllər gözəlisən,
Vallah, Azəri qızı!

2000

BİRİ GƏLİR, BİRİ GEDİR

Deyirlər sevinclə kədər qoşadır,
Sevincə həsrətəm, kədərə həmdəm.
İnsanı həyatda ümid yaşadır,
Sandım qurtularam qüssədən, qəmdən;
Kədər tükənməyir, çox qəribədir
Biri gəlir, biri gedir.

Üstünə yağsa da kədər yağışı
İnsan həyatından həmişə bezmir.
Bahara can atır, keçərək qışı
Şirin arzulardan əlini üzmür.
Arzular nağıldır, xoş əfsanədir
Biri gəlir, biri gedir.

Dəyişir fəsillər, dəyişir günlər
Ömrün payızına nəzər salıram.
Acılır, düyünlər, düşür düyünlər.
Övlad köçürürəm, gəlin alıram
Beləcə sevənlər vüsala yetir,
Biri gəlir, biri gedir.

Dünya vəfasızdır hamıya bəlli,
Mən də bir qonağam getsəm hayana.
Özümə bununla tapdım təsəlli,
Kimləri görməyib bu mehmanxana?!
Gör neçə illərdir, qərinələrdir
Biri gəlir, biri gedir...

2002

ŞEİRİM MƏNİM

Təmiz suyum, havam, halal çörəyim,
Xeyirxah əməlim, arzum, diləyim;
Onun həvəsiylə vurur ürəyim
Həkimdir, loğmandır şeirim mənim!

Elin sevincinə, qəminə şərik,
Bütövünə şərik, kəminə şərik,
Dünyanın zilinə, bəminə şərik
Xeyirxah insandır şeirim mənim!

İşləsə nadanın əgər kələyi,
Tapdansa bir kəsin halal çörəyi,
Hardasa qırılsa insan ürəyi
Görərsən tufandır şeirim mənim!

Gül-çiçək içində qanqal bitirməz,
Haqqı, ədaləti heç vaxt itirməz!
Çirkaba bulanmaz, ləkə götürməz
Dəryadır, ümmandır şeirim mənim!

Odur bərk ayaqda əlimdən tutan,
Odur taleyimi qazanan, udan,
Kədər dəryasını odur qurudan,
Dərdimə dərmandır şeirim mənim!

O mənim könlümün rübabın çalır,
Hər yerdə, hər zaman səsi ucalır,
O öz nəfəsini zamandan alır
Yazılı zamandır şeirim mənim!

O vuran ürəyim, görən gözümdür,
Misraya düzülən şirin sözümdür.
O mənəm, inanın, mənim özümdür-
Candan ayrı candır şeirim mənim.

1995

BİLMƏK OLMUR YALAN, DOĞRU HARDADI

Bilmək olmur yalan, doğru hardadı,
Yaman dəyişibdi həyatın dadı;
Tamaha qul olub insan övladı,
Ana balasının südündən kəsir.

Güclünün gücsüzə göz ağartması,
Haqsızın haqlıya söz çıxartması,
Kasıbın zalıma əl uzatması
Ruhumu incidir, canımı əzir.

Qəribə varlıqdır, Vallah bu insan
Günləri, həftəsi, ayları talan!
Bu gün bir həqiqət, sabahsa yalan
İllərin ağrısı canımda gəzir.

Ömrə bir tələdir bəd əməl özü,
Yalana baş əyir hər sözün düzü...
Hələ çəkilməmiş bu gündən gözü
İnsan sabah üçün yaman tələsir.

Əsil dolanbacdı həyatın yolu,
Baxçada bağlanıb bülbülün qolu;
Dəyişik salaraq sağ ilə solu
Yaman karıxmısan, ay Vaqif Nəsir...

2014

ŞEİR

Sözdən güc alsa da şeirin özü,
Şeirdir qiymətə mindirən sözü;
Tonqala çevirir ürəkdə közü,
Tanrının vergisi deyilmi, şeir?!

Odur Nizaminin dərin hikməti,
Böyük Füzulinin sənət qüdrəti,
Nəsimi dözümü, Vaqif cürəti;
Şahların önündə əyilmir, şeir.

Şeirin məkanı aqil məclisi,
Tanrıdan verilib onun nəfəsi.
Hikmətdən süzülür seirin səsi,
Nadan insanlarçün deyilmir, seir.

O, nazlı gözəlin şirin ədası,
Vüsalın, hicranın ilkin sədası;
Mənəvi aləmin, ruhun qidası
Fəqət çörək kimi yeyilmir, seir.

2014

SORAQ GÖNDƏR

Harayıma hay vermirsən,
öz işindir,
Sevincindən pay vermirsən,
öz işindir.
Biz ki səni içimizdə
böyütmüşük,
Neçə qabar əlimizdə
böyütmüşük.
İsitmişik əllərini
əlimizdə,
Qorumuşuq ilk kəlməni
dilimizdə.
Gecə-gündüz keşiyində
oyaq qaldıq,
Arxa olduq, hər işində
dayaq olduq.
Biz ki, sənə gözümüzdən
nur vermişik,
Ömür adlı bir səfərdə
cəsarət, qürur vermişik.
Təmənnamız yoxdu səndən,
anla bunu!
Özgə istək yoxdu səndən,
anla bunu!
Nə vaxtdır ki, səsin gəlmir,
narahatıq,
Anan heç rahatlıq bilmir,
narahatıq.
Biz verəni qaytarmağın
gərək deyil!
Milyon bəhanə tapmağın
gərək deyil!

Arada bir görüşünü
istəyirik,
Sənin şaqraq gülüşünü
istəyirik!
Yaşadığın evin bizdən
uzaq deyil,
Bəhanə gətirmə, atan
uşaq deyil!
Gəlməsən də eybi yoxdur,
bir yazılı vərəq göndər,
Bilək ki, sağ-salamatsan
həyatından soraq göndər....

2014

QORU

Duyuq düşsən əgər ömrünə qəsdə,
Taledən baxtına yaxşı dost istə;
Yetənə yer vermə gözlərin üstə –
Gözünü qoru!

Hikmətli sözləri qanana söylə,
Füzuli eşqiylə yanana söylə.
Demərəm naşıya, nadana söylə –
Sözünü qoru!

Qiblə bil qeyrətin uca dağını,
Tanrıdan gizlətmə umacağını;
Təsadüf söndürsə bəxt ocağını –
Közünü qoru!

Düyünə düşübdür dünyanın işi,
Bu işdən baş açmaz vallah, hər kişi
Sənlik, mənlik deyil onun gərdişi-
Özünü qoru!!!

1995

ÇATMIR

Dünya tikilir, sökülür
Fələk gendən baxıb gülür;
Ac gözlərdən od tökülür,
Kipriklərin yaşı çatmır.

El vuruşur torpaq üçün,
Ağac əsir yarpaq üçün...
Vətən nədir qorxaq üçün?
Qəbrində başdaşı çatmır.

Adam var ki, ürəyi dar,
Gözləri kor, qulağı kar;
Boynu üstə yumru şey var,
Düşünməyə başı çatmır.

Qəribə iz, qəribə yol,
Bar yetirir tikanlı kol?!
Adam gördüm hər şeyi bol,
Başının bir daşı çatmır...

1995

BU NECƏ QƏBİRİSTANLIQ

(Cəlilabad, Biləsuvar, Masallıda yandırılmaq üçün kəsilən ağaclara baxarkən düşüncələr)

Bu necə qəbiristanlıq,
Bu necə baş daşıdır?!
Burda kim kimə bacı,
Kim kimin qardaşıdır?!!

Bu ölən kimdir görən,
Saçını yolanı yox!?
Baş-dizinə vuranı,
Gözləri dolanı yox!

Görən kimdir məzarçı,
Elə bil ki, naşıdır.
Burda ölənin özü,
Özünə başdaşıdır.

Məzardakı ağacdır,
Qəlbinin odu yoxdur.
Məhəbbətə möhtacdır,
Tamah üstündə çoxdur.

Bura bir meşə idi,
Gör necə talan oldu!
Qəlbinin odun verdi
Özü qəbirstan oldu.

Bu necə qəbirstanlıq,
Məzarçısı naşıdır.
Burda ölənin özü,
Özünə başdaşıdır.

1996

YOXDU

Dərd olarmı heç bu boyda?!
Şeytan hər gün kefdə, toyda...
Qan dondurur isti yay da
Mənasından deyən yoxdu!

Bəd əməllər yarışdadı,
Xeyir şərlə barışdadı...
Haqq özüylə vuruşdadı
Günahkarı söyən yoxdu!

İnsan möhlət yaşdan istər,
Ürək imdad başdan istər;
Göz nurunu qaşdan istər
Zülm ağacın əyən yoxdu!

İmarətlər, bac-xəracdan –
Xəbət tutmur toxlar acdan;
Yesir günə qalıb vicdan
At çapılır, yüyən yoxdu...

1996

YALAN KİMDİ

Gedən getdi, qalan qaldı
Dünya yenə öz işində.
Ölüm yeni hava çaldı,
İnsan köhnə vərdişində.

Ətrafımda, öz bağında
Bəd əməllər əkən gördüm;
Qızıl başmaq ayağında,
Dəmir qapı sökən gördüm.

Adam gördüm vicdanı boz,
Neçə min sifəti varmış?!
Adam gördüm bir çürük qoz,
İçində qurdlar oynarmış.

Nələr gördüm, aman Allah,
Halal harama qatıldı...
Kişiliyi basdı tamah-
Vətən torpağı satıldı!

Şər xeyiri üstələdi,
Zülmət işıqla yarışdı.
Tanrım göydən od ələdi,
İnsan torpağa qarışdı.

Yaddaşlara görəsən bəs,
Həmişəlik qalan kimdi?
Yalan dünya söyləyən kəs
Özün söylə, yalan kimdi?!

1995

NAĞIL ELƏ NAĞILDIR

Daha nağıllara inanmıram mən
N.Kəsəmənli

Nağıl uşaqlığın sirli dünyası,
İnsan zəkasının gözəl qurması;
Nağıl nənələrin bir uydurması,
Yəni nağıllara inanırdın sən?

Bir yaxşı xatırla, körpəliyindən
Nə qədər qaçmısan şərin əlindən?
Haqq dara çəkilib acı dilindən,
Yəni nağıllara inanırdın sən?

Qüvvət vəzifədə, pulda, vardadır
Divlərin canları bazarlardadır;
Ağ atlı oğlanın özü dardadır,
Yəni nağıllara inanırdın sən?

Kişilər aparıb nazü-qəmzələr,
Məşuqəyə dönüb qorxunc gürzələr;
Daim dəbdə olub keçəl həmzələr,
Yəni nağıllara inanırdın sən?

Hərə bir arzuda, hərə bir ündə,
Dünyanın işləri möhkəm düyündə...
Quyudadır Məlik Məmməd bu gün də,
Yəni nağıllara inanırdın sən?

Zamanın kəlməsi, sözü nağıldır,
Gördüyün gözəlin gözü nağıldır.
Vallah bu dünyanın özü nağıldır
Yəni nağıllara inanırdın sən?

1995

TANRIMA

Razıyam İlahim, razıyam səndən
Qəlbimdə qoymadın arzu, kamımı
Sənin kərəmindən, səxavətindən
Heç vaxt itirmədim mən ilhamımı.

Razıyam İlahim, bu günüm üçün,
Sən məni tamaha nökər etmədin;
Toxumlar bağlara səpildiyi gün,
Özgə bağçasında qəfil bitmədim.

Razıyam İlahim, bu ürək üçün
Özgə dərdinə də çox yer var orda.
Yediyim saf, halal duz-çörək üçün,
Heç vaxt qoymamısan Sən məni darda.

Razıyam ilahim, mən dönə-dönə
Özgə şöhrətinə şərik çıxmadım.
Xəbislik, namərdlik yad oldu mənə,
Yükümü yad çiynə heç vaxt yıxmadım.

Razıyam İlahim, şükr olsun Sənə,
Sənin izzətindən gözümdədi nur;
Şükr olsun, İlahim şükr olsun Sənə
Hələki sinəmdə ürəim vurur...

1997

DİNİM MƏNİM

("Dində zorakılıq yoxdur" –
Qurani Kərim, Bəqərə surəsi)

İnsanları inamınla sən gətirdin öz yoluna,
O, müqəddəs Quranınla sən gətirdin öz yoluna.
Kim deyir ki, sən möcüzə yaratmadın mənim dinim?
Ayrı dinə, əqidəyə xəncərini uzatmadın, mənim dinim.
Nədən belə vicdanını tez itirir bəs bədxahlar? –
Mənə "qılınc müsəlmanı" deyənlərə nifrətim var!
Hər bir kəlmən, hər bir sözün hədəfinə dəyən oxdur,
Sənin əsas məramın bu: "Dində zorakılıq yoxdur".
Azad insan, azad birlik sənin əsas şüarındır,
İnsanlara hörmət, izzət – müsəlmanlıq qərarındır.
Düşmənlərin fürsət düşcək böhtanları yayırdılar,
Yasaq edib bizə səni, elmə düşmən sayırdılar.
Yaratmaqçün sənə qarşı insanların nifrətini,
Təhrif edir, əyirdlər qadınlara qiymətini.
Yalan əgər tutsa ayaq, itər dünyanın dəyəri,
Nələr demiş bu barədə dinimizin Peyğəmbəri.
Beşikdən qəbr evinədək öyrənməyi O söylədi,

Alim öldü, aləm öldü, Həzrətimiz belə dedi.
İmandandır Vətəninə, millətinə, xalqa xidmət,
Ananızın ayaqları altındadır dedi, cənnət.
Sən öyrətdin atamıza, anamıza məhəbbəti,
Sən öyrətdin insanlığa, dünyamıza məhəbbəti.
Özün doğru, yolun doğru, kəlamların bir həqiqət,
Düz yoluna, əməlinə Tanrım özü verir qiymət.
Elm səndə, hökm səndə, qüdrət səndə, şöhrət səndə,
Çox şükür ki, müsəlmanlar arasında varam mən də.

1995

BİLMİRƏM

Biz həzrəti Məhəmmədin ümməti,
Bölünmüşük belə, niyə, bilmirəm!
Bir hissəmiz sünni deyə adlanır,
Bir hissə də nədən şiyə, bilmirəm.

Bu bölünmə sağalmayan yaramdır,
Sənə haram, mənimçün də haramdır:
Kitabımız bir müqəddəs Qurandır,
Nə ehtiyac bu bölgüyə, bilmirəm.

Sünni nədir, şiyə nədir, müsəlman?!
Bölünməkdə məqsəd nədir müsəlman?!
Səni bölmək bəhanədir müsəlman...
İslam zəif düşsün deyə, bilmirəm.

Kimdi verən bu bölgüyə bir qərar,
Şeytan girib ürəkləri qurdalar...
Burda Vallah düşmənlərin əli var
İstəyirəm söyəm, söyə bilmirəm
Müsəlmanam özüm, söyə bilmirəm.

1995

YOXDUR

Zəmanədən nə şikayət?!
Hər əməli bir hekayət...
Evlər qurur tamam heyrət –
Dam saxlayan tiri yoxdur.

Üstələyir ağlı qarın,
Səsi batıb ahu-zarın,
Neçə-neçə insanların
And içməyə piri yoxdur.

Qiyməti yox peşənin də,
Dadı itib bişənin də.
Əzəmətli meşənin də
Tülküsü var, şiri yoxdur.

Ləyaqəti basır tamah,
Özün saxla, aman Allah!
Haqqa böhtan ağır günah,
Doğru ölüb, diri yoxdur.

Nə çox yarımçıq adamlar,
Gözləri ac, qəlbləri dar;
Birisində min sifət var,
Başqasında biri yoxdur.

Vaqif Nəsir asta-asta
Sözlərdən hör gözəl dəstə.
Haqdan təzə ürək istə,
Köhnəsinin yeri yoxdur.

1995

DƏRD BUDUR

Dərd budur gedəsən işığa sarı,
Orda papış tikə şeytana şeytan...
Məstan Günər

Dərd budur, dərd ola, onu çəkməyib,
Qohuma, tanışa, elə verəsən.
Dərd budur, üyüdüb un tək ömrünü,
Səmti bilinməyən yelə verəsən.

Dərd budur, yanasan eşq atəşində,
Başından tüstüsü yüksələ göyə;
Dərd budur, sevilmək, sevmək bilməyən
Sənə ya divanə, ya məcnun deyə.

Dərd budur Şirini sevəsən sən də,
Fərhad tək qayalar çapammayasan.
Dərd budur, səadət sənin əlindən
Uça, hey axtarıb tapammayasan.

Dərd budur, dünyada hiylə bilməyib,
Şeytanın yolunda candan keçəsən.
Dərd budur, gözündə tiri görməyib,
Özgənin gözündə tükü seçəsən.

Dərd budur, gülü də tikana qatıb,
Sərxoş əllərində qırıb əzəsən.
Dərd budur, bilməyib bəmdə yerini,
Naşı xanəndə tək zildə gəzəsən.

Dərd budur, yanasan, külə dönəsən
El, oba halını bilənə kimi;
Dərd budur, həyatda səni sevəni
Tapa bilməyəsən, ölənə kimi...

MƏHƏBBƏTLƏ QANADLANAN QUŞAM MƏN

Məhəbbətlə qanadlanan quşam mən,
Gülüm, camalına vurulmuşam mən.
Kim deyir qocalıb yorulmuşam mən?!
Hələ son sözümü deməmişəm ki...!

Eşqindir dolaşan dildə, dodaqda
Vüsalın mənimlə birgə soraqda
Bu gün sevda adlı o gözəl bağda
Payız nübarını yeməmişəm ki...!

1996

ÇƏTİN

Qəribə zamana gəlib çatmışıq,
Göz yaşı içində qalıb batmışıq –
Halalı harama elə qatmışıq-
Ayırmaq da çətin, bölmək də çətin.

Gözü yaşlı gördüm elin ərini,
Xeyrin ağsaqqalı – varın şərini;
Bu gün lağ edilən alın tərini
Silməmək də çətin, silmək də çətin.

Dərəyə baş əyir dağlar, ay Allah,
Sinələri oyur dağlar, ay Allah,
Çox analar gördüm ağlar, ay Allah
Hər dərdin sirrini bilmək də çətin.

Yaman verilibdir meydan daşbaşa,
Belə bir aləmdə indi gəl yaşa...
Düşmən kəsilibdi qardaş-qardaşa,
Ağlamaq da çətin, gülmək də çətin.

İnsan dilsiz qalıb, divar danışır,
Ocaq çoxdan sönüb, ürək alışır;
Dünyanın işləri elə qarışır –
Yaşamaq da çətin, ölmək də çətin...

1991

DƏRDLİ GÜNLƏRİMİN SORMA SAYINI

Dərdli günlərimin sorma sayını,
Nəyi deyim, bu birmidir, ikidir?
İstəmirəm zərdən düşən payımı,
Fərqi yoxdr ya şeşi, ya yekidir.

Nə biləydim mən deyilmiş sözmüşəm,
Özümdən çox ağır yükə dözmüşəm;
Söyləmərəm bu həyatdan bezmişəm,
Çiynimdəki taleyimin yüküdür.

Gül eşqiylə uçdum həmişə bağa,
Xəzan vurdu, gülüm düşdü yatağa;
Sığınmışam ürək adlı otağa
Ürək deyil, o canımın mülküdür.

Yaxşıları yamanlardan seçənəm,
Haqq yolunda zəhər olsa içənəm.
Göz yumulu qıl körpünü keçənəm,
O anamın saçının ağ tüküdür.

Vaqif Nəsir kim dadına yetərdi?
Haqsız yolda varlığın da itərdi,
Çaqqallar var tülkülərdən betərdi
Hey deyirlər ara vuran tülküdür.

1995

SARI BÜLBÜL

Vətən bağı od içində
Qana batıb, sarı bülbül.
Düşmənlərin sevincində
Ömür oldu yarı, bülbül!

Özüm yandım öz içimdə,
Xəncər oldu söz içimdə;
Alovlandı köz içimdə,
Soraqlama yarı, bülbül!

Dərd, ayrılıq xislətimdi,
Didərginlik qismətimdi,
Tapdalanan ismətimdi,
İtirmişik arı, bülbül!

Şuşa, Laçın odda yanır,
Kəlbəcər qəmli boylanır,
Ağdam al qana boyanır
Nə susmusan, Xarı bülbül?!

Necə çəkim zillətimi,
Şər dağıtdı illətimi;
Bu gün yatmış millətimi
Oyatginən barı, bülnül!

1993

EŞQ OLSUN

Azərbaycanın naməlum əsgərinə

Əsil qəhrəmanı sənsən bu elin,
Sənə ana südün halaldır, halal!
Uğrunda vuruşdun doğma Vətənin
Dilində azadlıq, bir də istiqlal.

İgidlik şöhrətdə, adda deyildir
İgidlik insanın canında gərək!
Şan-şöhrət, var-dövlət özgə meyildir
Ləyaqət insanın qanında gərək.

Yaman təzadlıdır bu günüm, qardaş
Az qala həyatdan usana insan.
Yolumuz labirint, qalmışıq çaş-baş
Bundan baş çıxarmaq deyildir asan.

Günü-gündən artır bağlı qapılar,
Aqillər zillətdə, yaman qəmdədir;
Mini dərd içində ağlayır zar-zar,
Beş-on nəfər isə kefdə, dəmdədir.

Gözəl Qarabağım, gözəl diyarım
Düşmən tapdağında, bu gün yaddadır;
Ayaqlar altında abırım, arım
Fəxri adlar isə yaman moddadır.

Mən necə çaşmayım, xalqın şairi
Tamam ayrı düşüb eldən, millətdən
Haqçün soyulmaqdan o, diri-diri
Xüsusi təqaüd alır dövlətdən?!

Hirsindən ağlayır Həcərim mənim,
Axı talan olur ellər-obalar.
Yolunu gözləyir əsgərim mənim,
Soyuq çadırlarda sönmüş sobalar.

Sənsən qəhrəmanı ana yurdumun,
Deyəcəm hər yerdə mən dönə-dönə!
Ey igid əsgəri yeni ordumun,
Ordensiz, medalsız, eşq olsun sənə!

1998

ÇAHARGAH OXU

Çahargahın mayesi Qorqud zümzüməsidir,
Hisar, Şah Xətainin qılıncının səsidir;
Mənsuriyyə qoç, igid Koroğlu nərəsidir
Segahı bu gün saxla, Çahargah oxu, qardaş!

Oxu Çahargah oxu, canımda qan qaynasın,
Qoç igidlər əlində Misri qılınc oynasın.
Misri qılınc qınında Koroğlusuz neyləsin?!
İgidləri harayla, Çahargah oxu, qardaş!

Qəm dağıtdı qəlbimi, qəm axıtma ürəyə,
Namərd düşmən xəncəri tuşlayıbdı kürəyə;
And verirəm mən səni o müqəddəs çörəyə
İstəmirəm mən layla, Çahargah oxu, qardaş!

Elin hər bir nəğməsi, muğamatı əzizdir,
Ürəkləri coşduran həm Heyratı əzizdir.
Qatar, Segahı, Şuru, həm də Rastı əzizdir.
Qəlblərə təpər payla, Çahargah oxu, qardaş!
İgidləri harayla, Çahargah oxu, qardaş!

1996

DÜŞ DAHA

Mərhum polkovnik
Sübhanın əziz xatirəsinə

Nə biləsən vurulan kim, vuran kim,
Atdan düşüb yıxılan kim, duran kim;
Çapılan at, yorulan kim, yoran kim
Sən bu atın yəhərindən düş daha.

Hər əməlçün bir məhkəmə qurulur,
Hər addımın nəticəsi sorulur;
At canlıdır, axı o da yorulur
Sən bu atın yəhərindən düş daha.

Öz başına özün əngəl tapırsan,
Niyə belə qəlbinə zülm yapırsan?...
Heç baxmırsan, hara gəldi çapırsan
Sən bu atın yəhərindən düş daha.

Ox atılır, əyilənsə kamandır
Qarşındakı gölməçə yox, ümmandı,
Əsil atlı zəmanədi, zamandı,
Sən bu atın yəhərindən düş daha.

1998

NEYNİRƏM

Sözün qılınc kimi kəsəri gərək,
Acısı, şirini, şəkəri gərək.
Qızılı, gümüşü, gövhəri gərək
Dəyəri yoxdursa, sözü neyirəm?

Gör necə dönübdür fələyin üzü:
Biri kef içində, dərdlidir yüzü...
Yerini dəyişib əyrisi, düzü
Mərdə quyu olan düzü neynirəm?

Dünya əvvəlki tək yenə fırlanır,
Dayanan yeriyir, gedən dayanır;
Onsuz da ürəyim alışıb yanır
Sinəmə basılan közü neynirəm?

Görən aramızda kim ac, kim toxdur?
Dilənçi əlləri qəlbmə oxdur...
Dərdli günlərimiz olduqca çoxdur
Taledən bozarmış üzü neynirəm?

Gözlər axtarıram işıqla dola,
Həyata nur saçan bir Günəş ola.
Bir göz həqiqəti görcək yumula
Siz deyin mən belə gözü neynirəm?

Zaman at üstündə, mənsə piyadə,
O böyük Tanrını çağırram dada.
Əgər qalmayırsa izim dünyada
Əllini neynirəm, yüzü neynirəm?!...

1995

SƏNMİ TANITDIRIRSAN

Bu dünyanın hər işini görmüşəm,
Yaxşı, yaman vərdişini görmüşəm;
Zəmanənin gərdişini görmüşəm
Onu mənə sənmi tanıtdırırsan?!

Zaman keçər, dəyişməyən mənəm, mən
Bar-bəhrəsi yetişməyən dənəm mən.
Dağ başında çiskin duman, çənəm mən
İndi mənə çənmi tanıtdırırsan?!

Dağ olanlar saya almır təpəni,
Yamacından məhəbbətlə öpəni.
Üz-başıma bəyaz qarı səpəni –
Saçlarımda dənmi tanıtdırrsan?!

Vaqif Nəsir incik saldın dostları,
Günahını anlaginən bir barı;
Kimdi deyən günahımız tən yarı?
Balam, mənə tənmi tanıtdırırsan?!

1997

***

Çalxalandıqca, bulandıqca zaman nehrə kimi
Yağı yağ üstə çıxar, ayranı ayranlıq olar.
M.Ə.Sabir

Ülfət qədəhləri şərbətlə dolur,
Sədaqət dostluğa qalxan olanda.
Kimi ayran olur, kimi yağ olur
Zaman nehrə kimi çalxalananda.

Üzdən tanınarmı qorxaq, ya qoçaq?
İnsan dünyasını zamandı açan!
Batmaq təhlükəsi həqiqət olcaq
Gəmidən birinci siçandı qaçan!?

Bəli, çətin anda adi xəyanət,
Ərlər arasına bəd toxum əkir.
Adı kişi olan "kişiyə" heyrət
Namusu, qeyrəti bazara çəkir.

Bazara çəkilir Vətən torpağı,
Hərraca qoyulur ismət də, ar da.
Bu gün yazmalıykən canlı tarixi
Tarix axtarırıq daş qayalarda.

Mətinlik varlığın əsil dayağı,
Əqidə ölçüsü deyildir zaman.
Vəfa ünsiyyətin sönməz mayağı,
Ülvi məhəbbətlə seçilir insan.

Şeytandan qoruyar saf qəlbimizi,
Məsləkə sədaqət, elə sədaqət.
İşıqlı aləmə aparar bizi,
Millətə sədaqət, dilə sədaqət.

Ülfət qədəhləri şərbətlə dolur,
Sədaqət dostluğa qalxan olanda.
Kimi ayran olur, kimi yağ olur,
Zaman nehrə kimi çalxalananda.

1996

DÜNYA ÇƏTİN DÜZƏLƏ

Ərzin nadanından ağsaqqalı çox,
Bəs niyə bu dünya düzəlmir, baba?
Məmməd Araz

Boğaza çatıbdır pisi, yamanı,
Bəs kimdən diləyək bu gün amanı?
Divara yeridir quru samanı,
Bu dünya çox çətin düzələ, ustad!

Kədəri dəryadır, sevinci damla,
Gözlər tutulubdur tökülən qanla;
Düşmən tək davranır insan insanla
Bu dünya çox çətin düzələ, ustad!

Dəyişibdi yeri qarayla ağın,
Şordan ucuz olub qiyməti yağın;
Bağbanmış düşməni dağılan bağın,
Bu dünya çox çətin düzələ, ustad!

Hikkələr çevrilib dəyənək olub,
Hikmət dəryası da dönüb səy olub.
Tamah başımıza bir kələk olub,
Bu dünya çox çətin düzələ, ustad!

Yeri səhv salınıb elmlə gücün,
Yaman yol açmışıq nadanlıq üçün!
Təhlükə yaranıb insanlıq üçün,
Bu dünya çox çətin düzələ, ustad!

Yolunu, izini azanlar artıb,
Haqqa qarşı böhtan yazanlar artıb;
Tanrı qanununu pozanlar artıb,
Bu dünya çox çətin düzələ, ustad!

Ədalət çəkilib dardan asılıb,
Hörmət vəzifədən, vardan asılı...
Bilmək olmur insan hardan asılıb,
Bu dünya çox çətin düzələ, ustad!

Pələngi eyləyib çaqqala möhtac,
Qoyun qurddan istər dərdinə əlac;
Nadanı imkanlı, ağsaqqalı ac,
Bu dünya çox çətin düzələ, ustad!

1993

DÜNYA SƏNİN KİMİNDİR

Həyatını zəhərləyən öz ayağın, öz başındı,
Ağ gününə qara çəkən doğma bacın, qardaşındı,
Xəyanətə yol göstərən həmdəmindi, sirdaşındı...
Niyə belə hirsli-hirsli "dünya, dünya" söyləyirsən,
Dünya sənin kimindir ki, ondan giley eyləyirsən?!

Dost bildiyin imkan düşcək şərbətinə zəhər qatır,
Çətinliyə düşən kimi səndən qaçır, səni atır;
Saman çöpü daha üzmür, suya düşcək dərhal batır,
Dünya buna nə eyləsin, sənsə dünya söyləyirsən
Dünya sənin kimindir ki, ondan giley eyləyirsən?!

Aç gözünü, halalına haramını qatana bax,
Var-dövlətə namusunu, qeyrətini satana bax,
Şeytan ilə əlbir olub muradına çatana bax
Bu dünyanın təqsiri nə, günahkarın biri də sən
Dünya sənin kimindir ki, ondan giley eyləyirsən?!

Bir- birinə neçə əzab, neçə zülm verən də biz
Əsrlərin çirkabını əks etdirir əməlimiz.
İnsan ruhu, insan qəlbi deyildirsə əgər təmiz
Bəs günahkar kimdir onda, bunu yaxşı bilməlisən
Dünya sənin kimindir ki, ondan giley eyləyirsən?!

1997

ZAMAN ÖZGƏDİ

Güzgüdən baxan özgədi
A.Səməd

Dünya yaman dəyişibdi
Yaxşı, həm yaman özgədi.
Mərd namərdə gəyişibdi
Din həmən, iman özgədi.

Haram halala qatılır,
Hər şey alınır, satılır;
Əvvəlki tək ox atılır
Əyilən kaman özgədi.

Keçdiyim yollar bağlıdı,
Qanlı ölüm soraqlıdı...
Dağların qəlbi dağlıdı
Başında duman özgədi.

Yad əlində qalıb yaxan

Dərdinə yox şərik çıxan.
Özünsən güzgüdən baxan
Vaxt özgə, zaman özgədi...

1995

ÖZÜM

Taledən nə paydır baxtıma düşüb,
Öldürən də özüm, ölən də özüm!
Xəbərli, xəbərsiz günlər ötüşüb
Bilməyən də özüm, bilən də özüm.

Başımda bir şimşək olub çaxan mən,
Fitnə dəryasına düşüb axan mən.
Tökülən qanlara sakit baxan mən,
Ağlayan da özüm, gülən də özüm.

Nə üçün qurulub belə təməlim,
Sol ələ baxmayır bəzən sağ əlim;
Birdən yağı olur mənə əməlim
Bölünən də özüm, bölən də özüm.

Səndən təmənnamız tək budur Allah:
Bizlərə Sən özün yiyə dur, Allah
Ya yaşat, ya da ki, vur öldür, Allah
Bilim nədən öldüm, öləndə özüm.

1995

SUAL

Bu dünyanın üç üzü var, üç üzü,
Nələr deyir görünməyən iç üzü?!
Müəmmadır sirlə dolu heç üzü
Biri doğru, biri yalan, biri nə?

Yada qüvvət oldu mənim çörəyim,
Yaralanıb qəlbdə arzum, diləyim;
Neçə yerə parçalanıb ürəyim –
Yüzü yanan, yüzü talan, biri nə?

Tanrım bizi bir yaratdı, eləmi?
Dostun dosta zülmü olur beləmi?
Haqq-ədalət tərk edir bu aləmi,
Mini kasıb, biri kalan, biri nə?

Ürək qırır bu dünyanın ah-zarı,
Məkrlidir bizə düşən azarı...
Nə pis belə qarışıbdır bazarı –
Hamı satan, biri alan, biri nə?

Ha güldürür, bacarmıram, gülmürəm,
Yorulmuşam, göz yaşımı silmirəm;
Payımıza düşən nədir bilmirəm –
Biri qamçı, biri palan, biri nə?!...

1994

***

Eşqi dastan olub, gəzdi elləri
Adladı gör neçə-neçə illəri,
Özünə yurd etdi sonsuz çolləri
Eşqin zülmündən zövq alandı,Məcnun.

Bəzi gənclərimiz olmayır qəti,
Ciddiyə almayır eşq-məhəbbəti
Nə vəfası olur, nə sədaqəti
Düşünürsən bəlkə, yalandı Məcnun…

YANIQ KƏRƏMİ ÇAL

Dərdim, qəmim göz yaşımda
Şeytan oynayır başımda;
Qocaldım cavan yaşımda,
Yanıq Kərəmi çal, qardaş!

Çal ki, ruhum cuşa gəlsin,
Gördüklərim xoşa gəlsin;
Sevgililər qoşa gəlsin
Yanıq Kərəmi çal, qardaş!

Çöldə tənha ceyran üçün,
Sevdiynə heyran üçün,
Məhəbbətli hər an üçün
Yanıq Kərəmi çal, qardaş!

Vaqif Nəsir qəm içində,
Nəşəsi ələm içində...
Bütöv qalıb kəm içində
Yanıq Kərəmi çal, qardaş!

1997

BİR AŞIĞA

Sazla hoqqabazlıq ruhi cinayət,
Çalanda sinəyə sıxarlar, aşıq!
Sazla davranışın böyük qəbahət,
Sazda bir Ilahi hikmət var, aşıq!

O ağbirçək ana, cavan gəlindi,
O, müdrik ağsaqqal,ərəndi, ərdi,
Sazın fəlsəfəsi bil, çox dərindi,
Talelərə şahid qərinələrdi..

Gah boynunda çalır, gah da paçanda
Saz gərək ürəkdən ala gücünü.
Saz oyuncaq olub belə, haçandan
Nədən duymayırsan sən öz suçunu?

Sazdan kökümüzün özü süzülür,
Onun öz sevinci, öz fəryadı var…..
Sənin rəftarından fəqət üzülür,
Ona əzab verir, etdiyin rəftar.

Əlində oynadıb beş- on qəpikçün,
Bu gedişlə söylə hara gedirsən ?
O böyük dahilər yetirib, neyçün
Milli sərvətimi təhqir edirsən?!

MƏNƏ YADLAŞAN ŞƏHƏR

Gəzirəm qoynunda bir yalqız kimi,
Baxışları çaşqın, qəlbi buz kimi;
Yetənə göz vurur sırtıq qız kimi,
Bu şəhər gün-gündən yadlaşır mənə.

Güc verib harama, rəzil tamaha
Gündüzü, gecəsi batıb günaha...
Nə bəndəyə baxır, nə də Allaha
Bu şəhər gün-gündən yadlaşır mənə.

Bu nə o küçədir, bu nə o tindir,
Nə gecəni seyr et, kimsəni dindir;
Ruhunu qavramaq yaman çətindir
Bu şəhər gün-gündən yadlaşır mənə.

İndi biganəlk qalası olub,
Yad qızı, yad oğlu balası olub;
Sərvəti başının bəlası olub
Bu şəhər gün-gündən yadlaşır mənə.

Məhəbbət bölünməz, eşqdən pay olmaz,
Yaddan kömək umma, yaddan hay olmaz!
Dünyada bəlkə də ona tay olmaz
Bu şəhər gün-gündən yadlaşır mənə.

Göylərə çəkilib dincliyim mənim,
Burda itgin düşüb gəncliyim mənim...
Qınamasın məni elim, Vətənim
Bu şəhər gün-gündən yadlaşır mənə.

2000

QORUYA BİLMƏDİM

Bir namərd əməli dondurdu səni,
Bir bədbəxtin halı yandırdı səni,
Bir nadanın sözü sındırdı səni
Mən səni qoruya bilmədim, ürək!

Yanan bağça-bağçün göz yaşı tökdün,
Satılan torpaqçün göz yaşı tökdün,
Saralan yarpaqçün göz yaşı tökdün
Mən səni qoruya bilmədim, ürək!

İnsanı insan tək sevmək istədin,
Ülvi məhəbbətə, eşqə səslədin,
Özündə özgənin dərdin gizlədin,
Mən səni qoruya bilmədim, ürək!

Dünyanın dərd, qəmi sənə dərd oldu,
Həm zili, həm bəmi sənə dərd oldu,
Bir bütövün kəmi sənə dərd oldu
Mən səni qoruya bilmədim, ürək!

Taledən baxtına pay düşən o, yük,
Nə qədər ağırmış, nə qədər böyük?!
Dövran çox qarışıq, zəmanə dönük
Mən səni qoruya bilmədim, ürək!

Sənsən kəsən üzü fərasətimin,
Sənsən cüt qanadı cəsarətimin,
Sənsən qoruyanı ləyaqətimin,
Mən səni qoruya bilmədim, ürək!

1996

İKİ ŞAİR – İKİ TALE

İki şair tanıyıram:
Biri varlı, biri kasıb;
Biri üçün hər gün bayram,
O birini saqqal basıb.

Biri gəlib bərk həvəsə,
Ekranlardan əsla düşmür.
O birinin evindəsə,
Tənhalıqdır, vaxt ötüşmür.

Birisinin nə vecinə? –
Var-dövləti başdan aşır.
Biri pulsuz, günü günə
Calamağa hey çalışır.

Biri hər gün görüşlərdə -
Rəngarəngdir hədiyyələr...
O birisi "bəlkə"lərdə,
Didir onu "bəs niyə"lər.

Biri keflə Vətən deyir,
Bəzək vurur tamahına;
O birisi yavan yeyir,
Şükr eyləyir Allahına.

Birinin işi "əla"dır,
Qəlb deyəni dili demir.
O birisi lap "bəla"dır –
Minnətli çörəyi yemir.

Biri yavan çörək üçün,
Özünü yandırıb-yaxır.
O birisi “Mersedes”ə
Müştəri gözüylə baxır.

İki şair tanıyıram:
Biri varlı, biri kasıb;
Biri üçün hər gün bayram,
O birini saqqal basıb.

1995

DANIŞIR

Hüququ olmayıb
Xalq adından danışanlara

Nə qəribə zamandır,
Allah məni sən qandır.
Zalım, qaniçən, andır
Səsi səsə qarışır, -
Xalq adından danışır.

Yad yalağı yalayan,
Çaqqal təki ulayan;
Xalqı soyub-talayan
“Xalqım” deyib alışır,
Xalq adından danışır.

Mənliyi bir çürük qoz,
Ləyaqətin basıb toz.
Qəlbi qara, üzü boz
Söz deməyə çalışır –
Xalq adından danışır.

Gücü verib dililinə,
Uyub özgə felinə...
Fürsət düşcək əlinə
Düşmənlərlə barışır,
Xalq adından danışır.

Çoxun, azın düşməni.
Güllü yazın düşməni,
Telli sazın düşməni
Tar, kamanla yarışır, -
Xalq adından danışır...

1992

NEKROLOQ

Və ya ölümün xoşbəxtliyi
Rzanın əziz xatirəsinə

Bu gün sənin də ömür karvanın
dayandı.
Ürəklərdə dərd közərdi,
kədər hövlank oyandı.
Fərqi yoxdur qəbrinin ölçüsündən,
ya yerindən
Azad oldun bu dünyanın
dərdindən, sərindən:
Kələk dərdindən,
Çörək dərdindən,
Divara dəyən daşa bənzər
Dilək dərdindən,
Səmtini tez-tez dəyişən
Külək dərdindən...
İnnən belə

Sifətini anbaan dəyişənləri,
Düşməni qoyub, özüylə
döyüşənləri,
Hətta yumruq göstərib,
haqsıza əyişənləri
Bir daha görməyəcəksən!

Yad gündəyməzini öpənləri,
Haramı gözlərinə təpənləri,
El malını, varını
ora, bura səpənləri
Bir daha görməyəcəksən!

Doğma balasından rüşvət
güdənləri,
Vicdanına naqislik ağalıq
edənləri,
Müsəlmanlar içində
dığalıq edənləri
Bir daha görməyəcəksən!

Halala-haramı qatanları,
Namusu-qeyrəti satanları,
Tarixin kölgəsində yatanları
Bir daha görməyəcəksən!

Ruhu, cismi şil-küt olmuş
ərənləri,
Namusunu sınıq görənləri,
Qeyrətini kirayə verənləri
Bir daha görməyəcəksən!

Qaysağı qoparılmış yaraların
illətini,
Yaşamağı sürünməklə keçirənlərin
zillətini,
Yaman günə salınmış
millətini
Bir daha görməyəcəksən!

Haqqa qovuşdun bu gündən,
Çox günahlardan yan sovuşdun
bu gündən.
Nə etməli? Torpaqdan alınmışdın
Ona da qovuşdun
bu gündən...

Həsrətim tarım səbrimizə
bir nizə,
Səndən dünyanın sənli qəmi
miras qaldı bizə.
Deyirəm dönə-dönə:
Min rəhmət sənə,
Min rəhmət sənə!...

1999

NƏYİNƏ GƏRƏK

Çox yaxşı bilirsən kimsən, nəçisən
Yoxların yoxusan, heçin heçisən
Ölmüş bir heyvanın xarab içisən
Özünü dağ etmək nəyinə gərək?

Yaltaqlıq işləyib murdar qanına,
Xəbislik yayılıb bütöv canına;
Meydan oxuyursan yaradanına
Bu qədər ağ etmək nəyinə gərək?

Haqqı tapdalayıb, yalan tutursan,
Yaxını, uzağı yeyib, udursan
Necə harınlasan, necə qudursan
Qanqaldan bağ etmək nəyinə gərək?

Dünyada yaxşılıq nədir bilməyib
Heç bir əməlində tapmadın eyib.
Mən də bir kişiyəm, insanam deyib
Özünü lağ etmək nəyinə gərək?

1995

***

Əllərim göyə uzanır
Duaların ən əzəli
Sinəmdə bir tonqal yanır
Allah, Məhəmməd, ya Əli!

Düşmən olur bəzən nədən,
İnsanlara öz əməli
Qoru bizi bəd əməldən
Allah, Məhəmməd, ya Əli!

Haqsızlıq lap çıxıb dizə,
Aqilə dərs deyir dəli;
Nə çarə var dərdimizə,
Allah, Məhəmməd, ya Əli?!

Müsibətdir həyatımız
Ağlamalı, ya gülməli?
Ümidimiz, nicatımız
Allah, Məhəmməd, ya Əli!

Olum dönüb ölüm olub,
Əcəl də ki, lap məzəli...
Yaşamaq bir zülüm olub
Allah, Məhəmməd, ya Əli!
1990

HALVA DEMƏKLƏ...

Sən yanmasan, mən yanmasam...
N.Hikmət

Müdrik xalqın sınanılmış
Çox hikmətli misalı var.
Öz-özünə dağılmamış,
Ürək sökən qaranlıqlar.

Çörək dərdi çəkən kişi,
Buğdasını əkə gərək!
Qulluq edə, biçə, yığa,
Xırmanlara çəkə gərək.

Əkib, qulluq eyləməsək
Nə bağ olar, nə də bağça.
Həqiqəti söyləməsək,
Göz yaşımız çox axacaq.

Xoşbəxt günüyçün Vətənin,
Nə etmisən sən, ay "zirək"?
"Könlündən balıq keçənin
Ayaqları suda gərək".

Yatıb isti otağında,
Sən “qələbə” söyləyirsən.
Bərq vurur solun, sağın da
Qələbəni neyləyirsən?!

Əgər sənə əzizdirsə
Qələbəmiz, kəs gileyi!
Dediklərin təmizdirsə,
Əsgər şinelini geyin!

Döyüşməyə gücün də var,
Boy-buxunun, yaşın çatır.
Dostları özünlə apar,
Buna dilin, başın çatır.

Sürünsəm də, dizin-dizin
Yaltaqlıqla yoxdur aram.
Əmin olun mən də sizin,
Sıranızda vuruşaram.

Bax o zaman bilərəm ki,
Dediklərin yalan deyil.
Halva-halva söyləməklə,
Ağız şirin olan deyil...

1995

FƏLƏYİN ÇARXI

Cahanda ölməyən bir qanun var ki,
Həyatın təkəri dönür hər zaman.
Gələcək günləri duymayan hər kəs
Get-gedə məhv olar, alçalar, inan!
S.Vurğun

Sən ey vəzifəyə, şöhrətə fəda,
Bu günçün yaşama, çalış dünyada!
Dünəndən sabahı salginən yada,
Ayaqların altda daş, torpaq yanır
Bəli, bil fələyin çarxı firlanır.

İnsan xoş əməllə tanına gərək –
Mərdə arxa ola, məzluma kömək.
Minnətə çevrilir verdiyin çörək,
Səslər batırsan da, yatan oyanır
Sadəcə fələyin çarxı firlanır.

Bir gün yaxınların səni satacaq,
Xəyanət sinəndə tonqal çatacaq;
Taleyinə doğan günəş batacaq,
Görərsən hər tərəf qara boyanır
Beləcə fələyin çarxı firlanır.

Namərdə üz oldun, alçağa astar,
Dövrəndə fırlanır rəzil yaltaqlar...
Ay gözləri bağlı, qulaqları kar
İndidən ətrafın bil, səni danır
Həmişə fələyin çarxı firlanır.

Sanma yaxşı gedib yaman qalacaq,
Buğda yeyiləcək, saman qalacaq.
Dünyada daimi zaman qalacaq,
Bu bir həqiqətdir uşaq da qanır
Unutma, fələyin çarxı fırlanır!

1996

ŞEİR GƏLDİ DÜNYAYA

Tutulubdur səma,
Hər yan qapqara.
Baxıram hirslə,
Topa-topa buludlara.
Fikrim ayrı düşüb
ilhamımdan,
Nə deyim, necə danışım
arzularımdan, kamımdan?!
Ürəyimdə küləklər,
soyuq, sazaq...
Belə getsə,
yazıq ürəyim donacaq.
Yağır yağış, qar,
qopur tufan!
Ah aman, aman!...
Dözürəm, dözürəm,
bilirəm, belə bir qışın
Baharı da var...
Günəş görünür,
hər yan al şəfəqə bürünür.
Bağlarda açır
gül, çiçək;
Nəğmə deməyə,
tələsir ürək.

Can atır bir-birinə
sevənlər.
Necə xoşbəxtəm;
fikrim ilhamımla
vüsala çatdı:
Bir şeir gəldi dünyaya...
deməli mənim,
bir qayğım da artdı.

1987

BİR YERDƏ Kİ...

Bir yerdə ki, rəng istəklə görünə,
Ağ qaraya, qara ağa bürünə;
Zəlil olub qartal yerdə sürünə
O torpağa haqq nəfəsi dəyərmi?

Bir yerin ki, camaatı ac ola,
Aqilləri nadana möhtac ola,
Haqsızlığa hər yerdə rəvac ola
Ağsaqqalı heç özünü öyərmi?

Bir yerdə ki, fürsət düşə şeytana,
Fırıldaqlar sahib çıxa meydana;
Nankor övlad doğub, böyüdən ana
Nalə çəkib sinəsinə döyərmi?

Haçalanıb yolum düz əlli yaşda,
Qar görürəm kirpikdə, qaşda, başda;
Həyat adlı maraqlı bir savaşda
Vaqif Nəsir yorulmuşam deyərmi?...

1995

ZƏVVARA

Mina dağına çıxıb
Şeytana daş atırsan.
Hədəfi görməyəndə
Məqsədəmi çatırsan?

Əlində sıxıb daşı,
Kimə atırsan, tanı.
Nişan aldın, unutma
Öz içində şeytanı.

Atdığın o yetmiş daş,
Üç şeytana çatacaq?!
İçindəki şeytan da
Şeytana daş atacaq?

Sən atdıqca daşları,
Bir ətalət yox olur.
Əzildikcə başları,
Şeytanlarsa, çoxalır.

Dəyəcəkmi daş ona
Kim deyir o yerdədi?!
Xəyallara uymayaq
Şeytan əməllərdədi...

2002

QƏRİBLİK

Mən yaxşı bilirəm nədir, necədir
Qürbətdə qəriblik yükü daşımaq.
Yuxusu dəhşətli zülmət gecədir,
Vətəndə bir qərib ömrü yaşamaq.

Vallah öz yurdumda qərib kimiyəm,
Sanki vətəndaşlıq səsim alınıb;
Bilmirəm dərdimi mən kimə deyəm,
Qartal yuvasına ilan salınıb.

Bu həmin torpaqdır, bu həmin daşdır
Bu həmin insanlar, bu həmin adam...
Gördüklərim hamı mənə tanışdır,
Sanki mən onlara özgəyəm, yadam.

Hara üz tuturam qapılar bağlı,
Hər yerdə daş ürək, sərt üz görürəm.
Zor idarə edir zəkanı, ağlı
Burda insanlığı aciz görürəm.

Yaman ağırlaşıb tamahın daşı,
Kəsib tullamasan bir əlacı yox.
Olsam da bu yerin bir vətəndaşı,
Ağlıma, gücümə ehtiyacı yox.

Baxıram insanlar necə dəyişib,
Çoxu tamahına qul olub indi.
Ədalət incəlib, haqq itgin düşüb
Ağılın öçüsü pul olub indi.

Ciblərdə haramlıq çoxdan da çoxdur,
Halallıq ölçüsü gərək varın da.
Zalım, qaniçənə "dur" deyən yoxdur,
Rüşvətdir ağası qanunların da.

Barlı, bərəkətli vətən torpağı,
Millət məşəqqətdə, zülmdə, darda.
Çörək avarası, oğul, uşağı
Varı uduzulur kazinolarda...

Tanrı dərgahında günahımız var,
Bəlkə möcüzədir bizə göstərib.
Ürəkdə qocalır cavan arzular,
Vallah Vətənimdə qəribəm, qərib.

1999

VAR

Dünya sənlə barışmaram,
Nə qədər ki, yalanlar var.
Ədalətdən söz açmaram,
Qaçqınlar var, talanlr var.

Şər xeyirə qara yaxır,
Maskalanır köhnə paxır.
Haqsızlıq lap zilə çıxır,
Ayaq tutan yalanlar var.

Biri gəldi döyə-döyə,
Biri getdi yeyə-yeyə;
Can verib haqq deyə-deyə
Qanı yerdə qalanlar var.

2002

NƏYİ YAXŞIDIR

Hər hörmətə sahib, haram yeyənlər,
Haqlı kürsüsündə nahaq deyənlər.
Ağsaqqal yerində, özün öyənlər –
Axı bu dünyanın nəyi yaxşıdır?!

Oğru qanunlara düzəliş edir,
Məmur müdirinə sitayiş edir;
Qorxaq mərd önündə sərt gediş edir,
Axı bu dünyanın nəyi yaxşıdır?!

Bir fəryad hopubdu uşaq səsinə,
Zəhər qatılıbdı gül nəfəsinə;
Ana süd axtarır öz körpəsinə
Axı bu dünyanın nəyi yaxşıdır?!

Haqsız qalib gəlir haqqa hər zaman,
Güclü gücsüzlərə verməyir aman...
Həyat cılızlaşır, inan anbaan
Axı bu dünyanın nəyi yaxşıdır?!

Haqsızlıq çoxunu gətirib cana,
Yaşamaq dərd olub hər bir insana;
Uşaq doğduğuna peşiman ana...
Axı bu dünyanın nəyi yaxşıdır?!

Yazı qarışbdı payıza, qışa
Necə ümid olaq ürəyi daşa?!
"Nə ömrə acıyır, nə də ki yaşa"
Axı bu dünyanın nəyi yaxşıdır?!

2003

BİR ŞAİRƏ

Eşitdim yamanca sən narahatsan,
Qorxma öz yerindən, kədərə batma!
Yuxunu qaçırma, arxayın yat sən
Ağlı, düşüncəni hissinə satma!

Narahat olma ki, şeir yazıram,
Şeirin səması sonsuz genişdir.
Düşünmə peşəmə qəsdə hazıram,
Şeirim mənim üçün mənəvi işdir.

Şeirimdən ummuram mən çörək pulu,
Nə söz axtarıram, nə də qafiyə;
İlhamım deyildir qarnımın qulu,
Yazmıram şairlik şöhrətdir deyə.

Şeir hava, su tək gərəkdir mənə,
Mənim ondan özgə umacağım yox.
Şeirin şöhrəti qoy çatsın sənə,
İlhamlı olasan, gözlərinsə, tox.

Ilhamım sözləri bir-bir edir ram,
Şeirim göz yaşım, həm gülüşümdü.
Dünyaya göz açan hər kiçik misram,
Mənim öz dünyamla öz görüşümdü.

Demə xalq şairlik eşqinə düşüb,
Bu fikrin əxlaqa inan ki, yaddır.
Şair, sən yazdığın qəlibdə bişib,
Mənim şeirimsə, tamam azaddır.

1996

OLAR

İlhamsız nə çalsın könül rübabı?!
Ürəklər dağlayır dünya əzabı;
Bir dəfə yazılır tale kitabı
Heç onu yenidən yazmaqmı olar?!

Qanad da taparsan, uça bilərsən,
Düyünlər vurarsan, açа bilərsən,
Kim deyir baxtından qaça bilərsən,
Tanrı yazısını pozmaqmı olar?!

Nə qədər amansız olub insanlar?
Biri-birisinə zülm edir onlar...
Hər şeyin öz həddi, öz ölçüü var
Bu qədər yolunu azmaqmı olar?!...

2001

***

Bilməz nədir sədaqət,
Yaddır ona dəyanət;
Ünsiyyəti var-dövət –
Dostluğu pul olanın.

Söz taparmı deməyə?
Çiyin verməz əməyə;
Səcdəsi tək yeməyə,
Qarnına qul olanın.

Yalan-palan yeritməz,
Yıxdığını sürütməz;
Bağında qanqal bitməz
Əsil oğul olanın.

Baxtına nur süzülər
Ayı ilə düzülər...
Həmişə üzü gülər
Ömrü nağıl olanın

2002

UNUTMA

Sol deməklə bağçada, qızıl güllər solmayır,
Su tökməklə quyular, hamı bilir, dolmayır;
Məhəbbətin səması, duman, çənsiz olmayır
Başın qaldır yuxarı, sən o çəni unutma!

Özgə bir büsat idi həyatımız, günümüz,
Dosta qanad verərdi harayımız, ünümüz;
Səs salardı aləmə toyumuz, düyünümüz
Bülbüllərin məskəni o gülşəni, unutma!

Gözlərimdə yaşıl rəng, cənnətdəyəm elə bil,
Qızıl gülü vəsf edir, nəğməsiylə qərənfil.
Quşlar şehli ot üstə, sanki çalırlar təbil
Təbiətin xalısı, göy çəməni, unutma!

Məhəbbətə möhtacdır bütün cahan, bu aləm
Məhəbbət cüt qanadlı, bir qanadı dərd, ələm.
Sən ki, bütün ürəklə sədaqətdən vurdun dəm,
O sədaqət, bil mənəm; çalış məni unutma!...

2002

***

Deyirsən səbr eylə, səbr eyləyirəm
Yəni bundan özgə çarəmiz varmı?
Tanrı səbr edəni axı dost tutur,
Dosta da bu qədər zülüm olarmı?!

Səbri ən azı qırx ildir onun
Bu həddə deyəsən bununla bitmir.
Dəyişib zəmanə, dəyişib həyat,
Fəqət insan ömrü heç qırxı ötmür...

2000

PUL

Əliş müəllimə

Pula çarpayı alarsan,
Bu hələ yuxu deyil!
Ərzaq da satın alınar,
O da iştaha deyil!
Pula dərman satılır,
Sağlamlıqsa, satılmaz;
Pula ev-eşik alınar,
Lakin ocaq çatılmaz.
Pula kitablar alınar,
Bu hələ bilik deyil.
Bər-bəzək də almaq olar,
Bu da gözəllik deyil.
Pulla imkan tapılar,
Hər şərait, əyləncə...
Mədəniyyət tapılmaz
Xoşbəxtlik də ki, məncə.
Deyil həyatın canı
Yox canım, qısası yox!
Əqidə almaq olar,
Fəqət ki, xilası yox! 2002

DEMƏ

Dəyişmiş üzləri xəlvət izlədim,
Çoxu sifətini çevirmiş demə.
Tanrıdan zalıma cəza istədim,
O da zülümkarı sevirmiş demə.

Haqqı, ədaləti qalan dünyada,
Görmədim halalı alan dünyada;
Zalımlar hökümran olan dünyada
Yalan həqiqəti devirmiş demə.

2001

ÜMİDİ İTİRMƏMİŞƏM

Yenə də qəmliyəm, lap payız kimi
Onun yağışı var, mənim göz yaşım.
Kişiyə ağlamaq yaraşmasa da
Bulağı kor edim necə qardaşım?!

Üzümə damcılar dəydikcə dən-dən,
Qəlbimdə rahatlıq duyuram onda.
Mən öz günahımı öz gözlərimdən
Süzülən yaş ilə yuyuram, onda

Təbiət gözümə ayrı görünür,
Ürəyim darıxır, qəlbim sıxılır.
Elə bil ətrafım qara bürünür,
Sanki gözlərimə qanım yığılır.

Canın dərdinə bax, bəlasına bax,
Bir şey hiss etməyir ağrıdan başqa.
Köməyə can atır yaxın, həm uzaq
Ümid heç kəsə yox, Tanrıdan başqa.

İçimdə tələtüm, içim qaynayır,
Ağlım qəzəbimə cilov axtarır.
Sinəmdə ağrılar çalıb, oynayır
Özünə canımda bir ev axtarır.

Dözürəm, dözürəm, necə dözməyim?
Başladığım işi bitirməmişəm.
Bəhrə verməyibdi hələ əməyim,
Sabaha ümidi itirməmişəm.

2002

DƏHŞƏT

Düşsəm də həyatda min bir zillətə
Qəlbim tab gətirər dərdə, möhnətə;
Nadanlar aqilə, kütlər hikmətə,
Bayquşlar bülbülə güləndə, dəhşət!

Talelər bənzəməz biri-birinə,
Gərək biri uça, biri sürünə...
Bülbüllü, çiçəkli bahar yerinə
Çovğunlu boran, qış gələndə, dəhşət!

Məhəbbət səfalı, cəfalı aləm,
Orda sevinc də var, həm də dərd, ələm;
Nə qədər əziyyət olsa dözərəm,
Yarın dönüklüyün biləndə dəhşət!

2003

OMBA DURAN OV

Hər ovçunun tökdüyü qanın həddi var. Bu həddi aşan ovçunu görən şikarı necə deyərlər, omba durur. Yəni arxasını ovcuya çevirib tökdüyü qanlara etiraz əlaməti olaraq sanki "gəl məni də vur" deyir. Əgər ovçu omba duran heyvanı vursa fəlakətə düçar olar.

Professor Bəhlul Ağayevin söhbətindən

Nəfsiylə meşəyə od vuran ovçu,
Əl saxla, insafsız, nəfəsini dər!
Etdin təbiəti sən talan, ovçu
Allahsız, tökdüyüyn qanlar bəs edər.

Gah dərəyə endin, gah keçdin düzdən,
Baxmadın payızdı, bahardı, qışdı;
Ceyranı, cüyürü ayırıb bizdən
Dərdli ürəklərdə güllən alışdı.

Yetər, geriyə bax, bəd əməlindən
Təbiət də solub, lap cansız qalıb.
Sənin hikkəyindən, sənin əlindən
Meşələr pələngsiz, aslansız qalıb.

Gör necə təşnəsən tökülən qana,
Hara ayaq bassan qana boyanır.
Vurduğun dilsizlər gələrək cana,
Səni görən kimi, omba dayanır.

Sanki duruşuyla nişangah heyvan
Söyləyir: məni də vur, öldür alçaq!
Tamahı ağlına güc gələn insan,
Sanma tökdüyün qan yerdə qalacaq.

Yiyəsiz deyildir təbiət düşün
Vardır yaradanı, vardır quranı.
Gülləyə tuş olar bir gün öz döşün
Əgər nişan alsan omba duranı.

Ovun omba durur, qulaq as mənə,
Əl çək ovçuluqdan, əl çək silahdan!
Dəhşətli qış gəlir demək ömrünə,
Əfv istə Tanrıdan- böyük Allahdan...

1996

ƏSRİN LOĞMANI

Yaxın Şərq və Zaqafqaziyada ürəkdə ilk cərrahiyyə əməliyyatı aparan Professor H.Abdullayevə

Tarixə nəzər sal, əsrin loğmanı,
Çox vaxt bəd əməllər ayaq tutubdu.
Sənə quyu qazan "dostlar"ın hanı?
Kimi əriyibdi, kimi donubdu.

Nə qədər qüvvə var, yaratmaq gərək,
Əsrin zərbəsindən hamıya dəydi.
Qoy sənin özünə sual eyləyək:
Sevdiyin Cavidin günahı nəydi?

Allah sevdiyini sınayır hərdən,
Nələr görməyibdi bu tarix, nələr?
Hökm verildi ki, Tanrı tərəfdən
Çarmıxa çəkildi İsa peyğəmbər.

Hakimlər hiddətli, əsrim sürətli
Küləyi bəzən də gülləri yolur.
Bir el misalı var, yaman dəhşətli:
“El üçün ağlayan gözündən olur”.

Hərdən düşünürəm dünyaya gəldin,
Onun qəm yükünü daşımaq üçün.
Sən öz əməlinlə göyə yüksəldin
Yaşadıb, yaradıb, yaşamaq üçün.

Özün de, mümkünmü ürəkdə düyün,
Yeri var şöhrətin, fəxri adın da
Elin yaddaşında yurd salıb bu gün,
Bir ürək cərrahı Heybət adında.

Böyük səadətdir, əziz qardaşım
Bir məhəbbət olub, qəlblərə dolmaq.
Hər kəsə olmayıb nəsib, qardaşım,
Sağkən tarixləşib klassik olmaq.

Ayağa qaldırıb neçə qocanı,
Sən şəfa vermisən neçə cavana...
Sənə loğman deyib əlindən öpüb
Neçə cavan gəlin, ağbirçək ana.

Altmış beşə çatdı yaşın, əzizim
Sənin doğum günün mübarək olsun!
Nələr çəkməyibdir başın, əzizim
Dözümün bizlərə qoy örnək olsun!!

Dünyanın nə gözəl dəyişib rəngi
Bu əziz günündə, öpürəm səni.
Düzüb misralara bir söz çələngi,
Başına gül kimi səpirəm sənin...

1994

ÜRƏYİMDƏDİR

Mən elə bir vaxtda dünyaya gəldim,
Qapımız qıtlığa geniş yol oldu.
Hər nə qıt olsa da, pəncərəmizdə
Günəşin ziyası daim bol oldu.

Bu ziya çox tutub mənim əlimdən,
Bəzən ac qalanda çörəyim olub;
Qışın bəd nəzəri qarşılayanda
Soyuğa səd çəkən köynəyim olub.

Hər gələn sabahı gözlədikcə mən,
Günəş ümidimə işıq saçıbdır.
Qonaqsız-qarasız evimizin o,
Hər gün qapısını erkən açıbdır.

Mən ondan almışam həyat dərsini,
Həyatın yükünü daşımaq üçün.
Özü öz oduna necə yanmağı
O mənə oyrətdi, yaşamaq üçün.

Nə qədər borcluyam görən Günəşə?
Ana budağını bir bağ eyləyib;
Soyuqdan titrəyən zərif çiçəyi
İsidib, qəlbimi bir dağ eyləyib.

Bir an görməyəndə yerində onu,
Elə bil bu dünya kəm gəlir mənə;
Heç dözə bilmirəm Günəşsizliyə,
Onuncün axşamlar qəm gəlir mənə...

1978

***

Neçə günlər yaşadıq,
Biri yaxşı, biri pis.
İstisi el qızdıran
Çox ocaqlar qaladıq
Biri yaxşı, biri pis.
Günü günə caladıq
Biri yaxşı, biri pis

NƏYƏ GƏRƏK BU DÜNYA

Nəyə gərək bu dünya,
Nə atam var, nə anam.
Nəyə gərək bu dünya,
Yer altda yatır sonam.

Nəyə gərək bu dünya,
Verdi ağrı-acını
Nəyə gərək bu dünya,
Aldı məndən bacımı.

Nəyə gərək bu dünya,
Dağ etdi dərd qəmimi
Nəyə gərək bu dünya,
Əldən aldı əmimi.

Nəyə gərək bu dünya,
Məlum deyil niyyəti
Nəyə gərək bu dünya,
Dəhşətdir xəyanəti.

Nəyə gərək bu dünya,
Qəbahəti yaman çox
Nəyə gərək bu dünya,
Sabahına inam yox.

2020

İZZƏT ƏMİ

Uca idi, yenilməzdi
Başı qarlı dağlar kimi.
Qaynayırdı söhbətiylə, sözü ilə
Saf, büllur bulaqlar kimi.
Çətinlikdən heç qorxmayan
İgid idi, mətin idi
Zövq alırdı o həyatdan-
Fərq etməzdi, yaşamağı
Harda olsa, hara getsə
Xeyirxahlıq əkərdi o,
Sevincini bölüşərək,
Qəm yükün tək çəkərdi o.
Tanıyanlar xatırlayar
Onun şirin söhbətini,
Kəlamını, misalını.
Simasında görürdük biz,
Kişiliyin timsalını.
Möcüzəymiş bu dünyanın
Hər əməli, hər bir işi;
Bilinməyir nə gəlişi,
Nə gedişi...
Uca dağlar əridərmiş
Dərdi, qəmi...
Bu dağların sırasında
Hey canlanır göz önümdə

İzzət əmi.
Ömür keçir, yaş ötüşür
Yadımasa, nələr düşür...
Uca boyu, şax qaməti,
Həm gülüşü, həm yerişi.
Səliqədən zövq alardı
İzzət əmi, İzzət kişi.
Elm, təhsil yollarıda
Nur çiləyib, işıq olub.
Neçə-neçə məclislərə
Əvəzsiz yaraşıq olub.
Üşüyənlər pay götürüb,
Ürəyinin istisindən;
Bəzən gözü yaşla dolub
Dövrün acı tüstüsündən...
Zaman çəkib çox sınağa,
Hamısında qalib çıxıb.
Arxa olub dost-tanışa,
Düşməninsə başında o,
Şimşək olub elə çaxıb,
Yayı dönüb qarlı qışa!
İnanmıram çıxammasın
Ölüm adlı imtahandan,
Ola bilməz!
O, yaşamaq həvəsiydi,
Belə həvəs,
Heç bir zaman
Ölə bilməz!...

1982

ÜMİD

Yenə xəzan gəlib ömrünə sənin,
Pərən-pərən düşüb yaşıl yarpaqlar;
Amma əyilməzdir qamətin, qəddin
Səndə mətanət var, səndə vüqar var.

Mərdliklə dözərək ağır itkiyə,
Qəlbində min arzu, min dilək çağlar;
Gözümdə canlanır nənəm Səriyyə,
Sizin talelərdə bir bənzəyiş var.

Ağır döyüşlərdə, Vətən yolunda
Nənəm itiribdi oğullarını;
Kədər həm sağında, həm də solunda
Dursa da, əyməyib şah vüqarını.

Mən sənə baxıram, dərd yeyir məni,
Duya bilirsənmi halımı, çinar?!
Bu dərdə dözməzdim, bilməsəydim ki,
Üzümüzə gəlir xilaskar bahar...

1977



ANAMIN DUALARI

ANAMA

Sən mənim ümidim, sən mənim adım,
Sən mənim ən şirin sözümsən, ana!
Sən mənim vüqarım, müqəddəs andım,
Sən həyata baxan gözümsən, ana!

Kükrəyən-coşan gəncliyim,
Nəğmələr qoşan gəncliyim,
Uşaqlığım, nadincliyim-
O sənsən, sən.

Bağçamızda bitən laləm,
Şır-şır axan gur şəlaləm;
Mənim üçün bütün aləm-
O sənsən, sən.

Nəyi deyim, nəyi sayım?
Gündüz Günüm, gecə Ayım,
Payız, qışım, yazım, yayım-
O sənsən, sən.

Mənim sonsuz kainatım,
Uçmaq üçün qol-qanadim,
Şairliyim, elmi adım-
O sənsən, sən.

1973

ANAMIN DUALARI

Musiqisi Emin Nəsirindir

İstidə sərin küləkdi,
Şaxtada qalın köynəkdi...
Mənə arxadı, köməkdi
Anamın duaları.

Baxçamda güllər bitirir,
Arzumu kama yetirir,
Şəri, şeytanı itirir
Anamın duaları.

Ah nə qədərdir gunahım?!
Çətin çata haqqa ahum...
Yer üzündə tək pənahım –
Anamın duaları!

1997

MÜƏLLİM

Qollarıma qüvvət, gözlərimə nur,
İşıqsan ömrümə, günümə mənim.
Sən mənə vermisən cəsarət, qürur,
Ən çətin anımda oldun həmdəmim.

Bəzən incitmişəm mən səni yersiz,
Yadıma düşəndə basır məni, tər!
Bir körpə uşaqkən ağızsız, dilsiz
Sən mənə bəxş etdin dünyada nələr...

Ötüb o vaxtlardan fəsillər, illlər,
Fərqi nə, aliməm, yoxsa fəhləyəm.
Ömrün bağçasında bitirdin güllər,
Alnında qırışlar-sənə hədiyyəm.

Görüşə bilsəydim körpəliyimlə,
Bilsən necə onu yamanlayardım.
Zaman ötüşsəydi öz istəyimlə,
Onu səndən ötrü mən saxlayardım.

...Saçını ağarmış gördüm, müəllim!
Gör necə bürüdü qəlbimi dərd-qəm?!
Saçların qaraydı, axı bilmir kim
Onu ağ buluda mən çevirmişəm...

1987

MASALLI

Torpağının hər qarışı sərvətli, bərəkətli,
Toy-düyünlü xonçaları bəzəkli, min nemətli;
Qadınları sədaqətli, kişiləri qeyrətli –
Mənim anam Masallının.

Ağsaqqalla söhbət eylə, necə məzəli, duzlu!
Nənələrin qəlbi dolu neçə nağıllı, sözlü!
Zəhmət sevən gözəlləri min işvəli, min nazlı –
Mənim anam Masallının.

Qəlbi xoşbəxt günlər üçün köklənmiş bir kamandır,
Sinəsində zəhmət təri, sevinc adlı ümmandır;
Hər övladı bir igiddir, hər biri qəhrəmandır.
Mənim anam Masallının.
Yolunu sal İstisuya doyunca et tamaşa,

Təbiətdə gözəlliklər burda verib baş-başa...
Bir övladı sığınmayıb nə ömürə, nə yaşa –
Mənim anam Masallının.

Burda yetibdir vüsala Xəzərlə Talış dağı,
Burdan gəlir xoş ətirli neçə gülün sorağı.
Boynunda bir Viləş adlı mirvari boyunbağı –
Mənim anam Masallının.

Bu torpağa tay tapılmaz, dolaşsan da hər yanı,
Bu torpaqdan ruhun alır təbiətin öz canı.
Ünvanını sorursunuz? – Gözəllikdir ünvanı
Mənim anam Masallının.

1990

BORCLUYAM

Haqqa ucalan səsimçün,
Yaşamağa həvəsimçün,
Gedib-gələn nəfəsimçün
Anam, sənə borcluyam.

Güllərdən ətir qoxudum,
Sözlərdən çələng toxudum;
Bəlkə də mən heç yox idim
Sonam, sənə borcluyam.

Ürəyimdə istək, sayğı
Qaynayır eşqin bulağı...
İnnən belə neçə qayğı –
Balam, sənə borcluyam.

Ayağm yerdən üzülür,
Sözüm qəlblərə süzülür,
Özü misraya düzülür –
Dilim, sənə borcluyam.

Səndən gördüm qayğı, istək
Çiçəkləndi arzu, dilək
Mənə arxa, mənə kömək
Elim, sənə borcluyam.

1996

KƏNDİM

Səninlə görüşə gəlmişəm yenə.
Al məni qoynuna, ay ana kəndim.
Baş vurum keçmişə mən dönə-dönə,
Dilsiz xatirələr bəlkə dilləndi.

Rahatlıq bilmirəm səndən aralı,
Burda dincliyimi qoyub getmişəm;
Burda körpəliyi, uşaqlığımı,
Burda gəncliyimi qoyub getmişəm.

Ay isti qucağım, sənin qoynuna
Ağır fikirləri yormağa gəldim.
Çıxdım şübhələrin sonsuz sonuna,
İtgin ilhamımı sormağa gəldim.

Qırxı adlamışam, mehriban ana
Qara saçlarıma düşübdür ağ dən.
Yox, yox zarafatı qoyaq bir yana,
Sən də mənim kimi çox dəyişmisən.

Hanı qoca palıd, sehirli bulaq,
Tarixə söykənib uyuyan evlər?
Yoxsa möcüzədən gətirib soraq
Nağıllardan gələn xeyirxah divlər...

Hüsnünə baxdıqca tanımaq olmur,
Hanı qaranlıqda yatan gecələr?
Yazda açan güllər qışda da solmur,
Nağıla çevrilib sirli gecələr...

İndi düşünürəm, görən dünyanın
Həqiqəti nədi, yalanı nədi?
Mənə əziz olan uşaqlığımdan
Bu gün kəndimizdə qalanı nədi?

Gördüm ki, qalanı yüz on yaşında
Nurani babamın boz çuxasıdır.
Bir də kəndimizdə ağac başında
Vəfalı Leyləyin ot yuvasıdır...

1994

ANA

Atamı itirdim körpə yaşımda,
Sən verdin ömründən mənə pay, ana!
Nə tufanlar qopdu dərdli başımda,
Qismətinə düşdü hay, haray, ana!

Günahkar bilirəm, zalım fələkdi,
Eşitməz eylədi haray səsini;
O dəhşətli günlər üzünə çəkdi,
Çətin həyatının xəritəsini.

Hansı xoş günlərin qalıb yadında?!
Axtarma, tapmazsan, yoxdur lüzumu.
Sənin timsalında, sənin adında
Sınağa çəkildi insan dözümü.

Səni tanıyanlar söylədi qəti:
“Bu qadın özünün vallah əridi”!
Qadın zərifliyin, qadın ülfətin
Kişi işlərində yanıb əridi.

Həyatın dünyanın bir möcüzəsi,
Çiynində cüt insan yükü daşıdın.
Qadın tək gəlsən də qoca dünyaya
Həm kişi, həm qadın ömrü yaşadın...

1998

NECƏ OVUNDURUM MƏN SƏNİ ANA

Bu gün çiynindədir dünyanın qəmi,
Necə ovundurum mən səni, ana?!
Ahın yandıracaq vallah, aləmi,
Necə ovundurum mən səni, ana?!

Ömründən ömürlük yazı itirdin,
Ruhuna ruh verən sazı itirdin,
Sənə ana olan qızı itirdin
Necə ovundurum mən səni, ana?!

Xəstəsi əlacsız loğman kimisən,
Bağın boran vurmuş bağban kimisən,
Dəryada köməksiz insan kimisən.
Necə ovundurum mən səni, ana?!

Dərdi yerə deyim, göyə bilmirəm,
Dərdi qırmaq nədi, əyə bilmirəm;
Mən sənə "ağlama" deyə bilmirəm
Necə ovundurum mən səni, ana?!

Acı həyat gördün lap zəhər kimi,
Əsla qırılmadın igid ər kimi,
Zamanla vuruşdun bir əsgər kimi
Necə ovundurum mən səni, ana?!

Mənə baxa-baxa gözün yol çəkir,
Ömür karvanını sarvan zor çəkir...
Tanrı ömrümüzə özü qol çəkir
Necə ovundurum mən səni, ana?!

2000

ANA HAQQINDA MAHNI

Musiqisi: A.Ağasiyevindir

Həyatını bəxş etmisən,
Bu dünyada sən mənə.
Gör nə qədər borcluyam,
Oğul kimi mən sənə.

Min budaq anam,
Qəlbi dağ anam,
Övlad yanında
Üzü ağ anam.

Sənin hər acı kəlmən
Baldan şirin sözümdü,
Öyüdün, nəsihətin,
Mənim görən gözümdü.

Qəlbi bağ, anam
Saf bulaq, anam
Ömrüm işığı,
Çil-çıraq, anam.

Çiynində həyat yükü,
Ver mən özüm daşıyım.
İnnən belə ömrümü
Qoy sənincün yaşayım.

Qəlbi dağ, anam
Min budaq, anam
Ürək isidən
Gur ocaq anam.

2002

ANAMI YUXUDA GÖRƏNDƏN SONRA

Baxıram ətrafım çiçəkli bağdır,
Sanıram ki, anam hələ də sağdır-
Anamı yuxuda görəndən sonra.

Cana qüvvət gəlir, hərəkət gəlir,
Evə xeyir gəlir, bərəkət gəlir
Anamı yuxuda görəndən sonra.

Mənimçün dəyişir hər şeyin dadı,
Daha çox sevirəm dostu, övladı
Anamı yuxuda görəndən sonra.

Dönüb cavanlaşır, uşaqlaşıram,
Hər qəmdən-qüssədən uzaqlaşıram
Anamı yuxuda görəndən sonra.

2017

***

Atanı, ananı, itirmək ağır
Ata övladına arxa, dayaqdır;
Çətinə düşəndə ananı çağır,
Həyat yollarında ana mayaqdır.

Ətrini aləmə yayan gül-çiçək
Zamanı çatanda solmaq istəyir.
Torpaq da canlıdır, o da bizim tək
Atalı, analı olmaq istəyir...

2020

BİR ANA TANIYIRAM

Bir ana tanıyıram,
Itirib balasını.
Təkcə balasını yox,
Ümidli dünyasını,
Arzulu dünyasını.
Hamı təsəlli verir,
Hamı səbr diləyir:
Şəhidlik bir zirvədir,
Fəxr et, xoşbəxtsən,deyir.
Ana ümidsiz qalıb,
Evi işıqsız qalıb
Nə çoxmuş ümid verən,
Səmimidirlər görən?!
Bir məmuru da gördüm
Təsəllini verəndə,
Təkəbbürlə tutmuşdu
Bir bağlama əlində.
Ey anaya təsəlli,
Çoxlu ümid verənlər,
Şəhidliyi fəth edir

Mərd oğullar, ərənlər…
Şəhidlik bir zirvədir,
Razıyam, sözüm yoxdur!
Niyə bəs bu sırada
Sizdən biriniz yoxdur,
Yaxud balanız yoxdur?!

2023

FƏXR ELƏ

Şəhid anasına

Gecələri oyaq qaldın,
Səhərədək layla çaldın,
Nə paydır taledən aldın?
Ağlama ana, ağlama!

Bu dünyanın özü yalan,
Hər kəlməsi, sözü yalan;
Ölməyibdi şəhid balan
Ağlama ana, ağlama!

Sən yetirdin qəhrəmanı,
El namusu qoruyanı,
Vətən üçün axdı qanı
Ağlama ana, ağlama!

Gətirmə ağılar dilə,
Göz yaşın dönməsin selə;
Şəhid balanla fəxr elə
Ağlama ana, ağlama!

2002

BORADİGAH

Sabahı işıqlı, nurlu səhərsən
Hicranı dözülməz dərdsən, qəhərsən;
Mənimçün həm kəndsən, həm də şəhərsən
Mahnıya çevrilir sözüm, Boradigah.

Sənsən sevgi dolu vüsal məkanı,
Ruhuma ruh verən sənintək, hanı?!
Əmələlin ucaldır Azərbaycanı
Ey isti ocağım, közüm, Boradigah.

Sənindir dilimin ən şirin sözü,
Sinəndə canlanır təbiət özü...
Bu gün bilməyirəm mən sözün düzü
Səndə qalacaqmı izim, Boradigah.

Sənə gözəllikdə kim çata bilər?!
Haqqını nahaqqa kim qata bilər?!
Axı övladına kim bata bilər,
Sinəndən güc alsa dizim, Boradigah?!

Qalxana çevirib özgə dilləri,
Ömrümə caladım qürbət illəri.
Gəzib dolansam da neçə elləri,
Səndədir ürəyim, gözüm, Boradigah.

Vaqif Nəsir necə vəsf etsin səni,
Sən ey ilk eşqimin yurdu, məskəni...
Qoy açıq söyləyim qəlbdən keçəni:
Sən mənim özümsən, özüm, Boradigah!

1998

KƏNDİMİZ HAQQINDA NƏĞMƏ

Musiqi: Emin Nəsir

Talış dağlarıyla Xəzər həyanın,
Igid oğlun, qızın şöhrətin, şanın
Sən dilbər guşəsi Azərbaycanın

Nəqarət
Sevirəm mən səni,
Ey şəhər ürəkli kəndimiz,
Sevirəm mən səni,
Xoş arzu-diləkli kəndimiz

Sən bizə taledən ən qiymətli pay,
Gecəni salamlar ulduzlarla, Ay;
Tapılarmı sənə, söylə görüm tay?
Nəqarət
Sevirəm mən səni,
Ey bahar ürəkli Mollabam,
Sevirəm mən səni,
Halal duz-çörəkli Mollabam.

Varlığın Tanrının öz hikmətidir,
Sərvətin aqilin söz hikmətidir…
Qismətin torpağın bərəkətidir

Nəqarət
Sevirəm mən səni,
Ey bahar ürəkli kəndimiz,
Sevirəm mən səni,
Xoş arzu-diləkli kəndimiz

Sən mənim ömrümün ən gözəl çağı,
Qəlbim hərarəti, ata ocağı,
Mənim son məkanım, ana qucağı,

Nəqarət
Sevirəm mən səni,
Xoş arzu-diləkli Mollabam,
Sevirəm mən səni,
Halal duz-çörəkli Mollabam.

2015

EVİMİZ MƏNDƏN KÜSÜB.

Dərdlidir, çarəsi yox,
Qonağı-qarası yox-
Evimiz məndən küsüb.

Qapısına açar düşmür,
Ocağında xörək bişmir
Evimiz məndən küsüb.

Eşidilmir uşaq səsi,
Cavanların qəh-qəhəsi
Evimiz məndən küsüb.

Otaqlardan işıq gəlmir,
Ağsaqqal səsi yüksəlmir
Evimiz məndən küsüb.

2015

SÖZLƏRİNDƏ YALANI VAR

Bir nəzər salsan əgər sazəndələr dəstəsinə
Görərsən hər alətin öz ustası, çalanı var.

Sanmayaq hər yazının izi ürəklərdə qalar,
Hər sözün xiridarı, hər kəlmənin alanı var.

İş əgər başdan aşa nazü-nemət bazarında
Yenə də satılmayıb müştərisiz qalanı var.

Qınama bizdən əzəl qəliz yolda azanları,
Sirr deyil, çox yolların sonunda bir dalanı var.

Gəl demə Vaqif Nəsir bu dünyaya yalan dünya,
O deyil əsla yalan, sözlərində yalanı var.

2010

ÜRƏYİMDƏN KÜSMÜŞƏM

Ürəyimdən küsmüşəm,
Ağrıyır gündüz-gecə
Ağrılara öyrədir,
Məni bax o, beləcə.

Ürəyimdən küsmüşəm,
Gözümdən yaş axıdır.
Enib-qalxan sinəmə
Damcılı daş axıdır.

Ürəyimdən küsmüşəm,
Yaman şıltaq olubdu.
Heç özümdən xəbərsiz
Qəm-kədərlə dolubdu.

Ürəyimdən küsmüşəm,
Bilmir başın qədrini.
Duyammıram bəşərin,
Bu dünyanın dərdini.

Ürəyimdən küsmüşəm,
Azalıbdı dözümü;
Çırpıntısı artdıqca
Hiss etmirəm özümü.

Ürəyimdən küsmüşəm,
Ağrıyır gündüz-gecə
Ağrılara öyrədir
Məni bax o, beləcə

2000

BAĞIŞLA ÜRƏYİM

Səni çox incitdim, əziyyət verdim
Səndə yuva saldı nə qədər dərdim,
Hər pisi-yaxşını sənə göndərdim,
Bağışla ürəyim, bağışla məni.

Sən haqq yolunda bir məşəl-ürəkdin
Haqsız vurulana arxa, köməkdin,
Solan bir gülün də dərdini çəkdin,
Bağışla ürəyim, bağışla məni.

Dünyada eybəcər hər nə var gördün,
Neçə »sapı bizdən baltalar» gördün,
Ziyalı, boynunda xaltalar gördün
Bağışla ürəyim, bağışla məni.

Yaşamaq istədin yalnız düzünə,
Həmişə tuş gəldin nadan sözünə
Qıymadın özgəyə, qıydın özünə
Bağışla ürəyim, bağışla məni.

Sənə əzab verdi haqqı əyənlər,
Ürəkdən xəbərsiz fikir deyənlər,
Yaltaqlıq taxtında özün öyənlər,
Bağışla ürəyim, bağışla məni.

Indi kimdir sevən doğru olanı,
Yaman başlayıbdır haqqın talanı…
Nə qədər danışar insan yalanı
Bağışla ürəyim, bağışla məni.

Həyatımla sənə verirəm əzab,
Üzümə vurmadan gətirirsən tab…
Çəkərsən mənimlə bir gün haqq-hesab
Bağışla ürəyim, bağışla məni… 2020

MƏNƏ ÜMİD VERİN

Mənə döğum günü heç bir hədiyyə,
Gətirməyin dostlar, gərəyim deyil.
Bir istəyim vardır-ümid gətirin,
Ümid ehtiyacım tükənir hər il.

Mənə ümid verin doğum günündə,
Bu gün ona böyük ehtiyacəm var.
Dünya boyda olsa varım əlimdə,
Mənə arxa kömək bir ümid olar.

Mənə ümid verin yaşaya bilim,
Atdığım hər addım inamlı olsun,
Ömür adlı yükü daşıya bilim,
Həyatda açdığım bir izim qalsın.
Bu gündən sabaha ümid olmasa,
Nə ocaq çatılar, nə ev qurular,
Inamı yaradan ümid olmasa,
Arzular şüşə tək sınıb qırılar.

Mənə ümid verin, onun acıyam
O yanan qəlbimə sərinlik verir.
Mən bircə ümidin,dost,möhtacıyam
Ümid düşüncəmə dərinlik verir…

2015

ATAMA

Musiqi: Emin Nəsir

Sənsən qollarımın gücü, qüvvəti
Sənsən dizlərimin taqəti, ata!
Sənsən bu dünyanın varı-dövləti
Mən səndən almışam qüvvəti, ata!

Yenilməyən uca dağım
Bar-bəhrəli bağça-bağım
Xoş günlərim, xoş növrağım –
Sənsən ata, sənsən ata!

Damarlardan axan qanım,
Öz dünyamda öz sultanım.
Həyatda ən şirin anım –
Sənsən ata, sənsən ata!

Gül qoxulu göy çəmənim,
Hikmət dolu söz gülşənim,
Ana torpağım, Vətənim –
Sənsən ata, sənsən ata!

1996

ANA DƏRDİ

Dostum İskəndər Cəfərova

Ananı torpağa tapşırdın bu gün,
Torpağın nə qədər dərdi var, qardaş?
Ömrə ölüm vurur açılmaz düyün,
Ölümün namərdi, mərdi var, qardaş.

Dəfn etdin ananı yana-yana sən,
Şirin laylasına "əlvida" dedin.
Hər namaz başında göyə yüksələn,
Ana duasına "əlvida" dedin.

Əlli il qocaldın sən bircə gündə,
Axı ana sağkən bir uşaq idin;
İndi özün daşı ana yükün də,
Sən həyata keçir, istəyin, əhdin.

Saxla daşdan ağır göz yaşlarını,
Anadan övladlar, nəvələr qalıb.
Analar torpağa qovuşduğundan,
Torpaq ana Torpaq adını alıb.

Ana torpaqlaşıb yaşayır deyə
Böyük məhəbbətin torpağa olsun.
Hər yaşıl budağa, göy çəmənliyə,
Hər açan çiçəyə, yarpağa olsun.

Ana ölməzlikdir, həmişə sağdır
Ruhuyla hopubdur yaddaşa, yada
Bizimlə həmişə yaşayacaqdır –
Torpaq əbədidir axı dünyada...

1992

ƏLLİ YAŞIM

Bu gün əlli döydü qapımı mənim,
Sanki yuxudaydım, gəlib oyatdı.
Mənim həyatıma qoycaq qədəmin,
Ömrün payızının xəbəri çatdı.

Bir nəzər salıram keçdiyim yola,
Vallah mən qalmışam yaman çaş-başda;
Az qalır gözlərim yaş ilə dola –
Atam qırx dörd yaşda, mən əlli yaşda.

Nəyi düşünsəm də, xatırlasam da
Gözlərim bir yola zillənir bu gün.
Özüm dinməsəm də, danışmasam da
Dilsiz xatirələr dillənir bu gün.

Dünyanı görmüşəm mən neçə rəngdə,
Bu yarım əsrdə, bu əlli ildə
Səsini duymuşam neçə ahəngdə
Gah qəlb alan bəmdə, gah da ki, zildə.

Üz-üzə dayandım dünyamız ilə
O evin sahibi, mən isə qonaq.
Tələsik caladım illəri ilə
Bildim, gecikənə əhv olmayacaq.

Gah qəmə çevrilir gözlərimdə o,
Gah da ki, bir dəstə çiçəyə dönür.
Yalana çevrilir sözlərimdə o,
Bəzən də gözələ, göyçəyə dönür.

Nə yaxşı payız, qış, yay, baharı var,
Fəsillər könüldə əlvan duyğular;
Nə yaxşı, yaxşısı, yamanı da var,
Zalımlığı da var, amanı da var...

Əbədi olsa da dünyanın özü,
Mən onu anbaan dəyişən gördüm.
Bəzəyi insanın varlığı, sözü
İnsanla mən onu xoşbəxt, şən gördüm.

Baş-başa verərək taleyimlə mən,
İlləri adlayıb, əlliyə çatdım.
Yeni arzu, istək qopdu qəlbimdən,
Artıq fikirləri başımdan atdım.

Əlli nədir? – Qəlbdən bir sual axdı
Cavab aldım: Ömrün uca dağıdır.
Əlli qocalığın cavanlıq vaxtı,
Əlli cavanlığın müdrik çağıdır.

1995

ATAM ÖLƏNƏ KİMİ

Müjdəli soraq idim,
Qüssədən iraq idim,
Saçıma dən düşsə də
Sanki bir uşaq idim
Atam ölənə kimi.

Xəyaldan alıb ilham,
Gözəlləşdi öz dünyam;
Həyat ayrı dadırdı,
Cahan özgəydi tamam
Atam ölənə kimi.

Ümid dərd həkimidi,
Həyat yuxu kimidi...
Ömrü də dünya təki
Sanırdım daimidi
Atam ölənə kimi.

Qəlbdə sevinc daşıdım,
Qibtə etdi yaşıdım...
Ayrı cahanda oldum,
Ayrı ömür yaşadım
Atam ölənə kimi...

2000

BACIMA

Qəlbində gizləyib hər dərdi, qəmi
Sevincə hamını sən şərik etdin.
Həyata başladın yetim qız kimi,
Həyatdan ana tək, nənə tək getdin.

Bu məzar evindir, son mənzilindir,
Sənsən sahibəsi, deyilsən qonaq;
Burda tənhalıq yox, ətraf elindir
Axı bir insandır hər ovuc torpaq...

2001

* * *

Bu necə dağ idi sinəmə çəkdin,
O dağı mən necə daşıyım, bacım?!
Sən mənə arxaydın, mənə köməkdin,
Mən sənsiz bəs necə yaşayım bacım?!

Gəlişin qiyamət, gedişin dəhşət!
Qayğılı günlərin gəlirmi saya?!
Taleyin qəribə, həyatın heyrət,
Əzab çəkməyəmi gəldin dünyaya?!

Elə hey üzürəm, sahil görünmür,
Fikir dəryasında boğuluram mən.
Dərd məni öldürür gündə yüz dəfə,
Bu dərdlə yüz dəfə doğuluram mən...

Gör necə kiçilib dünya gözümdə,
Günəşin nuru da az gəlir mənə;
Göz yaşım naləyə dönür sözümdə,
Sinəmdə alışır köz dönə-dönə.

Özümü demirəm, yazıq ananı
Dünyadan köçəndə düşündünmü heç?!
Toyuna qalmadın doğma balanın,
Bu necə ayrılıq, axı necə köç?!

Dərk edə bilmirəm yoxsan yanımda
Əcəldi, yoxsa bu ölüm oyunu?
Sənsiz necə sevinc axar canımda,
Necə edəcəyəm oğul toyunu?!

Bəs necə duyaram ətrini gülün,
Yazı qarşılayib yola salaram?!
Necə eşidərəm səsin bülbülün,
Həyatdan bəs necə ilham alaram?!

Bəs necə dözərəm borana, qara
Canımda ağrılar necə kəsəcək?
Nə deyim masamda ağ varaqlara?
İlhamım əbədi məndən küsəcək...

Bəs necə gedərəm toya, büsata,
Necə sevinərəm, necə gülərəm?!
Sənin sevincinlə gəldim həyata,
Fəryadın olmadan necə ölərəm?!

Gedişin bax belə mənə dərd oldu,
Çox çətin sağala sinəmdə yaram.
Xəyalın əbədi gözümə doldu,
Mənimlə olacaq, nə qədər varam...

2000

CAVANLIĞIM

Şux qaməti çinar kimi,
Təbiəti bahar kimi,
Şirindi arzular kimi,
Bir şərbətdi cavanlığım.

Ağsaqqalın çörəyində,
Ata-ana diləyində,
Bir gözəlin ürəyində
Məhəbbətdi cavanlığım.

Dost, qohuma gərəkdi o,
Təmiz sudu, çörəkdi o,
El-obaya köməkdi o,
Həm qeyrətdi cavanlığım.

Dağlar kimi əzəmətli,
Gül ətirli, təravətli,
Zəmilər tək bərəkətli
Var, nemətdi, cavanlığım.

2000

MƏN BU YERİ GÖRMƏMİŞDİM

Quşlar necə dil-dil ötür,
Hər tərəfdə yaşıl çətir;
Torpaq verir özgə ətir
Mən bu yeri görməmişdim.

Başı qarlı dağa bir bax,
Sola bir bax, sağa bir bax!
Dağ başında yola bir bax –
Mən bu yeri görməmişdim.

Ağaclardan yaşıl çadır,
Bulaqları şəkər dadır.
Cənnətin özü burdadır –
Mən bu yeri görməmişdim.

Oğulları mərd, igid, ər
Gözəlləri şirin, şəkər,
İnsanları qonaqpərvər,
Mən bu yeri görməmişdim.

Qəbələ, mərdlər oylağı,
Yurdumun ulu torpağı;
Özüm bir ağac yarpağı,
Mən bu yeri görməmişdim.

1996

AXTARIRAM

Bu yerlərə hər gələndə,
Ruhum uçur göy çəməndə...
O küçədə, bax bu tində
Öz izimi axtarıram.

Hikmət dünyam – aqil sözü,
Ürəyimin odu, közü.
Söz içində sözün düzü
Haqq sözümü axtarıram.

Xəyallarım uzaqlarda,
Sitəmlidi bu dağlar da...
Qəlb isidən ocaqlarda
Od-közümü axtarıram.

Bir cüt gözün qarasında,
İgidlərin sırasında,
İnsanların arasında,
Mən özümü axtarıram.

1998

SALAM, QƏBƏLƏ

Salam gözəl Qəbələ,
Qədim Oğuz torpağı!
Salam, qoç igidlərin
Əsrlərdən sorağı!

Salam, ey yurdumuzun
Yenilməz, uca dağı!
Salam, mərd kişilərin
Dağdan uca papağı!

Salam, gözümə işıq
Ağbirçək, əziz ana!
Salam, təbiətə də
Gözəllik verən sona!

Salam yeni gördüyüm
Ay mehriban insanlar!
Salam, alın təriylə
Tariximi yazanlar!

Salam, ey əzəmətli
Dəmiraparan çayı!
Hər il istəyəcəyəm
Bulağından su payı.

Salam, halal zəhmətdən
Əli qabar olanlar!
Nə yaxşı aranızda
Bizim usta Şakir var*.

* *Usta Şakir maşınımızın yolda partlamış təkərini təmir edən ustadır.*

Salam, alma, fındıq, qoz
Nar, şabalıd ağacı!
Salam, uca dağların
Başının yaşıl tacı!

Salam, Cənnətə gedən
Xırxatala yolları!
Ruhuma sığal verdi
Hətta tikan kolları?!

Salam, tarixə dönən
Dostun qoca daxması!
Dostluq qədər müqəddəs
Pendir, çörək loxması!

Gözəllikdən dost payı
Gözümlə qoparıram!
Burdan xoş xatirələr
Özümlə aparıram.

1998

DAĞLAR

Həmdəmin həsrət üzünə,
Dözürsən, de, necə dağlar?!
Çayların dolub gözümə
Səhər, axşam, gecə, dağlar!

Taledən bu necə paydır?! –
Qəlbim dağılmış saraydır;
Yazım yaz, nə yayım yaydır,
Günüm dönüb heçə dağlar!

Ağlar qalıb göz yurdumda,
Təsəllimdi söz yurdumda...
Öz elimdə, öz yurdumda
Qaldım köçə-köçə dağlar!

Elin axdı qanı bu gün,
Koroğlular hanı bu gün?!
Şərəfsiz düşmanı bu gün
Qanqal kimi biçə dağlar!

Çoban çalsın qoy bayatı,
Kişnəsin Nəbinin atı;
Cəm edib eli-elatı
Qoynuna bir köçə, dağlar!

Yandırır bir istək məni:
Başım üstən qovum çəni,
Qucum səni, öpüm səni
Qolum gəlsin gücə, dağlar!

Bulaqların əfsanə, sirr
Yada düşür, qəlbim əsir...
Köksü odlu Vaqif Nəsir
Suyundan bir içə, dağlar!

1995

AĞIR İTGİ

Əlirza dayının işıqlı xatirəsinə

Səndən ayrı düşmək zülümdür, dayım
Şeirim ağlayır, sözüm ağlayır.
Qaraya bürünüb baharlı ayım,
Vüqarım sarsılır, dözüm ağlayır.

Biz səndən alırdıq öyüd, nəsihət,
Daim dayaq idin sən səbrimizə.
Sənsiz özgələşib sanki təbiət,
İndi kim təsəlli verəcək bizə?!

Sən idin səxavət, hikmət bulağı
Həyatda həmişə yaxşılıq etdin.
Dünyaya kişi tək gəlmişdin axı,
Elə kişi kimi dünyadan getdin.

Sənin qeyrətini vəsf eyləməyə
Necə gücü çatsın dilsiz sözlərin?!
Dünyanın yükünü saldın ürəyə,
Havadarı oldun kimsəsizlərin...

Səndin məclislərin bəzəyi, başı
Daim qanad verdin sevincimizə;
Necə razı oldun töksün göz yaşı,
Candan çox sevdiyin dostun Firuzə?!

Səninlə özgəydi həyatın dadı,
Səndin asan edən hər çətin işi.
Niyə yalqız qoydun dostun Qubadı,
Sən ey vəfalı dost, əvəzsiz kişi?!

Ölkələr gəzsəm də, ellər gəzsəm də
Fəqət ilhamımı səndən almışam.
Atamı körpəykən mən itirsəm də,
Sanıram ki, indi yetim qalmışam...

Bir təsəlli vardır, xoş əməlini
Əziz balaların daşıyacaqdır!
El-oba heç zaman unutmaz səni,
Xatirən qəlblərdə yaşayacaqdır.

26.02.2001

BƏNÖVŞƏ

Bəstəkar dostum Aydın Ağasiyevə

Fəsillər gözəli bahar da gəldi,
Sən özün hardasan, harda, bənövşə?!
Sənin xoş ətrinlə bahar gözəldi,
Aşiqi qoymusan darda, bənövşə.

Bahar tül örpəyi yerə salanda,
Bülbül gəlişinə nəğmə çalanda,
Xoş ətrin ruhumu əsir alanda
Əriyir qəlbimdə qar da, bənövşə.

Eşqiylə ucalır insan dünyada,
Taledən bac alır insan dünyada...
Eşqsiz qocalır insan dünyada
Yalandı dövlət də, var da, bənövşə.

Ürək, sözlərimlə bir məni dinlə
Nə boynunu bükmə, nə də ki, inlə!
Sənin dünya boyda təmiz eşqinlə
Kamanda dillənir, tar da, bənövşə.

Sənsən çiçəklərin başının tacı,
Vüsalın bal kimi, həsrətin acı...
Dərdli ürəklərin şəksiz əlacı
Sən varsan, var olan yar da, bənövşə.

1997

KƏLBƏCƏR

Dostum Yusif Kərəm oğluna

Keçməmişəm Dəli dağdan,
İçməmişəm buz bulaqdan;
Xəbərim yox gözəl çağdan
Həsrətin qəlbimdən keçər
Ah Kəlbəcər, oh Kəlbəcər!

Hər qarışın bir şəkildi,
Yaman bazara çəkildi...
Kimlər qaldı, kim əkildi
Alan xəbis, satan ləçər
Oy Kəlbəcər, uf Kəlbəcər!

Sevinməsin alçaq yağı,
Vüqarımın uca dağı!
Torpağından yad ayağı
İgidlərim kəsər, biçər
Ay Kəlbəcər, hey Kəlbəcər!

Hər ucalıq, hünər səndə
İlahi bir əsər səndə;
Qorxmaz, igid, mərd, ər səndə
Oğlun Nəbi, qızın Həcər
Can Kəlbəcər, ah Kəlbəcər!

Dözümünə min alqışlar!
Ötüb keçər qarlı qışlar...
Yaz müjdəli qaranquşlar
Yuvasına dönüb, köçər
Oh Kəlbəcər, uf Kəlbəcər!

Gizləmirəm, deyildir sirr,
Həsrətin səbrimi kəsir...
İsti sudan Vaqif Nəsir
İnşaallah doyunca içər
Can Kəlbəcər, can Kəlbəcər!

1999

ZAQATALA

Almışdım xoş sorağını,
Görməmişdim növrağını;
Gəzməmişdim torpağını
Vurulmuşam gül camala,
Səni görcək, Zaqatala.

Bulaqların zümzüməsi,
Bağlarda quşların səsi –
Təbiətin möcüzəsi!
Bu yan meşə, o yan tala
Gözəl, göyçək Zaqatala.

Sevənlərin sirdaşısan,
Tariximin yaddaşısan;
Masallının qardaşısan
Yan-yörəsi yaşıl qala,
Solmaz çiçək, Zaqatala.

1999

MÜBARƏKDİR BAYRAMINIZ

Novruz gəlir qonaq bizə bu gün yenə,
Mən öpürəm səni anam, dönə-dönə.
Qara günü saçlarında ağ gül açan,
Ömrümüzə bəzək vuran, işıq saçan.
Övladların qəmli nəğmə dodağında
Azadlığın, xoşbəxtliyin sorağında
Dayanıbdır qarşısında dəli selin.
Qaçqınlıdı, köçgünlüdü bu gün elin
Söyləyərəm lap tarixin öz dilindən,
Zaman xəcil olacaqdır əməlindən.
Acı tüstü dolan zaman gözümüzə,
Diləyim var xalqımıza, elimizə:
Qulaqları dəlib deşsin haqqın sözü,
Qələbədən şərbət içsin haqqın özü!
Azad olsun hər möhnətdən oğlun, qızın
Qarşısına xoşbəxt çıxaq gələn yazın!
Xoş sabahlı olsun hər bir axşamınız,
Mübarəkdir bayramınız!

Sizinləyəm, siz ey şəhid anaları,
Sizinləyəm, siz ey şəhid ataları!
Şəhidlərin qara günlü sonaları,
Əlinizdən getməyib toy hənaları...
Sizinləyəm, dərdli qardaş-bacılarım,
Qövr eyləyir ağrılarım, acılarım.
Sizinləyəm, öz elində didərginlər!
Sizinləyəm, qəm selində didərginlər!
Qoy ar olsun torpağını satanlara!
Yad ölkədə, yad kölgədə yatanlara!
Nahaq qanlar heç vaxt yerdə qalmayacaq,
Yoxsa tarix, özü tarix olmayacaq!
O tarix ki, sifətində ləkələr var,

O ləkəni şəhidlərin qanı yuyar...
Nə diləyim əziz gündə deyin, sizə?!
Tanrım özü qüvvət versin səbrinizə.
Qoy çin olsun hər arzunuz, hər kamınız
Mübarəkdir bayramınız!

Yurdumuzun cavan oğlu, cavan qızı,
Məhəbbətlə qarşılayın güllü yazı.
Məhəbbətlə Aya, Günə ucalın siz,
Məhəbbətlə yaşayın siz, qocalın siz.
Məhəbbətlə işıq saçın, nur çiləyin,
Düşmənlərin başı üstə od ələyin!
Məhəbbətsiz həyat sönür, zillət olur,
Məhbbətlə kütə dönür milllət olur.
Məhəbbətlə dilə gəlir tarım, sazım,
Məhəbbətlə tariximi alın, yazın.
Bu bayramda arzum nədir, deyim sizə
Zamin olsun Tanrım cavan ömrünüzə!
Məhəbbətdən nurun alsın qoy şamınız,
Tükənməsin ümidiniz, ilhamınız!
Mübarəkdir bayramınız!
Mübarəkdir bayramınız!

1996

NƏ YAXŞI

Könül arzuları duyan axtarır,
Vicdan günahları yuyan axtarır.
Dağlar da özünə həyan axtarır
Xəyalın meydanı darmış dünyada,
Nə yaxşı dostlarım varmış dünyada!

Allah, bu dağları necə aşardım?!
Enişdə, yoxuşda qalıb çaşardım...
Əgar müxənnətlə bugün başardım,
Demək tale mənə yarmış dunyada,
Nə yaxşı dostlarım varmış dünyada!

Bəzən dərələri düz də görmüşəm,
Haqqı boynu bükük düzdə görmüşəm.
Taledən bozarmış üz də görmüşəm-
Sanmışam qismətim qarmış dünyada,
Nə yaxşı dostlarım varmış dünyada!

Kiçikdən böyüyə hörmət gözlədim,
Yaxından, uzaqdan qeyrət gözlədim,
Abıra, həyaya qiymət gözlədim...
Bazara çəkilən armış dünyada,
Nə yaxşı dostlarım varmış dünyada!

Ədalət ömürlük müqəddəs andım,
Bir zaman hamıya möhkəm inandım.
Məsləkim uğrunda alışib, yandım
Demə ki, əzəldən karmış dünya da,
Nə yaxşı dostlarım varmış dünyada!

1991

BİZİM QONŞULAR

Dostluqdan güc alar, ülfətdən qanad
Bir həzin nəğməyə çevrilər həyat;
Sanki bir ataya, anaya övlad
Bir vuran ürəkdi, bizim qonşular.

Qızmar Günəş altda odda bişənə,
Tufana, çovğuna, qara düşənə
Çətin vəziyyətə, dara düşənə
Arxadır, köməkdi, bizim qonşular.

Vicdandır hərənin qəlbinə hakim,
Mən bugün hansının adını çəkim?!
Mühəndis, müəllim, fəhlə, ya həkim...
Halal duz-çörəkdi, bizim qonşular.

1997

BU GECƏ

Dostlar, məhəbbətlə verək baş-başa
Həyat sevinc dolu özgə tamaşa;
İstərəm ilhamım qaynaya, coşa
Arzularla dola ürək, bu gecə!

Vardır kainatın Günəşi, Ayı
Ondan nurun alır könül sarayı...
Göydə ulduzlar da bir işıq payı
Ulduzlara çiçək verək bu gecə!

Səsimiz qoy tutsun bütün aləmi,
Bizdən uzaq olsun dünyanın qəmi.
Vəfalı sirdaşım, könül həmdəmim
Olsun sevda dolu ürək, bu gecə!

2000

BİRCƏ DƏNƏDİR

Dostum professor
V.Yusiflinin 50 yaşına

Şaxta tez-tələsik dağlara qaçır,
Yaz gəlib, əzizim, gül-çiçək açır...
Hər gül öz ətrini ətrafa saçır,
Bənövşə nəfəsi, bircə dənədir!

Bahar sevənlərə çələng toxuyur,
Aləm başdan-başa ətir qoxuyur;
Hər quş özü üçün mahnı oxuyur
Bülbülün nəğməsi, bircə dənədir!

Nədir bu dünyanın qəmi, nəşəsi,
Gözəllik yapmaqmı işi, peşəsi?
Saya gəlməsə də dağı, meşəsi
Dəmrağac meşəsi, bircə dənədir!

Rəhmini dilərəm Ulu Ucanın,
Bağlı qapıları haqqa açanın;
Vaqifləri çoxdu Azərbaycanın,
Vaqif Yusiflisi, bircə dənədir!

1998

OXU, TAR

Oxu, tar, oxu, tar
Səni kim unudar?
M.Müşfiq

Oxu, tar, oxu, tar,
Ürəyim sənin
Yanıqlı səsini arzular
Səsində taleyimin əksi var,
Oxu, tar, oxu, tar.
Nələr görməmisən həyatında,
De, nələr?...
Keçmişimdən dönə-dönə
ver xəbər.
Dünənini unudanlar
sabahını qura bilməz,
Tarixsiz xalq
zamanlardan axıb gələn
Sel önündə dura bilməz!
Oxu, tar, oxu, tar
Ürəyim istər
Ülfətindən dil açа, dinə;
əcdadımın sevincindən,
kədərindən
pay gətirir mənə.
Susma, amandır!
Vaxt olub,
Keçmişin qalığı sanıb
Susdururdu səni
Öz kökünə kəc baxanlar,
Döşlərinə allahsız nişanı
Taxanlar,
Mümkün deyil məhv etmək
Nə əbədiyyəti
Nə də ona qovuşan sənəti.
Sən o vaxt susmadın,

nalə çəkdin, möhkəm dayandın.
El səni əzizlədi,
sən də odlu nəğmələrinlə
Onun halına yandın.
Müşfiq “Oxu tar” deyib
aləmə səs saldı;
Qurban səni bağrına basıb
elə çaldı, elə çaldı...
İncəldi, incəldi həqiqət
Sap kimi,
Amma qırılmadı,
Həqiqət carçıları
əzablardan yorulmadı.
Azadsan indi sən,
İlhamına qanad verib
bu el, bu Vətən.
Həyatımız başdan-başa
rəqabət, yarış
Gəl sən də elə çalış,
elə vuruş
Bir kəs ürəyinə toxunub,
qırmasın,
Amandır,
Gitara məclislərdən
səni sıxışdırmasın,
Oxu, tar!

1975, 1998

VAHİDİMİZİN

Əgər əyilsəydi şah qabağında,
Qızıldan olardı meyvə bağında;
Zillətə düşməzdi cavan çağında
Vüqarı dağ idi Vahidimizin.

Qəzəlində güldü eşqin naxışı,
Saçında qar oldu tale yağışı.
Böyük mükafatı, elin alqışı
Ürəyi bağ idi Vahidimizin.

Onu çox sevərdi bu yerdə hamı,
Qəlbində yurd saldı arzusu, kamı;
Şerə qanad olan sonsuz ilhamı
Lilpar bulaq idi Vahidimizin.

Oydu xiridarı bütöv, kəmin də
Toyun-büsatın da, dərdin- qəmin də
Yazdığı qəzəllər eşq aləmində,
Sönməz çıraq idi Vahidimizin.

Heç zaman uymazdı yalan səslərə,
Aldana bilməzdi yad nəfəslərə
Vurulan, sevilən, sevən kəslərə
Sözü mayaq idi Vahidimizin.

Bayraq eyləmişdi özünə düzü,
Dillər əzbəridir söhbəti, sözü;
Millət qarşısında daima üzü
Ağdan da ağ idi Vahidimizin.

1996

OXU, NİSƏ XANIM

Sevimili müğənnimiz Nisə Qasımovanın ad gününə

Üzündə mən Ay görürəm,
Bir mələyə tay görürəm...
Səsində haray görürəm –
Az qalır alışıb yanım
Gül nəfəsli Nisə xanım!

Zilin şərik bəmi də var,
Hər bütövün kəmi də var,
Sevinc varsa, qəmi də var
Qəmdən yoxdu heç amanım,
Həzin səsli Nisə xanım!

Yaralıdı dilim mənim,
Tərs gətirir ilim mənin;
Qaçqınlıdı elim mənim –
Qırılıbdı tar-kamanım
Dili sazlı Nisə xanım.

Həm satandı, həm alandı,
Həm kasıbdı, həm kalandı;
Düzdür bu dünya yalandı,
Yalanlarda yandı canım
Şirin sözlü Nisə xanım.

Hər ömürdən xoş an qalır,
Dünya ilə zaman qalır...
İnsan ürəklərdə qalır,
Qalacaqsan, var inamım,
Oxu, oxu Nisə xanım

13.02.2001

ODSUZ OCAQ

Qanad açdım doğma yurda,
Gördüm söhbət-sözsüz qalıb.
Üşüdüm mən yaman burda,
Ocaq odsuz, közsüz qalıb.

Dərhal anamı səslədim,
Səsimə bir səs çatmadı;
Bərkdən əmimi səslədim,
Səsim onu oyatmadı.

İçimdən bir haray qopdu:
Evdəkilər yaxın gəlin,
"Bu nə işdir, nə oyundu,
Bəs hardadi Yavər gəlin?"

İşə bir bax, bu ocaqda
Daim işıqlar yanardı;
Gecə uyuyan gündüzlər
Bu eyvanda oyanardı.

Həyətimiz lap karıxıb,
Burda oynayır sazaqlar;
Süpürgə üçün darıxıb,
Xəzana düşmüş yarpaqlar.

Yurdumuza gələn bahar,
Bu il bu bağa girmədi.
Bol meyvə verən ağaclar,
Karıxdı, meyvə vermədi.

Ucalardı uşaqların
Bu evdə hər gecə səsi,

Həyətdən də kəsilibdi,
Tamam toyuq-cücə səsi.

Dözmək olmur belə dərdə,
Cavanları şəhərlərdə,
Ağsaqqalı, ağbirçəyi
Ulular uyuyan yerdə.

Bu yurdun nədi günahı,
Odsuz qalibdi ocağı?...

2008

NƏ DEYİM

Kəm-kəsirdən bütövü tam almamış,
Bu həyatdan doyunca kam almamış;
Ömrə gəldi şaxtalı qış, qarlı qış,
İllər quş tək uçub getdi, nə deyim?

Qaranquşlar yaz eşqiylə uçarkən,
Arzularım təzə çiçək açarkən,
Yeni sevda arxasınca qaçarkən
Sağlamlığım itib, batdı, nə deyim?

Dünyam dondu, dünyam yandı, alışdı,
Pis yaxşıya, yaxşı pisə qarışdı;
Başım elə bu işlərə qarışdı
Saçlarımda ağ gül bitdi, nə deyim?

Sevinc ilə kədər gəldi, dərd gəldi,
Mərd qovuldu, yerinə namərd gəldi;
Hər yeni il köhnəsindən bəd gəldi
Tanrım nədən belə etdi, nə deyim?

Dözümü çox haqq yolunda yananın,
Qansız çıxdı başbiləni qananın;
Hər işində arif olan dünyanın,
Qanunları yaman sərtdi, nə deyim?

2006

YALQIZ EV

Musiqi: Emin Nəsir

Kənddəyəm bu gecə, ata evində
Soyuq, divarları yalayır yaman;
Sobaya salmaqçün odun əlində,
Anamı axtarır gözlərim bu an.

Nə əmim evdədi, nə də yoldaşı,
Öz doğma evində bir yad kimiyəm.
Yaman kövrəlirəm, boğur göz yaşı,
Xəzanı yaşayan yarpaq kimiyəm.

Sobaya salıram bir qucaq odun,
Alışa-alışa fəryad qoparır.
Dərdlə seyr edirəm onun fəryadın,
Xəyal haralara məni aparır.

Şirin xatirənin durub önündə,
Bir körpə uşağa çevrilir insan;
Böyükdür qiyməti ötən günün də,
Xəyalda canlanır keçmiş anbaan.

Heç zaman qonaqsız olamzdı bu ev,
Uzaqdan, yaxından gələni vardı;
Heç kəsi narazı salmazdı bu ev,
Gələnlər bu evdə dinclik tapardı.

Qapısı açıqdı qonaq üzünə,
Süfrəsində vardı halal çörəyi.
Sobada alışan odun közünə,
İstilik verirdi insan ürəyi.

Bu evdən gələrdi şən uşaq səsi,
Onlar pərvaz edib haraya uçdu?!
Bu evi tərk etdi gənclik həvəsi,
Bu bir uğurdumu, yoxsa ki, suçdu?!

Hardadır bu evin şən qəh-qəhəsi,
Hanı baxçamızın gülü-çiçəyi?!
Duyulmur bu evdə insan nəfəsi,
Hanı ağsaqqalı, ya ağbirçəyi?!

Yoxdu əzizlərim artıq bu evdə,
Bu ev məni görüb utanır indi...
Artıq validol da qurtarıb cibdə,
Elə bil ürəyim dayanır indi.

Ürəklə açırdıq nurlu səhəri,
Ürəklərdə atəş, hərarət çoxdu;
Mələklər aparıb o ürəkləri,
Onunçün bu evin istisi yoxdu.

2008

KƏNDİMİZƏ GEDƏN YOLDA

Bir zamanlar bu yolu
Uça-uça gedərdim,-
Anam sağ idi onda.
Xəyallarda sevinci
Quca-quca gedərdim,-

Anam sağ idi onda.
Güc alardı qanadım
Onun məhəbbətindən.
Dəyişərdi həyatım
Sözündən, söhbətindən.
Doğma çölə, çəmənə
Çiçəyə qovuşardım;
Sönmüş ocağımızda
Külə də söz qoşardım.
O idi sığal verən
Həyat-bacaya, bağa
Söz qoşmuşam əkdiyim
Hər ağaca, budağa.
Özüm qanad vermışəm
Neçə daşa, kəsəyə;
Anamın zəhmətiylə
Mən gəlmişəm ərsəyə.
Hər kəndə gələndə mən,
Dönürdüm bir uşağa
Qoymazdı bircə an da
Gözlərindən uzağa.
Qarşısında durardım,
Məsum bir körpə kimi;
Anam idi ilk duyan
Nifrətimi, sevgimi...
İndi özgə bir qüvvə
Çəkir məni bu yurda.
Üç ildir ki, əbədi
Anam uyuyur burda.
Gecə-gündüz çalışdı,
Zəhməti döndü dağa.
Sonda anam qarışdı,
Çox sevdiyi torpağa.

2006

ÖLÜMƏ SARI

Bu gün də növbəti doğum günümdü,
Bir addım da atdım ölümə sarı.
Hər ömrün məntiqi sonu ölümdü,
Bir addım da atdım ölümə sarı.

Geriyə baxıram keçdiyim bu yol,
Ya nahamar olub, ya tikanlı köl.
Sevinci bir damla, dərdi-qəmi bol,
Deyirlər ki, yaşdır insanın varı,
Bir addım da atdım ölümə sarı.

İl üstə il gəlir, ömür daralır,
Günəş qürub edir, hava qaralır,
Tanrı verdiyini geriyə alır
Yox dəva-dərmanın elə də karı,
Bir addım da atdım ölümə sarı.

Dəyisir dünyanın dadı, tamı da
Zaman tələsdirir arzu, kamı da,
Tez-tez itirirəm mən ilhamı da
Tez-tez kökdən düşür könlümün tarı,
Bir addım da atdım ölümə sarı.

Qarşıdan qış gəlir ətraf soyuyur,
Ürəkdə atəş də, od da uyuyur...
Ümid kiçildikcə, arzu böyüyür,
Zamanın sürətlə gedir qatarı,
O bizi aparır ölümə sarı...

2008

XOŞBƏXT ÖLÜM

Şirin ömrü verib sona
Yaxın dostum vəfat etdi;
Həcəd apardım mən ona,
Övladların çiynində o,
Son mənzilə xoşbəxt getdi,
Bu dünyaya vida etdi...

2008

ANAMA MƏKTUB

Səndən sonra gözümdə
Tamam dəyişib aləm,
Asılıbdı sözümdə
Dünya boyda kədər, qəm.
Sənlə bir, arada,
Söhbət keçir könlümdən,
Nə baş verir dünyada
Səndən sonra, deyim mən.
Əvvəlki tək insanlar,
Hərə öz işindədir.
Kimi vəzifə, şöhrət,
Kimi iş peşindədir.
Yenə də yer kürəsi,
Fırfıra tək fırlanır,
Günəşin nur zərrəsi
Hər yanına paylanır.
Yenə də bağça-bağda
Ətir saçır qızıl gül.
Oturub bir budaqda
Oxuyur şeyda bülbül.
Yenə də göy üzündə
Şimşək həvəslə çaxır,
Çay tək yaşı gözün də

Ümman, dənizə axır.
Dəyişməyən çox şey var,
Arsız arsız kimidir.
Özüyçün yaşayanlar
Bağda barsız kimidir…
Dözəmməz dağlar inan,
Əsrin bəlalarına.
Ehtiyacım var yaman
Anam, dualarına.
Cavan, qoca nəsillər,
Hər an məni çaşdırır.
Bizi ayıran illər
Indi yaxınlaşdırır….

2005

MƏNİM ANAM

Anamı tapşırdım qara torpağa,
Mənimçün kiçildi dünya, alçaldı.
Çevrildim yenidən yetim uşağa,
Fəqət, gözlərimdə torpaq ucaldı..

Vaxtilə külü də soyuq ocağı,
Anam yandırmışdı öz əlləriylə,
Mənim taleyim də yazıldı axı,
Alnından süzülən zəhmət təriylə.

Göstərib mətanət,kişi dözümü,
Yaşadı həyatın hər bəlasını,
Zamana yedirtdi anam özünü,
Xoşbəxt eyləməkçün cüt balasını.

Bu yolda canını eylədi fəda,
Nə gecəni bildi, nə də gündüzü,
Qışın oğlan çağı bəzən sobada,
Odun olmayanda, yanırdı özü.

Ona fərq etmədi çətin, ya asan,
Anam bacarırdı hər cürə işi,
Bir gündə min dəfə bu məğrur insan
Gah qadın olurdu, gah da ki, kişi.

Gah odun daşıyır, gah ot biçirdi,
Gah çəltik əkirdi çöldə, bicarda.
Doğmalardan ötrü candan keçirdi,
Bir kəsi qoymazdı heç zaman darda.

Səxavət bulağı olan bu insan,
Yaxınlardan yalnız məhəbbət umdu,
Gözlərin dünyaya qadın tək açan,
Dünyadan köçəndə kişi tək yumdu…

2004

ANAMA MƏHƏBBƏTİN

Qohumlara və ətrafıma müraciət

Mənim məhəng daşımdır,
Ona hörmət, izzətin
Silinməz yaddaşımdır.
Odur məni yetirən,
boya-başa çatdıran
Odur mənim çiynimdən
qəm yükünü atdıran.
Kim sevirsə anamı,
qədir-qiyməti sevir,
Halal duzu, çörəyi,
əsil zəhməti sevir.
Kim sevirsə anamı,
doğma Vətəni sevir
Kim sevirsə anamı
demək, məni də sevir.

2001

ÖYRƏTDİ

Dağlara vurğunam əzəl yaşımdan,
İnamım aranı sevmək öyrətdi.
Anam təlqin etdi sevim bəşəri,
Atamsa, Turanı sevmək öyrətdi..

Düşdüm ömrüm boyu xəzana, qışa,
Dözdüm qasırğaya, dolu, yağışa...
Həyatım tuş gəldi neçə naxışa,
Taleyim boranı sevmək öyrətdi.

Yeganə inamım ulu Allaha,
Zəhmətim yol açır nurlu sabaha.
Əməlim batırmaz məni günaha,
İmanım Quranı sevmək öyrətdi…

2004

LERİKDƏDİR

Bacı oğlu Əhəd üçün
Mus.Emin Nəsir

Haqq yolunda vuran ürək,
Şirin arzu, şirin dilək,
Təmiz hava, halal çörək
Lerikdədir, Lerikdədir.

Sərvətidir zəhmət təri,
Yetirib çox igidləri;
Dünyanın ən qoca əri
Lerikdədir, Lerikdədir.

Burda hakim aqil sözü,
Əyə bilməz əyri düzü;
Koroğlunun ayaq izi
Lerikdədir, Lerikdədir.

İnsanın təmiz əlləri,
Yaradar xoş əməlləri;
Gözəllərin gözəlləri
Lerikdədir, Lerikdədir.

Yurdumun gözəl guşəsi,
Qonağa açıq süfrəsi,
Qurub, yaratmaq həvəsi
Lerikdədir, Lerikdədir.

2012

QƏRİBƏLİK

İllər bizə əl eyləyir,
Axirət gəl-gəl söyləyir;
Ancaq insan öz işində:
Tər çiçək dərib, iyləyir.

HƏYAT DAVAM EDİR

Çoxdan toy olmurdu
Bizim evdə, ocaqda;
Bülbül də utanırdı
Cəh-cəh vursun bu bağda.

Sevincə açılmırdı
Ürəyin qapıları.
Kədər, qəm heç edirdi
Ən şirin arzuları.

Sanırdım bu toy mənə
Unutdurar dərd-qəmi;
Fəqət ruhumu aldı
Xatirələr aləmi.

Qovuşdurdu bizlərə
Dünyadan gedənləri.
Daha aydın göründü
Məhz onların yerləri.


Bilirəm, bu həyatın
Sevinci, ələmi var;
Dəyişməyən qanunu,
Gedəni, gələni var.

İnsan nədən dünyaya
Vəfasızsan söyləyir?!
Gedəni gələniylə
Həyat davam eyləyir...

GÖRƏN KİMDİR

Baxıram ki, meşələr
Qarış-qarış satılır,
Allahın dənizi də
Əmlaklara qatılır.
Kirayəyə verilir
Hər ağac kölgəsi də.
Çimərliyi bu kökdə,
Şəhəri, bölgəsi də.
Düşünüb daşınıram
Anlamıram bu işi:
Təbiət, tək Tanrının
İnsanlara bəxşişi;
Onu bazara çəkən
Görən kimdir, ay kişi?!

2012



MƏHHƏBBƏTİ QORUYUN

QADIN

Həyat bağçasında ətirli bir gül,
Sevda dəryasında sonadı, qadın.
Hər bir ailəyə bünövrə, özül
Bacıdı, xaladı, anadı, qadın.

Baxışı ildırım, zərbəsi zindan
Oğula igiddir, nərdi, deyirlər.
Kişi ilhamını alır qadından,
Qadınlı kişiyə ərdi, deyirlər.

1998

MƏHƏBBƏTİ QORUYUN

Tutub sizə üzümü,
Deyim ürək sözümü:
Çətinlikdən qorxmayın,
Silah edib dözümü,
Məhəbbəti qoruyun!

Qurub, yaratmaq üçün:
Məqsədə çatmaq üçün,
İstisi el qızdıran,
Bir ocaq çatmaq üçün
Məhəbbəti qoruyun!

Həyatın hər işi var,
Xeyiri, şər işi var...
Zamana çox uymayın
Onun öz gərdişi var –
Məhəbbəti qoruyun!

Göydən alov yağsa da,
Nahaq haqqı boğsa da,
Şərqə doğru üz tutan
Günəş qərbdə doğsa da,
Məhəbbəti qoruyun!

Sədaqətdən güc alın,
Cüt qarıyıb qocalın.
Can deyib, can eşidin,
Sevə-sevə ucalın,
Məhəbbəti qoruyun!

Məhəbbət bir hikmətdir,
O hikməti qoruyun!
Məhəbbət bir sərvətdir,
O sərvəti qoruyun!

2000

MƏHƏBBƏTİNDİR

Mənə qartal kimi uçmaq öyrədən,
Açılmaz sirləri açmaq öyrədən
Günəş tək şölələr saçmaq öyrədən,
Sənin təmiz eşqin, sədaqətindir,
O sənsən, o sənin məhəbbətindir.

Düşünən beyinim, çalışan qolum,
Həqiqət şüarım, düzlük simvolum,
Ən çətin anımda bir çıxış yolum
Sənin dözümlüyün, mətanətindir,
O sənsən, o sənin məhəbbətindir.

Dünyanı bürüyər harayım, səsim,

Nə qədər çağırsam gələr nəfəsim...
Yaşamaq, yaratmaq, yazmaq həvəsim
Sənin bahar ruhlu təbiətindir,
O sənsən, o sənin məhəbbətindir.

Səndən gizləmərəm mən heç bir sözü,
Bilmək istəyirsən, qoy deyim düzü:
Bu Vaqif Nəsirin lap elə özü
Sənin xəyalındır, öz surətindır,
O sənsən, o sənin məhəbbətindir...

HARDA İDİN

Göylərdən alov yağanda,
Əməllər fitnə doğanda,
Kədər, qəm məni boğanda
Bəs onda sən harda idin?!

Haqqı, düzü axtaranda,
Doğru sözü axtaranda,
Baxt ulduzu axtaranda
Bəs onda sən harda idin?!

Bahar gəlib qəfil getdi,
Gül bağında tikan bitdi...
Gec tapdığım çox tez itdi
Bəs onda sən harda idin?!

Bir istəyə əsir oldum,
Dərd əlində yesir oldum,
Dönüb Vaqif Nəsir oldum
Bəs onda sən harda idin?!

2002

MƏN DEYİLƏMMİ

Məhəbbət odunda yanan, alışan
Eşqinlə ruhlanıb çağlayan, coşan,
O gözəl hüsnünə nəğmələr qoşan
Mən deyiləmmi?!

Sənlə qəmlənən, sənlə gülən,
Səni qoşa canda bir ürək bilən;
Dəymişləri qalıb, kalı tökülən
Mən deyiləmmi?!

Həsrətə dözümü, mətanətiylə,
Eşqə, məhəbbətə sədaqətiylə,
Məcnunu mat qoyan məhəbbətiylə
Mən deyiləmmi?!...

AĞLAMA CEYRAN BALASI

Pərvazlanib öz yuvana uçursan,
Nədən çatılıbdı cüt qələm qaşın?
Məhəbbətin şərbətini içirsən,
Sevinc bulağından axır göz yaşın?!
"Ağlama ceyran balası, ağlama!
Gedər gözünün qarası, ağlama!"

Yaman qəribədir eşqin meydanı,
Yetən öz atını çapa bilməyir.
Leylilər, Məcnunlar, Kərəmlər hanı?
Hər kəs axtardığın tapa bilməyir.
"Ağlama ceyran balası, ağlama!
Gedər gözünün qarası, ağlama!"

Vüsal əllərini uzadıb sənə,
Toy günündü, nədən nalə edirsən?
Çətin yollar ilə gəldik bu günə,
Gülüm, gəlin kimi bizə gedirsən,
“Ağlama ceyran balası, ağlama!
Gedər gözünün qarası, ağlama!”

1999

AY İŞIĞINDA

Dinlə ürəyimin gülüm, səsini
Gör necə oxuyur eşq nəğməsini;
Gülün ətri sandım mən nəfəsini,
Ay işığında.

Həyəcan... Alnımda tər puçur-puçur
Arzu qanadlanıb göylərə uçur...
Bağçada çiçəklər bir-birin qucur,
Ay işığında.

Sevdalı ömrümüz açsın gül-çiçək,
Vəfadan vüsala birgə don biçək,
Əhd-peyman bağlayaq, eşqə and içək
Ay işığında.

2002

İSTƏYİRƏM

Məhəbbətin özü ulu,
Vüsal, hicran-qoşa qolu.
Çox çətindir sevda yolu,
İzində yer istəyirəm.

Ağ günlərim qara teldə,
Rəqibimdir əsən yel də.
Bal süzülən şirin dildə,
Sözündə yer istəyirəm.

Xəzan gəldi eşq bağıma,
Düşdüm bahar sorağına;
Dərd göyərdən dodağıma
Üzündə yer istəyirəm.

Od vurulub daşıma da,
Nə quruma, yaşıma da...
Bu sevdalı başıma da
Dizində yer istəyirəm.

Bir çiçəyi dərmək üçün,
Eşq çələngi hörmək üçün;
Ürəyinə girmək üçün;
Gözündə yer istəyirəm.

VAĞZALI

Vağzalı çal, ürəklərə ruh gəlsin,
Məhəbbətin öz rəngidir, Vağzalı.
Toy sədası qoy göylərə yüksəlsin,
Xoş arzular çələngidir, Vağzalı
Məhəbbətin öz rəngidir, Vağzalı.

Bəzəyidir bəylə gəlin sözün də,
Bir od gördüm mən onların gözündə,
Sevincə bax insanların üzündə
Sədaqətin məhəngidir, Vağzalı,
Xoş arzular çələngidir, Vağzalı.

Yeni evdə yeni ocaq çatılır,
Arzulara şəkər, şərbət qatılır...
Subaylığın daşı bu gün atılır,
Yeni həyat ahəngidir, Vağzalı,
Xoş arzular çələngidir, Vağzalı,
Subaylığın son zəngidir, Vağzalı.

2001

* * *

Bir gülün eşqiylə açılan könül,
Bülbül cəh-cəhinə biganəsənmi?
Çiçəklər içində qəmlənən bülbül
Məgər dəlisənmi, divanəsənmi?!

Gözünə sevdadan yaylıq sarıyan,
Saçların tufanlı külək darıyan,
Vüsalı atəşdə, odda arıyan
Sən də şam aşiqi pərvanəsənmi?

Sən dəyanət göstər, sədaqət göstər,
İnsana ruh verən xoş adət göstər,
Heç zaman solmayan məhəbbət göstər
Yoxsa üzüdönük zəmanəsənmi?

1997

GƏLİN

Durub qarşında bir dəli selin,
Yolunu gözlədik çox, xoşbəxt ilin;
Saçlarında yanan hər qara telin,
Qayğılı günlərin sayıdır, gəlin.

Ömür ötüşsə də fəqət yarıdan,
Umacağım vardır yalnız Tanrıdan:
Peşiman etməsin övlad sarıdan,
Onlar baxtımızın payıdır, gəlin.

Bir ağır həsrətdir, şimşək tək çaxan,
Qəlbimi odunda yandırıb-yaxan.
Könlümdən süzülüb, gözümdən axan,
Başı daşlı Araz çayıdır, gəlin.

Kimsələr fərqi nə, bu gün nə deyir,
Yalançı dilləri ürəklər yeyir;
Oxuduğum nəğmə, yazdığım şeir
Qəlbimin harayı, hayıdır, gəlin.

Gör necə səslənir sinəmdə tarım?!
Mənəvi dünyamdır dövlətim, varım...
Ya acı, ya şirin sənli anlarım
Ömrün baharıdır, yayıdır gəlin.

1996

MƏHƏBBƏT

Sevən ürəklərin dilsiz harayı,
Ülviyyət məbədi, sevgi sarayı.
Taleyin ən şirin neməti, payı
Tanrı vergisidir vəfa, məhəbbət.

Bir qızıl qanaddır arzu, diləyə
Hüsnüylə bənzəyir Huri-mələyə;
Yolunda rast düşsən yaman küləyə
Bil ki, həm cəfadır, cəfa, məhəbbət.

Acı dəqiqəli, ən şirin anlı,
Həm gözəl tək incə, həm dəliqanlı,
Xeyirxah, ümidli, neçə gümanlı
Xəstəyə şəfadır, şəfa, məhəbbət.

Heç zaman səs verməz qaba səslərə,
Saxta duyğulara, yalan hisslərə.
Naxələf, nadürüst, nadan kəslərə
Allahdan deyildir rəva məhəbbət.

Odur sarı simi ürək səsinin,
Dahi bəstəkarı eşq nəğməsinin.
Canıdır anamız Yer kürəsinin
Özgə bir səfadır, səfa məhəbbət

1996

SEVİN QIZLAR SİZ ONLARI

Dənizkənarı parkda öz əlilliklərini unudaraq qızlarla tanış olmaq istəyən igid oğlanlarımızı seyr edərkən.

Boy-buxunlu, çinar kimi,
Ürəkləri bahar kimi
Köklənmiş kaman, tar kimi
Elin igid oğlanları,
Sevin qızlar, siz onları!

Tarixləşən cürətimiz,
Daşa dəyən heyrətimiz,
Yaralanan qeyrətimiz –
Müharibə qurbanları,
Sevin qızlar, siz onları!

Gözü, əli, ayağı yox,
Dəryalarda mayağı yox,
Sizin kimi dayağı yox
El üçün axıb qanları
Sevin qızlar, siz onları!

Çələng hörün məhəbbətdən,
Qala qurun sədaqətdən,
Pay götürün dəyanətdən,
Qoruyun bu insanları
Sevin qızlar, siz onları!

Gözlərindən od tökülür,
Atəşdən ürək sökülür;
İnsan kədərdən bükülür,
O əyməsin cavanları-
Sevin qızlar, siz onları!

Əziz dostum sən də, mən də,
Qoruyaq bu çətin gündə,
Vətən eşqi atəşində
Məhəbbətlə yananları
Əzizləyək biz onları,
Sevin qızlar, siz onları!

1997

FİZİKİN MƏHƏBBƏTİ

(Zarafatyana)

Əllərini ver əlimə,
cala mənim ürəyimə
öz canını;
Axıtginən bədənimə
sən məhəbbət cərəyanını.

Dözəmməsəm gərginliyə,
qoy kömür tək qaralım mən.
Dözə bilsəm,
həyatına əbədi bir
işıq saçan
Çıraq olum!
Öz nurumu yaya-yaya
Məhəbbətdən nur alım mən!

1967

GÜLÜM

Dilini eylədin zəhərdən zəhər,
Könlümün həmdəmi oldu dərd, qəhər;
Dedin, sınayıram səni bu təhər,
Sınağın budursa, sınama, gülüm!

Bütün ağrılara dözdükcə dözdüm,
Demirəm yoruldum, demirəm bezdim;
Sənin vüsalından əlimi üzdüm,
Küs özündən, məni qınama, gülüm!

Möhkəm inanırdım axır gün gələr,
Sənin də qəlbində bir istək mələr;
Qulağıma çatıb təzə bir xəbər-
Sifariş edirsən, anama, gülüm!

Ürəyim əlində əzilmiş varaq,
Gəzirəm eşqindən, özündən iraq,
Gəl Vaqif Nəsiri eyləmə soraq,
Hicranlı günləri sanama, gülüm!

1975

***

Eşqi ürəkdən dilə
Köçürməkdən qorxuram...
Məmməd Araz

Dedin, sevməyirsən artıq sən məni,
Bir vaxt məhəbbətdən lap dəli idin;
Bilməzdin gündüzü, nə də gecəni
Həmişə "sevirəm səni deyirdin".

Mənim məhəbbətim bənzəməz heç vaxt,
Səmtini dəyişən küləyə, gülüm.
Gənclikdə dilimdə olan eşqimi,
Artıq köçürmüşəm ürəyə, gülüm.

1978

***

Əllərim əlində, gözüm gözündə,
Diqqətim asılıb hər bir sözündə;
Yenə ayrılırıq uzun müddətə,
Yenə meydan verdik, gülüm, həsrətə.

Yayın qaynar çağı, Günəş yandırır,
Bilmirəm nədəndir, üşüyürəm mən.
İmtahana gedən tələbə kimi
Çətin suallarmı düşünürəm mən?

Diqqətim asılıb hər bir sözündə:
Həyat mübarizə, həyat döyüşdür;
Əllərim əlində, gözüm gözündə,
Məni düşündürən gələn görüşdür.

1983

SƏN VARSANSA...

Ay ömrümün ölçüsü,
Xoş günümün elçisi,
Çöhrəsi açılan gül,
Arzum budur, hər an gül!
Mən sənsiz lalam, karam;
Sən varsansa, dünyada,
Deməli, mən də varam.

Huri-mələk sənmisən,
Göydən yerə enmisən?
Mən eşqinin əsiri
Öldürmə diri-diri;
Sənsiz qövr edər yaram,
Sən varsansa, dünyada,
Deməli, mən də varam.

İlhamım coşdu yenə,
Baharmı deyim sənə?
Arzusu qat-qat gülüm,
Zülmünü azalt, gülüm!
Etmə günümü haram,
Sən varsansa, dunyada,
Deməli, mən də varam.

Ürəyinin səsinə,
Məhəbbət nəğməsinə
Köklənmiş bir siməm mən;
Soruşursan, kiməm mən?
Səninlə Kür, Arazam,
Şirin nəğməli sazam.
Sənsiz boş ahu-zaram
Sən varsansa, dünyada
Deməli, mən də varam.

1982

ÜRƏYİM

Bu dünya başıma dar olub mənim,
Görəsən qəmdənmi yanır ürəyim?
Aləm gözəllərlə dolsa da,inan
Təkcə öz yarını anır, ürəyim.

Gah dağa tələsir, gah da arana,
Əzəldən bağlıdır Azərbaycana.
Arzusu sığmayır bütün cahana,
Özünü dünyamı sanır, ürəyim?

Çox düşüb tufana, borana, qışa,
Min odla, alovla çətin alışa;
Qığılcımı bənddir bircə baxışa,
Soyuq baxışıyla sınır, ürəyim.

Vaqif Nəsir sevdi gülü, baharı
Üz-üzə qoymadı eşqlə vüqarı;
Bilmirəm nə üçün görəndə yarı
Eşqi, məhəbbəti danır, ürəyim?

1978

XƏYALLARIM

Dedin unut məni,
Söz verdim unudam;
Amma hər vədini
yerinə yetirə
bilirmi adam?
Düzdür,
gözlərimə tapşırdım:
görməsin səni.

Qulaqlarıma əmr etdim:
eşitməsin səsini.
Bircə xəyallarıma
gücüm çatmadı.
Başqadır xatirənin dadı.
Gah sən gedən yolları
dolaşdı,
Gah da evinizə girib çaşdı.
Qolubağlı əsir
edə bilmədim xəyalları;
Sən də incimə, barı!
Axı səndən bir şey
getmir,
Mənim xəyallarım ki, səni
incitmir,
narahat etmir?!

1975

YAR QƏLBİMİ ODA SALDI

Yar qəlbimi oda saldı
Nazlanaraq gülə-gülə.
Ümidimi əldən aldı
O insafsız bilə-bilə.

Gəncliyimin gözəl vaxtı
Ömrümə bir şimşək çaxdı;
Yanağıma necə axdı
Göz yaşlarım gilə-gilə?

Nə söylədim naz eylədi,
Hər sözümü söz eylədi;
Gözünü od, köz eylədi,
Yanıb-yanıb döndüm külə.

İlhamım rübab çalmadı,
Aşiqə nəzər salmadı;
Gözələ inam qalmadı-
Göz yaşımı silə-silə.

1978

QONŞU QIZ

Bir dərmansız bəla idi,
İlan onu çala idi;
Alınmayan qala idi,
Qonşumuzun qözəl qızı.

Aləmi yamanca qatdı,
Qohumlarrı "qırdı, çatdı";
Elçilərə dil çıxartdı
Qonşumuzun gözəl qızı.

Tərsliyindən ləzzət aldı,
Sevən yana-yana qaldı;
Vurulub mum tək yumşaldı
Qonşumuzun gözəl qızı.

1978

İSTƏMİRƏM

Məhəbbəti duymayana
Yar olmaq istəmirəm.
Namərdlərin içində
Var olmaq istəmirəm.

Hərənin öz havası,
Ölüm-dirim davası;
Naşı tarzən çalası
Tar olmaq istəmirəm.

Həmdəməm söz qananla,
Haqq yolunda yananla;
Gördüyünü dananla
Kor olmaq istəmirəm.

İnsanlığa məhəbbət,
Özgə aləmdi, əlbət...
Eşidib haqsız söhbət
Kar olmaq istəmirəm.

Sözümlə əməlim bir,
Mənə şərəf gətirir;
Yalana salıb çətir
Xar olmaq istəmirəm.

2017

DEYİLMİ

Atom- könül aləmi,
Bəs bu aləm
sevinc dolu,
kədər dolu,
Bir əfsanə deyilmi?
Nüvə bir şam,
Elektronsa, bu şamın
dövrəsində hey fırlanan
Bir pərvanə deyilmi?...

1975

NİYƏ İNANDIM

Səadət yanımdan ötdü yel kimi,
Anlıq ayrılığın keçdi il kimi;
Həsrət gözlərimdən axdı sel kimi.
Demədim cəfadan bezdim, usandım,
De, niyə mən sənə, sənə inandəm?

Arzu qayalara toxundu, qaldı,
Şirin xatirələr elə bil laldı;
Dedin: "Məhəbbətin sonu vüsaldı".
Ay mənim həyatda müqəddəs andım,
De, niyə mən sənə, sənə inandım?

Sular əvvəlki tək axacaq imiş,
Başımda şimşəklər çaxacaq imiş,
Yoluma ayrılıq çıxacaq imiş;
Bəs nədən oduna mən belə yandım,
De, niyə mən sənə, sənə inandım?

Eşqin yolu uzun, ömürsə gödək,
Başımın üstündən gəl dumanı çək.
Sənsiz bu dünyada tək qalmışam, tək;
Səni Leyli sandım, mən Şirin sandım,
De, niyə mən sənə, sənə inandım?

Sevinc gözlərimdə hey qəlpələndi,
Sandım yıxılanlar həm dirçələndi;
Saçıma illərdən qar da ələndi,
Dözdüm ağrılara, möhkəm dayandım,
De, niyə mən sənə, sənə inandım?

Nə bağçaya çıxdım, nə bağa sənsiz,
Saçım həsrət qaldı darağa sənsiz.
Tuş oldum sədaya, sorağa sənsiz;
Sanma öz dünyama artıq qapandım,
De, niyə mən sənə, sənə inandım?

1977

NƏ YAXŞI YUXULAR VARMIŞ

Tənəli baxışını duyuram mən uzaqdan,
Deyirsən ki, hicrana necə dözürsən,
mənsiz?
Necə açılır qəlbin, necə deyib-gülürsən?
Söylə, bu gözəlliyi necə sezirsən, mənsiz?
Söylə, necə gecənin bağlayırsan gözünü,
Şəfəq dolu səhəri söylə, necə açırsan?
Necə dəyişdirirsən öz səmtini, izini,
Hicranın təqibindən axı necə qaçırsan?
Üfüqə bax, əzizim, gör Günəşin gözləri
Sabahın həsrətindən qıpqırmızı
qızarmış;
Sən mənimlə olmusan, bununçün də
deyirəm:
Nə yaxşı ki, dünyada şirin yuxular
varmış...

1983

BU TƏNHA AĞACIN

Bu tənha ağacın
yarpaqlarından süzülən
damcıları
şeh sanıb naşı olma,
naşı.
Bu damcılar
tənha ağac altında
axşam yanıb tökülən
nakam məhəbbətin
Göz yaşıdır,
göz yaşı...

1983

BİLMƏZSƏN

Mənə qanad verir arzum, diləyim,
Təmənnalı kömək deyil gərəyim.
Alınmaz qaladır odlu ürəyim,
Almaq istəsən də, ala bilməzsən!

Həyat qanunları yamandır, yaman,
Bəzən uşaq kimi şıltaqdır zaman;
Bu yanıqlı qəlbim bir incə kaman,
Çalmaq istəsən də, çala bilməzsən!

Demə ki, şairdir xəyala dalır,
Meylini gah yerə, gah göyə salır;
Xəyal düşünəni qoynuna alır,
Dalmaq istəsən də, dala bilməzsən!

Olsa da gözəllik, saflıq əsiri,
Köksü sözlə dolu Vaqif Nəsiri
Fitnəli eşqinin toruna diri
Salmaq istəsən də, sala bilməzsən!

1983

ÇOX OLUB

Cəfanı çəkməmək, inan, günahdı,
Qəlbim nalə dolu, sonsuz bulaqdı;
Həsrət gözlərimdən sel kimi axdı,
Hicranın vüsaldan nədən çox olub?

Arzum arzulara calanıb qaldı,
Nigaran ürəyim talanıb qaldı.
Həyat bir ümiddən sallanıb qaldı,
Dünyadan nakam da gedən çox olub.

Könlüm intizarda, özüm həşirdə,
Sən göydə gəzirsən, mən isə yerdə.
Gəl Vaqif Nəsirdən soruşma bir də:
Niyə saçlarında ağ dən çox olub?!

1983

QORUYACAĞAM

Sənsən məhəbbətin uca hasarı,
Mən ona sərhəddəm, o həddi keçmə!
Ey mənim eşqimin solmaz baharı,
Sevginin ömrünü zamanla ölçmə.

Məhəbbətdən qanad almayan insan
Eşqin səmasına ucala bilməz.
Əgər sədaqətli qəlbdə qorunsa,
Məhəbbət heç zaman qocala bilməz!

Qoru məhəbbəti, onsuz donarsan
Ondadır atəş də, ondadır od da.
Sevgisiz özünü özün danarsan,
Böyük məhəbbətlə qalarsan yadda.

...Əllərim çatmasa bil saçlarına
Onu baxışımla darayacağam.
Biganə olsan da eşq nübarına,
Mən onu canım tək qoruyacağam.

1998

ƏTİRLİ ÇİÇƏYİM, SEVİMLİ GÜLÜM

Nədən dayanmısan boynu bükülü
Ətirli çiçəyim, sevimli gülüm?
Baxçadan ayrılıb öz dibçəyindən,
Səndəmi çəkirsən əziyyət, zülüm?!

Bir qırıq ömrünlə sən təbiətə
Özgə abu hava, ruh gətirirsən,
Layiqsən həyatda ali qiymətə
Cavan ürəklərdə eşq bitirirsən.

Gör neçə ürəyi alışdırmısan,
Verərək qəlbinin hərarətini…
Neçə küsülünü barışdırmısan
Hədiyyə edərək sən öz ətrini.

Baxçamın bəzəyi,güllər gözəli
Sevənlər adına deyir Qızıl gül,
Sənə könül verib, vüsal istədi
Bağların ozanı sevimli Bülbül.

Sən başını dik tut, əymə sinənə
Bir gün boşalanın dolmağı da var.
Əsla yaraşmayır kədər, qəm sənə,
Hər bir açılmanın solmağı da var.

Nə qədər solsa da qızıl ləçəyin
Yenə ətirlənir baxça-bağımız,
Canlanar yarpağın, gülər çiçəyin,
Görüşə tələsir cavanlarımız.

Qəm etmə zamanın öz gərdişi var,
Gələnlər gəldikcə, gedənlər gedir
Qol-qanadın açır yeni arzular,
Həyat da beləcə, bax, davam edir.

2007

BİR QADINA

Sevdin o kişini, sevdin ürəkdən
Bilərək evlidir, ailəsi var.
Bilmədin məhəbbət haçalananda,
Onun məhv olmaq tək, bir qorxusu var.

Sevdin söyləyirəm, çünki eşqinə
Heç bir haqqım yoxdur şübhə eyləyim.
İncimə ay xanım, incimə məndən
Qəlbimdə nə varsa, gərək söyləyim.

Özgə bir qadınla danışanda o,
Haldan-hala düşür, sanki yanırsan.
Yenicə eşitdim, indi lap onu
Doğma arvadına sən qısqanırsan.

Bəlkə sən bilmirsən, qoy deyim sənə
İstəməzdim gəlsin hər söhbət dilə.
Böyük bir sevgidən qurulubdur bil,
Qırmaq istədiyin gözəl ailə...

Eşqin axtaranda o cavan oğlan,
Məhəbbətin yetgin yaşındayıdın.
Pərvaz eyləyəndə ilk məhəbbəti,
Sən özgə kişinin ağuşundaydın.

Sən aşiq olanda evli kişiyə,
Unutdun bütövlük sevir məhəbbət.
Əgər o bölünsə, şair demişkən
Məhv olar, yox olar, heç olar, fəqət...

1980

GÜLÜM

Günəş kimi alışmağın
Musiqili danışmağın,
Küsüb tezcə barışmağın
Mənimçün nəşədi, gülüm.

Hər sözümü söz eyləmək,
Baxışını köz eyləmək,
Addımbaşı naz eyləmək
Sənինçün peşədi, gülüm.

Vallah ağlım çıxar başdan,
Əl çək bu yersiz savaşdan.
Sanma mənim qəlbim daşdan,
Sənինki şüşədi, gülüm.

1996

SEVMƏ MƏNİ

Bir atəşəm, od kimiyəm
Öz-özümə yad kimiyəm,
Unudulmuş ad kimiyəm
Sevmə məni, sevmə gözəl.

Dərdim uca, qəmim uca
Sözüm cavan, özüm qoca.
Baxışınla yorulunca
Sevmə məni, sevmə gözəl.

Baxma mənə sən belə çox,
Baxışların qəlb oyan ox!
Mən Fərhadam, külüngüm yox,
Sevmə məni, sevmə gözəl.

Şam aşiqi pərvanəyəm,
Söz dünyası viranəyəm.
Mən dəliyəm, divanəyəm
Sevmə məni, sevmə gözəl.

Gah alışıb, gah yanarsan
Bəlkə də eşqin danarsan...
Məni də Məcnun sanarsan
Sevmə məni, sevmə gözəl.

1996

NECƏ QORUYUM

İllər uçur başım üstdən quş kimi,
Qara yağır ağ üstə yağış kimi;
Özün söylə sənə olan eşqimi
Axı necə gülüm, necə qoruyum?!

Səni sevib eldə qoçaq olmuşam,
Bəd gözlərə iti bıçaq olmuşam;
Yana-yana sönən ocaq olmuşam
İndi qalıb külüm, necə qoruyum?!

Bir atəşə çevirirsən gözünü,
Ürəyimə içirirsən sözünü...
Hey deyirsən, qoru, qoru özünü,
Səni sevmək zülüm, necə qoruyum?!

Mənim eşqim bilirsən nə qədərdir?
Sanıram ki, iztirabım hədərdi.
Yox etməkçün dünya boyda bu dərdi
Bircə qalır ölüm, necə qoruyum?!

1997

ETİRAF

Bənzədərdim əzəl səni bahara
Sonra duydum: bahar hara, sən hara?
Yaydır, qışdır yan-yörəsi baharın
Sən arxamsan, düşsəm əgər mən dara.

Bənzədərdim əzəl səni selə mən,
Üzü dönsə, sel dağıdır aləmi...
Sən sərinlik gətirirsən qəlbimə,
Yox edirsən ürəyimdən dərd, qəmi.

Bənzədərdim əzəl səni gülə mən,
Bahar ətrin mənə sən gətirmisən.
İylədikcə bahar fəsli gülləri,
Hiss etdim ki, güllərdən ətirlisən.

Bənzədərdim əzəl səni Günəşə,
Yaxın düşsəm o oduyla yandırar.
Birgə olsaq biz sənlə, həmişə
Bu birgəlik bizi göyə qaldırar.

İllər ötür, ömür keçir yel kimi,
Bənzərini axtarmağa uymuşam.
Əvəzsizsən qoruyanı eşqimin
Bunu çoxdan ürəyimlə duymuşam.

1990

İNCİMƏ GÖZƏL

Mən qarşına necə çıxım,
Qəm dağını necə yıxım?
Gül üzünə necə baxım –
İncimə, incimə gözəl.

Dünyanın yükü belimdə,
Qaçqın, köçgünlü elimdə...
Gözəllik neylər dilimdə?
İncimə, incimə gözəl.

Gedirəm, gedə bilmirəm
Dərdi üyüdə bilmirəm.
Səni vəsf edə bilmirəm,
İncimə, incimə gözəl.

Bənzərsiz hüsnünə baxıb,
Şerim səninçün darıxıb...
Vaqif Nəsir lap darıxıb
İncimə, incimə gözəl.

1996

OLARMI

İllərin yazısı tale daşımda,
Ağardı qap-qara günlər başımda.
Gözəl, özün söylə, mən bu yaşımda
Bir dəli sevdaya düşsəm olarmı?

Eşqin atəşidir yandıran məni,
Başımın üstündə dağların çəni.
O gözəl hüsnünə and verrəm səni
Yeni bir qovğaya düşsəm olarmı?

Ötmüşəm bir gülün bülbülü kimi,
Kükrəyib coşmuşam dağ seli kimi.
Söylə, qorumaqçün qəlbdə eşqimi
Ayrı bir məcraya düşsəm olarmı?

Biganə deyilsən sən gözəlliyə,
Vaqif Nəsir, nə tez çatdın əlliyə?
Sığınmaqdan ötrü xoş təsəlliyə,
Şirin bir xülyaya düşsəm olarmı?

1996

TANRI YOLU

Sən ki, belə Tanrını çox sevirsən,
Çoxlu xoşbəxt günün, ilin olacaq.
Yollarına işıq saçar əqidən,
Dayağınsa, xoş əməlin olacaq.

Tanrı yolu yolların ən ucası,
Bu yolda var həm cavanı, qocası;
Dərgahına əl uzatsan, qısası
Xoş əməllər bil təməlin olacaq.

Yalan sevməz bax bu yolun yolçusu,
Nahaq deməz bax bu yolun yolçusu,
Haram yeməz bax bu yolun yolçusu
Qəlb ilə bir, şirin dilin olacaq.

Nəsib olur bu yol ancaq qanana;
Gərək insan yaradana inana.
Bu dünyanın halal qızı, anana
İnanıram bir gün gəlin olacaq.

2002

ŞÜKÜR, TANRIM

Bülbül daha qəmli nəğmə çalmasın,
Aşiq özün ahu-zarla yormasın.
Lalə sinəsinə qara vurmasın
Şükür, tanrım, yar-yarına qovuşdu.
Dağlar çənə, bağ barına qovuşdu.

İnnən belə həsrət xəcil olacaq,
Ürəklərdə fərəh yuva salacaq...
Gözlər sevinc yaşlarıyla dolacaq,
Hicran qəfil getdi, kədər sovuşdu
Şükür, tanrım, yar-yarına qovuşdu.

1999

CEYRANI

Qələm sahibləri, sizə sözüm var,
Axır gətirərsiz gözə ceyranı.
Gözəllik gözlərə yiyə, sahibkar,
Payız da qısqanır yaza ceyranı.

Ürəyim qüssədən olubdu şan-şan,
Ovçudan dilərəm almasın nişan;
Etməsin elləri məyus, pərişan,
O çox görməsin qoy, düzə ceyranı!

O, bir yaraşıqdır Milə-Muğana,
Gözəllik gətirir Azərbaycana.
Sorağı yayılıb bütün cahana,
Qoymayaq bəd nəzər süzə ceyranı.

Gəlin hifz eyləyək, qoruyaq onu,
Dünyanın ən zərif bir məxluqunu,
Axı Vətənimin böyük Vurğunu
Əmanət qoyubdu bizə ceyranı.

2001

AND

Əgər əhdimizə xəyanət etsəm,
Deyirəm, əzizim, ar olsun mənə.
Özgə bağçasında gül olub bitsəm,
Sap-saralmış xəzan yar olsun mənə.

Sənsiz ey sevgilim, açılsa gülüm,
Bağda cəh-cəh vursa şeyda bülbülüm;
Onda cəza kimi gəlməsə ölüm,
Qoy bu geniş dünya dar olsun mənə.

Zərrəcə azalsa saf məhəbbətim,
Əhdə sədaqətim, eşqə hörmətim,
Tanrıdan kəsilsin qədrim, qiymətim
Baharım boranlı qar olsun mənə.

1971

MÜBARƏK

Gəlin köçən qızlarımız üçün

Yeni bir ocağa köçürsən bu gün,
Xoşbəxtlik diləyir el-oba sənə.
Vüsal şərbətini içirsən bu gün,
Təbrik eyləyirik biz dönə-dönə.

Həmişə səadət qoy yarın olsun.
Sevda dəryasında sona olasan!
Həyatın daima sevinclə dolsun
Mehriban, qayğıkeş ana olasan!

Sədaqətdən güc al təmiz eşqinə,
Ülfətin yolunda qoy xalı olsun.
Yaxşı yol deyirik bu gün biz sənə,
Kövrək qədəmlərin sayalı olsun!

2001

XOŞBƏXT OLUN SEVƏNLƏR

Məhəbbət mayağınız,
Sədaqət dayağınız,
Xoş keçsin növrağınız
Xoşbəxt olun, sevənlər!

Sədaqətdən güc alın,
Qanadlanın, ucalın
Bir qarıyıb, qocalın,
Xoşbəxt olun, sevənlər!

Ömrünüz bahar olsun,
Oğlan, qız nübar olsun!
Tanrım sizə yar olsun
Xoşbəxt olun sevənlər!

DƏYƏR

Eşq ilə əkizdir dünyanın qəmi,
Sevdasız bir ömür, həyatın kəmi.
Niyə qınayırlar yanan Kərəmi,
Saf məhəbbət üçün ölməyə, dəyər

İçim rişxənd edir indi çölümə,
Közüm ürək qızmır isti külümə;
Mənəvi öləncün gələn ölümə,
Nəinki ağlamaq, gülməyə dəyər...

2002

SƏN OLMASAYDIN

Musiqi: Emin Nəsir

Necə kükrəyərdim, necə coşardım,
Gülüm, bu dünyada sən olmadsaydın?!
Həyat yollarında qalıb, çaşardım
Gülüm, bu dünyada sən olmadsaydın?!

Aləm gözlərimdə zülmət olardı,
Könül ilhamını kimdən alardı?!
Bütün arzularım yetim qalardı,
Gülüm, bu dünyada sən olmadsaydın?!

Necə sevinərdim, necə gülərdim,
Gözəl söz çələngin kimə hörərdim?!
Dünyanın özünü özgə bilərdim,
Gülüm, bu dünyada sən olmadsaydın?!

Sən Vaqif Nəsirə vermisən dözüm,
Səndən ilham alır şeirim, sözüm.
Ocağım sönəndə qalmazdı közüm
Gülüm, bu dünyada sən olmadsaydın?!

2004

BAHAR NƏ GÖZƏLSƏN

Açılan gül-çiçəklə,
Sevgi dolu ürəklə,
Neçə arzu, diləklə
Bahar sən nə gözəlsən?!

Güllərin nəfəsiylə,
Yaşamaq həvəsiylə,
Bülbülün bəstəsiylə
Bahar sən nə gözəlsən?!

Hər yan yaşıl bəzənir,
Təbiət təzələnir;
İlhamım göydən enir
Bahar sən nə gözəlsən?!

Fəsillər gənci fəsil,
Qəlbin sevinci fəsil,
Varda birinci fəsil
Bahar sən nə gözəlsən?!

Durnalar da rəqs edir,
Səmada yallı gedir;
Sevən eşq elan edir-
Bahar sən nə gözəlsən?!

Kamanınla, tarınla,
Sərvətinlə, varınla,
Gözəl tablolarınla,
Bahar sən nə gözəlsən?!

Fikrim gəzib dolaşır,
İlhamım coşub, daşır;
Yeni nəğmələr qoşur,
Bahar sən nə gözəlsən?!

Yenə ucalır səsim,
Gedir, gəlir nəfəsim;
Var yaşamaq həvəsim-
Bahar sən nə gözəlsən?!

2007

SƏN YADIMA DÜŞÜRSƏN

Günəş səhər oyanır,
Köksümdə od qalanır;
Pərvanə odda yanır,
Sən yadıma düşürsən.

Dəyişdikcə fəsillər,
Quş kimi uçur illər...
Açanda qızıl güllər
Sən yadıma düşürsən.

Rəng rənglərə qarışır,
Xatirələr danışır,-
Qəlbim yanır, alışır
Sən yadıma düşürsən.

Ağlım yolun çaşanda,
Səbr kasam daşanda,
Dərdim başdan aşanda
Sən yadıma düşürsən...

2006

ALDIN ÜRƏYİMİ

Aldın ürəyimi, aparıb getdin,
Ürəksiz bədənlə neyləyim, indi.
Əkilən cücərdi, səpilən bitdi,
Çiçəksiz çəmənlə neyləyim, indi?!

Yaman qəfil gəldi ömrün xəzanı,
Məcnuna bənzətdin yolun azanı;
Deyirdin yaz gəlir, bəs bülbül hanı?
Bülbülsüz gülşənlə neyləyim, indi?!

Könlümü qaranlıq, qəm, qüssə aldı,
Gözlərim daima yollarda qaldı;
Sənli günlərimə ümid azaldı,
Özün de, mən sənlə neyləyim, indi?!

Kimsədən gizlətməm qocalığımı,
Varlığım qoruyur uca dağımı,
Duman, çən gizlədir ucalığımı
Dumanla, bəs çənlə neyləyim, indi.

2006

CAVANLIQ VAXTIM

Səsində bir məlahət,
Cavan xanəndə-gözəl;
Dilində bala dönür,
Oxuduğun hər qəzəl.

Səndən alır ilhamın,
Şairin hər misrası.
Olacaqsan sən yəqin,
Xanəndələr ustası.

Bizi gec görüşdürdü,
Tanrı qismətim, baxtim,
Görcək aşiqin oldu
Mənim cavanlıq vaxtım...

2008

SAĞALMAQ İSTƏMİRƏM

Mən düşəndə yatağa,
Unudub öz ağrını
Getməyirsən uzağa;
Tutub solum, sağımı.

Sanki sənə güc gəlir,
Deyən, heç ağrımırsan;
Af-ufun da yüksəlmir
Dərman da aramırsan.

Polad kimi əyilməz,
Dağ aşarsan istəsən;
Kənardan baxan bilməz,
Sən məndən bərk xəstəsən.

Bax bununçun yataqdan
Heç qalxmaq istəmirəm.
Sənin xətrinə inan
Sağalmaq istəmirəm.

2008

TELEFON

Son günlər mənalı, yoxsa boş yerə
Zamanı yamanca izləyirəm mən;
Əsla telefonu qoymuram yerə,
Səndən bir xoş soraq gözləyirəm mən.

Yaxşı yadımdadır, uşaq çağımda,
Beləcə baharı gözləmişəm mən.
Gül-çiçək yetirib ömür bağımda,
Eşqin nübarını gözləmişəm mən.

Könlümə ruh verir telefon səsi,
Sanki hər zəngində sənin səsin var.
Onun zəngi sanki sevgi nəğməsi,
Ondan ilham alır şirin arzular.

Könül intizarda, bilmirəm nədən
Yuxuma lap zəhər qatıram indi;
Xəbər gözləyirəm anbaan səndən,
Əlimdə telefon yatıram indi.

2009

DƏRDLƏRİN ŞİRİNİ

Dərdlərin şirini “məhəbbət dərdi”,
O mərd edə bilir hətta namərdi.
Ondan özgə hər şey gəldi-gedərdi,
Ən ülvi, ən təmiz hissdi, məhəbbət.

O yük ağırsa da, gərək daşına,
O, baxmaz heç zaman insan yaşına;
O, bahar gətirər ömrün qışına
Bir bülbül cəh-cəhli səsdi, məhəbbət.

Həyatda tapılmaz ondan ucası,
Vardır həm şirini, həm də acısı;
Daim cavan qalır, olmur qocası,
Yalnız ürəksizə pisdi, məhəbbət.

2009

DEDİM ÖYRƏŞDİRMƏ MƏNİ ÖZÜNƏ

Dedim öyrəşdirmə məni özünə,
Araya ayrılıq düşsə, neylərəm?!
Zəhər qatılacaq şirin sözümə,
Tufan qopararam, mən qan eylərəm.

Məni tərk elədin elə bir vaxtda,
Dərdi daşımağa gücüm qalmadı...
Hicran gülə-gülə çıxanda taxta
Ona söyləməyə sözüm qalmadı...

Dedik ayrılmarıq dünya dağıla,
Dünya yamanıyla öyünür indi,
Şeirim bənzəyir adi nağıla,
Axan göz yaşımda yuyunur indi.

Dedim öyrəşdirmə məni özünə,
Axı hər görüşün ayrılığı var.
İndi nalə çəkib, vurram dizimə
Qəlbimi dağıdır nakam arzular...
2022

İSTƏK

Səndən uzaq, yuxum darda
Sən hardasan, özüm harda?
Göydə sönən ulduz kimi
Öz yerimdə sürüşürəm,
İndi yalnız xəyallarda
Mən sənlə görüşürəm.

Ömrümdən ötsə də günlər
Qoy zamanın budağından
Yarpaqlar tez tökülsünlər!
Həyatın zaman varından
Hər ili bir ana verim,
Bu həsrəti sona verim.


NECƏ UTANMAYIM

Təmiz məbbətdən dəm vuran gözəl,
Qəlbimi ümidlə dolduran gözəl,
Şirin xəyallardan ev quran gözəl,
Könlünü verirsən başqa birinə,
Necə utanmayım sənin yerinə?!

Dağlardan vüqarlı sanırdım səni,
Nədən tez unutdun vədi-vədəni?!
Başının üstündə görəndə çəni,
Qövr edir yaralar, gedir dərinə.
Necə utanmayım sənin yerinə?!

Çox yarımçıq bitdi sevgi nağılı,
Sənli dünyam qaldı qapısı bağlı.
Kobud barmaqlarla qaba sığalı,
Özgə əllər verir indi telinə
Necə utanmayım sənin yerinə?!

2003


Sonetlər
Sözün ahəngi ilə doğulan misralar,
Hissin dərinliyində gizlənən çağlar.
Hər sətirdə bir ömür, hər misrada sən,
Sonetlərdə səssiz, amma sonsuz bir nəfəs

SONETLƏR

NECƏ QÜDRƏTLİDİR O MAHİR BƏNNA

Necə qüdrətlidir o mahir bənna,
Hörür bir-birindən gözəl binalar.
Hər dəfə həvəslə baxıram ona,
Sanki əllərində sehirli güc var.

Tikdiyi hər bina gözəllik, sənət
Qibtə eyləyirəm mən ona düzü.
Dönür xarüqayə çəkdiyi zəhmət,
Abidə yaradır özünə özü.

Ömrüm həm uzanar, həm gözəlləşər,
Narahat ürəyim yerinə düşər
Əgər öz işimi beləcə görsəm.

Dünyanın xoşbəxti olaram mən də,
Duyğularla dolu söz gülşənində
Şeir çələngini onun tək hörsəm…

1977

ZƏKASI İNSANIN

Zəkası insanın, ağlı insanın
Atom bombasını verib cahana.
Yarandığı gündən osa, inanın,
Meydan oxuyubdur yaradanına.

Neytron bombası çıxıb bu yandan
İstəyir göz açsın o da dünyaya.
Ayağı həyatda yer tutan andan
Od-alovun saçsın o da dünyaya.

Yaşamaq eşqinə, həyat eşqinə,
Xoş günlər eşqinə, büsat eşqinə
Nələr yaratmayıb insan dünyada?

Əgər diqqət etsən bir qədər dərin,
Görərsən ki, bəzi əməllərinin
Bənzəyişi vardır nankor övlada.

1977

MƏNİ QINAMASIN

Məni qınamasın yaxın dost, tanış
Deməsin peşəni dəyişir nədir?
Şeir, sənət məni eləcə almış,
Onsuz ömrüm sanki bir əfsanədir.

Alışan ürəyim yanar bir çıraq,
Bircə an içində şeirsiz sönər;
Şeirsiz həyatım viranə bir bağ,
Şeirlə həyatım cənnətə dönər.

Elmin daş-kəsəkli çətin yolunda
O, şeir pərisi mələk donunda,
Çox əlimdən tutub yorulan kimi.

Mən onun eşqinin əsiri oldum,
Şeir pərisinə elə vuruldum-
Məcnun Leylisinə vurulan kimi.

1970

ÇİÇƏK TƏBİƏTİN ALİ NEMƏTİ

Çiçək təbiətin ali neməti,
Saxta çiçəkləri sevməyirəm mən.
Kimdi lağa qoyan bəs təbiəti,
Süni gül-çiçəklər çoxalır nədən?!

Göylərə qalxsa da insan sənəti,
Tanrı yaradana tay ola bilməz!
Yerdə yandırılan aşkardı qəti,
Heç zaman ya Günəş, Ay ola bilməz!

Ürəyə qidadır gülün nəfəsi,
Ayrı bir sevdadır gülün nəfəsi
Görün nələr düşür baxta çiçəkdən?!

Saxta çiçəkləri ələ almayaq,
Gəlin zövqümüzü ələ salmayaq,
İnsan saxtalaşır, saxta çiçəkdən!

1997

GÜNƏŞƏ BƏNZƏYƏN O GÖZƏLƏ BAX

Günəşə bənzəyən o gözələ bax,
Tellərin düzümü, güllərin rəngi,
Qaməti, duruşu, gülüşü ancaq,
Gözəllik rəmzidir, həyat ahəngi.

O gözəli görcək ağlın itirib
Hamılıqla baxır, bizim kişilər.
Qəlbdə yeni-yeni arzu bitirib,
Şimşək olub çaxır, bizim kişilər.

Əsil məhəbbəti duyurmu görən,
Bir gözəl önündə ləçər görünən,
Buz təki əriyib, su tək axanlar?!

Baxmağa əlbəttə yoxdur qadağa,
Baxışdan getməyir əsla uzağa,
Bir şair demişkən "Günə baxanlar"!

2002

DOĞRUYA YERİMƏK ÖYRƏDİR YALAN

Doğruya yerimək öyrədir yalan,
Soyuq hava vurur isti sobalar;
Gərək dəyişməsin əbədi olan
Dünya çox dəyişşib, deyir babalar.

Bəli tərs düşübdür işimiz yaman,
İndi ox atıllır kamana sarı.
Heç vaxt istəmirəm buna inanam:
Dünyamız dəyişib yamana sarı.

Fəqət sualım var, görəsən niyə
Bir qardaşın ahu qalxarkən göyə
Başqa qardaş toy-büsatlı, sazlıdır?!

Qar vuran yerləri bir də qar vurur,
Zalım mərhəmətin qəsdinə durur
Haqsızlıq nə üçün imtiyazlıdır?!

1995

BİR ÖMRÜN ULDUZU

Bir ömrün ulduzu birdən sürüşdü,
Yığışdı qohumlar, yaxın tanışlar.
Dörd körpə taleyi borana düşdü,
Onlara zilləndi qəmli baxışlar.

Kimi yetim qalan bu körpələrin,
"Taleyi çox çətin olacaq" dedi.
Kimi köks ötürüb lap daha dərin,
"Rəngləri gün-gündən solacaq" dedi.

Gəlin unutmayaq gözəl adamlar
Yenidən alışıb çox sönən şamlar;
Yaxşı diqqət edək el misalına.

Köməksiz deyildir yetim uşaqlar
İnsanlar içində yaşayacaqlar,
Vay deyək ölənin bu gün halına...

1996

ŞƏNİNƏ ÇOX TƏRİF EŞİTMİŞƏM MƏN

Şəninə çox tərif eşitmişəm mən,
Canları yandıran qara gözlərin.
Oxu yan keçməyib mənim qəlbimdən
Aşiqini çəkən dara, gözlərin.

Günəşə bənzəyib öz işığıyla,
Özgə bir aləmə dönübdür bəzən.
Aşiqə can verib yaraşığıyla,
Kədərə, ələmə dönübdür bəzən.

Gözlər var insanı çıxarır yoldan,
Gözlər var ilanı çıxarır koldan
Gözlər var ki, hər qırpımı kələkdir.

Dünyanı görərək ağarıb başım,
Yalan söyləmərəm əsla qardaşım:
Gözlər də var ki, inanmaq gərəkdir.

1995

HƏYAT SİRLƏ DOLU

Həyat sirlə dolu əngin bir fəza,
Əsil məhəbbətdir qanad insana.
Sevilməmək Tanrı verdiyi cəza,
Odur fərman verən dəhşətli sona.

Fəqət hamar deyil taleyin yolu,
Burda mayağım da məhəbbətimdir.
Baxtıma yağsa da qar, yağış, dolu
Sanıram xoşbəxtlik son qismətimdir.

Açılacaq açılmayan güllərim,
Sənə doğru uzanan cüt əllərim
Tellərini darayacaq, bilirəm.

Sərvət varmı saf, səmimi eşq kimi?!
Ürəyimdə gizlədiyim eşqimi
Ulu tanrım qoruyacaq, bilirəm

1995

SİZİ QALİB GÖRDÜM MAVİ EKRANDA

Sizi qalib gördüm mavi ekranda
Ay mənim idmançı bacım, qardaşım.
Özümü hiss etdim ayrı cahanda,
Fərəhə qoşuldu sevinc göz yaşım.

Siz qalib gəldiniz bir yad ölkədə,
Düşmən də, dostlar da sizə əl çaldı.
Səsləndi himnimiz əzəmət ilə,
Dövlət bayrağımız göyə ucaldı.

Bu gün nə diləyim axı mən sizə?!
Tikanlar tuş olsun qoy yaman gözə!
Belə qələbələr hələ çox görək!

Yurdumda neçə kənd, neçə şəhər var
Əsir götürübdür alçaq yağılar,
Orda bayraqları ucaltmaq gərək.

1995

BU GÜN DİNDİ TELLİ SAZIM

Bu gün dindi telli sazım,
Baxtım necə gülümsədi?!
Çiçək açdı böyük arzum, -
Vətən mənə oğul dedi.

İstəyirəm qanad, uçum
Oğul dedi elim mənə.
Bu torpağı öpüm, qucum
Oğul dedi dilim mənə.

Ətaləti atmaq üçün,
Bu arzuya çatmaq üçün
Düz əlli il çalışmışam!

Vətən eşqi qüvvəm, gücüm,
Vətən eşqi bir qığılcım
Mən bu eşqlə alışmışam.

1995

TALEDƏN ALMAMIŞ HƏLƏ MƏN KAMI

Taledən almamış hələ mən kamı
Düşmüşəm həyatda borana, qışa;
İtirdim arxamı – cavan atamı
Uşaqkən, çatmamış heç altı yaşa.

Həyatın ən çətin yollarından mən
Keçdim, yaşıdlardan geri qalmadım.
Ana zəhmətindən, kişiliyindən
Özgə köməyinə möhtac olmadım.

Ötdü neçə illər, neçə fəsillər
Həyat baxçamızda açıldı güllər...
Anamın zəhməti getmədi əbəs.

O zaman göz yaşı tökmədim, indi
Bu insanın acı taleyi məni
Uşaq tək ağladır istər, istəməz.

1990

BU GÜN DƏFN EYLƏDİK KÖHNƏ TANIŞI

Bu gün dəfn eylədik köhnə tanışı,
Neçə arxasıza arxa olmuşdu;
Yaman tez yetişdi ömrünün qışı,
Ətir saça-saça yanıb solmuşdu.

Qəlbləri dağıdır təəssüf hissi:
Yamanlar yaşayır, yaxşılar gedir;
Bilinmir dünyanın yaxşısı, pisi
Görən yaradanın məqsədi nədir?!

Yox, yox! Bu fikirlə baş vurma dərdə
Ölüm ömür sonu qara bir pərdə,
Yaxşı da, yaman da ona bürünür.

Hamı köçüb gedir qoca dünyada
Yamanlar düşməyir heç zaman yada,
Fəqət yaxşıların yeri görünür...

1995

QOCAYAM SÖYLƏYİB ŞİKAYƏT ETMƏ

Qocayam söyləyib şikayət etmə,
Şikayət zəiflik əlamətidir.
Ruhun cavan ikən meydandan getmək,
İnsanın ən böyük fəlakətidir.

Sual ver özünə, Mikayıl*, Cəfər**
Ömür sürsəydilər bax sənin qədər,

* *Mikayıl Müşfiq*
** *Cəfər Cabbarlı*

Nələr yaradardı, nə yazardılar?!
Ölümə qəbir də lap qazardılar.

Ömrün enişinə, yoxuşuna bax,
Çiçəkli yazına, sərt qışına bax!
Hər açılan öz vaxtında solmayır.

Vallah tamaşadır, toydur qocalıq,
Taleyinə düşən paydır qocalıq;
Qocalıq hər kəsə qismət olmayır.

1994

YEDDİ ŞAM YANDIRDIQ

Yeddi şam yandırdıq, hərəsi bir rəng,
Sevincə qovuşduq bayram gecəsi.
Ürəkdə arzular şam tək rəngarəng,
Qanadlanıb uçduq, bayram gecəsi.

Hər şam öz ömrünü yanıb yaşadı,
Biri nəfəs aldı lap aram-apam.
Birinin sevincdən gözü yaşardı,
Sanki əriməkdən alırdı ilham.

Beləcə alışıb yandı yeddi şam,
Bəzək gətirdilər evə bu axşam;
Novruzum ötüşdü xoş anlar ilə.

İlahi şamın da baxtı olarmış,
Həyatda gör necə bənzəri varmış,
Müxtəlif taleli insanlar ilə?!...

2003

OĞLUNUN TOYUDUR

Oğlunun toyudur sevinir hamı,
Məclisə toplaşıb tanışlar dostlar.
Coşur tamadanın yaman ilhamı,
Şeirdən güc alır rəngarəng tostlar.

Üzlərdə dil açır öpüşlər bir-bir,
Dostlar səni qucur, təbrik eyləyir.
Biri qol qaldırıb şirin rəqs edir,
Başqa birisi də sağlıq söyləyir.

Deyirəm səmimi olsa öpüşlər,
Ürəklərdən gəlsə sözlər, gülüşlər
Heç zaman qalmarıq çətində, darda.

Xoş ülfət göstərsək yaxın sirdaşa,
Qəlbən yaxınlaşsaq dosta, qardaşa
Xoşbəxt olacaqlar bil, balalar da!

2002

BƏŞƏR ÖVLADINA ƏBƏDİ MƏSKƏN

Bəşər övladına əbədi məskən
Dünyaya nədənsə fani deyirik;
Birimiz dağıdan, birimiz tikən
Əməli, taleyi eyni deyilik.

Insandır bəzəyi dünyanın axı,
Insasız bu dünya necə görünər?!
Tərsinə fırlansa fələyin çarxı,
Dünya başdan-başa qəmə bürünər.

Özəl qanunları vadır dünyanın,
İnsansız dəyəri olmazdı onun,
Bir cansız olardı tənha dünya da.

Düzdür hər aılan bir gün də solur,
«Bir yandan boşalır, bir yandan dolur»
Fəqət daimidir İnsan dünyada.

2006

BACIM KİM İSTƏYƏR DÜŞSÜN YATAĞA

Bacım kim istəyər düşsün yatağa?
Sən mənə «özünü qoru», deyirsən.
Dolu, qar düşəndə qəfildən bağa,
Vaxtsız solanlarçün nə eyləyirsən?

Təbiət kimidir ömrü insanın,
Günəşli günləri, yağışı da var;
Dəyişmir qanunu heç zaman onun,
Baharı vardırsa, sərt qışı da var.

Fəqət fərq bundadır, hər fəsli ilin,
Gəldiyi kimi də geri qayıdır;
Lakin bu dünyaya gələn hər nəslin,
Bir fəsil bir dəfə ömür payıdır.

Uşaqlıq, cavanlıq, qocalıq yolu-
Həyatda insanın ucalıq yolu,
Ölümsə, bu yolun qəm naxışıdır.

Əbədi deyildir heç kəs dünyada,
Qurmaq, yaratmaqdır əsas dünyada.
Əcəl də vaxtında Vallah yaxşıdır.

2006

ZAMAN ÖMÜR KİMİ AXAN BİR ÇAYDIR

Zaman ömür kimi axan bir çaydır,
Ömür dayansa da bu çay dayanmır.
O qışdır, payızdır, bahardır, yayadır
O daim yandırır, özüsə yanmır.

Zamandır insanın ulu ustadı,
O verir insana əsil qiyməti;
Zamanla bir olan yalnız dünyadı,
Biz ona mehmanıq lap müvəqqəti.

O, taxtı-tacları həyatdan silir,
O, ağır yaranı sağalda bilir.
Dərdlərə dərmanı tapan zamandır!

İnsana hər şeydən ləzzətli-dadlı,
Həyatmı söyləyim, ya ömür adlı
Qranit qayanı çapan zamandır!

2003

ÖLƏN SON MƏNZİLƏ YOLA SALINIR

Ölən son mənzilə yola salınır,
Min fəryad qoparır qohum-qardaşı.
Ürəklər alışır, ürəklər yanır,
Söndürə bilərmi onu göz yaşı?

Cənazə önündə anadır duran,
Dümağ saçlarını gör necə yolur?!
Xaraba üstündə imarət quran,
Payız buludu tək boşalıb dolur.

Necə də ağlayır o, yana-yana,
Övlad böyütmüşdü tək, ərsia ana,
Nə tez güllər soldu yaşıl çəməndə?!

Fərqi yox yaxındır ya da ki, uzaq,
Mənim də gözlərim olur cüt bulaq
Analar ağlayıb nalə çəkəndə…

2004

HƏR BİR HAQSIZLIĞIN ÖZ SƏRHƏDDİ VAR

Hər bir haqsızlığın öz sərhəddi var,
Orda Tanrı səbri tamama yetir.
Haqsızlıq yalanla müttəfiq olar,
Yalanın bağında xəyanət bitir.

Haqqın nəfəsini axtarmayaq gəl,
Şora yağ, doşaba bal deyən yerdə.
Gözəl kifir olar, kifirsə gözəl,
Hər qara ləkəyə xal deyən yerdə.

Göylərə çəkilər xeyir-bərəkət,
Cükunət əsiri olar hərəkət…
Haqsızlıq tərəqqi tapdığı yerdə.

Daim darda qalar namus,vicdan, ar,
Fələyin çarxı da tərsə fırlanar ,
Haqsızlıq atını çapdığı yerdə.

2003

BU GÜN

Bu gün, bax o günü yaşayıram mən,
Sənin ölümündən keçdi iki il,
Ağır qəm yükünü daşıyıram mən,
Anasız bir həyat, heç həyat deyil .

Sözün, nəsihətin mənə gərəkdir,
Ana laylasına ehtiyacım var.
Şirin xəyalların arxa, köməkdir,
Ana duasına ehtiyacım var.

Güclüdən güclüydün,mətindən mətin,
Qibtə eyləyirdi lap kişilər də.
Sənin məğrurluğun, sənin qeyrətin,
Vallah olmayıbdır çox kişilərdə.

Candan çox sevdiyin oğul övladın,
Dildə şirin sözün, ağızda dadın
Bu fani dünyada keyişib sənsiz!

Çox da ki, gecəsi-gündüzü durur,
Dağları, aranı,həm düzü durur,
Onuncün bu dünya dəyişib sənsiz!

2005

YAMAN NARAHATAM MƏN TALEYINDƏN

Yaman harahatam mən taleyindən,
Millət, nə oyundu salıblar səlini?!
Nankor övladların nə istər səndən,
Tamah namusdanda ustündür yəni?!

Bax bu dəstələrə nə «rəngarəng»dir,
Məramı, amalı deyildir təmiz.
Hər başçı özünü sanır nəhəngdir,
Sanki tayfalara bölünmüşük biz.

Həyatda var olmaq haqqımız itər,
Günəşimiz sönər, tarix də bitər
Əgər ki, bir millət yumruq deyilsə.

Günbəgün kiçilər, solar anbaan,
Millət sayılmarıq heç vaxt, heç zaman
Hərənin ağzından bir avaz gəlsə...

2003

BU FANİ DÜNYADA SON QƏNAƏTİM

Bu fani dünyada son qənaətim:
Səadət insanın əlində deyil!
Həyatın yolları asan, ya çətin
Tale qismətidir,bunu yəqin bil.

Tanrı fərmanıdır keçən həyata,
Bir qapı bağlayıb, birini açmaq.
Lap asi olsan da bu kainata,
Əsla mümkün deyil qismətdən qaçmaq.

Həyatın saflığı, qəlb təmizliyi
Vicdan azadlığı, insan düzlüyü
Görünməz varlığa ibadətdədir .

Bəşərin ağılı, həm düşüncəsi ,
Ömür tarixinin son nəticəsi,
O böyük Tanrıya itaətdədir..

2005

ANAMIN ÖYÜDÜ

Anamın öyüdü, hər nəsihəti,
Ağlıma, zəkama düz yol göstərdi.
Bəzən sərtləşəndə xoş təbiəti,
Sanırdım kişidi, igiddi, ərdi.

Ömrünü bəxş edib övladlarına,
Gücün, qüvvəsini itirdi, anam.
Özü də çevrilib xəstə qadına,
Ömrünə bir xəzan gətirdi, anam.

Ana qayğısını yaman bol gördüm,
Ana sevincindən bir çələng hördüm,
Qəlbimdə sevgisin daim bəslədim.

Bilə-bilə anam qonşu otaqda,
Çox ağır xəstədir yatır yataqda,
Yenə harayıma onu səslədim.

2003

SEVIRƏM DEMƏDİN GÖZƏL

Sevirəm demədin gözəl, indi döz,
Gələn yollarına baxıb qalmısan.
Ürəkdən dilinə yol gedir bu söz
Hər onu görəndə yoxsa lalmısan?

Bəs günah kimdədir, axı de nədən,
Göz yaşın suvarır bağda gülləri?!
Könül rübabını çalmadıqca sən,
Həsrətdən paslanır qızıl telləri.

Sevmək hünər istər gərək biləsən,
Odda yanmamısan deyən hələ sən;
Vüsal hicran ilə qoşadır, inan.

Tanrının ən şirin nazü-neməti,
Insanın insana əsil qiyməti
Məhəbbət, insanı yaşadır, inan!

2003

ANA ÖMRƏ YARAŞIQ

Ana ömrə yaraşıq,
Ata başın tacıdır;
Qardaş evə gur işıq,
Bəzəyi də bacıdır.

Əmi, bibi həm dayı,
Bir kökün yüz qoludur;
Onlar da Tanrı payı,
Onlar qan qohumudur.

Gözəl qohum, can-ciyər;
Əsil dostun var əgər,
İnsanın naxışıdır.

Hamı gərəkdir, məncə,
Deyim hər şeydən öncə
Insanlıq ən yaxşıdır!

2003

ARZULAR SİNƏMDƏ ALIŞAN ULDUZ

Arzular sinəmdə alışan ulduz,
Gör necə göz vurur biri-birinə.
Arzulardı açan gözləri yalnız,
Həyatın görünməz gözəlliyinə.

Borana, tufana, qara düşsə də,
Yerini dəyişməz əsla insanda.
Qolları bağlanıb, dara düşsə də
Xilasa çalışar hər çətin anda.

Bütün duyğulardan ulu, əzəldir
Insan arzularla necə gözəldir?!
Canıdır bəzəyi yaraşığın da.

Bizə uzadıbdır bir cüt qolunu,
Inamla keçirik həyat yolunu
Yanan arzuların gur işığında.

2003

MƏN NECƏ UNUDUM ÖTƏN GÜNLƏRİ

Mən necə unudum ötən günləri,
Gənclik illərinin bəzəyi idi.
O vaxt içdiyimiz sədaqət andı,
Böyük gələcəyin özəyi idi.

Vaxt ötdü, verdiyin vədi unutdun,
Aldandın özgəyə şirin sözlərlə…
Ayrı birisinə üzünü tutdun,
Məni həsrət qoydun qara gözlərə.

Məhəbbət yolundan tələsik döndün,
Hələ alışmamış tezcə də söndün
Səncə sədaqətə sən bir köləydin.

Zəhərə çevrildi halal çörəyim,
Nə günlərə qaldı yazıq ürəyim?!
O ki, səndə idi, gərək biləydin.

2005

***

Dedin: dəyişmərəm. Dəyişdin yaman;
Yerişin, duruşun əvvəlki deyil .
Necə dəyişərmiş İlahi insan,
Səndə güçlü imiş şöhrətə meyil.

Haram pul çaşdırdı yanmanca səni,
Dostluğun, ülfətin yox oldu getdi
Söydün bir gün səni kişi edəni,
Beləcə səincün haqq-hesab bitdi.

Dəyişdin səmtini, azdın yolunu,
Boşları qaytardın, alıb dolunu
Dərəni dağ kimi qələmə verdin.

Haqqı görməməkçün gözünü yumdun,
Birinə çöp verib, ondan bağ umdun
Hətta yaxşılığı sələmə verdin.

2005

ƏL TUTMAQ ƏLİDƏN QALIB

Əl tutmaq Əlidən qalıb deyirlər,
Mən də arxa oldum yaxın, uzağa;
Insanın zəhməti verəndə bəhər,
Sevincdən ürəyi dönür bir dağa.

Neçə illər keçdi, fəsillər ötdü,
Xoş əmələ cavab nankorluq oldu,
Əlindən tutduğum hətta unutdu,
Ondan umacağım yanız «sağol»du.

Insanlıq göstərdin bəzən həyatda,
Üzünə ağolur doğma övlad da,
Öz bağında öz nübarın dərilir.

Bir özgə məktəbdir zaman, zəmanə,
Təəssüflər olsun, ömür insana
Bu dünyada bircə dəfə verilir...

YALAN ZƏHƏRLƏYİR İNSAN QANINI

Yalan zəhərləyir insan qanını,
Yalan xəyanətin başının tacı.
Ərlər haqq yolunda qoyar canını,
Həqiqət olsa da, nə qədər acı.

Yalan olan yerdə bitməz gül-çiçək,
Insan dərdi-qəmi tuğyan eyləyər.
Qol-budaq atsa da,lap ləçək-ləçək
Halalı çevirib, haram eyləyər.

Təmiz söhbətiylə, təmiz sözüylə,
Həqiqət yoluyla, özəl iziylə
Insan el gözündə olur üzü ağ.

Dəhşətli sonluğa aparar bizi,
Onla unudarıq lap əslimizi,
Gəlin yalanlardan olaq biz uzaq.

2003

ANAMIN QUCAĞI SƏNGƏRİM OLUB

Anamın qucağı səngərim olub,
Mən ordan vuruşdum həyatım üçün.
Ana qayğıları sipərim olub,
Şirin arzuları eylədilər çin.

Çətin döyüşlərdən qalib çıxaraq,
Bu səngər qorudu məni ölümdən.
Atam sağ olsaydı, bilirəm, ancaq,
Həyatım keçməzdi belə zülümdən.

Ata-ana ilə tam olur həyat
Arzu eyləyirəm atasız həyat
Mənimlə qurtarsın, mənimlə bitsin.

Deyirəm körpələr, əziz balalar
Arzuları ümman, dəniz balalar,
Atalı, analı kamala yetsin.

2003

SƏN ARTIQ KİŞİSƏN BİLİRƏM BUNU

Sən artıq kişisən bilirəm bunu,
Sənin sabahını düşünürəm mən.
Çox da uzaq deyil ömrümün sonu
Bilsən nə arzular keçir qəlbimdən?!

Xoşbəxtliokdən sənə istəyirəm pay,
Səadət həyatda bələdçin olsun!
Baxtına düşməsin heç vaxt hay-haray,
Şirin arzuların görüm çin olsun!

Böyük mənası var yeni ocağın,
Fərəhlə açılsın daim qucağın,
Çətini uğurla keçəsən, oğlum!

Qoy hörmət gətirsin sənin adına,
Ən böyük arzumdur, sən övladına
Layiqli bir ana seçəsən,oğlum!

2003

İNSAN BU DÜNYANIN ALİ VARLIĞI

İnsan bu dünyanın ali varlığı,
İnsana həmişə hörmət gərəkdir.
Göylərə qaldıraq biz insanlığı,
Bu bir xoşbəxt həyat, barış deməkdir.

Həyat bir doyüşdür,həmin döyüşdə,
Gərək bir-birinin qədrini bilək.
Günahımız varsa, hər hansı işdə,
Nə tənə eyləyək, nə də ki, gülək.

Əsil gülən sonda gülər deyirlər,
Zər qədrini zərgər bilər deyirlər,
Biz də bilsək, məgər dünya dağılar?!

Dinclik tapammırıq dünyada, inan,
Insanın qədrini bilməsə insan
Böyük xəta olar, hər iş ağ olar.

2003

GÜNƏŞ UCALIQ RƏMZİ

Günəş ucalıq rəmzi,
Günəş nur bulağıdır;
Dünyada bütün varlıq
Ziyasına bağlıdır.

Təbiətin canıdır,
Günəşin zərrələri.
Damarlarda oynadır
Qanı, ruhu, nələri….

Ağ rəng Günəş bəhəri,
Ona başqa rəngləri,
Qatan da özümüzük.

Günəş heç vaxt yatmayır,
Günəş heç vaxt batmayır.
Yatan da özümüzük,
Batan da özümüzük.

2003

MƏHBBƏT BİR DUELDİR

Məhbbət bir dueldir,
Sərrast olan qazanır,
Məhəbbət coşqun seldir,
Möhkəm duran qazanır.

Hər sevdalı ürəyə,
O, loğmandı, həkimdi.
Dilə gəldi, ürəyə
Deməli o, hakimdi.

Sevdalar səmasında,
Sevənin simasında,
Qonan oddu, şimşəkdi.

Düzdür, cəfası çoxdur,
Əsla yamanı yoxdur.
Məhəbbət çox qəşəngdi.

2003

GÜLÜŞLƏR RƏNGARƏNGDİ

Gülüşlər rəngarəngdi,gülüşlər var al-əlvan,
Bəziləri od salıb ürəkləri yandırar,
Gülüşlərdən dərs alır bəzən də arif insan,
Gülüş var mənasıyla qamazları qandırar.

Gülüş bar ki, bir incə qanad olar zövqünə,
Səslənər qulaqlarda bəstəkar bəstəsi tək.
Gülüş də var qış vaxtı bahar gətirər sənə,
Rayihəli, ətirli bir çiçək dəstəsi tək.

Bəli, mənalı gülüş ömrümüzə bir bəzək,
Gəlin biz də onları məqamlarına düzək,
Qoy bizə həmdəm olsun ömrün xoş günlərində..

Yersiz gülüş gərəyim deyil mənim heç zaman,
Yersiz hırıldayandan, yersiz güləndən, aman!
Gülüş çox gözəl olur, səslənəndə yerində

2003

BİR QUŞA BƏNZƏYİR ŞAİRİN ÖZÜ

Bir quşa bənzəyir şairin özü,
Şeir dünyasısa, bir əngin fəza;
Qəlbində bişirir o, hər bir sözü,
Şam kimi əriyir o, yaza-yaza.

Həqiqət məşəlin tutub əlində,
Dünyanın sevincin, qəmin daşıyır ,
Hər dəfə həyata şeir gələndə,
Yenidən dünyaya gəlir, yaşayır.

Sanmıram şeirin fəzası dardır,
Orda hər yazarın öz yeri vardır,
Paxıllıq nə gərək biri-birinə?!

Hünərin vardırsa, lap yüksəyə qalx ,
Ordan sən özünə yaxşı ver qulaq,
Heç kəs şeir yazmır sənin yerinə.

2003

KÖRPƏ İKƏN

Körpə ikən mən atamı itirib,
Çətinliyin sərt üzünü görmüşəm.
Öz meyvəmi öz bağımda bitirib,
Hasarını zəhmətimlə hörmüşəm.

Mən qorxu bilmədim, əsla həyatda,
Yetim taleyimlə qalıb baş-başa;
«Düşmənim » olmayıb heç, qorxu adda,
Başım çırpılsa da, lap daşdan-daşa.

Etiraf eyləyim qoy bu gün sizə,
Ruhum bənzəsə də coşqun dənizə,
Tənhalıqdan, mən təklikdən qorxuram.

Bir də…Bircə damla tər də tökmədən,
Əzaba qatlaşıb zəhmət çəkmədən,
Fəth olunan yüksəklikdən qorxuram..

2003

İNSAN BU DÜNYAYA GƏLƏNDƏ

İnsan bu dünyaya gələndə Tanrı,
Elə bil hər şeyi ona borc verir;
Min bir nazü-nemət,dünya varını, –
Ağıl, kamal verir, qüvvət, güc verir.

Zaman ötüşdükcə böyük Yaradan,
Borca verdiyinin qeydinə qalır;
Birindən gücünü, birindən ağlın,
Birindən varını, dövlətin alır.

Şeir öz dünyamdı, öz aləmimdi,
O mənim sevincim, mənim qəmimdi,
Tanrım bu aləmi məndən almasın.

Şeir gülşəninə nur düşən zaman,
Ilhamım mənimlə görüşən zaman,
Kağızı, qələmi məndən almasın…

2003

HƏR BAŞA PAPAQ QOYAN

Hər başa papaq qoyan
Kəsə, erkək deyirik ,
Eli talayan, soyan
Kəsə, zirək deyirik.

Üzü-gözü kirşanlı
Qıza, qəşəng deyirik.
Kibrik boyda imkalı,
Közə fişəng deyirik.

Yad yalağın yalayana,
El-obasın talayana,
Gəlin zirək deməyək!

Yağış deməyək şehə,
Səmti bilinməz mehə
Gəlin küləək deməyək!..

2003

HALAL ÖMÜR SÜRDÜ

Halal ömür sürdü, düz altmış üç il,
Peyğəmbər yaşını yaşadı, bacım.
Ondan razı qaldı yad, doğma nəsil,
Çiynində dünyanı daşıdı, bacım.

Oğullar böyüdüb,başa yetirdi
Nəvələr də gördü cavan yaşında.
Bilməm nə qazandı, nəyi itirdi,
Qara saç qalmadı əsla başında.

Gəlir hərəkəti gözüm önunə,
Bir fikir rahatlıq verməyir mənə:
Hakam gedəcəyin bilirdi bacım?!
Öz doğum gününü, öz ad gününü ,
Oğlunun toyunu, o şad gününü,
Dəhşətli matəmə çevirdi, bacım…

2003

İNSAN BU DÜNYAYA QƏDƏM QOYANDA

İnsan bu dünyaya qədəm qoyanda,
Təmizdən də təmiz, safdan saf olur.
Qəlbində tamahı baş qaldıranda,
Günah dağarcığı ləbələb dolur.

Günahlar savaba güc gələn zaman,
Gərək unutmayaq göydən baxan var;
O böyük Tanrıdan diləyək aman,
Onun dərgahında dinclik tapılar.

Axirətdə qiymət əməllərindir,
Bütünetdiklərin yalnız sənindir
Gec olsa da, haqq yoluna dönginən.

Günahlar önündə gəl, aciz durma,
Əsən küləklərə şam tək göz vurma
Sönəndə də ulduz kimi songinən.

2003

QƏZET SATAN FIRLANIR

Qəzet satan fırlanır,
Qəzeti satmaq üçün;
Ürəyi şam tək yanır
Yükü azaltmaq üçün.

Dayanmadan danışır,
Müştərisi çox olsun,
Bir istəklə alışır,
Təki yükü yox olsun.

Qəzetlər əlində yük,
Qəlbdə arzusu böyük
Gəzir yük atan kimi.

Uçaqlar da uçanda,
Yükü azalır onda
Bu qəzet satan kimi.

2003

QONŞUMUZUN OĞLU

Qonşumuzun oğlu Cavid səhərdən,
Maşın yumaq üçün yollara çıxır,
Onun kiçik oğlu Müşfiq şəhərdə,
Marşurut taksidə yol pulu yığır .

Məktəbli balalar gecə və gündüz,
Daşdan çıxarırlar çörək pulunu;
Evdə gözləyirlər onların sözsüz,
Xəstə ata-ana hər an yolunu.

Beləcə böyüyür bu iki oğul,
Baxışı, duruşu, hər işi nağıl,
Uşaqlıq aləmi, dünyası talan.

Dərdimiz çox böyük,mən necə çəkim,
Bilmək istəyirəm axı kimdir, kim.
Müşfiqi Cavidi bu kökə salan?!

2003

HƏR FƏSLİN DEYİRLƏR GÖZƏLLİYİ VAR

Hər fəslin deyirlər gözəlliyi var,
Payızın xəzanı, qışınsa qarı;
Baharda dil açır bütün arzular,
Isti havalardı yayın da barı.

Əgər nəzər salsaq hər gələn ilə,
Fəsillərin oyu eyni biçilir.
Gərək qılbimdəkin gətirəm dilə,
Bahar bacılardan tamam seçilir.

Axı sirr deyildir, anlayır hamı,
Təbiətin canı, şair ilhamı,
Cansıza can verən fəsildi, bahar!

Mənə də pay verib öz ovqatından,
Mənim taleyimdən, mənim baxtımdan
Yetimlik yazısın nə sildi, bahar!

2003

O, VÜSAL SORAQLI İLK QARANQUŞDU

0, vüsal soraqlı ilk qaranduşdu,
Hünərli addımdı həyata sarı;
O, eşq səmasında yeni uçuşdu,
Büsata çevirir xoş arzuları.

Onu əziz tutar hər ana, ata,
Yeni ailənin canıdır, canı!
Odur yol göstərən yeni həyata,
Vüsala yetirən iki cavanı.

Nişan üzüyünü adi sanmayaq,
Onun hikmətini əsla danmayaq,
Ürəkdən ürəyə yoldu bu üzük..

Yenicə alışıb yanan ocaqcün
Bu gün ailəçün, sabah uşaqcün,
Atılan imzadı, qoldu bu üzük.

2003

YAMAN İNCİTMİŞƏM SƏNİN QƏLBİNİ

Yaman incitmişəm sənin qəlbini,
Bəzən baharına qış gətirmişəm.
Sınağa çəkərək çox vaxt səbrini,
Tez-tez özümkünü mən itirmişəm.

Sənsə, incimədin, dözdün hər şeyə
Günlərin yaxşısı, pisi də oldu;
Bəzən xoşbəxtliyi götürdük nisyə,
Qəlbimiz sabaha ümidlə doldu.

Beləcə bir ömür yaşadıq, gülüm
Həyat baxçasında güllər bitirdik;
Üç övlad yükünü daşıdıq, gülüm
Bununçün gəncliyi illərə verdik.

Arxalı olmaqçün tutub qolundan,
Birgə keçən zaman həyat yolundan
Dedim şərbət kimi içək bu yolu.

Dəyişsəydi illər, dönsəydi zaman,
Yenidən dünyaya gəlsəydim inan,
Sənlə istərdim keçək bu yolu.

2007

DÜZ-ÇÖRƏK KƏSDİYİM NAXƏLƏF ÇIXDI

Düz-çörək kəsdiyim naxələf çıxdı,
Düşündüm bəlkə də, günah məndədir;
Qəlbimi tənələr yandırıb, yaxdı
Xəyalım hələ də qatı çəndədir.

Mən hardan biləydim o əhdi-peyman
Bir gün rəfiq olar vəfasızlığa,
Dəyişdikcə zaman, döndükcə dövran
Düçar olacağam mən haqsızlığa.

O, üz döndərsə də, mən döndərmədim,
Tikanlı sözlərdən "gül" göndərmədim,
Düşündüm dostluğa qiymətimdi bu.

Sarsıldım, yarpaq tək ancaq əsmədim,
Onunla salamı əsla kəsmədim,
Kəsdiyim çörəyə hörmətimdi bu.

2007

NƏHAYƏTSIZ BİR SƏHRADIR BU HƏYAT

Nəhayətsiz bir səhradır bu həyat,
Burdan keçir neçə ömür karvanı.
Səmtin azar hər saniyə, hər saat,
Hər bir kəsin öz ağlıdır sarvanı.

Özgə yoldan çəkək yaman gözləri,
Bu səhrada hərənin öz yolu var.
Gərək deyil silmək özgə izləri,
Yalnız Haqq yoluyla gedən iz qalar.

Ağıl ilə fəqət, şərbət içərsən,
Ayaqyalın lap oddan da keçərsən,
Hər bir şeyə qadir, insan ağlıdır.

Ağlınla öyünmə, daim şükr elə,
Var-dövlətdi, onu gətirmə dilə;
O, bir olan Allah ilə bağlıdır.

2001

QUŞ KİMİ UÇARDIM BU EVƏ SARI

Quş kimi uçardım bu evə sarı,
Bura sığınmışdı, mənim öz dünyam;
Burda çiçəkləndi ömrün baharı,
Burda ayaq açdı mənim söz dünyam.

Bu doğma ocaqdan baxdım cahana,
Saf çürük eylədim yaxşını, pisi;
Burda qaldı qəlbim, getsəm ha yana,
Burda bəstələndi ilk eşq nəğməsi.

Burda başlanıbdı ilk əhdim, andım,
Mənə çox əzizdi küncü, bucağı;
Özümü dünyanın xoşbəxti sandım,
Yatağım olanda ana qucağı.

Ətrafı meyvəli, çiçəkli bir bağ,
Qonaqlı-qaralı isti bir ocaq-
Atəşi, alovu sönübdü, indi.

Ruhuma rahatlıq tapdığım bu ev,
Arzulara qanad yapdığım bu ev
Mənçün göz dağına dönübdü, indi.

2008

İLLƏRİN DARAĞI SAÇIMI YOLDU

İllərin darağı saçımı yoldu,
Gözüm də əvvəlki göz deyil, indi.
Qocalıq ömürdə özgə bir yoldu,
Bu yol xoş xəyalın, xatirənindi.

Neçə azar gəlir azar üstünə,
Bilmirəm yaddaşım indi nə deyir;
Hara gedirəmsə cavanlar mənə,
"Ağsaqqal" deyərək göstərirlər yer.

Evə qayıdanda dəyişir hər şey,
Böyük məhəbbətdən aşıb daşıram.
Sona yetir yaşdan, azardan giley,
Anamla görüşüb cavanlaşıram.

Ağarmış qaşlarda, ağarmış başda
İndi də, bu gündə, anam bu yaşda
Dərdimi, sərimi, gərəkdir bilə.

Mən qoca olsam da özgələr üçün,
Bir baba olsam da nəvələr üçün,
Anamın gözündə uşağam hələ**.**

2007

HƏYAT UZUN BİR YOLDU

Həyat uzun bir yoldu,
Yoxdu əvvəli, sonu.
Ömür bu yolda səfər,
Çoxları bilir bunu.

Səfər var uzun olur,
Səfər da var ki, qısa.
Səfər var səyyahına
Ad gətirir hardasa.

Vəfasızdır bu həyat,
Uymaq günahdır, heyhat,
Şirin olsa da dadı.

Nədən bunu unudur,
Nəfsini uca tutur
Axı bəşər övladı?!...

2008

KİŞİLİK BAŞDAKI PAPAQDA DEYİL


Kişilik başdakı papaqda deyil,
O gərək insanın içindən gələ.
Kişilik yalanda, hap-gopda deyil
Dil ilə əməli, gərək düz gələ.

Kişi ər deməkdir, ərən deməkdir
Onun bircə üzü, bir sözü olur.
Haqq üçün canından keçən deməkdir,
Tərəzidən dəqiq cüt gözü olur.

Hər cinsi kişidə kişilik olmaz,
Kişilik soy-kökdən, mayadan gəlir;
O zalımı, zülmü cavabsız qoymaz,
Kişilik sədaqət, düzlük deməkdir.

Kişilik dünyanın varı-dövləti,
Tanrıdan verilib əsil qiyməti
Heç zaman dəyişməz, heç zaman itməz!
Bizə atalardan miras qalıbdı,
Gücünü torpaqdan, eldən alıbdı,
Namərd baxçasında heç zaman bitməz!

2012



ŞAİRLƏR VAXTSIZ QOCALIR

ŞAİRLƏR VAXTSIZ QOCALIR

Çaylar məcrasını dağda dəyişir,
Bülbül avazını bağda dəyişir,
Qaraya aldanıb ağ da dəyişir;
Riya iftiradan qüvvət, güc alır-
Onunçün şairlər vaxtsız qocalır.

Günəşi bəyənmir yerdəki tonqal,
Ey ürək, bu dərdə odlanıb, yan qal;
Laləyə lağ edir tikanlı qanqal,
Meşələr şahından tülkü bac alır-
Onunçün şairlər vaxtsız qocalır.

Gün-gündən bəd əməl həddini aşır,
Birinin kefiçün mini çalışır,
Nə halal, nə haram, hamı qarışır,
Zalım harınlaşır, dünya əl çalır,-
Onunçün şairlər vaxtsız qocalır.

Qüvvət tükənibdi igiddə, ərdə
Şeytan yuva salıb düşüncələrdə,
Qalmayıbdı sözdə hikmət, dəyər də
Bir parça çörəkçün aqil alçalır-
Onunçün şairlər vaxtsız qocalır.

Nadan aqillərə ağıl öyrədir,
Nəvə nənəsinə nağıl öyrədir,
Haqsızlıq yandırıb-yaxır, göynədir.
Yerdən ahu-nalə göyə ucalır,-
Onunçün şairlər vaxtsız qocalır.

Qeybə çəkilibdi rəhm, mərhəmət
İnsanda qalmayıb insana hörmət;
Budur bəşər üçün böyük fəlakət:-
Haqlı cəzalanır, haqsız tac alır-
Onunçün şairlər vaxtsız qocalır.. 2009

TANRI PAYI

Hərənin öz baxtı, öz taleyi var,
Biri doğulmamış borana düşür.
Başqası taledən daim bac alır,
Çətin məqamlardan yana ötüşür.

Tanrıdan pay düşür hərəyə bir cür,
Hər payın çəkisi, öz dəyəri var;
Vaxtsız xərclənəndə tükənir ömür,
Arzu kimi qalır qəlbdə arzular.

Çox vaxt axirəti insan unudur,
Ömrünə qəsd edən bir yolu tutur:
Tanrı verdiyini haman "xərcləyir".

O payın biri də gənclik, cavanlıq
Ondan qüvvət alır bəşər, insanlıq
Təkcə onu zaman, zaman "xərcləyir",
Açıq, ya xəlvəti, yaman "xərcləyir"...

2012

KÖLGƏDƏ YATANA

Deyirsən ki, kölgəsində birinin
Kefin sazdı, xoş günlərin sayı yox.
Bir belə arxanın, belə "kölgə"nin,
Xoşbəxt yaşamaqda əsla tayı yox.

Etmə bu kölgəni özünə məskən,
Çıx, Günəş ziyası üzünə dəysin;
Həyat yollarının çınqılı, daşı
Ayağına dəysin, dizinə dəysin.
Demək, sevməyirsən odda yanmağı,

Özün öz dərdinlə qayğılanmağı...
Bunun pis sonluğu, dəhşəti vardır.
Kimin kölgəsində yatsan da belə,
Adın xoş məramla heç gəlməz dilə,
"Günəşdən gizlənən yarasalardır!"

2012

NƏ VAXT KİŞİ OLACAQSAN

Düşmənlərin yeddi başlı,
Səni gördüm gözü yaşlı.
Söylə görüm başı daşlı,
Nə vaxt kişi olacaqsan?

Məsləkin pul, mənsəbin pul
Etmədimi pul səni qul?
Dərdi, səri qanmaz "oğul",
Nə vaxt kişi olacaqsan?

Təmtaraqlı bağın da var,
Solun da var, sağın da var.
Var-dövlətdən dağın da var,
Nə vaxt kişi olacaqsan?

Düzü görüb, əyri yazan,
Harınlaşıb, yolun azan,
Öz-özünə quyu qazan,
Nə vaxt kişi olacaqsan?

İzin gedir, yolun gedir,
Başın gedir, qolun gedir;
Boşun qalır, dolun gedir,
Nə vaxt kişi olacaqsan?

Telefonun, masan da var,
Sənə qulaq asan da var;
Qocalığa əsan da var,
Nə vaxt kişi olacaqsan?

Gəl cilovla sən tamahı,
Tutar səni elin ahı.
Ay dünyanın kor timsahı
Nə vaxt kişi olacaqsan?

1987

...ÜZDƏDİR

Adam var ki, heç iş gəlməz əlindən,
Yamanlığı baxışdadır, gözdədir;
Hay-küy salar, zəhər tökər dilindən,
Gördüyü iş, "çeynədiyi" sözdədir.

Oğru var ki, doğruluqdan dərs deyər,
Doğru çaşıb, bildiyini tərs deyər;
Naşı eli arxasınca səsləyər,
Bacaran kəs ac-yalavac, düzdədir.

Ocaq qalıb həsrətində od-közün,
Deyirlər ki, səbr eyləyin, hey dözün!
Beşlik üçün çəpik çalan acgözün
İndi gözü əllidə yox, yüzdədir.

Tarix qara niqab çəkib üzünə,
Məhəl qoyan hanı haqqın sözünə...
Abır-həya sığınıbdır özünə,
Abırsızlıq əvvəlki tək üzdədir...

1991

YAŞAMAQ HAQQI

Dağ çəkilib dağlarıma,
Od düşübdü bağlarıma,
Qan çöküb bulaqlarıma
Siz söyləyin ay bulaqlar,
Bu torpaqda kişi kimi
Yaşamağa haqqımmı var?!

Mən qanadı sınmış quşam,
Əsir düşüb gözəl Şuşam...
Sanki qaya, sanki daşam
Dilim laldır, qulağım kar,
Bu torpaqda kişi kimi
Yaşamağa haqqımmı var?!

Ləyaqəti girov gedən,
Var-dövlətin, malın güdən,
Yad ağadan yalın güdən,
Nə qədər var siz gədalar,
Bu torpaqda kişi kimi
Yaşamağa haqqımmı var?!

Çaxnaşma var sıramızda,
Od oynayır yaramızda;
Şərəfsizlər aramızda
Gecə-gündüz meydan sular;
Bu torpaqda kişi kimi
Yaşamağa haqqımmı var?!...

1997

QOCALIQ

Deyirlər ki, qocalıq
Ömrün şahlıq taxtıdır;
O şirin xəyallardan,
Ləzzət almaq vaxtıdır.

YAŞIMI SORMAYIN

Heç gözüm olmadı
dövlətdə, varda
Qoymadım dostları
çətində, darda;
Olsam da yaxında,
ya da uzaqda
Aqil söhbətinə,
sözə gələrəm,
Yaşımı sormayın,
gözə gələrəm.

Quş kmi qalxaram
dağın başına,
Dönərəm qartalın
dost, sirdaşına;
Baxmaram qarına,
ya yağışına
Zirvədən birbaşa
düzə gələrəm,
Yaşımı sormayın,
gözə gələrəm.

Yenə gözəlliyi
vəsf edirəm mən,

Şeri anlayanı
məst edirəm mən...
İnanın özümə
qəsd edirəm mən;
Bir vaxtlar açılmış
izə gələrəm,
Yaşımı sormayın,
gözə gələrəm.

Mən ömür adlanan
bir qatardayam,
Çox yaxşı bilirəm
indi hardayam...
Hələ çin olmayan
arzulardayam,
Hələ neçəsi var
təzə, gələrəm
Yaşımı sormayın,
gözə gələrəm...

2025

BƏHANƏDİR

Dişlərim töküldü, saçım ağardı
Yaşın nə günahı yaş bəhanədir...
B.Vahabzadə

Həyat bir döyüşdür, deyil oyuncaq
Çətinə düşəndə ətrafına bax;
Əgər yanmayırsa çatdığın ocaq
Səbəb qurudadır, yaş bəhanədir.

Sağında, solunda ədalət yoxsa,
İnsan haqq sözünü deməyə qorxsa,
Dostun bərk ayaqda naxələf çıxsa
Ağrıyan ürəkdi, baş bəhanədir.

Bir gün bir ocağa düşsə əgər vay,
Əbəsdir qışqırıq, əbəsdir haray...
Ömür Yaradandan insana bir pay
İllərə calanan yaş bəhanədir.

2021-Cİ İL QABAĞI

Bir yaş qocaldaraq hər birimizi,
Qoşa iyirmilər tərk etdi bizi.
Ömrümdən qiymətli anlar alsa da,
Gənclikdən bir il də uzaq salsa da,
Yaşamaq istərəm bu ili bir də.

Dikəldi illərlə əyilən qamət,
Özünə vüqarın qaytardı millət,
Çevrilib bir anda dəmir yumruğa
Qarabağ deyərək, qalxdı ayağa
Yaşamaq istərəm bu ili bir də.

Bu ildə düşmənin bağrı yarıldı,
Ruhu əsir düşdü, beli qırıldı…
Şahin-göyərçinlər Şuşaya qondu,
Dünya heyrətindən yerində dondu
Yaşamaq istərəm bu ili bir də.

Bu il çiynimizdən ağır yük atdı,
Özümüzə inam bizə qayıtdı,
Bu il qaçqın sözü gorbagor oldu,
Bütün şəhidlərin ruhu şad oldu
Yaşamaq istərəm bu ili bir də.

OLAR

Duyğusuz insanın dərdi duyulmaz,
Xoş əməl olmasa günah yuyulmaz,
Ümidlər verməsə gül ətirli yaz,
Borana, tufana dözməkmi olar?!

Sözdür ünsiyyətin özü, nüvəsi
Sözdən qüvvət alır şeirin səsi;
Həmdəmin olmasa ilham pərisi
Sözləri misraya düzməkmi olar?!

Özgə sevinci var, hər gələn ilin
Fəsillər içində bahar bir gəlin;
Dayağın olmasa vətənin, elin
Quş tək qanadlanıb, süzmək olarmı ?!
Qanla suvaranda qara torpağı,
Açılmamış solar gülün yanağı,
Olmasa insanın insan dayağı
Bu qəm dəryasını üzməkmi olar?!

Nə qədər çətinsə, şirindir həyat
Kədərə bürünsə bəzən toy-büsat,
Insan yaşamağa can atır heyhat
Məgər bu həyatdan bezməkmi olar?!

PESSİMİZM

Nə ilham var, nə həvəs
Söz dünyam mənə qəfəs;
Gedir-gəlir boş nəfəs
Görəsən diriyəm mən?!

Nə kükrəyib coşuram,
İçimdə qarışıram,
Nə üçün çalışıram,
Anlamsız biriyəm mən.

Günəş hey batır, çıxır
Ömrün sonuna çıxır...
Nə əvvəl, nə də axır
Zamanda əriyən mən.

Bahar, ya qış fərqi yox,
Sus ya danış, fərqi yox,
Pisə alqış, fərqi yox
Lal olub kiriyən mən!
İtib həyat ahəngi,
Bozdu dünyanın rəngi;
Qurumuş gül çələngi,
Gərək su çiləyəm mən?!...

2012

SUAL

Bu yerdə hər şey boldur,
Başdan aşır sərvəti;
Bütün cahanı gəzir
Əzəməti, qüdrəti.

Tanrı səxavətiylə
Başımdan aşır varım,
Bəs nədən yad ellərdə
Mən xoşbəxtlik axtarım?.

Düşməndən qorunanda
Bu vətən mənim olur;
Sərvəti talananda
O yalnız sənin olur?...

Nədəndir ki, harınlar
Milyonlarla oynayır,
Zəhmətkeş, kasıb insan
Qəpik-quruşu sayır?

Nədən yolunu azır,
Yaman çaşır insanlar,
Dönür cansız əşyaya
Manqurtlaşır insanlar?...

Nədəndir ürək dildən
Hey şikayət eyləyir…
Ürəkdən bir şey keçir,
Dil başqa şey söyləyir?

Nədən sizdə hər şey var,
Bizim evdə yox heç nə;
Sən keflə yaşayırsan,
Mənsə, daxmamda güclə?...

DƏHŞƏT

Dəyişmiş əqidələrdən
Ocaq qalayıb Tanrı
odunu bizə verir.
Gücü alovdan alıb
közə verir.
Qəribədir bu ocağın

bəzən bomboz tüstüsü var.
Qışda dəhşətli soyuğu,
yayda cəhənnəm istisi var.
Hələ belə ocaqlar
çox çatılacaq
Bilmək olmur hələ
neçə əqidəsiz bu oda
Qatılacaq ?!
Baxıram ətrafıma
Düşünürəm belə getsə,
ya donacağıq,
ya da əriyib su kimi
axacağıq;
Əlqərəz,
deyəsən hələ çox
"kefə baxacağıq"...

1998

BU YERDƏ

Bu necə torpaqdır, necə məkandır,
Qardaş, qardaşını didir bu yerdə?!
Meydan sulayırlar əli əyrilər,
Alçaqlar fironluq edir bu yerdə.

Ayrılmaq bilməyir yaxşı yamandan,
Ox şikayət edir əyri kamandan...
Yersiz gileylənir insan zamandan
Yaltaqlıq yarışı gedir bu yerdə.

Yaman qarışıbdı xeyir ilə şər,
Bu gün bəy adlanır dünənki nökər.
Namərdin əlində qalıb igid ər
Yaxşılıq, yamanlıq nədir bu yerdə?!

Ləzzətin itirib bağça da, bağ da
Güllər soluxurlar yazda, baharda;
Nadanın əlində ixtiyar darda
Qalmayıbdı hörmət, qədir bu yerdə.

İmkanı olanlar qan-qan söyləyir,
Yaxşı susdurulur, yaman söyləyir.
Bir ucdan hamısı yalan söyləyir
Qan qoxusu olur ətir bu yerdə.

Rənglər qarışanda bağla gözünü,
Korluğa, karlığa gəl vur özünü.
Hünərin vardısa haqqın sözünü
Bir anlıq dilinə gətir bu yerdə.

Əgər qayıtmasaq Tanrı yoluna,
Ağıl baş əyəcək zorun qoluna...
Ümid qalacaqdır tikan koluna
Ondan çəkək başa çətir bu yerdə.

1991

FƏRYAD

Ayqeyrətli oğullar,
Ay şöhrətli oğullar!
Ağbirçəklər, cavanlar,
Yananlar, yanmayanlar
Gecəni yol gedirəm
Səhərə çıxammıram.
Mən dəhşətdən inanın,
Şəhərə çıxammıram.
Bildiklərim yandırır,
Gördüklərim yandırır...
Göylərdən sanki mənim

Başıma od ələnir:
Allah bu nə cəzadır,
Bütöv millət dilənir?!

Dilənir analar da,
Saralmış sonalar da,
Dilənir uşaq, qoca
Mənliyi dağdan uca!
Kişilərin qisməti
Bazarlara çəkilir;
Qadınların isməti
Bazarlara çəkilir...
Ehtiyac dəniz kimi
Kükrəyir, ləpələnir
Həya təpiklər altda
Yollara səpələnir...
Allah bu nə cəzadır,
Bütöv millət dilənir?!

Bu nə oyundur belə,
Bu gün hər şey satılır?!
Tarix dönüb qozbelə -
Yaxşı, yaman atılır.
Səs səsdən ayrılmayır,
Rənglər də qarışıbdır.
Xeyir üzgörən olub,
Şər ilə barışıbdir.
Düzə nəzər salıram,
Gözümə tərs görünür
İlan göylərdə gəzir,
Qartal yerdə sürünür.
Kədər, qəm ürəklərdə,
Böyüyür, təpələnir
Allah bu nə cəzadır,
Bütöv millət dilənir?!

Rəngi solan dilənir,
Solmayan da dilənir.
Pulu olan dilənir,
Olmayan da dilənir.
İmkanlı da dilənir,
İmkansız da dilənir,
Rüşvəti lüm-lüm udan
İmansız da dilənir.
Kənd, şəhər də dilənir,
İgid ər də dilənir.
Hörmətli də dilənir,
Hörmətsiz də dilənir;
Qeyrətli də dilənir,
Qeyrətsiz də dilənir...
Gözlərimdə bu dünya
Bir dəhşətə bələnir.
Allah bu nə cəzadır,
Namus, qeyrət dilənir,
Bütöv millət dilənir?!...

1990

HARA QAÇIM

Yalanlardan dağ qurulur,
Tikanlardan bağ qurulur,
Qurulanlar ağ qurulur
Siz söyləyin anam-bacım,
Bu dəhşətdən hara qaçım?

Ox atılır, kaman yoxdu,
Kimsəsizə aman yoxdu,
Dindarında iman yoxdu –
Bağlanıbdı qolum-qıçım,
Bu dəhşətdən hara qaçım?

Haramlar bütöv udulur,
Haqq-ədalət unudulur...
Harınlarsa hey uydurur,
Bir nadanadır əlacım,
Bu dəhşətdən hara qaçım?

Haqqa böhtan atanlar çox,
Məsləkini satanlar çox,
Qəflətlərdə yatanlar çox
Ürəyimi kimə açım,
Bu dəhşətdən hara qaçım?!

Ömür gedir yaman bada,
Kimdi yetişən fəryada?
İnanın ki, bu dünyada
Tanrıya qalıb əlacım;
Bu dəhşətdən, müsibətdən
Baş götürüb mən də qaçım

2001

MONOLOQ

Seyr etdikcə sağı, solu
Odlanıram, alışıram.
Aramaqçün doğru yolu,
Öz-özümlə danışıram.

Soruşuram mən özümdən:
“Köküm harda, izim harda”
Dərd tökülür hər sözümdən,
Yaralanır suallar da.

Ayrı düşüb beyin dildən
Ürək başdan, olmaz belə!
Söylə mənə, axı nədən
Düşündüyün gəlmir dilə?!

Dil deyəni ürək duymur,
Sən bir başın dərdinə bax!
Beyin qəlbi yaxın qoymur
Belə getsə dağılacaq.

Qəlbindəki dilə gəlməz,
Həqiqəti necə bilim?!
Eyni cürə düşünəmməz
Çoban ilə əsil alim!

De nə qədər babaların
Kölgəsində yatmaq olar?
Düşüncəsi, ağlı qarın
Torpağı da satmaq olar?

Bəsdir haqdan çox dilədin,
Hərəkət et, çalış görək.
Dünəninlə fəxr eylədin,
Bu günündən danış görək.

İgid görmək istəyirsən?
Qonşuluqda çeçenə bax!
Azadlığı damla-damla
Gilizlərdə içənə bax!

Qarşımda tikanlı çəmən,
Biçən olmaq istəyirəm.
Ürəyimdən keçir hərdən,
Çeçen olmaq istəyirəm.

Birlik, birlik deyən qardaş,
Birlik yarat öz içində.
Həmrəy olsun ürək, dil, baş
İtib batdıq söz içində.

Köləlikdən, cəhalətdən
Öz içini azad eylə!
Sonra üz tut ətrafına,
Gəl birləşək elim, söylə.

Bax o zaman gül açacaq
Azad, xoşbəxt məmləkətin.
Dünyamıza səs salacaq
Vahid, bütöv bir millətin!

1992

NƏ VAXT UCALMISAN

Həyatından narazı,
İşindən narazısan.
Çalınan hər havanın
Yöndəmsiz avazısan
Yoxdu heç vicdan səndə,
Hamıdan bac alırsan.
Azca zəhmət çəkəndə,
Sanırsan, alçalırsan.
Tanrı sanki yaradıb,
Yalana əl çalasan.
Nə vaxt ucalmısan ki,
İndi də alçalasan?

2001

QORUYA BİLMƏDİM

Bir namərd əməli dondurdu səni,
Bir bədbəxtin halı yandırdı səni,
Bir nadanın sözü sındırdı səni
Mən səni qoruya bilmədim, ürək!

Yanan bağça-bağçün göz yaşı tökdün,
Satılan torpaqçün göz yaşı tökdün,
Saralan yarpaqçün göz yaşı tökdün
Mən səni qoruya bilmədim, ürək!

İnsanı insan tək sevdin, istədin,
Ülvi məhəbbətə, eşqə səslədin,
Özündə özgənin dərdin gizlədin,
Mən səni qoruya bilmədim, ürək!

Dünyanın dərd, qəmi sənə dərd oldu,
Həm zili, həm bəmi sənə dərd oldu,
Bir bütövün kəmi sənə dərd oldu
Mən səni qoruya bilmədim, ürək!

Taledən baxtına pay düşən o, yük,
Nə qədər ağırmış, nə qədər böyük?!
Dövran çox qarışıq, zəmanə dönük
Mən səni qoruya bilmədim, ürək!

Sənsən kəsən üzü fərasətimin,
Sənsən cüt qanadı cəsarətimin,
Sənsən qoruyanı ləyaqətimin,
Mən səni qoruya bilmədim, ürək!

1996

BU NECƏ HƏYATDIR

Dağı dağ eyləyən düzlər dəyişir,
Rəngdən rəngə düşüb üzlər dəyişir,
Bərkə düşən kimi sözlər dəyişir
Bu necə həyatdır, bu necə ömür?!

Taleyin vaxtına, vədəsinə bax,
Oğulun ataya hədəsinə bax...
Bu gün bəy, dünənin gədəsinə bax
Bu necə həyatdır, bu necə ömür?!

İnsanın insana çatmır köməyi,
Qazanca çevrilib uşaq əməyi;
Yaddan çıxarmışıq deyib, gülməyi
Bu necə həyatdır, bu necə ömür?!

Elm də, alim də düşüb qiymətdən,
Aqillər salınıb əsil hörmətdən;
Təsəlli alırıq indi qeybətdən
Bu necə həyatdır, bu necə ömür?!

Çoxunun yalandı əldə silahı,
Çoxunun lap çoxdan yoxdu Allahı...
Bizsə, gözləyirik nurlu sabahı
Bu necə həyatdır, bu necə ömür?!

2002

ƏHMƏD MÜƏLLİM

Ə.Əhmədovun əziz xatirəsinə

Başı qarlı dağ idi,
Qaynayan bulaq idi.
Ağsaqqala ağsaqqal,
Uşaqla uşaq idi,
Əhməd müəllim.

Buz qırardı gözləri,
Yandırardı sözləri...
El üçün alışmağa
Çağırardı bizləri,
Əhməd müəllim.

Xeyirxahlıq əkərdi,
El qeyrəti çəkərdi;
Bütün aləm bilir ki,
Dagıtmazdı, tikərdi
Əhməd müəllim.

Nə qaldı, nə sovuşdu?!
Həyat özgə vuruşdu...
Masallı torpağına
Tələsərək qovuşdu,
Əhməd müəllim.

Dünya hələ olacaq,
Boşalacaq, dolacaq
İnanıram qəlblərdə
Həmişəlik qalacaq,
Əhməd müəllim.

1998

TƏƏSSÜFLƏR

Qardaşım Heybətin əziz xatirəsinə

Sən söz söyləyəndə bizlər susandıq,
Nə doyduq söylədik, nə də usandıq.
Hikimət dolu qəlbin bir bağlı sandıq –
Sükut o dünyada, söz bu dünyada.

Ürək həqiqəti danmaq istəyir,
Həsrətin buzunda donmaq istəyir.
Alışıb, odlanıb yanmaq istəyir
Ocaq o dünyada, köz bu dünyada.

Göz yaşı qalmadı ağlayan gözdə,
Təsəlli axtardıq söhbətdə, sözdə;
Sanki ayrı düşüb dərə də, düz də
Dərə o dünyada, düz bu dünyada.

Ayrılıq nə böyük dərd verdi bizə,
Həsrətin göl idi, döndü dənizə...
Dərdli-dərdli vurduq sinəyə-dizə -
Qardaş o dünyada, biz bu dünyada...

1994

ADAŞIMA

Balaca Vaqifin bir yaşına

Sevinclə doludur bu gün qəlbimiz,
Həyatda ən körpə sirdaşım mənim.
Tanrı dərgahında təmizdən təmiz,
Bir yaşın mübarək, adaşım mənim!

Sən gəldin dünyaya çətin zamanda,
Həyat həm sınaqdı, həm də döyüşdü;
Sənin doğum günün yaxınlaşanda
Göydə Günəş ilə Ay da öpüşdü.

Sənsən evimzin yeni Günəşi,
İşğın nur verir nursuz gözlərə.
Yola sala-sala hər gələn yaşı
Böyüdün, əməl et bax bu sözlərə.

Arxan el, yolunsa ağsaqqal yolu,
Elsiz qayaları çapmaq olmayır.
Çalış vicdanını itirmə, qoru
Onu itirəndə tapmaq olmayır.

Qoyma halalına haram qatılsın,
Sədaqət dostluqda meyarın olsun!
Yol vemə haqsıza haqlı satılsın,
Bu yolda uğurlar qoy yarın olsun!

Azad ol dünyanın dərdi, qəmindən
Azad insan ömrü dilərəm sənə.
Uzaq ol hər şeyin oğul kəmindən
Sənə tapşırıram mən dönə-dönə.

Nəslinin varlığı sənin varındı,
Ocağın odunu daim uca tut.
Atanın adıyla bu gün tanındın,
Sabah sən atanın adını tanıt.

Bu gün arzularım hey aşıb-daşır,
İstərəm qayğısız yaşa dolasan.
Ən gözəl peşələr sənə yaraşır,
İlk arzum budur ki, insan olasan!

Çalışsan-vuruşsan, alın tərindən
Həyatın olacaq gözəl tamaşa.
Dilimə bir istək gəlir dərindən:
Kişi kimi böyü, kişi tək yaşa!!!

1999

BİR ALİMƏ

Hərəkəti, danışığı asta “alim”,
Yalanları calamaqda usta “alim”,
Calamısan, get payını istə “alim” –
Başınla yox, qarnınla düşünürsən.

Gənc deyilsən, özünə gəl, olma uşaq,
Əməllərin bir gün sənə dərd olacaq;
Arada bir vicuduna güzgüdə bax,
Biləsən ki, sən necə görünürsən.

Yalanları coşa-coşa söyləyirsən,
Bir-bir deyil, qoşa-qoşa söyləyirsən...
Varlığını göylərdə hiss eyləyirsən,
Sən göydə yox, düz yerdə sürünürsən.

Aldadırsan soydaşını, qardaşını,
Duymayırsan naləsini, göz yaşını;
Qoruyaraq öz qarnını, öz başını
Ən dəhşətli günaha bürünürsən...

2003

İSTƏK

Kəsər qalmayıbdı aqil sözündə,
Daha sözü keçmir haqqın, düzün də,
Mərhəmət yox olub bu yer üzündə
Könlümdən göylərə çəkilmək keçir.

Duyulmayır ətri bağçada gülün,
Cəh-cəhi ucalmır daha bülbülün;
Gözəlliyi itib çəmənin, çölün
Könlümdən göylərə çəkilmək keçir.

Balasın azdırır doğma anası,
İgidə xəyanət edir sonası,
Laxlayır ülfətin kökü, əsası,
Könlümdən göylərə çəkilmək keçir.

Yerini dəyişir baharla qış da,
Daş kimi tökülür göydən yağış da...
Xəyanət eyləyir dost da, tanış da
Könlümdən göylərə çəkilmək keçir.

Lap cana doymuşam əyri əllərdən,
Qulaqlar tutulur yanlış dillərdən;
Qaçmaq mümkün deyil bəd əməllərdən
Könlümdən göylərə çəkilmək keçir.

Tanrım, sən insanda tamaha bir bax,
Aləmi yandıran günaha bir bax,
Ocağı kor olan sabaha bir bax
Qardaş qardaşının qanını içir,
Könlümdən göylərə çəkilmək keçir.

2002

DÖŞÜNƏ DÖYÜRSƏN, DƏYİŞMƏMİSƏN

Döşünə döyürsən, dəyişməmisən
Keçmiş dost, sözümə yaxşı ver qulaq.
Əgər dəyişməyi görmək istəsən,
Vicdan güzgüsündə özünə bir bax.

Əvvəllər çox sadə bir insan idin,
Vəzifə düz yoldan kənara atdı;
Sən öz nüfuzunu xərcləyib yedin,
Vicdanın güzgüsü de, salamatdı?!

Tamam dəyişmisən yaxşı bil bunu
Duruşun, yerişin əvvəlki deyil.
Bu gün tanımırsan uzaq, yaxını
Yetənə deyirsən: qarşımda əyil.

Diqqətlə özünə yetirsən nəzər,
Görərsən saxtadır baxışların da.
Səssizlik içində eyləyir həzər,
Adi çəpiyin də, alqışların da.

Aldın vəzifəni haqla, hesabla,
İşçinə baxırsan öz malın kimi.
Vurursan konyakdan, yağlı kababla,
Katibən də olub əyalın kimi.

Həyatın gərdişi, öz qanunu var
Hesabat istəyir kaman da oxdan.
Bütün keçmişini edirsən inkar,
Sən özün deyilsən, bil bunu, çoxdan!

Mən sənə baxıram qəlbim ağlayır,
Sifətdə iz salır qəlbin heyrəti.
Sinəmdə bir sual yanır, canlanır.
Bəs harda itirdin namus qeyrəti?!

Sonradan anladım, namus, qeyrəti
Tamahınla birgə sən aldadıbsan!
Sən bu vəzifəni bilirəm qəti,
Qeyrətlə namusu verib almısan.

2002

SƏN DAVAYA GEDƏNDƏ

Dünya savaşında həlak olan atalarımızın əziz xatirəsinə

Sən davaya gedəndə mən
bu dünyada olnmamışam;
Sən döyüşdə yaralanıb,
qürbət eldə qəlbindəki arzularla
Son mənzilə köçəndəsə,
hönkür-hönkür ağlayaraq
xəyallara dalmamışam.
Bircə şeyə yanıram ki,
mən bu "ata" kəlməsinin
Ləzzətini, qüdrətini duymamışam.
İllər keçdi...
Yaşa doldum,
hey axtardım;
Şirin-şirin söhbətlərdə,
Xoş dillərdə
tapdım səni.
Albomdakı
həsrətdənmi, kədərdənmi
qürub edən Günəş kimi
sap-saralmış şəkillərdə

tapdım səni.
Ürəyini məşəl edib,
işıq saçdın yollarıma;
El içində hörmətinlə
sən nur oldun gözlərimə,
qüvvət oldun qollarıma.
Mən böyüdüm, yaşa doldum
Sənsiz, ata!
Mən özüm də ata oldum
Sənsiz, ata!
Zaman keçdi, yaşa doldum,
Sənsə cavan qaldın, ata.
Mənə həyat bəxş edən sən,
Mənlə yaşıd oldun, ata!
Elim səni unutmayıb,
Yad eyləyir məhəbbətlə.
Ölümündən ötüşsə də
Aylar, illər, qərinələr
Sən azadlıq əsgərini
Xatırlayır, min hörmətlə!
Sonra bildim,
nə mən təkəm,
nə də ki, sən.
Mənim kimi, sənin kimi
milyonlarmış.
Mən və mənim yaşıdlarım
faşizmdən
qurtulmazdıq,
Siz atalar olmasaymış!

1975

DÜNYA VƏ MƏN

Yalana, palana bəh-bəh deyilir,
Haqsız dümdüz gedir, haqlı əyilir.
Haram halal kimi basıb yeyilir,
Mənim bu dünyada nə işim vardı?!

Rüşvətdi hər yerdə hakim, həm ağa,
Doğru çəkilibdi dərəyə, dağa,
Sərçə həsrət qalıb yaşıl budağa,
Mənim bu dünyada nə işim vardı?!

Dilənçi görəndə ürəyim sızlər,
Zəhərə bulanıb dillər, ağızlar,
Alver eyləyirlər qadınla, qızla,
Mənim bu dünyada nə işim vardı?!

Doğru söz gətirmək olmayır dilə,
Desən qurulacaq sənə min tələ,
Namərdlər alıbdı meydanı ələ,
Mənim bu dünyada nə işim vardı?!

Gücsüz qalib çıxıb böyük savaşda,
Haqqı axtarırıq qayada, daşda…
Aqil məclisində nadanlar başda,
Mənim bu dünyada nə işim vardı?!

Dünyanın yiyəsi qırğın, talanlar,
Oğurluq pul ilə kişi olanlar;
Mələk donu geyir əfi ilanlar –
Mənim bu dünyada nə işim vardı?!

Ayırd eyləyən yox yaxşını, pisi
Bir kökdə qadını, həm də kişisi…
Çoxunda qalmayıb mərhəmət hissi
Mənim bu dünyada nə işim vardı?!

Insanlar günbəgün yolunu azır,
Qardaş qardaşına quyular qazır,
Həyat qanunların canilər yazır, -
Mənim bu dünyada nə işim vardı?!

Dağları dərədi, dərələri dağ,
Diriləri ölü, ölüləri sağ,
Aqili ağılda lap körpə uşaq, -
Mənim bu dünyada nə işim vardı?!

Milyonlar ac qalır, təklər tox olur,
Sevinci qıtlaşır, qəmi çox olur,
Insanlıq tükənir, insan yox olur, -
Mənim bu dünyada nə işim vardı?!

Bəs nədən danışaq, nəyin bolundan,
Kimdi kimsəsizin tutan qolundan?!
Insanlar çıxıbdır Tanrı yolundan, -
Mənim bu dünyada nə işim vardı?!

2004

BABAM XOŞ GƏLDİN

Şah İsmayıl Xətainin abidəsi önündə düşüncələr

Sən mənim vuran qolumsan,
Ağ günlərə düz yolumsan,
Namus, qeyrət simvolumsan,
Babam, xoş gəldin, xoş gəldin.

Taledən bu nə zülümdü?!
Ucalan səsim, ünümdü…
Nə bildin ağır günümdü?!
Babam, xoş gəldin, xoş gəldin.

Yadlar sənə böhtan atdı,
Balana düşmən tanıtdı,
Torpağında at oynatdı…
Babam, xoş gəldin, xoş gəldin.

Qara gəldi hər bayrama,
Şadlıq yaraşır harama?
Qeyrətin məlhəm yarama,
Babam, xoş gəldin, xoş gəldin.

Sona verdik bu həsrəti,
Oyat qəflətdən milləti,
Qələmi qılınc tək iti
Babam, xoş gəldin, xoş gəldin.

2000

SƏRHƏDDƏ

Füzuli rayonu, sərhəddə bir kənd,
Orda ömür sürür igid insanlar,
Erməni caynağı dörd yandan kəmənd,
Bu kənddə mənim də əzizlərim var.

Muradla Fəxriyyə bu günüm mənim,
Nazlı ətir saçan nurlu sabahım,
Onları səsləyib ana Vətənim,
Sən özün arxa ol, qadir Allahım.

Vətən keşiyində duraraq Murad,
Alır Fəxriyyədən, Nazlıdan ilham.
Onu düşündürmür nə şöhrət, nə ad,
Böyük zəfərlərdən gərək alsın kam.

Cəbhəyə dəyişib dinc həyatını,
Şəhərdən imtina edən cavanlar,
Qıraraq düşmənin qol-qanadını,
Məqsədə çatacaq, bilirəm, onlar.

Uğur diləyirəm ürəkdən sizə,
Düşmənlərə qalsın dərdi-qəminiz,
Zəfərlə qayıdın öz evinizə,
Sizinlə fəxr edir Vaqif əminiz.

2004

HEYİF

Heyif, bu gün artıq Günəş doğmadı,
Soyuqdan büzüşüb körpə çiçəklər.
Dolmuş buludlardan yağış yağmadı,
Susuz çat-çat oldu açmış ləçəklər.

Heyif, günün ömrü çox qısa oldu,
Hələ görüləsi nə qədər iş var.
Vaxtsız açılanlar vaxtsız da soldu,
Sahibin axtardı yetim arzular.

Heyif, bu dünyanın kədəri çoxmuş,
Onu əritməyə gücüm çatmadı.
Əntiq sayılanın dəyəri yoxmuş,
Xeyir çox vuruşdu, şərə batmadı.

Heyif, dost qəlbinə yolum uzaqmış,
Bu yolda azmağım yandırır məni.
Qaranın iç üzü sən demə ağmış,
Bilməmək şüşə tək sındırır məni.

Heyif, kişiliyin ölçüsü deyil,
Nə qoyulan papaq, nə uca qamət.
Kişilər görmüşəm avara, veyil,
Hər bir hərəkəti təəccüb, heyrət.

Heyif, yana-yana əriyir də şam,
Nurunun zərrəcə izi qalmayır.
Ocaqda alışan, bir soyuq axşam,
Istiyə çevrilir, közü qalmayır.

Heyif, bütün gələn dünyadan gedir,
Taleyin hökmünə, işinə bir bax.
Görən yaranmaqda bəs məqsəd nədir,
Bu sirri bilən tək – Tanrıdır ancaq.

Heyif, yaman gəldi zamanın hökmü,
Mərdlik də itirdi öz dəyərini.
Xəyanətkar kimi, bir namərd kimi,
El daş-qalaq etdi, igid ərini.

Heyif, təmiz deyil hər əməlimiz,
Əldə qalan kaman, uçansa oxdur.
Axı o dünyadan xəbərsizik biz,
Gedən var, hələ ki, qayıdan yoxdur.

Heyif, gündən-günə qiymətdən düşür,
Aqil olanların hikmətli sözü.
Neçə bəxt ulduzu göydə sürüşür,
Heyif, vəfasızdır dünyanın özü.

1997

ELƏ BİL

Yamanların əli-qolu açılıb,
Namərd döyüşündə mərdlər basılıb,
Gecə-gündüz əlim göydən asılıb,
Səbəbkarı zəmanədi, elə bil.

Ağızlara baldan şirin deyirlər,
Dayazlara yaman dərin deyirlər.
Od vurana indi sərin deyirlər,
Hər işimiz ziyanədir, elə bil.

Kim baş açar bu dünyanın işindən?!
Haqq çəkilir dara ağıl dişindən…
Zülüm çəkmir əl, düzlüyün peşindən,
Könül evi viranədir, elə bil.

Sədaqətdən dəm vuran da xəyanət,
Bütövünə kəm vuran da xəyanət.
Dünyasını qəm vuranda xəyanət
Eşqə sadiq pərvanədir, elə bil.

Aqillərdi dərdin-qəmin içində,
Nadanlarsa kefin, dəmin içində,
Çabalayır zil də bəmin içində;
Doğru, düzlük əfsanədir, elə bil.

Nuru gedir dərddən, qəmdən gözümün,
Dəyərini itirirəm sözümün,
Bir həddi var hər möhnətin, dözümün,
Ətrafımız divanədir, elə bil.

2003

NANKOR

Danışıb ana dilimdə
Məkrli plan qurursan.
Bəhrələnib sərvətimdən,
Günü-gündən qudurursan.

Eyləməyib heç nədən ar,
Daş atırsan gül bağıma.
Şərik çıxmaq iştahan var,
Mənim ana torpağıma?!

Azad, sərbəst dolaşırsan,
Öz yurdumda, öz elimdə,
Insanlarla danışırsan,
Sən mənim ana dilimdə.

Fürsət düşcək tez üstümə,
Uzanır murdar caynağın.
Nə ad qoyum, söylə, sənə?!
Çıxarırsan tamam ağın.

Bərkə düşcək işlədirsən,
Şirin-şəkər sözlərimdən.
Gələcəkdir bir gün inan,
Dilim sənin gözlərindən…

2004

BALACA SARANIN CAVABI

Balaca Saradan soruşanda mən,
Sən mənim nəyimsən, bəlkə deyəsən?!
Sən mənim gülümsən, yoxsa bülbülüm,
Barlı çöllərimdə sarı sünbülüm?!

Ulduzum, Günəşim, yoxsa Ayımsan,
Payızım, qışımsan, yazım, yayımsan?!
Səmaya baş vuran uca dağmısan,
Yoxsa, sevgi dolu bir bulaqmısan?!
Dostluğun təməli duz-çörəkmisən,
Sinəmdə döyünən bir ürəkmisən?!
Çətin anlarımda sən həyanımsan,
Qərar tutduğum yer, dörd bir yanımsan?!
Ömrümə açılan qızıl səhərsən,
Sakit kəndimmisən, çoşqun şəhərsən?!
Sinəmdə çağlayan xoş arzusanmı,
Tanrı bərəkəti, ya ruzusanmi?!
Taleyin yolunda gur işıqsanmı,
Bizim evimizə yaraşıqsanmı?!
Qalmayır həyata heç həvəs məndə,
Səni bircə an da mən görməyəndə.
Sözündən az qaldı alışıb yanım,
Görün nə söylədi körpə, inanın:
Ay baba, özünü yordun bayaqdan,
Bilmirsənmi mənəm ürəyin, canın?!
Çox şey sadalama daha nahaqdan,
Mən sənin sevimli Azərbaycanın…

2003

SARANIN YUXUSU

Balaca Sara
Danışan zaman,
Nənəsi üçün
Öz yuxusunu,
Yaddan çıxardı
Gördüklərinin
Lap çoxusunu.
Dedi: nənəcan,

Sən orda idin,
Yadındadırmı,
Yağırdı yağış?
Yuxumun ardın
Sən özün danış...

2003

SARA VƏ NAĞIL

Yaman çox sevir
Nağılı Sara.
Çox nağıl bilir,
Ağıllı Sara.

Nənəsi ona
nağıl öyrədib.
Nağıllar ona
ağıl öyrədib.
Xəstə olanda
Babası ona
Nağıl danışır,
Sarası onun
Deyir: ay baba
xəstələnmə heç,
Çox yaşamaqda
nağılları keç.

2007

ƏSƏD VƏ SARA

Əsəd itirib
Tamam sayını,
Yedi Saranın
Alma payını.
İrad tutanda
Anası ona,
Gör nə söylədi
O, anasına:
Özün demisən,
Axı mən gərək
İşdə bacıma
Eyləyəm kömək.

2007

BALACA SARANIN QARLA İLK GÖRÜŞÜ

Həyətə düşək,
Gəlin, uşaqlar.
Bəyaz çiçək tək
Baxın, yağır qar.

Ağ paltar geyib
Hər tərəf, dümağ;
Qardan düzəldib
Top-top oynayaq.

Qoy deyim düzü;
Ürəkdən şadam;
Çağırır bizi,
Axı qar adam.

Dolub uşaqla
Onun dörd yanı,
Hamı gözləyir
Şaxta babanı...

2004

AZƏRBAYCAN ÜRƏYİMDİR

Balaca Saradan sordum:
Sən nəyimsən, ay tərlanım?
Cavabında dondu qanım;
Dedi: Azərbaycanın.
Ondan da kiçik Səda
Göstərərək özgə əda
Ürəyinəm, deyir sənin.
Körpələrə fikir yəqin,
Gendən gəlir, qandan gəlir.
Yoxsa bu körpə nəvələr
Hardan bilir,
Onlar mənim arzularım,
Şirin, şəkər diləyimdir;
Onlar mənim yaz, baharım
Azərbaycan ürəyimdir?!

2014

BİR «DOSTA»

Əli pula çatan kişi,
Reklam etmə qızıl dişi.
Bir az xatırla keçmişi,
Onu belə tez unutma!

Çox zəhmətkeş atan da var,
Harayına çatan da var.
Əlindən tez tutan da var,
Xeyirxahın ucuz tutma!

Özün cavan, dünya qoca,
Daşlaşırıq yaşadıqca.
Dostluqdur hər şeydən uca,
Özunu namərd tanıtma!

Ünsiyyətin qoy xoş olsun,
Həyatda hər şey nuş olsun…
Cəhdlərim bu gün boş olsun
Deyə, mənə çamur atma!

Sənin kimilər çox olub,
Becərdiyin tezcə solub.
Dünya boşalıb, hey dolub
Varlığını ucuz satma!

Düzlük əridər lap dağı,
Tanrı sevər halallığı.
Həyat deyildir lağlağı,
Halalı harama qatma!

2003

60 YAŞIM

Doğulandan insanlara qarışdım,
Alimlərlə axtarmağa alışdım.
Şair olub, dilsiz daşla danışdım,
Altmış il necə keçdi, bilmədim.

Uzaq oldum hər fitnədən, oyundan,
Həzər etdim şər-şeytanın toyundan.
Şərbət çəkdim ürəyimin suyundan,
O şərbətdən kimlər içdi, bilmədim.

Mən demirəm tam bütövəm, kəmim var,
Sevincim var, kədərim var, qəmim var.
Uc-bucağı görünməyən zəmim var,
Özüm əkdim, biçən biçdi bilmədim.

Dəyişmədi verdiyim söz, hər andım,
Cahillərin əməlindən utandım;
Bəzən uyub bu dünyaya inandım,
Demə o da yalan, heçdi, bilmədim
Altmış il necə keçdi, bilmədim…

2005

AĞADADAŞ

Sevimli müğənnimiz, dostum
Ağadadaş Ağayevə

Oxuyursan həzin-həzin, yana-yana,
Xoş səsinlə cansız daş da gəlir cana;
Az qalır ki, nəfəsində ruhum yana,
Səsindəki həyəcanmı, yoxsa tələş,
Ağadadaş?!

Nəğmən ilə ürəklər də gəlir dilə,
Istəyirsən bəmdə oxu, ya çək zilə;
Ötən günlər qibtə edir gələn ilə,
Dünənimi qaytaraydın sən mənə kaş,
Ağadadaş!

Yadındamı o qayğısız, o şən günlər?!
Tələbənin xoş baxtına düşən günlər,
Məhəbbətin atəşində bişən günlər…
Saç ağarır, ömür keçir yavaş-yavaş,
Ağadadaş.

El neyləsin, adətinə xor baxan var,
Yad səslərə, hay-küylərə zor baxan var;
Muğam adlı sərvətinə kor baxan var
Indi sənin sənətindir əsil savaş,
Ağadadaş!

Muğamımın beşiyidi düşüb əsir,
Tar səsini, kaman səsin güllə kəsir.
Bilirsənmi nə gündədir Vaqif Nəsir?
-Ürəyimdən asılıbdı sanki bir daş,
Ağadadaş. Ağadadaş.

2000

DEMƏ

Çox şey gördüm, dünyada çox,
Beş kişidən birisi tox.
Bir bağın ki, meyvəsi yox,
Ona bağ demə, bağ demə.

Min şəkilə düşür torpaq,
Hər ucalan deyildir dağ.
Sinəmə çəkilənə bax,
Ona dağ demə, dağ demə.

Bir insanın dili bağlı,
Ayaqları, qolu bağlı.
Haqqa gedən yolu bağlı,
Ona sağ demə, sağ demə.

Itirəndə əyri-düzü,
Səhv yozulur aqil sözü.
Yalana bax, qıpqırmızı,
Ona ağ demə, ağ demə…

2004

NƏDİR BU

Ürəkləri yaxır keçir,
Şimşək kimi çaxır keçir.
Dayanmayıb baxır keçir,
Elə bil ki, küləkdi bu.

Oda salır hərarətlə,
Özü yanır cəsarətlə.
Sevda dolu məhəbbətlə,
Çağlayan bir ürəkdi bu.

Ondan alır ruhu könül,
Ona nəğmə qoşur bülbül.
Nərgizmidi, ya qızıl gül,
Ən ətirli çiçəkdi bu.

İlhamımın qanadıdır,
Saf eşqimin muradıdır.
Harayıdır, fəryadıdır,
Xoş arzudur, diləkdi bu.

Suyu şəffaf bulaq kimi,
Qəlbi təmiz, uşaq kimi.
Şirin-şəkər dodaq kimi,
Dərdə dərman, gərəkdi bu.

Nə vaxt yolun uzaq salır,
Məni qəm qoynuna alır.
Ümid insafına qalır,
Bilmirəm nə kələkdi bu.

Can alandır qaşı-gözü,
Bir nəğmədir şirin sözü.
Mat qalmışam sözün düzü,
Deyən huri-mələkdi bu.

Şəvə saçlar hörmə-hörmə,
Gözlərinə çəkib sürmə.
Hirslənəndə üzün görmə,
Sanki çərxi-fələkdi bu.

2003

BƏLKƏ

Gördüyüm bu bağlar, o bağlar deyil,
Zəmanə dəyişib, o çağlar deyil.
Arxa bildiyim də, o dağlar deyil,
Gedirəm, bəlkə də heç qayıtmadım.

Qarşıdan hakimsiz bir yarış gəlir,
Haqsıza yüz yerdən min alqış gəlir.
Bahar qurtarmamış qarlı qış gəlir,
Gedirəm, bəlkə də heç qayıtmadım.

Yaman zalımlaşıb yuxa ürəyim,
Zəhərə dönübdü halal çörəyim.
Özüm haramlaşdım, indi neynəyim,
Gedirəm, bəlkə də heç qayıtmadım.

Qəm yükü ağırdı, tək necə çəkim?
Təsəlli dərdlərə olubdu həkim.
Vəfasız dünyaya əmin kimdi, kim?!
Gedirəm, bəlkə də heç qayıtmadım.

Itirib mənasın gəlib-gedimlər,
Mələkə cildinə girib zülümlər.
Yaman çoxalıbdı qəfil ölümlər,
Gedirəm, bəlkə də heç qayıtmadım.

2004

XƏZAN VURMUŞ BAĞLARA BAX

Xəzan vurmuş bağlara bax,
Xəyal olan çağlara bax.
Sinəmdəki dağlara bax,
Ağrıyan yazıq ürəkdi.

Qoç meydanı nərsiz qalıb,
Qız-gəlinlər ərsiz qalıb.
Yerli gedib, yersiz qalıb,
Bu ələk necə ələkdi?

Mərdlər gərək əyilməsin,
Nahaq sözlər deyilməsin.
Haram tikə yeyilməsin,
Yeyilən axı çörəkdi.

Nə ola çaylar durula,
Kədər, qəm göyə sovrula.
Yurdda toy, bayram qurula,
Bu böyük arzu, diləkdi**.**

2005

TUTUQUŞU ÖMRÜ

Dediklərin kimə məxsus,
Bilirsənmi neyləyirsən?
Başqasının dediyini,
Saqqız kimi çeynəyirsən.

Özgə sözünü almağa,
Qulaqların daim səsdə.
Özgə sözün deyə-deyə,
Qocalırsan dar qəfəsdə.

Ömrün boyu onun, bunun,
Ağzına dikdin gözünü.
Sən bəs nə vaxt deyəcəksən,
Tutuquşu öz sözünü?

Unutma ki, yiyən səni
Bunun üçün yedizdirir.
Öz sözünü dar qəfəsdən,
Sən yazığa dedizdirir.

2003

EŞŞƏYİN VƏZİFƏSİ

Pələnglər məclisində sədr olandan
Eşşək
Hər məclisdə deyildi şəninə əla tostlar
Yaxın, uzaq qohumlar get-gələ
başladılar,
Tapıldı «köhnə» dostlar, tapıldı «yeni»
dostlar.

Kimi qonaq çağırdı,
Kimi uzaqdan görcək
«Yaşa Eşşək» - çığırdı
Kimi dedi: bu Eşşək
Pələng nəslindən olub.
Kimi dedi o bizə
Şirdən yadigar qalıb...
Eşşəyi çıxartdılar
Vəzifəsindən bir gün,
Haqqındakı söhbətlər
Dəyişildi, büsbütün.
Dedilər: çox kobüddür
Yalandır lap nəfəsi
Nə qanır məsul işi
Anqırmaqdır peşəsi.

TÜLKÜLƏR HƏCCƏ GEDİR

Tülkü həccə gedəndən
İşi sazdı meşədə;
Yaman əli gətirir
Indi köhnə peşədə.

Artıq gərək deyildir,
Ova çıxmaq gecələr;
Ona tapşırılıbdı,
Bütün toyuq, cücələr.

Cücələri çıxarır,
Qart toyuq falasından;
Ona şikayət edir
Xoruz öz balasından.

Yeyir, içir dəmlənir,
Tülkünün kefi sazdır.
Dəmləndikcə qəmlənir
Düşünür, bu da azdır.

Ağıl verir pələngə,
Yol göstərir dovşana,
Şir ilə girir cəngə,
Qurdu yetirir sona.

Hər gün yeməkdən qabaq
Itilədir dişini,
Sümüklərdən qurur dağ,
Yaman bilir işini.

Baxıb ona həsədlə,
Qibtə edir tülkülər.
Bir amal, bir məqsədlə
Həccə gedir tülkülər.

2000

QARABAĞ

Əzəldən kor edib bizi yaradan?!
Seçə bilməyirik ağı qaradan;
Düşmən sinəmizdə açan yaradan,
Bədənim kötükdü, gözlərim bulaq
Ah gözəl Qarabağ, gözəl Qarabağ.

Sən əsir düşəli mənə sağ demə,
Bu haqsız dünyada ağa ağ demə.
Qoynunda yurd salan dağa dağ demə,
Dağ görmək istəsən, gəl sinəmə bax,
Ah dərdli Qarabağ, dərdli Qarabağ.

Ağdam, Cəbrayılçün qəlbim göynəyir,
Füzuli, Əsgərən dərddən inləyir.
Görən əsirlikdə Şuşam neyləyir?!
Düşmən caynağında inləyir torpaq,
Ah əsir Qarabağ, əsir Qarabağ.

Dağların başında duman ağlayır,
Üzeyir nəfəsli kaman ağlayır,
Bülbül cəh-cəhindən zaman ağlayır,
Əlim çatan yerdə bu qədər uzaq,
Ah anam Qarabağ, anam Qarabağ.

Zamanın tərsinə dəyişib yönü,
Nə əlim yetişir, nə də ki, ünüm,
Uzaqda deyildir o qisas günü,
Sənincün darıxıb üç rəngli bayraq,
Ah azad Qarabağ, azad Qarabağ.

2004

QURUMUŞ ÇİNAR

Musiqi: Emin Nəsir

Yaşıl ağaclar içində,
Qurumuş bir çinar gördüm.
Rəngi tamam bozarsa da,
Mən onda bir vuqar gördüm.

Gözəlliyin saxlamışdı,
Qurusa da yarpaqları,
Qamətiylə mat qoymuşdu,
Yaşıl-yaşıl ağacları.

Qoruyurdu yanmış çinar,
Əzəmətin, vüqarını.
Gözəl idi, itirsə də
Öz ömrünün baharını.

Həyat sirlə dolu aləm,
Bu aləmdə hikmət vardır.
Düşünürəm bir işə bax,
Çinar yansa da çinardır.

Ətrafda sısqa ağaclar,
Paxıllıq edirlər ona.
Sanki həsəd aparırlar,
Bu çinarın yoxluğuna.

Fikir çatdı mənə axır,
Böyük bir ustaddan gözəl:
Həyat var ölümdən ağır,
Ölüm var həyatdan gözəl.

2004

İLHAMIM MƏNİM

Yalqız qalan zaman qoymaz darıxam,
Çətinə düşəndə çaşıb, karıxam.
Uzaq səfərlərə tək-tənha çıxam
Ən yaxın sirdaşım, ilhamım mənim.

Neçə məsləhətli, məsəlli olur,
Ən ağır anımda təsəlli olur,
Müşgülləri açır, tam bəlli olur,
Qurudan göz yaşım, ilhamım mənim.

Bəzən ürəyimi alışdırır o,
Dilsiz daşları da danışdırır o.
Şirin xəyalları çalışdırır o,
Həyəcan, tələşım, ilhamım mənim.

Sevincim varsa da, həm də qəmim var,
Ruhları oynadan sarı simim var.
Mənim ondan başqa axı kimim var?
Olmayan qardaşım, ilhamım mənim.

Gözüylə arana, dağa baxıram,
Buzdan suya dönüb, çaya axıram.
Bəzən şimşək olub göydə çaxıram
Döyüşüm, savaşım, ilhamım mənim.

Sözümə qanaddır nuru, ziyası,
Ondan qidalanır şair dünyası.
Tanrı kərəmidir onun mayası,
Yerdəki Günəşim, ilhamım mənim.

2005

GÖYƏRÇİN VƏ BAYQUŞ

Bir gün bir ağ göyərçin
Rast düşdü bir bayquşa;
Yolun haradır sənin?-
Dedi bu çirkin quşa.
Bayquş dedi: -Vətəndə
Sevməyir heç kəs məni,
Ona görə də mən də
Tərk edirəm Vətəni.
Bayquş sonra uladı
Səs götürdü hər yanı,

Göyərçin baş buladı,
Yaman qaraldı qanı.
Dedi: -Sevilmək üçün
Dostum bayquş, gərək sən
Doğma Vətəni deyil,
Səsini tərk edəsən!

1975

EŞŞƏYİN MƏHƏBBƏTİ

Pələngin ürəyinə
Yaman dərd yol açmışdı:
Onun arvadı Eşşək
Bəyənməyib ərini,
Çaqqala qoşulub qaçmışdı.

1978

YALTAQ HAQQINDA

Mənşəyinə görə
yaltaq,
Qorxağın törəməsidir.
Onun adi forması,
vəzifə qarşısında sual,
Arxasında isə
nida işarəsidir.

1979

MEYMUNUN ALİMLİYİ

Alimlik rütbəsi alan tək
meymun,
Elmdən ayrılıb, burnun dik
tutdu.
Xeyli vaxtdan sonra
nəinki elmi,
Hətta əlifbanı
yazıq unutdu.

1978

AX-OX ÇAYI

Yayda üstündən keçdim,
Suyun yox idi;
Çınqıllı daşların
yaman çox idi.
Düşündüm:
susuz çaymı olar?
Olmayandan haymı olar?!
Sənə yazığım gəldi,
nə edim?
Çoxmu görüldü sənə
Tanrı payı?
Ax-ox, dedim
Ax-ox çayı.

Qışda gördüm səni,
yaydakı halından
əsər-əlamət yox idi.
Suyun bol-bol,
lap çox idi.
Çoşdun, aşdın, daşdın

Başladın ağacları
köküdən qoparmağa,
Başladın körpüləri
söküb aparmağa.
Sənin yaydakı,
halını andım,
Indi də ağacların,
körpüdən keçənlərin
halına yandım.
Nə deyim?
Belə istifadə olunmaz
Tanrı payı.
Yenə Ax-ox dedim,
Ax-ox çayı.

Insanlar məramını
dəqiq duyublar,
Sənin adını
düz qoyublar.
Yayda sənin,
qışda isə
qırıb tökdüklərinin
halına Ax-ox deyirlər…
Kükrəyib coşursan
Yağanda yağış,
qar.
Amma unudursan ki,
ilin payızı, qışı
olduğu kimi
Yayı da var,
Ax-ox çayı…

2004

QAR HARAMA YARAŞIR

Bakıya da qar yağır,
Gözlər necə sevinir?!
Ürək fəryad qoparır,
Öz-özünə deyinir:
Allah, bu nə bəladır,
El-oba mübtəladır?
Dərd başdan aşıb daşır,
Qar harama yaraşır?!

Ocağından didərgin,
Neçə qaçqın mənimdi.
Həyatı dəhşət gərgin
Neçə köçkün mənimdi…
Ehtiyac da adamla
Düşmən kimi danışır,
Deyin, mənim harama,
Harama qar yaraşır?!

Su gələndə qaz olmur,
Qaz gələndə işığım…
Gücünü itiribdi
Söhbətim, danışığım;
Əzilən insan, maşın,
Bir-birinə qarışır,
Axı mənim harama,
Harama qar yaraşır?!

İstəmirəm mən qarı,
Yağmasın torpağıma.
Olsa da qışın barı,
Dərd olur ocağıma;
Yurdumuza gələndə

Ağlım az qala çaşır,
Sözümdən küsmə sən də,
Qar harama yaraşır,
Qar harama yaraşır?!

2006

GERİ GEDİR

Qorxu yenə padişahdır,
Böhtan namərdə silahdır,
Əməllərdə şah-günahdır,
Gördüklərim qəribədir –
Sanki zaman geri gedir.

Şər xeyirə böhtan yazır,
Nahaq haqqa quyu qazır;
Donosbazlar yolun azır,
Tarix təkrar olur, nədir?!
Sanki zaman geri gedir.

Qara aman vermir ağa,
Dərd böyüyür, dönür dağa.
Vicdan çevrilir dustağa,
Şübhələr qəlbləri didir,
Sanki zaman geri gedir.

Ürək yerində qara daş,
Düşməndi qardaşa qardaş…
Insanlar qalıbdı çaş-baş,
Haqsızlıq lap tüğyan edir,
Sanki zaman geri gedir.

2003

ƏLİ DAYIMIN ÖLÜMÜNƏ

Xəstəlik, xəstəlik üstündən gəldi,
Bilmədik, hansı bir dərddəsən, dayı.
Səni son mənzilə özüm ötürdüm,
Hələ də sanıram kənddəsən, dayı.

Səni düşündükcə döyünür qəlbim,
Necə vəfasızmış, deyirəm həyat.
Ömrünə bir ömür calamaq üçün,
Acizəm, gücsüzəm mən bu gün heyhat!

Sənin arzuların kama yetmədi,
Taleyin özü də bu işdə çaşdı.
Yəni haqmıdır ki, ata matəmi,
Övladın toyuna belə qarışdı?!

Dayım, aç gözünü ətrafa bir bax,
El-oba gör səni hara aparır.
Dünən bəylik edən o igid oğlun,
Bu gün haray çəkir, şivən qoparır.

Sən nədən tələsdin əbədiyyətə?
Oyan, nəvələrin əziz dadaşı!
Sənin məsləhətin bizə gərəkdir,
Nisgilli anamın əziz qardaşı.

Bu dərdin çarəsi ağlamaq deyil,
Bunu anlamışam, duymuşam, yəni.
Biz kənddə, şəhərdə görüşməsək də,
Şirin xəyallarda görərik səni.

Bu gün olmasan da aramızda sən,
Çiynində çox yüklər daşıyacaqsan.
Illər ötüşsə də nə qədər varıq,
Dayıcan, bizimlə yaşayacaqsan…

1974

O DÜNYASIN VER BACIMIN

Tanrım, Səni and verirəm öz izzəti
cəlalına,
Dinimizin peyğəmbəri Məhəmmədin
camalına.
Bu dünyanın, o dünyanın bir müqəddəs
Quranına
Günahını əfv et onun, o dünyasın ver
bacımın.

Tanrım, Səni and verirəm o Kərbəla
savaşına,
Haqq yolunda şəhid olan Hüseynin
qanlı başına,
Bacıların, qardaşların axıtdığı göz
yaşına,
Günahını əfv et onun, o dünyasın ver
bacımın.

Tanrım, Səni and verirəm ilin güllü
baharına,
Əli Əkbərin qəlbində qalan xoş
arzularına,
Tanrım, Səni and verirəm Əlinin
Zülfüqarına
Günahını əfv et onun, o dünyasın ver
bacımın.

Tanrım, Səni and verirəm özünün
ucalığına,
Qüdrətinə, izzətinə, sözünün ucalığına,
Bağışla, bağışla onu anamın qocalığına,
Günahını əfv et onun, o dünyasın ver
bacımın.

2001

QARABAĞ, XANƏNDƏ VƏ MƏN

Xanəndə: Aləm gözələ dönsə,
Yaddan çıxmaz Qarabağ.
Qarabağ: Şikəstəyə, sözə bax,
Yaddan çıxmaz Qarabağ.
Neçə ildir sinəmdə
Od qalanır, çatılır,
Neçə ildir sərvətim
Yad ellərdə satılır.
Neçə ildir həsrətəm,
Doğmaların üzünə,
De, mən necə inanım
Sənin şirin sözünə?!
Neçə ildir başına
Qara bağlayıb dağlar,
İnildəyir, göz yaşı
Tökür büllur bulaqlar.
Neçə ildir bağlanıb
Sizdən gələn yollarım,
Sizə doğru uzanıb
Qandallanan qollarım.
Xanəndə: Sevirəm, sevirəm...
Qarabağ: Sevgiyə, bu eşqə bax
Artıq öyrəşib qulaq,
Sevirəm söyləməklə
Azad olmaz Qarabağ.
Sevirsənsə, məni sən
Tarını silah eylə!
Gir düşmənlə döyüşə,
Varını silah eylə!
Göstər mənə sevgini.
Silahınla, canınla
Mənim azadlığıma

Sahib çıx, öz qanınla.
Xanəndə: Ölürəm, ölürəm...
Qarabağ: Çətinlikdən düz çıxış
Ölüm deyil, övladım.
Döyüşlərdə qorunub
Şərəfim, təmiz adım.
Yolumda şəhid olub,
Neçə igid, neçə ər
Sinəmdə qoruyacağam
Ötsə də, qərinələr
Şəhid qanı məlhəmdir,
Dərin gedən yarama.
Axı indi şikəstə
De yaraşır harama?
Mən: Yaman dərd içindəyəm
Mahnı gəzir dillərdə.
Şikəstəsi bizdədir,
Qarabağ yad əllərdə.

2008

ŞUŞAYA HƏSRƏTƏM

Haqqın tərəfdarı, haqqın quluydum,
Haqdan nə dedilər, mən ona uydum;
Verilən vədlərdən lap cana doydum,
Həsrətəm Şuşaya, həsrətəm, qardaş.

Necə qarşılayır görən o, yazı?
Dəyişib Bülbülün, Xanın avazı,
Əsir alınıbdı axı Xan qızı,
Həsrətəm Şuşaya, həsrətəm, qardaş.

Nə vaxt çıxacağam Cıdır düzünə,
Heyran qalmaq üçün Vaqif sözünə?
Xəncər sancmaq gərək düşmən gözünə,
Həsrətəm Şuşaya, həsrətəm, qardaş.

Bu necə səbrdir, bu necə dözüm?!
Ayaqlar altında qürurum, üzüm...
Əli silah tutan sənədir sözüm:
Həsrətəm Şuşaya, həsrətəm, qardaş.

2007

OĞLAN VƏ DOVŞAN

Yolun kənarında balaca oğlan,
Durmuşdu əlində bir bala dovşan.
"Müştəri, müştəri gəl al" deyirdi,
Tutaraq dovşanın cüt qulağından.
Halına acıdın oğlanın bu an,
Dedin: "dəyişibdi zəmanə yaman,
Məktəbdə olaydı gərək bu uşaq,
Vəziyyət ağırdı, sən bir işə bax.
Görünür bu uşaq neçə gün acdır,
Bir parça çörəyə yazıq möhtacdır.
Dayanıb soyuqda yol kənarında,
Fərli başmağı da yox ayağında,
Gör necə nazikdi əynində paltar,
Lap cüzi köməyə ehtiyacı var".
Danışa-danışa sən odlanırdın,
İçindən alışıb sanki yanırdın.
Bilmirəm nə hissdi, necə əməldi,
Mənim dovşana çox yazığım gəldi.

Bakı-Astara yolu
2007

NƏ DEYİM

Kəm-kəsirdən bütövü tam almamış,
Bu həyatdan doyunca kam almamış;
Ömrə gəldi şaxtalı qış, qarlı qış,
İllər quş tək uçub getdi, nə deyim?

Qaranquşlar yaz eşqiylə uçarkən,
Arzuların təzə çiçək açarkən,
Yeni sevda arxasınca qaçarkən
Sağlamlığım itib, batdı, nə deyim?

Dünyam dondu, dünyam yandı, alışdı,
Pis yaxşıya, yaxşı pisə qarışdı;
Başım elə bu işlərə qarışdı
Saçlarımda ağ gül bitdi, nə deyim?

Sevinc ilə kədər gəldi, dərd gəldi,
Mərd qovuldu, yerinə namərd gəldi;
Hər yeni il köhnəsindən bəd gəldi
Tanrım nədən belə etdi, nə deyim?

Dözümü çox haqq yolunda yananın,
Qansız çıxdı başbiləni qananın;
Hər işində arif olan dünyanın,
Qanunları yaman sərtdi, nə deyim?

2006

QARDAŞIM

Nüfuz etmə ürəyimin içinə,
Mənim dərdim özgə dərddi, qardaşım.
Nəzər yetir insanların izinə,
Beş kişidən biri mərddi, qardaşım.

Tamaşa et, haramxorun məstinə,
Haqsız durub haqq olanın qəstinə,
Söz toxunur abırsızın şəstinə
Abırlısa, yaman pərtdi, qardaşım.

Ağıllıya ağıl verir divanə,
Kim gətirsin imansızı imanə;
Cilddən cildə girir dönük zəmanə,
Demə o da çox namərddi, qardaşım.

2006

GEDİR

Həyatda hər şey dəyişir,
Çaylar kimi axıb gedir.
"Dünya mənimdir" deyənlər
Bacasından baxıb, gedir.

Bülbüllər cəh-cəh səsiylə,
Bahar şirin nəfəsiylə,
Gözəllər naz-qəmzəsiylə
Aşiqini yaxıb, gedir.

Uzaq dur qorxu, tələşdən
Bəla gəlir səfeh başdan;
Od çıxarıb quru daşdan
Şimşək göydə çaxıb, gedir.

Vaqif Nəsir duy aləmi,
Şən dəryada azan gəmi;
Bu dünyanın dərdi, qəmi
Azanları yıxıb, gedir.

2007

HƏYAT QƏRİBƏDİR, ANLAMAQ ÇƏTİN

Elimizin və elmimizin ağsaqqalı, akad. Maqsud İsfəndiyar oğluna, həyat yoldaşı Asya xanımın vəfatı münasibətilə

Həyat qəribədir, anlamaq çətin,
Onun öz düsturu, öz qanunu var;
Doğum günü kimi bəşəriyyətin
Heyflər olsun ki, ölüm günü var.

Saf, təmiz məhəbbət yaşadır bizi
Bağlayır çiçəkli, bülbüllü yaza;
Yaman təzadlıdır eşqin dənizi
Sevməmək günahdır, sevməksə cəza.

Sevdiyin insanı itirmək ağır,
Onda heçə dönür dünya gözündə;
Onlu xatirələr acı bir nağıl,
Təsəllisi olmur şirin sözün də.

Az olar, söyləsəm həyat yoldaşı
O sizə dost idi, ən yaxın sirdaş;
Kişi üzükdürsə, qadındı qaşı,
Üzüyün qiyməti, zinətidir qaş.

Yolunuz olmadı həmişə hamar,
Bəzən çətinliyə, dara düşdünüz,
Bahar ümidiylə coşdu arzular,
Gecikdi, borana, qara, düşdünüz.

Fəqət, zirvələrə ucaltdı sizi,
Elmin yollarında zəhmətin varı;
Məşələ çevirib öz qəlbinizi,
Xoşbəxt böyütdünüz siz övladları.

Siz qoşa keçəndə çətin yolları,
O böyük məhəbbət yetişdi dada;
Qəfil bağlananda haqqın qolları,
Sədaqət layiqdi ən yüksək ada.

Zaman amansızdı, insan qəlbini
Əridə-əridə alıb qoparır.
Sabah işığına ümid edəni,
Sonsuz bir zülmətə çəkib aparır.

Ey böyük ağsaqqal, dəyərli insan,
Bu yük çox ağırdı, daşımaq gərək.
Onu yaşatmaqçün hər zaman, hər an
Cüt insan ömrünü yaşamaq gərək!

2008

SALAM DOĞMA MƏKTƏB, ZİYA OCAĞI

Orta Təhsil aldığım Boradigah orta məktəbinin 90 illiyi münasibətilə

Salam doğma məktəb, ziya ocağı,
Sənin görüşünə gəlmişəm bu gün.
Doğma Boradigahda ana qucağı,
Ad günündür mənə böyük toy-düyün.

Qəlbimdə dil açır xoş xatirələr,
Şirin xəyalların şərbətin içir;
Gözümdə canlanır, ilahi nələr,
Tarix addım-addım önümdən keçir.

Səndən qüvvət aldıq neçə oğlan, qız
Necə düzlər keçib, dağları aşdıq;
Möcüzəyə döndü qələmlə kağız,
Dilsiz kitablarla fəqət, danışdıq.

Ey bilik məbədi, mənəvi qida,
Səndən aldığımı anam verməyib.
Təmənnasız varlıq, təksən dünyada,
Sən tək kimsə mənə inam verməyib.

Qəlbləri isidən odsan, atəşsən
Ömrə nur çiləyən işıq bulağı;
Sən də yer üzündə parlaq Günəşsən,
Günəşin yaşını kim sayır axı...

Qoynunda yetirib tər çiçəkləri,
Bahara çevirdin boranlı qışı,
Əsil mükafatı əməllərinin
Elin məhəbbəti, elin alqışı.

Ölkələri gəzdim, ellər dolaşdım
Daim zirvələrdə gördüm başını;
Hər yerdə fəxrlə səndən danışdım,
Ey doğma məktəbim, müqəddəs ocaq,
Təbrik eyləyirəm doxsan yaşını!

2009

SƏNİN TƏBRİKİNƏ GƏLMİŞƏM BU GÜN

İstəkli müəllimim Nəriman Hüseynovun
80 illik yubileyi münasibətilə

Sənin təbrikinə gəlmişəm bu gün,
Mənimçün müqəddəs, ən əziz insan;
Bu özgə bayramdı, əsil toy-düyün,
Bəzəyi ustadım, xocam Nəriman.

Çətin yol keçmisən, bilirəm bunu
Yükün ağır olub uşaq yaşından.
Çoxlu maneələr kəsib yolunu,
Dünya savaşı da aşıb başından.

Ehtiyac girsə də gündə min dona,
Biliyə, savada verdin eşqini;
Qayıtdın çıraq tək doğma rayona,
İlk ali təhsilli müəllim kimi.

Sənin həyat yolun böyük bir məktəb,
Kamala yetibdi ordan keçənlər.
Qazanıb tərbiyə, mərifət, ədəb
Hikmət bulağından suyu içənlər.

Müəllim ömrüdür, əbədi ömür
Onun sonu olmur bu həyat kimi.
Nəsildən nəsilə o ötürülür,
Uğurlar daşıyan estafet kimi.

Ömrünü həsr etdin elmə, təhsilə
Elimin nur saçan Nərimanısan!
Qəlbindən od verdin neçə nəsilə,
Təhsil fədaisi, qəhrəmanısan!

Sevinc daha artar, sevinc çoxalar
Yaxın ətrafınla bölləndə şərik;
Yaşını sayanlar fəqət, qocalar
Mən doğum gününü edirəm təbrik!

Hələ çox açacaq xoş arzuların,
Sabahın mübarək üstad, deyirəm.
Adınla bağlıdır qazandıqlarım,
Qarşında hörmətlə mən baş əyirəm.

2008

NOVRUZ BAYRAMI

Gəlir Novruz bayramı,
Qucur çölü, çəməni;
Süfrələrin ilhamı-
Noğul, qoğal, səməni

Ürəklərdə sevinc var,
Hərə bir şam yandırır;
Həyətlərdə uşaqlar
Tonqal alovlandırır.

Qapıları pusanlar
Xoş xəbərçün alışır;
Bir-birindən küsənlər
Bu bayramda barışır.

Cavanlar döyüşdürür,
Rəngbərəng yumurtalar;
Üst-başını dəyişir,
Övlad, ana, atalar.

Novruz yeni gün demək
Hər tərəf yeniləşir.
Arzular açır çiçək,
Dünyamız gözəlləşir.

2007

YENİ İL

Balaca Sədanın dilindən

Hər gəlişin toy-büsat-
Yeni il!
Ürəklərdən dərdi at-
Yeni il!

Fərəh qoy çıxsın dizə,
Bol sevinc gətir bizə,
Sülh bəxş et ölkəmizə
Yeni il!

Yansın sönmüş sobalar,
Gülsün ellər, obalar;
Xoşbəxt olsun balalar,
Xoşbəxt olsun babalar
Yeni il!

Salma nə dağa, düzə
Yaratginən möcüzə;
Qarabağı ver bizə
Yeni il! Yeni il!

2009

ÖNDƏDİR

İnsan bu dünyaya gəldiyi gündən,
Ölüm addım-addım onu izləyir.
Fəqət ümid tutur onun əlindən,
Gələn hər sabahdan nəsə gözləyir.

Bir zamanam mən özüm də yaşımla,
Hər anının tarixçəsi məndədir;
Çiynimdəki daşıdığım daşımla,
Hiss edirəm, çətin günlər öndədir.

2007

QUBAD ƏMİ

Dosta arxa, dağ kimiydi,
Saf, büllur bulaq kimiydi-
Bəzən lap uşaq kimiydi-
Qubad əmi.

Dağlar aşıb, düzü keçib,
Zəhmətiylə özü keçib;
Həm xeyirxah, həm də nəcib-
Qubad əmi.

Tanrı az vermişdi səbir,
Hirslənərdi arada bir;
Dili ilə ürəyi bir
Qubad əmi.

Elin fəxri, şanı idi,
Əmək qəhrəmanı idi;
Sədaqət ünvanı idi-
Qubad əmi.

Demirəm mən aldanmıram
Hərdən küsmüşəm, danmıram;
Yoxluğuna inanmıram.
Qubad əmi.

2008

ŞAİR SÖZÜ

Aldanma ki, şair sözü əlbəttə yalandır
M.Füzuli

Demirəm Tanrı sözüdür,
Nurlu çeşmənin gözüdür;
Şeir şairin özüdür,
Şair sözü yalan olmaz.

Sözlərdən o, hörür çələng,
Çələngdə güllər rəngbərəng,
Necə gözəl, necə gəşəng!
Şair sözü yalan olmaz.

Leyli, Məcnun məhəbbəti,
Yanan Kərəm dəyanəti,
Fərhad, Şirin həqiqəti-
Şair sözü yalan olmaz.

O, bir hikmət aləmidir,
Həyat nəşəsi, qəmidir
Füzulidir, Nəsimidir
Şair sözü yalan olmaz.

Yalan üçün döyülməzlər,
Zindanlara qoyulmazlar,
Yalan üstə soyulmazlar,
Şair sözü yalan olmaz.

Şair bir örnəkdi elə,
Yalanı gətirməz dilə;
Bu bir zarafatdır belə,
Şair sözü yalan olmaz.

2007

SÖZ VAR

Söz var ağcaqanadtək,
Söz var ilantək çalır,
Söz var insan fərəhdən
Eşidəndə ucalır.
Söz var qocanı cavan,
Cavanı qoca edir,
Söz var yıxır, sürüyür,
Söz də var tufan edir.

QORUMAQÇÜN EŞQİMİ

Əgər pərvanəm olsan,
Yandırmaram şam kimi,
Qəlbimdən od verərəm
Qorumaqçün eşqimi.

Əgər bülbülüm olsan,
Tez solmaram gül kimi;
Sənə ilham verərəm
Qorumaqçün eşqimi.

Əgər dənizim olsan,
Qucaram sahil kimi,
Keşiyində duraram
Qorumaqçün eşqimi.

Əgər Günəşim olsan,
Nur alaram Yer kimi
Dövrəndə fırlanaram
Qorumaqçün eşqimi.

2007

HİSS EYLƏYİRƏM

Yaz ətirli nəfəsini
Üzümdə hiss eyləyirəm.
Musiqili şən səsini,
Sözümdə hiss eyləyirəm.

Yaşamağa həvəsini,
Gözümdə hiss eyləyirəm.
Ömrün zaman qəfəsini
Özüm də hiss eyləyirəm.

2007

DƏNİZ ÇİÇƏYİM

Dili baldan şirindi,
Zəkası çox dərindi;
Bu xoş həyat sənindi
Mənim gözəl, göyçəyim.

Ətirlidir gül kimi,
Cəh-cəhi bübbül kimi,
Təbiəti tül kimi
Mənim xallı böcəyim.

Dərdin qəlbdə gizlədi,
Nənən səni gözlədi;
Görmədən əzizlədi
Qızıl gülün ləçəyi.

Ən qiymətli incidi,
Hər işdə birincidi,
Day-dayın sevincidi
Mənim Dəniz çiçəyim.

2007

ARZULAR OĞLU

Sən bizim evlərə bahar gətirdin,
Bahar çiçəyisən, ay bahar oğlum;
Bağcamda rəngbərəng güllər bitirdin,
Ən şirin diləklər, arzular oğlu.

Sənin gəlişinlə çiçəklər açdı,
Özgə bir aləmi yetirdin bizə,
Hər yerdə gözəllik bizləri qucdu,
Bahar nəfəsini gətirdin bizə.

Enişli, yoxuşlu həyat yolları
Yolların asanı, çətini çoxdur.
Çox yola salmışam mən baharları,
Bu son bahar kimi şirini yoxdur.

İstərəm ömrümün bax bu çağında
Özümə sevincdən bir çələng hörüm.
Oğul baxçasında, oğul bağında,
Körpə Özkanımı mən qoşa görüm.

Atalı, analı böyü sən balam,
Qarşına çıxmasın heç yaman külək;
Öpürəm üzündən sənin mən balam,
Özkan doğum günün mübarək olsun!

2007

ZAMAN

Zamandır hakimi mütləq dünyada
Nə şöhrətə baxar, nədə ki, ada;
Keçmişin qoruyar, verməz heç bada
İnsan yaddaşından daşa köçürər.

Qısa bir yuxudur insan həyatı;
Zaman laylasında şirin bayatı...
Qoşa qanad olub yası-büsatı
Ömürü bahardan qışa köçürər.

Özüdür özünün dövləti, varı
Nə sevgisi vardır, nədə ki, yarı;
Taledən baxtlara ələnən qarı
Kiprikdən götürüb qaşa köçürər.

Tutmaq çox çətindir onun dəmini,
Gizli saxlayandı öz aləmini;
Dünyanın ürəyə dolan qəmini.
Gözlərdən süzülən yaşa köçürər.

Şirindən şirindi ən kiçik anı,
Bağlamaz özünə əsla insanı;
Sevincli, kədərli bütov dünyanı
Ürəkdən keçirib başa köçürər.

2007

BİR NƏFƏRƏ

İnsan yaxşılıqla qalacaq yadda,
Ona çata bilməz heç fəxri ad da,
O əksini tapar səndə, övladda
Yaxşılığa tapın, yamanlıq etmə.

Ömür pilləlidir bu illər kimi,
Yoxdu qayıdışı fəsillər kimi,
Məqamı çatmamış gur sellər kimi
Kükrəyə-kükrəyə cavanlıq etmə.

Heç yerdə heç zaman həddini aşma,
Boş yerə alışıb, boş yerə coşma;
Özgəni lağ edib, şəbədə qoşma,
İçki məclisində ivanlıq etmə.

İnsanlıq insanın böyük qiyməti,
Buraxma yaxına böhtan, qeybəti;
Bu gün qazandığın qədir, hörməti
Halal çörəyinə yavanlıq etmə.

2008

CAVANLIQ VAXTIM

Səsində bir məlahət,
Cavan xanəndə-gözəl;
Dilində bala dönür,
Oxuduğun hər qəzəl.

Səndən alır ilhamın,
Şairin hər misrası.
Olacaqsan sən yəqin,
Xanəndələr ustası.

Bizi gec görüşdürdü,
Tanrı qismətim, baxtim,
Görcək sənə vuruldu
Mənim cavanlıq vaxtım...

2008

SPEKTR

Qırmızı bədəndən axan al qandır,
Narıncı gün altda qalıb yanandır;
Sarı güc gətirir inan çoxuna
Yaşıl sığal verir insan ruhuna.

Mavidir sevdiyim dalğalı dəniz,
Göy rəngdə səma da görünür təmiz.
Bənövşəyi novruz gülü rəngidir,
Ağ işıqsa, yeddi rəng çələngidir.

2008

MƏNİM TƏŞƏKKÜRÜM

Avtobusa mindim
İçində qocalardı;
Onların arasında
Yalnız bir cavan vardı.

Salonda boş yer yoxdu,
Hamı cavana baxdı.
Hirsli nəzərlərdən o,
Çevrilib yana baxdı.

Gəldi tənəli sözlər,
Kimi dedi: "qanmadı,
Bəs nədən utanmadı,
Yoxsa heç anlamadı?."

Mənsə, öz ürəyimdə
Ona "çox sağol" dedim.
Çünki bu cavan oğlan,
Məni qoca sanmadı.

2007

QOCALIQDA

Göz yumulur, di gəl ki,
Beyin düşünür, yatmir.
Cüt ayağın bədənə
İnan ki, gücü çatmır.

Xəstəliklər dalbadal
Başın üstün kəsdirir;
Ürəkdəki arzular
Yamanca tələsdirir.

Övladın uğurundan
Ürək dağa çevrilir.
Tez küsur umduğundan,
Lap uşağa çevrilir.

Dinsiz də, imanlı da
Bir aləmdə qapanır;
Hamı haqqa sığınır,
Tək varlığa tapınır.

İdrak, düşüncə, fikir
Dərindən dərin olur.
Həyat insanı çəkir,
Daha da şirin olur.

2008

ŞAFTALI GÜLÜ

Bütün gülləri sevirəm,
Şaftalı gülündən başqa;
Bütün illəri sevirəm,
Ömrün bir ilindən başqa.

Keçən əsrin ortaları,
Çiçək açanda şaftalı
Qayğısız ömrü bitirdim,
O, il atamı itirdim.

2009

BALACA ÖZKAN

Gözəl Ankarada gəldi dünyaya,
Ucaldıq sevincdən Günəşə, Aya;
Allah həqiqətmi, yoxsa bir röya?
Anası Əminə, atası Tərlan
Balaca Özkan.

Fındığı burnu var, püstə ağızı,
Körpə qığıltısı məst edir bizi;
Gözləri əks edir mavi dənizi,
Sevinc bəxş eyləyir varlığı hər an,
Balaca Özkan.

Onun baxışları ömrün nəşəsi,
Şirin gülüşündə həyat nəğməsi;
Bahar küləyidir ilıq nəfəsi,
Novruz töhfəsidir Ulu Tanrıdan
Balaca Özkan.

Arzumdur Vətənə o bağlı olsun,
Yoluna nur saçan öz ağlı olsun,
Həyatı mənalı, maraqlı olsun
Böyüsün xalqıma layiq bir insan,
Balaca Özkan.

2007

ƏZİZ DOST

İsa Mədəd oğlunun
əziz xatirəsinə

Qəfil gedişinlə sarsıtdın bizi,
Dünyaya zərrəcə inam qalmadı;
Doldurdun kədərlə sən qəlbimizi,
Bilirəm, bu kədər sənlik olmadı.

Hardan biləydik ki, fəlakət gəlir,
Ölüm toxumunu xəlvəti əkir.
Dostlar çəkdiyini bir Allah bilir,
İndi övladların gör nələr çəkir?!

Heç zaman, heç kəsin qəlbin qırmadın,
Duruşun, baxışın tərbiyə idi.
Səni dinləyəni əsla yormadın,
Hikmət söhbətinə haşiyə idi.

Mənalı bir ömür yaşadın, qardaş
Elmdə, təhsildə ad qoydun, getdin.
Sənsizlik dostları eyləyib çaş-baş,
Bizlərə nə böyük dərd qoydun, getdin.

Sən kamil şəxsiyyət, sən böyük insan
Dünyaya sığmazdı söhbətin, sözün.
Çoxuna bələdçi olacaq hər an,
Həyatda, elmdə açdığın izin.

İtirib dadını hər şey büsbütün,
Böyük arxa idin dosta darda sən,
Ruhuna rəhmətlər oxunur hər gün,
Çünki ürəklərdə, yaddaşlardasan...

2008

ŞEİRİ ALLAH DA SEVİR

Özünü fizika alimi sayan birisinə

"Bizdə şeri sevən tapılmaz heç vaxt"-
Dedin, mənim sənə yazığım gəldi;
Şeirin dəyərin bilməyən bədbəxt,
Şeir yaranışdı, şeir əməldi.

Özündən müştəbeh, fikri natamam,
Füzuli, Vaqifdən yoxsa xəbərin,
Quru düsturlardan alaraq ilham
Bəs necə doğulur düşüncələrin?

Söylə Nyutonsan, ya Eynşteyn?!
Elmdə heç kimsən, bil ki, hələ sən
Çiyninin üstündə qurumuş beyin,
Şeirin nə olduğun hardan biləsən?

Nizami hikmətin, Sabir heyrətin,
Nəsimi qeyrətin duymayan heçdir!
Müşfiq məhəbbətin, Seyid ülfətin,
Vurğun şöhrətini duymayan heçdir!

Elmin tarixindən xəbərsiz, bilsən
Elmə necə gəlib böyük dahilər?!
Başlayıb ta böyük Aristoteldən
Alimlər yaradıb şeir, incilər.

Şeir özgə sevinc, bir özgə qəmdi,
Ora baş vurammaz hər yoldan ötən;
Şeirin dünyası ayrı aləmdi,
Nadanlar üzünə bağlıdır, zatən.

Şeir bir dərmandı ən ağır dərdə,
Şeir insan ruhu, əqlin varıdı;
Şeirin başı göydə, ayağı yerdə,
Şeir təbiətin qanunlarıdı.

Şeir insanlığın söz tərəzisi,
Şeiri sevməyən anasın sevməz.
Şeir məhəbbətin göz tərəzisi,
Şeiri sevməyən sonasın sevməz.

Səni tanımayır eldə bir kişi,
Şair oymaq-oymaq ürəklər gəzir;
Sənin başındasa, nə bilim əşi,
Səmti bilinməyən küləklər əsir.

Tutmaq istəsən də yüksək, adını,
Bil, dəmyə torpaqda adi çayırsan.
Alıb beş-on manat yad qrantını,
Səndəmi özünü alim sayırsan?!

Yolunu azmısan, tələs üzünü
Nə qədər gec deyil, Allaha çevir.
Çalış anlayasan şair sözünü,
Şairi, şeiri Allah da sevir.

2007

BAHAR NƏ GÖZƏLSƏN

Açılan gül-çiçəklə,
Sevgi dolu ürəklə,
Neçə arzu, diləklə
Bahar sən nə gözəlsən?!

Güllərin nəfəsiylə,
Yaşamaq həvəsiylə,
Bülbülün bəstəsiylə
Bahar sən nə gözəlsən?!

Hər yan yaşıl bəzənir,
Təbiət təzələnir;
İlhamım göydən enir
Bahar sən nə gözəlsən?!

Fəsillər gənci fəsil,
Qəlbin sevinci fəsil,
Varda birinci fəsil
Bahar sən nə gözəlsən?!

Durnalar da rəqs edir,
Səmada yallı gedir;
Sevən eşq elan edir-
Bahar sən nə gözəlsən?!

Kamanınla, tarınla,
Sərvətinlə, varınla,
Gözəl tablolarınla,
Bahar sən nə gözəlsən?!

Fikrim gəzib dolaşır,
İlhamım coşub, daşır;
Yeni nəğmələr qoşur,
Bahar sən nə gözəlsən?!

Yenə ucalır səsim,
Gedir, gəlir nəfəsim;
Var yaşamaq həvəsim-
Bahar sən nə gözəlsən?

2007

SƏN YADIMA DÜŞÜRSƏN

Günəş səhər oyanır,
Köksümdə od qalanır;
Pərvanə odda yanır,
Sən yadıma düşürsən.

Dəyişdikcə fəsillər,
Quş kimi uçur illər...
Açanda qızıl güllər
Sən yadıma düşürsən.

Rəng rənglərə qarışır,
Xatirələr danışır,-
Qəlbim yanır alışır
Sən yadıma düşürsən.

Ağlım yolun çaşanda,
Səbr kasam daşanda,
Dərdim başdan aşanda
Sən yadıma düşürsən...

2006

ALDIN ÜRƏYİMİ

Aldın ürəyimi, aparıb getdin,
Ürəksiz bədəndə neyləyim, indi.
Əkilən cücərdi, səpilən bitdi,
Çiçəksiz çəməndə neyləyim, indi?!

Yaman qəfil gəldi ömrün xəzanı,
Məcnuna bənzətdim yolun azanı;
Deyirdin yaz gəlir, bəs bülbül hanı?
Bülbülsüz gülşənlə neyləyim, indi?!

Könlümü qaranlıq, qəm, qüssə aldı,
Gözlərim daima yollarda qaldı;
Sənli günlərimə ümid azaldı,
Özün de, mən sənlə neyləyim, indi?!

Kimsədən gizlətməm qocalığımı,
Varlığım qoruyur uca dağımı,
Duman, çən gizlədir ucalığımı
Dumanla, bəs çənlə neyləyim, indi.

2006

TƏLƏSMƏ

Eynək ol gözün üçün,
Qayğılan sözün üçün,
Azad gəz özün üçün
Basa-basa tələsmə.

Heçin mənası yoxdur,
Ac acdır, toxsa toxdur;
Dünyanın qəmi çoxdur
Toydan yasa tələsmə.

Ölümdü ömrün sonu,
Kimsə yubatmaz onu;
Həyat da nərd oyunu,
Marsdan tasa tələsmə.

İgid bəzər meydanı,
Mərdi, namərdi tanı;
Aciz, fərsiz insanı
Sən xilasa tələsmə.

Zamanın öz gərdişi,
Qarışammaz bir kişi;
Vaxtında gör hər işi,
Gəl, xülasə tələsmə.

2006

LƏPƏLƏR VƏ PƏRVANƏ

Sahilə vurulub ləpələr yaman,
Daim sevdiyinə doğru can atır.
Bu eşqdə özünü odlara yaxan,
Bir nakam pərvanə hikməti yatır.

Sevdiyin şam kimi alıb qoynuna,
Sahil ləpələri yandırır, yaxır;
Bu vüsal gətirir eşqin sonuna,
Dənizsə, kədərlə kənardan baxır.

Sən bir talelərdə bənzəyişə bax,
Hicran dad eyləyir, haray qoparır;
Bir eşqi vüsalı edib oyuncaq,
Sevəni ölümə doğru aparır...

2012

DÜNYANIN

Tənəsi dözülməz, töhməti ağır
Kiminə zalımdı, kiminə fağır;
Yıxılsan eşitməz, nə qədər çağır
Əsla etibarı yoxdu, dünyanın.

Kimsə mənasını bilməz işinin,
Sirrin açan olmaz heç gərdişinin...
İnsan peşimanı öz gəlişinin
Gedəni gələndən çoxdu, dünyanın.

Yazı şikayətçi qarlı qışından,
O elə belədir, əzəl yaşından;
Kimlər keçməyibdi qanlı dişindən,
Kim deyir ki, gözü toxdu, dünyanın?...

2011

DÜNYA AĞLINI İTİRİB

Hər tərəfdə dava, savaş
Ürəklərdə qorxu, təlaş;
İnsanlar qalıbdı çaş-baş
Dəhşət aləmi götürüb.

Baxırsan təqvimə qışdı,
Soyuq, qar ona naxışdı.
Heç bilmirəm necə işdi
Ağaclar meyvə gətirib.

Adiləşib rüşvət, talan
Kimi satan, kimi alan...
Üstələyir düzü yalan,
Dünya ağlını itirib.

2010

VAXT SÜRƏTLƏ GEDİR, ZAMAN ÖTÜŞÜR

Vaxt sürətlə gedir, zaman ötüşür,
Həyat insan ilə çəkir haqq-hesab.
Bəzən də ürəyə lap tez xal düşür,
Məhz ondan bəhs edir bu kiçik kitab.

Mən nə iqtidaram, nə müxalifət,
Necə görürəmsə, elə yazıram;
Əgər gördüyünü yazmaq günahsa,
Cəzasın çəkməyə hər an hazıram.

2010

TƏRCÜMEYI-HALIM

Mən dünyaya belə gəldim,
ayrı cür doğulmadım,
Neçə-neçə dərya keçdim,
di gəl ki, boğulmadım;
Namərdlərin xəmirinə
qatılıb yoğrulmadım,
Doğru, düzgün həyat yolu
gozlərimin üstədi,
Məni qoruyanTanrımdı,
Tanrım belə istədi.

2012

MƏNİM FƏXRİ ADIMDIR

Soruşursan əziz dost,
Nədən fəxri adım yox.
Mənim əyri yollarda
İnan istedadım yox.

Mən ömrün hər çağını
Xalqıma həsr eylədim.
Haqqa arxayın olub,
Yalnız haqqı söylədim.

Mənim alın tərimlə
Ucaldı cox cavanlar,
Ömürlərdə dil açdı
Neçə-neçə arzular.

Yetirdiyim hər kəsi
Sanıram, övladımdır.
Fəxri ad almamağım
Mənim fəxri adımdır...

SƏRBƏST DÜŞÜNCƏLƏR

(Yarızarafat, yarıciddi)

Nə məhəbbət, nifrət bilir,
Nə yaltaqlıq, rüşvət bilir
Nə BMT, ATƏT bilir-
Vallah, dəlilər kefdədir.

Ehtiyac insanı əyir,
Acı söz ürəyə dəyir;
Yalan qırmızı don geyir,
Yuyulub, indi ipdədir.

Qarışıbdı dağlıq-aran,
Döyüşlərin hamı taran;
Çoxalıbdı ara vuran,
Deyirlər qarı küpdədir.

Çətinləşib məktəb yolu,
Zibillidir sağı, solu
Bayram pulu, təmir pulu,
Bu nədir, bu hələ siftətir.

Möhkəm yanır tez alışan,
Tez küsüşüb, gec barışan;
Boğulubdu düz danışan,
Günahkarı da küftədir...

2012

BALIQ OVUNDA

Yoxdur bir ağıl verən
Dəryada balıqlara;
Anlamırlar onları
Tamah aparır hara.

İstər lap balacası,
İIstərsə də irisi
"Gözü çıxan qardaş"dan
Dərs almır heç birisi!
Yoxsa daim aldanıb
Tilova düşməzdilər;
Yaşamaq əvəzinə
Qazanda bişməzdilər...

2012

SALAMAT QAL

Bəlkə bu yerlərə bir də gəlmədim....
M.Araz

Bir qərib diyara düşdü güzarım
Oba salamat qal, el salamat qal.
Arxamca yoluma şirin söz səpən
Dodaq salamat qal, dil salamat qal.

Tanrıdan pay olan isti ocağım,
Cənnətə bənzəyən ana qucağım,
Yenicə qurduğum çiçəkli bağım,
Bülbül salamat qal, gül salamat qal.

Özəl bir dünyadı insan ürəyi,
Qoynunda bəsləyir arzu-diləyi;
Mənzillər dəyişir zaman küləyi
Fəsil salamat qal, il salamat qal.

Həyatı dolanbac yollar dəyişdi,
Bu yolda səfər də özgə bir işdi...
Hər bir ayrılığın sonu görüşdü:
Anam göz yaşını sil, salamat qal...

TALE QARDAŞIM

Dostum, qohumum, görkəmli cərrah
Zeydulla həkimə

Bizim talelərdə çox bənzəyiş var,
Atasızlıq oldu ilk sınağımız;
Ümidlər gətirdi bizə hər bahar,
Çox çətin ötüşdü uşaqlığımız.

Bəzən tərs gətirir taleyin zəri,
Birinin şeşi az, yeki çox olur;
Sənə yönəlibsə Tanrı nəzəri,
Başının üstündən duman yox olur.

Qəfildən xəzana düşən bir pöhrə
Solmadı, böyüyüb atdı qol-budaq;
Duyub ilk ətrini öz gülşəninin,
Bizim anaların qəlbi oldu dağ.

Çox tez ötüşmədi, nə birdən bitdi,
Urəkdə yurd salan acılarımız.
Analar sağ ikən analıq etdi,
Bəzən bizə əziz bacılarımız.

Həyat yollarını uğurla keçib
O nəzər altında biz yaşa dolduq.
Hikmət bulağından təmiz su içib,
Elin xidmətində hər zaman durduq.

Sən şəfqət payladın xəstə canlara,
Sevinc yaşı axdı qəmli gözlərdən.
Mən ziya payladım bu insanlara
Möcüzə yaratdım adi sözlərdən.

Şəfalı əllərin, bilirəm yaxşı
Neçə əlacsızın dadına yetir.
Elm, mərifətdir insanın naxşı,
Elmin baxçasında gül-çiçək bitir.

Nədən çox bağlıyıq bir-birinə biz?
Yolumuz nahamar, həm də qarışıq.
Kəsdiyimiz çörək halal və təmiz,
Talecə sənlə doğma qardaşıq.

2011

DOVŞANIN HESABATI

Dovşanlar məclisində
Çıxış edib baş Dovşan
Dedi: artıq yoldaşlar,
Məqsədimə çatmışam;
Heyvanlar aləminə
Sizləri tanıtmışam.
Onlar bilir meşədə
Az deyilik, biz çoxuq;
Yediyimiz göyərti,
Zatən həmişə toxuq.
Onlar bilir hamının
Ünvanını, adını
Hər dovşanın çəkisin,
Həm ətinin dadını.
Olmaq gərək deyildir
Heç qorxu, əndişədə,
Artıq hamı tanıyır
İndi bizi meşədə.
Elə bu an dovşanlar
Bir-birinə qarışdı,
Hamının əvəzindən

Bala Dovşan danışdı:
Yaman tanıtdın bizi,
Bu vəhşi heyvanlara!
Sənin açdığın cığır
Bizi aparır hara?!
Böyük bir daş salmısan
Oğruların yadına;
Bələd olandan sonra
Ətimizin dadına,
Özün söylə kim yetər
Bizimtək məzlumların
Harayına, dadına?!

2011

ŞƏRABI NEYNİRƏM

Saf niyyətə ürəyimi açıram,
Fərəhimdən yeri, göyü qucuram;
Xoş əməldən qanadlanıb uçuram,
Axı indi mən şərabı neynirəm?

Qanadlanıb saf çeşmənin gözündən,
Nurlanıram bir gözəlin üzündən;
Məst oluram bir aqilin sözündən
Axı indi mən şərabı neynirəm?

Gözəllik insanı dikəldər, əyər
Gözəllik dünyada hər şeyə dəyər;
Gözəllik ağlımı alırsa əgər,
Siz söyləyin, mən şərabı neynirəm?

2010

VƏKİL VƏ HƏKİM

Xəstəlik bir hakim,
Xəstə müttəhim;
Xəstənin vəkili
Həkimdi, həkim.
Oyunu hakimi
Çəksə də hara,
Vəkil təsir edə
Gərək qərara.
Vəkildə olmasa
Savad, səriştə,
Onu məğlub edər
Hakim hər işdə.
Vəkil müttəhimə
Gətirər bəla,
Əgər o, hakimin
Dəllalı ola.

2011

ORDUMUZU SEVİRƏM

Ordumuzu sevirəm,
Əsgərin balam kimi;
Yağılardan qoruyur
Öz yurdumu, ölkəmi.

Sevdiyinlə fəxr etmək
Dünyanın xoşbəxtliyi...
Bu qürurla dağ olur,
Hər an insan ürəyi.

Nə qədər ki, Qarabağ

Yad əllərdə inləyir,
Nə qədər ki, yaralar
İçimdə irinləyir;
Nə qədər ki, analar
Fəryad, şivən qoparır,
Nə qədər ki, düşmənlər
Sərvətimi aparır;
Nə qədər şəhidlərin
Qanı yerdə qalıbdı,
Nə qədər torpağımda
Düşmən zəfər çalıbdı;
Nə qədər çaylarımdan
Göz yaşları axacaq,
Nə qədər düşmən bizə
Məğlub kimi baxacaq...
Bir an da rahat olub,
Mən dayana bilmirəm.
Fəxr edib əsgərimlə,
Qürurlana bilmirəm.

Ordumuzu sevirəm,
Əsgərin balam kimi;
Fəxr edəcəm onunla,
Əsir Qarabağımı
Düşməndən alan kimi,
Geri qaytaran kimi...
1998

ÖZÜMÜZ KİMİ

Hər gün işə yolum düşür
Binaların arasından;
Binaların alt qatında
Mağazalar sırasından.
Dükanların hamısının
Qarşısında daş döşəmə,
Bu daşlara hər bir baxış
İstehzalı gülümsəmə.
Burda daşlar cürbəcürdü,
Ölçüləri, rənglərilə
Sanki insan döşəməyib
Öz zövqü, öz əlləriylə;
Biri qalın, biri nazik,
Biri enli, o biri dar,
Biri alçaq, birisi dik
Kələ- kötür, ya da hamar;
Biri rəngli, biri rəngsiz
Ya ahəngli, ya ahəngsiz
Bəzən qarışır zolaqlar
Nə qayda, nə də nizam var.
Qərəz, öz sözümüz kimi
Lap bizim özümüz kimi...

2011

QATAR GEDİB

İstəyirsən qanadlanıb uçasan,
Göy üzünü sevgilintək qucasan;
Unudursan, vaxt ötüşüb, qocasan
Gecikmisən, qatar gedib, əzizim.

Sən istərsən bağda bülbül olasan,
Hər çiçəkdən, güldən ilham alasan;
Cəh-cəhinlə aləmə hay salasan
Gecikmisən, qatar gedib, əzizim.

Sən istərsən dağ başına qonasan,
Arzuları yetirəsən sona sən.
Yetişibsən bir qəribə ana sən,
Gecikmisən, qatar gedib, əzizim.

Sən istərsən dəyişməsin yerişin,
Əvvəlki tək davam etsin hər işin,
Dəyişəsən zəmanənin gərdişin
Gecikmisən, qatar gedib, əzizim.

Anlamıram bu nə hikmət, bu nə sirr,
Zamanı qovmağa insan tələsir...
Çox dərinə getmə, ay Vaqif Nəsir,
Gecikmisən, qatar gedib, əzizim.

2013

İTİN VƏZİFƏSİ

Yad adam görüb
İt möhkəm hürdü.
Bütün həyəti
Səsi götürdü.

Qonşunun biri
Ürəyin tutdu,
Başqa birisi
Özün unutdu.

Biri qorxudan
Sərildi yerə,
Dili tutuldu
Lap birdən-birə.

Halın pozmadı
İtin yiyəsi.
İnamla gəldi
Uzaqdan səsi:

Nədir bu tələş,
Bu hay-küy nədir?
Axı vəzifəsin
O, icra edir.

2012

İBADƏT

Gözləri ilə gördüyü qardaşını sevməyən adam,
gözlərilə görmədiyi Allahı necə sevə bilər?
Apostol İohan

İbadətdir deyirlər
İslamın bir dayağı,
Bunun bəzən mənasın
Dərk edirik bayağı.

Heç bir ibadətə yox
Tanrının ehtiyacı;
O mənəvi dünyanın
Hər dərdinin əlacı.

O insanın qəlbinə
Rəhm, mərhəmət salır,
İbadətlə hər bir kəs
Tanrı sevgisi alır.

İbadət, məhəbbətdir
Ata, ana, qardaşa,
İbadət bir nifrətdir
Haqsız döyüş, savaşa.

İbadət bu dünyada
Kimsəsizə qayğıdır.
O, bəşər övladına,
İnsanlığa sayğıdır.

Hər bir kəsin qəlbində
Olmasa bunlar qəti,
Çətin qəbul eyləyə
Tanrı bu ibadəti.

2012

MƏZARLIQDA DÜŞÜNCƏLƏR

Sahibin əziz xatirəsinə

Məzarlıqda baş daşından
Boylanaraq gülürsən,
O dünyadan bu dünyanı
Bizdən yaxşı görürsən.

Gülürsən ki, pul da, mal da
Boş bir şeydir, əbəsdir,
Dünyanın ən böyük varı
Gedib-gələn nəfəsdir.

Gülürsən ki, gözü bağlı
Qul oluruq tamaha,
Tamah alır başdan ağlı,
Asi edir Allaha.

Gülürsən ki, unuduruq
Daim bir həqiqəti.
Dünya özü daimidir
İnsansa, müvəqqəti.

Gülürsən ki, unuduruq
Var-dövlət burda qalır;
İnsan Haqqın dərgahına
Əməllərin aparır...

2012

BİR DAHA MƏHƏBBƏT HAQQINDA

Məhəbbət həyatın mayası, canı
Ondan qüvvət alır, güc alır insan;
Bəzən də dondurar bədəndə qanı
Elə cavan ikən qocalır insan.

Demə canım qədər sevirəm səni,
Can tək əziz bir şey olmaz dünyada!
Yoxdur məhəbbətin ölçü, məskəni
Zərrə qədər sevsən, bəsimdir o da...

2012

HALALLIQ

Sənin günahların bir qanlı dərya,
O qanın içində boğulacaqsan;
Qonaq evi deyil bu qoca dünya,
Düşünmə geriyə qayıdacaqsan.

Tanrıya sığınan qəlbdə, ürəkdə
Mərhəmət, məhəbbət yox ola bilməz!
Halallıq olmasa duzda, çörəkdə
İnsanın gözləri tox ola bilməz.

2012

YAZIQLAR SƏNƏ, DÜNYA

Zaman-zaman qoynunda dahiləri yetirdin,
Sal qayalar döşündə gül-çiçəklər bitirdin;
Tarixinə nəzər sal, gör kimləri itirdin?!
Yazıqlar olsun sənə, yazıqlar sənə, dünya!

Haqq savaşı gedəndə xeyir şərə basılır,
Düz deyən lal edilir, haqq dilindən asılır;
İndi nədən ağuşun zora, gücə açılır?!
Yazıqlar olsun sənə, yazıqlar sənə, dünya!

Sən o uca Tanrının itirdin etibarın,
Tam harama bulaşdı bütün dövlətin, varın;
Nədən qənimi oldun bəşəri arzuların?
Yazıqlar olsun sənə, yazıqlar sənə, dünya!

Müqəddəs nə vardısa, hamısı talan oldu,
Sənlə bir məkanda tək zaman qalan oldu.
Son adın, son ünvanın dillərdə"yalan"oldu
Yazıqlar olsun sənə, yazıqlar sənə, dünya!...

2012

ZAMAN GEDİR

Hərəkət həyatın canı,
Özündə saxlar zamanı.
Zaman-məkan qoşa qanad,
Qanadlarda arzu, murad.
Bəli, hər şey axıb gedir,
Göylər yerdən,
Yersə göydən həzər edir...
Düşünməyək qəribədir,
Zaman gedir, məkan gedir,
Hər ikisi yaman gedir.

Arzular dağ tək qalanır,
Aylar illərə calanır.
İnsan bəzən xəyallardan
Qüvvət alır, ilham alır.
Zaman isə öz işində,
Məkan zamanın peşində.
Zaman gedir, zaman gedir,
Aman Allah yaman gedir.

Ay Günəşdən alır işıq,
Əməl insana yaraşıq.
Ancaq nə qəm, gedir zaman
Gedir getsin, ancaq insan
Açdığı öz izi ilə,
Əməliylə, sözü ilə
Fəqət, zamandan bac alır,
Məkanda əbədi qalır.

2012

KİTABIN İÇİNDƏKİLƏR

ƏXLAQ VƏ MƏNƏVİYYAT TOPLUSU 3

QÜRBƏT NƏĞMƏLƏRİ

AZƏRBAYCAN 12
VƏTƏN 13
AZƏRBAYCAN ÇAYI 14
MƏKTUB 15
MƏHƏBBƏT HAQQINDA BALLADA 17
QARDAYA 18
LALƏ 19
ZAMAN VƏ QƏRİB 19
QÜRBƏTDƏN MƏKTUB 20
PAYIZ 20
ÖZGƏ ALQIŞLARI 21
OĞLUMA 22
AĞRIMA, ÜRƏK 23
BİZLƏDİR 24
ƏLCƏZAİR GÖZƏLİ 26
ŞİRİN MƏĞLUBİYYƏT 26
“VAĞZALI” SƏSİ 27
QIZ 28
QÜRBƏTDƏ MƏCLİSİMİZ 29
SUAL 30
AXŞAMLAR 31
ƏZİZİM 31
BAHAR GƏLİR 33
DOSTUM 34
İTKİ 35
HƏSRƏT ÇƏKƏRSƏN 35
GƏLİRƏM 36
VƏTƏNƏ QAYIDIŞ 37
DÜNYA ÇƏTİN DÜZƏLƏ 39
İNSAN VƏ DÜNYA 40
DÜNYA 40
YARIMÇIQ NAĞIL 41
İNSAN 42

AYRILIQ....43
BU HƏMİN HƏYƏTDİR....44
MƏZARLIQDA....45
DÜŞMƏNİ SEVİNDİRƏNLƏR....46
GÖRDÜM....48
KİMDİ....48
HARAY SALIN....49
METRODA....51
NARAZILAR....53
NƏYƏ GƏRƏK....54
MƏN ELƏ BİLİRDİM....55
SUAL....56
O GECƏ....56
ŞƏHİDLƏR ŞƏRQİSİ....57
ŞAİR ÖMRÜ....58
SƏMA İLƏ SÖHBƏT....59
EŞQİNLƏ YANDIRASAN....61
O GÜNLƏRİ YAŞAYIRAM....62
NİSBİLİK....65
BİZİM HƏYƏT UŞAQLARI....66
DƏNİZ KƏNARINDA....67
LAYLA....68
***....69
MƏNİM....70
NƏSƏ DEMƏLİYDİM....70
OLMAZ....71
SƏMİMİYYƏT....72
SƏSLƏR....73
SONRADAN BİLMİŞƏM....75
SÜRÜCÜ DOSTUMA....75
TƏZAD....76
ÜMİD....77
VAR....78
...ÜZDƏDİR....79
VAY O MİLLƏTİN HALINA....79
VƏTƏN....80
CƏNUBLU QARDAŞA....81

ÇAĞIRIŞ 82
MİLLƏTİM 83
BU MİLLƏTİN ÇOXMU GÖRƏN GÜNAHI? 83
DƏNİZ XÜSUSİ TƏYİNATLILARININ MARŞI 84
KÖRPƏ UŞAQ KİMİYƏM 85
ÜZÜMÜZƏ GƏLƏN İLLƏR 86
RENTGEN ŞÜALARI 86
DƏHŞƏT 87
DÜNYA BU GÜN 88
HƏYATIN MƏNASI, DADI DƏYİŞİB 89
DUA ET 89
AĞLAMA QƏRƏNFİLİM 90
BİLƏRMİ 92
BİZİM DOSTLAR 93
BU GÜN QƏMLIYƏM 94
HEÇ VAXT 95
YUXU 96
ARZUM 96
BİR ALİMƏ 98
DUA 98
İŞIQLI İNSAN 100
ARAZ 102
ÇAĞIRIŞ 102
HƏYAT EŞQİ 103
DÜŞÜNCƏ 103
DÜNYA NİYƏ EŞİTMİR 104
AZƏRİ QIZI 105
BİRİ GƏLİR, BİRİ GEDİR 107
ŞEİRİM MƏNİM 108
BİLMƏK OLMUR YALAN, DOĞRU HARDADI 109
ŞEİR 110
SORAQ GÖNDƏR 111
QORU 112
ÇATMIR 113
BU NECƏ QƏBİRİSTANLIQ 113
YOXDU 114
YALAN KİMDİ 115

NAĞIL ELƏ NAĞILDIR....116
TANRIMA....117
DİNİM MƏNİM....118
BİLMİRƏM....119
YOXDUR....120
DƏRD BUDUR....121
MƏHƏBBƏTLƏ QANADLANAN QUŞAM MƏN....122
ÇƏTİN....122
DƏRDLİ GÜNLƏRİMİN SORMA SAYINI....123
SARI BÜLBÜL....124
EŞQ OLSUN....125
ÇAHARGAH OXU....126
DÜŞ DAHA....127
NEYNİRƏM....128
SƏNMİ TANITDIRIRSAN....129
***....129
DÜNYA ÇƏTİN DÜZƏLƏ....131
DÜNYA SƏNİN KİMİNDİR....132
ZAMAN ÖZGƏDİ....133
ÖZÜM....134
SUAL....135
***....136
YANIQ KƏRƏMİ ÇAL....136
BİR AŞIĞA....137
MƏNƏ YADLAŞAN ŞƏHƏR....138
QORUYA BİLMƏDİM....139
İKİ ŞAİR – İKİ TALE....140
DANIŞIR....141
NEKROLOQ....142
NƏYİNƏ GƏRƏK....144
***....145
HALVA DEMƏKLƏ...146
FƏLƏYİN ÇARXI....148
ŞEİR GƏLDİ DÜNYAYA....149
BİR YERDƏ Kİ...150
ZƏVVARA....151
QƏRİBLİK....152

VAR 153
NƏYİ YAXŞIDIR 154
BİR ŞAİRƏ 155
OLAR 156
*** 156
UNUTMA 157
*** 157
PUL 158
DEMƏ 159
ÜMİDİ İTİRMƏMİŞƏM 159
DƏHŞƏT 160
OMBA DURAN OV 161
ƏSRİN LOĞMANI 162
ÜRƏYİMDƏDİR 164
*** 165
NƏYƏ GƏRƏK BU DÜNYA 165
İZZƏT ƏMİ 166
ÜMİD 168

ANAMIN DUALARI

ANAMA 170
ANAMIN DUALARI 171
MÜƏLLİM 171
MASALLI 172
BORCLUYAM 173
KƏNDİM 174
ANA 175
NECƏ OVUNDURUM MƏN SƏNİ ANA 176
ANA HAQQINDA MAHNI 177
ANAMI YUXUDA GÖRƏNDƏN SONRA 178
*** 179
BİR ANA TANIYIRAM 179
FƏXR ELƏ 180
BORADİGAH 181
KƏNDİMİZ HAQQINDA NƏĞMƏ 182
EVİMİZ MƏNDƏN KÜSÜB 183
SÖZLƏRİNDƏ YALANI VAR 184
ÜRƏYİMDƏN KÜSMÜŞƏM 184

BAĞIŞLA ÜRƏYİM 185
MƏNƏ ÜMİD VERİN 186
ATAMA 187
ANA DƏRDİ 188
ƏLLİ YAŞIM 189
ATAM ÖLƏNƏ KİMİ 190
BACIMA 191
* * * 192
CAVANLIĞIM 193
MƏN BU YERİ GÖRMƏMİŞDİM 194
AXTARIRAM 195
SALAM, QƏBƏLƏ 196
DAĞLAR 197
AĞIR İTGİ 199
BƏNÖVŞƏ 200
KƏLBƏCƏR 201
ZAQATALA 202
MÜBARƏKDİR BAYRAMINIZ 203
NƏ YAXŞI 204
BİZİM QONŞULAR 205
BU GECƏ 206
BİRCƏ DƏNƏDİR 207
OXU, TAR 208
VAHİDİMİZİN 210
OXU, NİSƏ XANIM 211
ODSUZ OCAQ 212
NƏ DEYİM 213
YALQIZ EV 214
KƏNDİMİZƏ GEDƏN YOLDA 215
ÖLÜMƏ SARI 217
XOŞBƏXT ÖLÜM 218
ANAMA MƏKTUB 218
MƏNİM ANAM 219
ANAMA MƏHƏBBƏTİN 220
ÖYRƏTDİ 221
LERİKDƏDİR 221
QƏRİBƏLİK 222

HƏYAT DAVAM EDİR....222
GÖRƏN KİMDİR....223

MƏHHƏBBƏTİ QORUYUN

QADIN....225
MƏHƏBBƏTİ QORUYUN....225
MƏHƏBBƏTİNDİR....226
HARDA İDİN....227
MƏN DEYİLƏMMİ....228
AĞLAMA CEYRAN BALASI....228
AY İŞIĞINDA....229
İSTƏYİRƏM....229
VAĞZALI....230
* * *....231
GƏLİN....231
MƏHƏBBƏT....232
SEVİN QIZLAR SİZ ONLARI....233
FİZİKİN MƏHƏBBƏTİ....234
GÜLÜM....235
***....236
***....236
SƏN VARSANSA...236
ÜRƏYİM....238
XƏYALLARIM....238
YAR QƏLBİMİ ODA SALDI....239
QONŞU QIZ....240
İSTƏMİRƏM....240
DEYİLMİ....241
NİYƏ İNANDIM....242
NƏ YAXŞI YUXULAR VARMIŞ....243
BU TƏNHA AĞACIN....243
BİLMƏZSƏN....244
ÇOX OLUB....244
QORUYACAĞAM....245
ƏTİRLİ ÇİÇƏYİM, SEVİMLİ GÜLÜM....246
BİR QADINA....247
GÜLÜM....248
SEVMƏ MƏNİ....248

NECƏ QORUYUM 249
ETİRAF 250
İNCİMƏ GÖZƏL 250
OLARMI 251
TANRI YOLU 252
ŞÜKÜR, TANRIM 253
CEYRANI 253
AND 254
MÜBARƏK 254
XOŞBƏXT OLUN SEVƏNLƏR 255
DƏYƏR 256
SƏN OLMASAYDIN 256
BAHAR NƏ GÖZƏLSƏN 257
SƏN YADIMA DÜŞÜRSƏN 258
ALDIN ÜRƏYİMİ 259
CAVANLIQ VAXTIM 260
SAĞALMAQ İSTƏMİRƏM 260
TELEFON 261
DƏRDLƏRİN ŞİRİNİ 262
DEDİM ÖYRƏŞDİRMƏ MƏNİ ÖZÜNƏ 262
İSTƏK 263
NECƏ UTANMAYIM 263

SONETLƏR

NECƏ QÜDRƏTLİDİR O MAHİR BƏNNA 266
ZƏKASI İNSANIN 266
MƏNİ QINAMASIN 267
ÇİÇƏK TƏBİƏTİN ALİ NEMƏTİ 268
GÜNƏŞƏ BƏNZƏYƏN O GÖZƏLƏ BAX 268
DOĞRUYA YERİMƏK ÖYRƏDİR YALAN 269
BİR ÖMRÜN ULDUZU 270
ŞƏNİNƏ ÇOX TƏRİF EŞİTMİŞƏM MƏN 270
HƏYAT SİRLƏ DOLU 271
SİZİ QALİB GÖRDÜM MAVİ EKRANDA 272
BU GÜN DİNDİ TELLİ SAZIM 272
TALEDƏN ALMAMIŞ HƏLƏ MƏN KAMI 273
BU GÜN DƏFN EYLƏDİK KÖHNƏ TANIŞI 274
QOCAYAM SÖYLƏYİB ŞİKAYƏT ETMƏ 274

YEDDİ ŞAM YANDIRDIQ 275
OĞLUNUN TOYUDUR 276
BƏŞƏR ÖVLADINA ƏBƏDİ MƏSKƏN 276
BACIM KİM İSTƏYƏR DÜŞSÜN YATAĞA 277
ZAMAN ÖMÜR KİMİ AXAN BİR ÇAYDIR 278
ÖLƏN SON MƏNZİLƏ YOLA SALINIR 278
HƏR BİR HAQSIZLIĞIN ÖZ SƏRHƏDDİ VAR 279
BU GÜN 280
YAMAN NARAHATAM MƏN TALEYİNDƏN 280
BU FANİ DÜNYADA SON QƏNAƏTİM 281
ANAMIN ÖYÜDÜ 282
SEVİRƏM DEMƏDİN GÖZƏL 282
ANA ÖMRƏ YARAŞIQ 283
ARZULAR SİNƏMDƏ ALIŞAN ULDUZ 284
MƏN NECƏ UNUDUM ÖTƏN GÜNLƏRİ 284
*** 285
ƏL TUTMAQ ƏLİDƏN QALIB 286
YALAN ZƏHƏRLƏYİR İNSAN QANINI 286
ANAMIN QUCAĞI SƏNGƏRİM OLUB 287
SƏN ARTIQ KİŞİSƏN BİLİRƏM BUNU 288
İNSAN BU DÜNYANIN ALİ VARLIĞI 288
GÜNƏŞ UCALIQ RƏMZİ 289
MƏHBBƏT BİR DUELDİR 290
GÜLÜŞLƏR RƏNGARƏNGDİ 290
BİR QUŞA BƏNZƏYİR ŞAİRİN ÖZÜ 291
KÖRPƏ İKƏN 292
İNSAN BU DÜNYAYA GƏLƏNDƏ 292
HƏR BAŞA PAPAQ QOYAN 293
HALAL ÖMÜR SÜRDÜ 294
İNSAN BU DÜNYAYA QƏDƏM QOYANDA 294
QƏZET SATAN FIRLANIR 295
QONŞUMUZUN OĞLU 296
HƏR FƏSLİN DEYİRLƏR GÖZƏLLİYİ VAR 296
O, VÜSAL SORAQLI İLK QARANQUŞDU 297
YAMAN İNCİTMİŞƏM SƏNİN QƏLBİNİ 298
DÜZ-ÇÖRƏK KƏSDİYİM NAXƏLƏF ÇIXDI 298
NƏHAYƏTSIZ BİR SƏHRADIR BU HƏYAT 299

QUŞ KİMİ UÇARDIM BU EVƏ SARI 300
İLLƏRİN DARAĞI SAÇIMI YOLDU 300
HƏYAT UZUN BİR YOLDU 301
KİŞİLİK BAŞDAKI PAPAQDA DEYİL 302

ŞAİRLƏR VAXTSIZ QOCALIR

ŞAİRLƏR VAXTSIZ QOCALIR 304
TANRI PAYI 305
KÖLGƏDƏ YATANA 305
NƏ VAXT KİŞİ OLACAQSAN 306
...ÜZDƏDİR 307
YAŞAMAQ HAQQI 308
QOCALIQ 309
YAŞIMI SORMAYIN 309
BƏHANƏDİR 310
2021-Cİ İL QABAĞI 311
OLAR 312
PESSİMİZM 312
SUAL 313
DƏHŞƏT 314
BU YERDƏ 315
FƏRYAD 316
HARA QAÇIM 318
NƏ VAXT UCALMISAN 321
QORUYA BİLMƏDİM 322
BU NECƏ HƏYATDIR 323
ƏHMƏD MÜƏLLİM 324
TƏƏSSÜFLƏR 325
ADAŞIMA 325
BİR ALİMƏ 327
İSTƏK 328
DÖŞÜNƏ DÖYÜRSƏN, DƏYİŞMƏMİSƏN 329
SƏN DAVAYA GEDƏNDƏ 330
DÜNYA VƏ MƏN 332
BABAM XOŞ GƏLDİN 333
SƏRHƏDDƏ 334
HEYİF 335
ELƏ BİL 337

NANKOR....338
BALACA SARANIN CAVABI....338
SARANIN YUXUSU....339
SARA VƏ NAĞIL....340
ƏSƏD VƏ SARA....341
BALACA SARANIN QARLA İLK GÖRÜŞÜ....341
AZƏRBAYCAN ÜRƏYİMDİR....342
BİR «DOSTA»....342
60 YAŞIM....343
AĞADADAŞ....344
DEMƏ....345
NƏDİR BU....346
BƏLKƏ....347
XƏZAN VURMUŞ BAĞLARA BAX....348
TUTUQUŞU ÖMRÜ....349
EŞŞƏYİN VƏZİFƏSİ....349
TÜLKÜLƏR HƏCCƏ GEDİR....350
QARABAĞ....351
QURUMUŞ ÇİNAR....352
İLHAMIM MƏNİM....353
GÖYƏRÇİN VƏ BAYQUŞ....354
EŞŞƏYİN MƏHƏBBƏTİ....355
YALTAQ HAQQINDA....355
MEYMUNUN ALİMLİYİ....356
AX-OX ÇAYI....356
QAR HARAMA YARAŞIR....358
GERİ GEDİR....359
ƏLİ DAYIMIN ÖLÜMÜNƏ....360
O DÜNYASIN VER BACIMIN....361
QARABAĞ, XANƏNDƏ VƏ MƏN....362
ŞUŞAYA HƏSRƏTƏM....363
OĞLAN VƏ DOVŞAN....364
NƏ DEYİM....365
QARDAŞIM....366
GEDİR....366
HƏYAT QƏRİBƏDİR, ANLAMAQ ÇƏTİN....367
SALAM DOĞMA MƏKTƏB, ZİYA OCAĞI....368

SƏNİN TƏBRİKİNƏ GƏLMİŞƏM BU GÜN 370
NOVRUZ BAYRAMI 371
YENİ İL 372
ÖNDƏDİR 373
QUBAD ƏMİ 373
ŞAİR SÖZÜ 374
Söz var 375
QORUMAQÇÜN EŞQİMİ 375
HİSS EYLƏYİRƏM 376
DƏNİZ ÇİÇƏYİM 376
ARZULAR OĞLU 377
ZAMAN 378
BİR NƏFƏRƏ 379
CAVANLIQ VAXTIM 380
SPEKTR 380
MƏNİM TƏŞƏKKÜRÜM 381
QOCALIQDA 381
ŞAFTALI GÜLÜ 382
BALACA ÖZKAN 383
ƏZİZ DOST 383
ŞEİRİ ALLAH DA SEVİR 384
BAHAR NƏ GÖZƏLSƏN 386
SƏN YADIMA DÜŞÜRSƏN 387
ALDIN ÜRƏYİMİ 388
TƏLƏSMƏ 389
LƏPƏLƏR VƏ PƏRVANƏ 390
DÜNYANIN 390
DÜNYA AĞLINI İTİRİB 391
VAXT SÜRƏTLƏ GEDİR, ZAMAN ÖTÜŞÜR 391
TƏRCÜMEYI-HALIM 392
MƏNİM FƏXRİ ADIMDIR 392
SƏRBƏST DÜŞÜNCƏLƏR 393
BALIQ OVUNDA 393
SALAMAT QAL 394
TALE QARDAŞIM 395
DOVŞANIN HESABATI 396
ŞƏRABI NEYNİRƏM 397

VƏKİL VƏ HƏKİM 398
ORDUMUZU SEVİRƏM 398
ÖZÜMÜZ KİMİ 400
QATAR GEDİB 400
İTİN VƏZİFƏSİ 401
İBADƏT 402
MƏZARLIQDA DÜŞÜNCƏLƏR 403
BİR DAHA MƏHƏBBƏT HAQQINDA 404
HALALLIQ 405
YAZIQLAR SƏNƏ, DÜNYA 405
ZAMAN GEDİR 406

VAQİF NƏSİR
SEÇİLMİŞ ƏSƏRLƏR

Nəşriyyatın direktoru: f.ü.e.d. Xanlar Həsənli
Nəşriyyat redaktoru: Alparslan Öztürk
Kompyuter dizayneri: Sahib Adilov

Çapa imzalanmışdır 19.07.2026,
Kağız formatı 60x84 1/16
sayı 300

"Ləman Nəşriyyat poliqrafiya" MMC